# DİPLOMATİYA ALƏMİ

AZƏRBAYCAN RESPUBLİKASI
XARİCİ İŞLƏR NAZİRLİYİNİN
JURNALI
№ 5, 2003

---


## ***Redaksiya Şurası***

| | |
|---|---|
| 1. Vilayət Quliyev | Nazir (Baş redaktor) |
| 2. Novruz Məmmədov | Azərbaycan Respublikası Prezidentinin İcra Aparatının Xarici əlaqələr şöbəsinin müdiri (Baş redaktorun birinci müavini) |
| 3. Araz Əzimov | Nazir müavini |
| 4. Xələf Xələfov | Nazir müavini |
| 5. Mahmud Məmmədquliyev | Nazir müavini |
| 6. İlqar Məmmədov | Xarici siyasətin planlaşdırılması və strateji araşdırmalar idarəsinin (Mərkəz) rəisi (Baş redaktorun müavini) |
| 7. Qabil Köçərli | Mətbuat və informasiya idarəsinin rəisi |

## ***Redaksiya heyəti***

1. Aliyə Ağazadə — Xarici siyasətin planlaşdırılması və strateji araşdırmalar idarəsinin (Mərkəz) III katibi (məsul katib)

2. Mütəllim Əlimərdanov — İnformatika şöbəsinin aparıcı mütəxəssisi

3. Kamran Məmmədov — Birinci ərazi idarəsinin III katibi

4. Ceyhun Musayev — Mətbuat və informasiya idarəsinin attaşesi

5. Ramil Əkbərov — Mətbuat və informasiya idarəsinin attaşesi

6. Mehman Əliyev — İkinci ərazi idarəsinin attaşesi

7. Elçin Hüseyinli — Xarici siyasətin planlaşdırılması və strateji araşdırmalar idarəsinin (Mərkəz) referenti

---

Jurnal üç aydan bir nəşr edilir. Xarici siyasət və diplomatiyaya aid olan sənədləri, fotoşəkilləri və ya məqalələrini jurnalda çap etdirmək istəyənlər XİN-ə müraciət edə bilərlər. Qeyri-dəqiq faktlara görə məqalələrin müəllifləri məsuliyyət daşıyırlar. Müəlliflər məqalələrin elektron (disket və ya elektron poçt vasitəsilə) və çap variantı ilə yanaşı, 5X6 ölçüsündə fotoşəkil, müəllifin qısa tərcüməyi-halını, məqalənin qısa xülasəsi (10 cümləyə qədər) və ünvan və telefonlarını təqdim edirlər. Jurnala qəbul edilən məqalələrə olan tələblər:

Həcm: 10 səhifəyə qədər

Dil: Azərbaycan, rus və ya ingilis

Şrift: Azərbaycan dilində: Times Roman AzLat; rus və ingilis dillərində: Times New Roman

Şriftin ölçüsü: 12

İnterval: 1,5

İstifadə edilmiş ədəbiyyata və ya digər nəşrlərdən sitatlar gətirəndə həmin ədəbiyyata istinad vacibdir.

İstinadlar qeyd vasitəsilə hər səhifədə yeni nömrə ilə səhifənin aşağısında xətt altında verilir. Qeydlərdə müəllifin tam adı və familiyası, əsərin adı, nəşr olunan şəhərin və nəşriyyatın adı, nəşrin tarixi və sitat gətirilən səhifə göstərilir. İnternet vasitəsilə əldə

edilmiş mənbələrin web site ünvanları tam və tarixi ilə verilir. Əlyazmalar və disketlər qaytarılmır. Məqalələr redaktə və ixtisar edilə bilər.

Ünvan: Xarici İşlər Nazirliyi, Xarici siyasətin planlaşdırılması və strateji araşdırmalar idarəsi (Mərkəz),Ş.Qurbanov küç. 4, Bakı 370009; Tel. 92 73 28; 92 80 35.

e-poçt: i_mammadov@mfa.gov.az

Jurnalın satışı, nəşri, abunə yazılması və ya digər texniki məsələlər: Tel. 92 80 92, Fəxrəddin Şükürov

## Mündəricat

*Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev vəfat etmişdir*

Heydər Əlirza oğlu Əliyev

Özbəyistan Respublikasının Prezidenti İslam Kərimovun Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin vəfatı ilə əlaqədan başsağlığı məktubu

Türkmənistanın Prezidenti Saparmurad Niyazovun Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin vəfatı ilə əlaqədan başsağlığı məktubu

Respublika sarayında ümumxalq vidalaşma mərasimi

Rusiya Federasiyasının Prezidenti Vladimir Putin Prezident Heydər Əliyevin dəfn mərasimində iştirak etmişdir

Moskvanın Meri Yuri Lujkov və Rusiya Federasiyası Xarici İşlər Nazirinin Birinci müavini Vyaçeslav Trubnikov Prezident Heydər Əliyevin dəfn mərasimində iştirak etmişlər

Gürcüstan Prezidentinin vəzifəsini icra edən Nino Burcanadze Prezident Heydər Əliyevin dəfn mərasimində iştirak etmişdir

Gürcüstanın sabiq Dövlət başçısı Eduard Şevardnadze Prezident Heydər Əliyevin dəfn mərasimində iştirak etmişdir

Gürcüstan prezidentliyinə namizəd Mixail Saakaşvili Prezident Heydər Əliyevin dəfn mərasimində iştirak etmişdir

Ukrayna Prezidenti Leonid Kuçma Prezident Heydər Əliyevin dəfn mərasimində iştirak etmişdir

Qazaxıstan Prezidenti Nursultan Nazarbayev Prezident Heydər Əliyevin dəfn mərasimində iştirak etmişdir

ABŞ Prezidentinin Xüsusi Nümayəndəsi Brent Skoukroft, Dövlət Katibinin Müavini Elizabet Cons, Senator Sem Braunbək Prezident Heydər Əliyevin dəfn mərasimində iştirak etmişlər

İranın Birinci Vitse-Prezidenti Məhəmməd Rza Arif Prezident Heydər Əliyevin dəfn mərasimində iştirak etmişdir

Özbəkistan Ali Məclisinin Sədri Erkin Xəlilov Prezident Heydər Əliyevin dəfn mərasimində iştirak etmişdir

Fransanın Müdafiə Naziri Mişel Alyo-Mari Prezident Heydər Əliyevin dəfn mərasimində iştirak etmişdir
Dağıstan Respublikası Dövlət Şurasının Sədri Məhəmmədəli Məhəmmədov Prezident Heydər Əliyevin dəfn mərasimində iştirak etmişdir
Acarıstan Muxtar Respublikasının Başçısı Aslan Abaşidze Prezident Heydər Əliyevin dəfn mərasimində iştirak etmişdir
Dünya şöhrətli alim İhsan Doğramacı Prezident Heydər Əliyevin dəfn mərasimində iştirak etmişdir
Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevə ünvanlanmış başsağlığı məktubların siyahısı

**<u>Rəsmi xronika</u>**

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin diplomatik fəaliyyəti*
Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin andiçmə mərasimi
Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin jurnalistlərə ilk müsahibəsi
Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Gürcüstan Prezidenti Eduard Şevardnadze ilə görüşü
Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Rusiya Federal Məclisi Federasiya Şurasının Sədri Sergey Mironov ilə görüşü
Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Ukraynanın Baş Naziri Viktor Yanukoviç ilə görüşü
Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin İnformasiya və kommunikasiya texnologiyalarının milli strategiyaları və elektron idarəçiliyi üzrə beynəlxalq forumun iştirakçılarına müraciəti
Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev İtaliya hərbçilərinin İraqda həlak olması ilə əlaqədar bu ölkənin Bakıdakı Səfirliyinə başsağlığı vermişdir
Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin İnformasiya cəmiyyəti üzrə dünya sammitində iştirak etmək üçün İsveçrəyə səfəri
Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Süleyman Dəmirəl ilə görüşü
Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin digər görüşləri
*Azərbaycan Respublikasının Xarici İşlər Naziri Vilayət Quliyevin diplomatik fəaliyyəti*
YUNESKO-nun Baş konfransında Azərbaycan Respublikasının Xarici İşlər Naziri Vilayət Quliyevin iştirakı
BMT-nin Baş katibi Kofi Annanın Azərbaycan Respublikasının Xarici İşlər Naziri Vilayət Quliyevə ünvanladığı məktubu
Azərbaycan Respublikasının Xarici İşlər Naziri Vilayət Quliyevin ATƏT-in Hazirki Sədri, Niderlandin Xarici İşlər Naziri Yaap de Hoop Sxeffer ilə görüşü
Azərbaycan Respublikasının Xarici İşlər Naziri Vilayət Quliyevin Qara Dəniz İqtisadi Əməkdaşlıq Təşkilatının (QİƏT) üzvü olan ölkələrin Xarici İşlər Nazirləri Şurasının 9-cu iclasında iştirakı

Azərbaycan Respublikasının Xarici İşlər Naziri Vilayət Quliyevin Avropa Şurası Xarici İşlər Nazirlərinin 113-cü iclasında iştirakı

Azərbaycan Respublikasının Xarici İşlər Naziri Vilayət Quliyevin Almaniyada keçirilmiş "Cənubi Qafqaz: siyasi problemlər və regionun inkişaf perspektivləri" mövzusunda beynəlxalq forumda iştirakı

Azərbaycan Respublikasının Xarici İşlər Naziri Vilayət Quliyevin Rusiya Federasiyasına rəsmi səfəri

Azərbaycan Respublikasının Xarici İşlər Naziri Vilayət Quliyevin ATƏT-in Xarici İşlər Nazirinin Maastrixtdə keçirilmiş sammitində iştirakı

Azərbaycan Respublikasının Xarici İşlər Naziri Vilayət Quliyevin NATO və Avro-Atlantika Tərəfdaşlıq Şurasının Xarici İşlər Nazirlərinin illik toplantısında iştirakı

Azərbaycan Respublikasının Xarici İşlər Naziri Vilayət Quliyevin digər görüşləri

## **Rəsmi məlumat**

Azərbaycan Respublikası ilə Amerika Birləşmiş Ştatları arasında sülh korpusunun proqramı haqqında saziş imzalanmışdır

ATƏT-in Fəaliyyətdə olan Sədri, Niderlandin Xarici İşlər Naziri Yaap de Hoop Sxefferin Azərbaycan Respublikasına səfəri

Artur Rasizadənin Azərbaycan Respublikasının Baş Naziri təyin edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin fərmanı

Artur Rasizadənin Azərbaycan Respublikasının Baş Naziri vəzifəsinə təyin edilməsinə razılıq verilməsi haqqında Azərbaycan Respublikası Milli Məclisinin qərarı

Vilayət Muxtar oğlu Quliyevin Azərbaycan Respublikasının Xarici İşlər Naziri təyin edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin sərəncamı

## **Çıxışlar**

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 12 noyabr Konstitusiya günü münasibətilə Azərbaycan xalqına təbrik muraciəti

Cenevrədə İnformasiya Cəmiyyəti Üzrə Dünya Sammitinin açılışında Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin nitqi

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 31 dekabr Dünya azərbaycanlıların həmrəylik günü münasibətilə dünya azərbaycanlılarına müraciəti

## Bəyanatlar

Azərbaycan Respublikası Xarici İşlər Nazirliyinin bəyanatı, 15.10.03

2003-cü il oktyabrin 15-də keçirilmiş Azərbaycan Respublikası Prezidentinin seçkilərinə dair XIN-in bəyanatı

Azərbaycan Respublikası Xarici İşlər Nazirliyinin bəyanatı, 18.11.03

## Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyində

Azərbaycan Respublikası Xarici İşlər Nazirinin muavini Araz Əzimovun Bolqarıstanın ölkəmizdə səfərdə olan müdafiə naziri Nikolay Svinarovun başçılıq etdiyi nümayəndə heyəti ilə görüşü

Azərbaycan Respublikası Xarici İşlər Nazirliyinin İqtisadi əməkdaşlıq və inkişaf idarəsinin rəisi Altay Əfəndiyevin keçirdiyi mətbuat konfransı

Azərbaycan Respublikası Xarici işlər nazirinin muavini Xələf Xələfovun Norveç Krallığının Xarici İşlər Nazirliyinin dövlət katibi Kim Traavik ilə görüşü

Azərbaycan Respublikası Xarici İşlər Nazirliyi Mətbuat mərkəzinin məlumatı

Azərbaycan Respublikasının Xarici İşlər Nazirinin müavini Xələf Xələfovun Yaponiyanın xarici işlər nazirinin müavini İçiro Fucisaki ilə görüşü

Azərbaycan Respublikasının Xarici İşlər Nazirinin müavini Xələf Xələfovun Azərbaycanda səfərdə olan Hindistanın Xarici İşlər Nazirinin müavini Racindra Madhukar Abhyankar ilə görüşü

«Azərbaycan Respublikası Hökuməti və Amerika Birləşmiş Ştatları Hökuməti arasında narkotiklərə nəzarət və hüquq mühafizə orqanlarına yardım haqqında 3 yanvar 2003-cü il tarixli Saziş Məktubuna Düzəliş» imzalanması

XİN-in Xarici siyasətin planlaşdırılması və strateji araşdırmalar idarəsinin rəisi İ.Məmmədovun Polşaya səfəri

## Azərbaycan Respublikasının xaricdəki diplomatik nümayəndəliklərində

Azərbaycan Respublikasının AŞ yanında Daimi Nümayəndəliyinin fəaliyyətinə dair qısa məlumat

Azərbaycan Respublikasının Pakistan İslam Respublikasındakı Fövqəladə və Səlahiyyətli səfiri Eynulla Mədətlinin Pakistan senatının sədri Məhəmmədmian Sumro ilə görüşü

Azərbaycan Respublikasının Özbəkistandakı səfirliyində keçirilən mətbuat konfransı

Azərbaycanın Respublikasının Ukraynadakı Səfiri Tələt Əliyevin Ukrayna Prezidenti yanında Milli Dövlət İdarəçiliyi Akademiyasının dinləyiciləri qarşısında mühazirə oxuması

İranın Mədəniyyət və İslam oriyentasiyası naziri Əhməd Məcid Cəmi Azərbaycanın Tehrandakı səfiri Abbasəli Həsənov ilə görüşü

Azərbaycanın Respublikasının ABŞ-dakı səfiri Hafiz Paşayevin “Vaşinqton Post” qəzetinə etirazını bildirmişdir

Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi Mətbuat Mərkəzinin məlumatı
Azərbaycan Respublikası ilə Moldova Respublikası arasında dostluq və əməkdaşlıq haqqında 1998-ci ildə Bakıda imzalanmış müqavilə barədə ratifikasiya sənədlərinin mübadiləsinə dair protokolun imzalanması
Azərbaycanın Respublikasının Ukraynadakı səfiri Tələt Əliyevin Luqansk vilayətinə səfəri
Azərbaycanın Respublikasının Özbəkistandakı səfiri Aydın Əzimbəyovun Azərbaycan məscidinin açılış mərasimdə iştirakı
Azərbaycanın Respublikasının Səudiyyə Ərəbistanındakı səfirliyində 15 oktyabr prezident seçkilərinin nəticələri ilə əlaqədar mətbuat konfransı
Azərbaycanın Respublikasının Ukraynadakı səfiri Tələt Əliyevin Donetsk vilayətinə səfəri
Azərbaycanın Respublikasının Özbəkistandakı səfiri Aydın Əzimbəyov Daşkənddəki Azərbaycan Mədəniyyət Mərkəzləri Assosiasiyası nəzdində fəaliyyət göstərən "Bülbüllər" uşaq mahnı və rəqs ansamblının üzvləri və idmançı soydaşlarımızla görüşü
Elman Araslı Oman Sultanlığında səfir təyin edilmişdir
Azərbaycan Respublikasının Türkmənistandakı səfirliyində matəm mərasimi
Azərbaycan Respublikasının Türkiyədəki səfirliyində matəm mərasimi
Azərbaycan Respublikasının ABŞ-dakı səfirliyində matəm mərasimi
Azərbaycan Respublikasının Almaniyadakı səfirliyində matəm mərasimi
Azərbaycan Respublikasının Rusiyadakı səfirliyində matəm mərasimi
Azərbaycan Respublikasının Ukraynadakı səfirliyində matəm mərasimi
Azərbaycan Respublikasının Fransadakı səfirliyində matəm mərasimi
Azərbaycan diplomatı etimadnamələrini İtaliya Prezidentinə təqdim etmişdir

## **Məqalələr**

Farida Mammadova. Christianity in Caucasian Albania
Фарид Шафиев. Дилемма гуманитарной интервенции: правовые и политические аспекты проблемы
Ramazan Əsilbəyli. Müstəqil Azərbaycan Respublikasının xarici və daxili siyasətində diplomatik kuryerlərin fəaliyyəti və rolu (10 illik yubiley ərəfəsində)
Фарах Аджалова. Некоторые аспекты деятельности международных организаций в сфере гендерного равенства
İlqar Məcidli. Qərb ölkələrində İslam diasporunun güclənməsi
Esmira Jafarova. NATO in the South Caucasus: a view from the spectrum of realism

## Xarici nəşrlər

Brenda Shaffer. Peace for the Caucasus

Paul Meerts. Caspian Chess: Conflict or Cooperation?

## Arxiv sənədləri

*Azərbaycan Xalq Cümhuriyyəti və Millətlər Cəmiyyəti*

Millətlər Cəmiyyəti. Azərbaycanın Millətlər Cəmiyyətinə qəbulu. Qafqaz Respublikaları kimi tanınmış ölkələrin nümayəndələri tərəfindən memorandum. A. 104. 1921. VII.

**Gömrük imtiyazları**

«Diplomatiya Aləmi» jurnalına abunə olmaq forması

# Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev vəfat etmişdir

## HEYDƏR ƏLİRZA OĞLU ƏLİYEV

Azərbaycan xalqına ağır itki üz vermişdir. Azərbaycanın görkəmli siyasi və dövlət xadimi, xalqımızın ümummilli lideri, Azərbaycan Respublikasının eks-prezidenti, Yeni Azərbaycan Partiyasının sədri Heydər Əlirza oğlu Əliyev 2003-cü il dekabrın 12-də ömrünün 81-ci ilində vəfat etmişdir.

Heydər Əlirza oğlu Əliyev 1923-cü il mayın 10-da Azərbaycanın Naxçıvan şəhərində anadan olmuşdur. O, 1939-cu ildə Naxçıvan Pedaqoji Texnikumunu bitirdikdən sonra Azərbaycan Sənaye İnstitutunun (indiki Azərbaycan Dövlət Neft Akademiyası) memarlıq fakültəsində təhsil almışdır. Başlanan müharibə ona təhsilini başa çatdırmağa imkan verməmişdir.

1941-ci ildən Heydər Əliyev Naxçıvan MSSR Xalq Daxili İşlər Komissarlığında və Naxçıvan MSSR Xalq Komissarları Sovetində şöbə müdiri vəzifəsində işləmiş və 1944-cü ildə dövlət təhlükəsizliyi orqanlarında işə göndərilmişdir. Bu dövrdən təhlükəsizlik orqanları sistemində çalışan Heydər Əliyev 1964-cü ildən Azərbaycan SSR Nazirlər Soveti yanında Dövlət Təhlükəsizliyi Komitəsi sədrinin müavini, 1967-ci ildən isə sədri vəzifəsində işləmiş, general-mayor rütbəsinə qədər yüksəlmişdir. Həmin illərdə o, Leninqradda (indiki Sankt-Peterburq) xüsusi ali təhsil almış, 1957-ci ildə isə Azərbaycan Dövlət Universitetinin tarix fakültəsini bitirmişdir.

Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsinin 1969-cu il iyul plenumunda Heydər Əliyev Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsinin birinci katibi seçilərək respublikanın rəhbəri olmuşdur. 1982-ci ilin dekabrında Sovet İttifaqı Kommunist Partiyası Mərkəzi Komitəsi Siyasi Bürosunun üzvü seçilən Heydər Əliyev SSRİ Nazirlər Soveti sədrinin birinci müavini vəzifəsinə təyin edilmiş və SSRİ-nin rəhbərlərindən biri olmuşdur. Heydər Əliyev iyirmi il ərzində SSRİ Ali Sovetinin deputatı, beş il isə SSRİ Ali Soveti sədrinin müavini olmuşdur.

Heydər Əliyev 1987-ci ilin oktyabrında Sovet İttifaqı Kommunist Partiyası Mərkəzi Komitəsi Siyasi Bürosunun və şəxsən Baş katib Mixail Qorbaçovun yeritdiyi siyasi xəttə etiraz əlaməti olaraq, tutduğu vəzifələrdən istefa vermişdir.

Heydər Əliyev 1990-cı ilin 20 yanvarında sovet qoşunlarının Bakıda törətdiyi qanlı faciə ilə əlaqədar ertəsi gün Azərbaycanın Moskvadakı nümayəndəliyində bəyanatla çıxış edərək, Azərbaycan xalqına qarşı törədilmiş cinayətin təşkilatçıları və icraçılarının cəzalandırılmasını tələb etmişdir. O, Dağlıq Qarabağda yaranmış kəskin münaqişəli vəziyyətlə bağlı SSRİ rəhbərliyinin ikiüzlü siyasətinə etiraz əlaməti olaraq, 1991-ci ilin iyulunda Sovet İttifaqı Kommunist Partiyasının sıralarını tərk etmişdir.

1990-cı ilin iyulunda Azərbaycana qayıdan Heydər Əliyev ilk əvvəl Bakıda, sonra isə Naxçıvanda yaşamış, həmin ildə də Azərbaycan Ali Sovetinə deputat seçilmişdir. O, 1991-1993-cü illərdə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sədri, Azərbaycan Respublikası Ali Soveti sədrinin müavini olmuşdur. Heydər Əliyev 1992-ci ildə Yeni Azərbaycan Partiyasının Naxçıvan şəhərində keçirilmiş təsis qurultayında partiyanın sədri seçilmişdir.

1993-cü ilin may-iyununda hökumət böhranının son dərəcə kəskinləşməsi ilə ölkədə vətəndaş müharibəsinin baş verməsi və müstəqilliyin itirilməsi təhlükəsi yarandıqda Azərbaycan xalqı Heydər Əliyevin hakimiyyətə gətirilməsi tələbi ilə ayağa qalxdı. Azərbaycanın o zamankı rəhbərləri Heydər Əliyevi rəsmən Bakıya dəvət etməyə məcbur oldular. Heydər Əliyev 1993-cü il iyunun 15-də Azərbaycan Ali Sovetinin sədri seçildi, iyulun 24-də isə Milli Məclisin qərarı ilə Azərbaycan Respublikası Prezidentinin səlahiyyətlərini həyata keçirməyə başladı.

1993-cü il oktyabrın 3-də ümumxalq səsverməsi nəticəsində Heydər Əliyev Azərbaycan Respublikasının Prezidenti seçildi. O, 1998-ci il oktyabrın 11-də xalqın yüksək fəallığı şəraitində keçirilən seçkilərdə səslərin 76,1 faizini toplayaraq, yenidən Azərbaycan Respublikasının Prezidenti seçilmişdir. 2003-cü il oktyabrın 15-də keçirilən prezident seçkilərində namizədliyinin irəli sürülməsinə razılıq vermiş Heydər Əliyev səhhətində yaranmış problemlərlə əlaqədar seçkilərdə iştirak etməkdən imtina etmişdir.

Heydər Əliyev bir sıra beynəlxalq mükafatlara, müxtəlif ölkələrin universitetlərinin fəxri doktoru adına və digər yüksək nüfuzlu fəxri adlara layiq görülmüşdür. O, dörd dəfə Lenin ordeni, Qırmızı Ulduz ordeni və çoxlu medallarla təltif edilmiş, iki dəfə Sosialist Əməyi Qəhrəmanı adını almış, bir çox xarici dövlətlərin orden və medalları ilə təltif olunmuşdur.

Azərbaycanın son otuz ildən artıq bir dövrünü əhatə edən tarixi taleyi Heydər Əliyevin adı ilə qırılmaz tellərlə bağlıdır. Bu illər ərzində xalqın ictimai-siyasi, iqtisadi və mədəni həyatının bütün sahələrində dirçəliş məhz onun adı ilə əlaqədardır.

Heydər Əliyev rəhbərlik etdiyi bu dövr ərzində daim tərəqqisi üçün çalışdığı, zəngin mədəniyyəti, böyük tarixi keçmişi ilə həmişə qürur duyduğu və gələcək nəsillərinin taleyi üçün düşündüyü doğma yurdu Azərbaycanı bir dövlət kimi zamanın ağır və sərt sınaqlarından çıxarmışdır.

O, böyük siyasi və dövlət xadimi, xalqın şəksiz lideri olaraq hələ sağlığında canlı əfsanəyə çevrilmiş, buna görə də Heydər Əliyev fenomeni həmişə diqqətləri cəlb etmiş, dünya azərbaycanlılarının bu ümummilli liderinin heyranlıq doğuracaq dərəcədə coşğun siyasi fəaliyyəti istər ölkə, istərsə də dünya mətbuatında geniş işıqlandırılmışdır.

Azərbaycan xalqı milli dövlətçiliyinin dağılmaq təhlükəsi qarşısında qaldığını gördüyü və artıq ən ağır günlərini yaşadığı bir zamanda - 1993-cü ilin iyununda mövcud hakimiyyətin dəyişilməsini təkidlə tələb etmiş və həmin vaxtdan taleyini yenə Heydər Əliyevə etibar etmişdir. Xalqının belə dar bir gündə qaldığını görüb

onun təkidli dəvətini qəbul edən Heydər Əliyev Azərbaycanda yenidən böyük siyasətə qayıtmışdı. Xalq Heydər Əliyevin bu qayıdışını ümid və sevinclə qarşılamış, həmin günü isə Milli Qurtuluş günü kimi müstəqil Azərbaycanın tarixinə yazmışdır.

Heydər Əliyev birinci dəfə hakimiyyətə gələndə – 1960-cı illərin axırlarında da Azərbaycan iqtisadi və mədəni tənəzzül dövrünü yaşayırdı. O zaman məhz Heydər Əliyevin gəlişi ilə cəmiyyət həyatının bütün sahələrində sürətli yüksəliş, milli ruhun inkişafı və mənəviyyatın tərəqqisi dövrü yaşanmışdı.

Heydər Əliyev ikinci dəfə hakimiyyətə gələndə də yenə özünün siyasi bacarığı gücünə ölkəni vətəndaş müharibəsi təhlükəsindən, ictimai-siyasi pərakəndəlikdən xilas edə bilmiş və cəmiyyətin məqsədini, qayəsini öz varlığında, özünün güclü şəxsiyyətində təzahür etdirərək, doğma xalqını yenidən vahid bir məfkurə ətrafında səfərbər edib onun qəlbində sabaha inam hissi yaratmağı bacarmışdı.

Bütün bu illər ərzində əsl rəhbər kimi məhz Heydər Əliyev Azərbaycan həqiqətlərini qətiyyətlə bütün dünyaya tanıda bilmişdir. Azərbaycan yalnız Heydər Əliyevin hakimiyyətə qayıdışından sonra özünün geosiyasi imkanlarını gerçəkləşdirməyi bacarmışdır. Heydər Əliyevin siyasi zəkası sayəsində Azərbaycanın beynəlxalq aləmdən təcrid olunmaq təhlükəsi arxada qalmışdır.

Dünya siyasət meydanında cərəyan edən proseslərə təsir baxımından Azərbaycan rəhbəri həmişə öz sözü, öz çəkisi, öz sanbalı ilə seçilmişdir. Ümumxalq məhəbbəti qazanan Heydər Əliyevin bitməz-tükənməz enerjisi xalqı yaradıcılıq uğurlarına ruhlandırmışdır.

Tarixin yetirdiyi görkəmli şəxsiyyətlərdən olan Heydər Əliyevin parlaq siyasi zəkası sayəsində iki əsrin və iki minilliyin qovuşuğundakı Azərbaycan öz milli-mənəvi dəyərlərini qoruyaraq, üçüncü minilliyə inamla qədəm qoymuşdur. Heydər Əliyev zəkası bütün sədləri yararaq və qarşıya çıxan heç bir çətinliyə baxmayaraq, Azərbaycanı olduqca mürəkkəb zamanın dalğaları arasından salamat çıxarıb ona həm bölgədə, həm də dünyada layiqli yer qazandırmışdır.

Olduqca mürəkkəb bir dövrdə xalqın xidmətində dayandığını nümayiş etdirən Heydər Əliyev bir çox siyasi xadimin edə bilmədiyini və edə bilməyəcəyini gerçəkləşdirmiş, müasir dünyanın ən aktual çağırışlarına cavab vermək bacarığı ilə XX və XXI əsrlərin tanınmış siyasi xadimləri sırasında həmişəlik öz layiqli yerini tutmuşdur. Xalqımızın yetirdiyi nadir dövlət xadimlərindən olan Heydər Əliyev yaşadığı fırtınalı həyatı boyu hər zaman xalqını, vətənini düşünmüşdür. Onun ürəyi Azərbaycanın müstəqilliyinin möhkəmləndirilməsi, doğma xalqının xoşbəxtliyi üçün çırpınmışdır. Heydər Əliyev bir dövlət başçısı kimi Azərbaycanın ən çətin anlarında onu xilas etmək üçün misilsiz fədakarlıqlar göstərmiş, ölkəsini bəlalardan qurtarmağı bacarmışdır.

Təbiətin ona bəxş etdiyi bir çox nadir keyfiyyətlər sayəsində Heydər Əliyev uzaqgörən şəxsiyyət kimi tarixi hadisələrin gedişini irəlicədən müəyyən edə bilir, milli tarix üçün olduqca böyük əhəmiyyət daşıyan qərarlar qəbul edilən zaman əsl vətənpərvər mövqeyi nümayiş etdirir, tam qətiyyətlə hərəkət etməyi bacarırdı. Şəxsiyyətindəki qətiyyət onun geniş auditoriya qarşısında çıxışlar edərkən çox vaxt elə bədahətən söylədiyi

fikirlərdə də parlaq əksini tapmışdır. Sarsılmaz məntiq üzərində qurularaq qeyri-adi dərəcədə böyük təsir gücünə malik məruzə və nitqləri Heydər Əliyevin fəlsəfi və siyasi dünyagörüşündəki dərinliyin və genişliyin açıq ifadəsidir.

Azərbaycan dövlətinin başçısı, Azərbaycan Respublikasının Prezidenti kimi Heydər Əliyevin çoxəsrlik dövlətçiliyimiz tarixində müstəsna yeri vardır. Heydər Əliyevin fəaliyyəti öz əhəmiyyəti baxımından Azərbaycanın hüdudlarından çox-çox kənarlara çıxır. Müasir dövrdə nəinki Azərbaycanda, hətta bütün postsovet məkanında, eləcə də dünya miqyasında gedən prosesləri Heydər Əliyevin şəxsiyyətindən və fəaliyyətindən kənarda təsəvvür etmək mümkün deyildi.

Müasir Azərbaycanda dövlət quruculuğunun, iqtisadi dirçəlişin, siyasi şüurun, siyasi həyatın son otuz ildən artıq bir dövrünü əhatə edən zaman kəsiyi böyük siyasət xadimi kimi tanınan və dərin zəkaya, ensiklopedik biliyə, geniş dünyagörüşünə malik olan tarixi şəxsiyyətin – Heydər Əliyevin adı, əməli fəaliyyəti ilə, gerçəkləşdirdiyi konkret işlərlə bağlıdır. Bu mürəkkəb proseslər isə onun həm əməli fəaliyyətində, həm də fəlsəfi məfkurəsində – milli dirçəliş fəlsəfəsində öz əksini tapmışdır.

Heydər Əliyev zəmanəmizin böyük filosofu və mütəfəkkiri idi. Onun formalaşdırdığı və inkişaf etdirdiyi azərbaycançılıq fəlsəfəsi Azərbaycanın müasir dünyada xüsusi yerini müəyyən etmiş, milli dövlətçiliyimizin bünövrəsini təşkil edərək, dünya azərbaycanlılarının həmrəyliyi üçün möhkəm zəmin yaratmışdır. Azərbaycan ziyalısını son yüzilliklərdə ən ciddi bir şəkildə düşündürən milli dirçəliş problemləri bütöv şəkildə Heydər Əliyevin həmin illərdəki fəaliyyəti ilə strateji dövlət siyasətinə, elmdən, sosiologiyadan və fəlsəfədən əməli siyasət müstəvisinə keçmişdir.

Heydər Əliyev öz parlaq siyasi zəkası və istedadı sayəsində yeni Azərbaycanı, onun bugünkü gerçəkliklərini yaratmış və gələcəyə aparan yolları müəyyən etmişdir. Məhz buna görə də Azərbaycan tarixinin 1969-cu ildən bəri yaşanan dövrü Heydər Əliyevin adı ilə sıx bağlıdır və tariximizə Heydər Əliyev dövrü kimi həkk olunmuşdur. Bu dövrün isə Azərbaycanın gələcək tarixi taleyi baxımından başlıca məzmunu azərbaycançılıqdır.

Azərbaycanın müstəqil dövlət quruculuğuna aparan yolu, əslində, 1969-cu ildən - məhz onun hakimiyyətə gəlişindən sonra başlamışdır. Bu mənada azərbaycançılığın ən parlaq səhifələri də elə həmin illərdən etibarən yazılmışdır. Heydər Əliyev o dövrdə mövcud olan ideologiyanın qəlibləri çərçivəsində və bu ideologiyaya, əlbəttə, aşkarda daban-dabana zidd olmayan formada olsa belə, alt qatda ona müxalif qalaraq, Azərbaycanda milli ruhun tamamən sıxışdırılmasına nəinki yol verməmiş, əksinə, onu yüksəltmək yolunda bütün imkanlardan maksimum dərəcədə istifadə etməyi bacarmışdır.

Bu baxımdan Heydər Əliyevin respublika rəhbərliyinə gəlməsindən sonrakı dövr milli özünüdərkin, milli özünəqayıdışın başlanğıcı kimi qəbul edilir. Tarixi məhz bu dövrdən etibarən başlanan Heydər Əliyev idarəetmə fəlsəfəsinin başlıca ideya-siyasi istiqamətini də məhz xalqın milli özünüifadəsinin bütün forma və

vasitələrinin geniş vüsət alması, milli qürur hissinin güclənməsi və milli şüurun yüksəlişinə təkan verən sürətli inkişaf strategiyasının gerçəkləşdirilməsi təşkil etmişdir. Onun respublikaya rəhbərlik etməyə başladığı ilk günlərdən Azərbaycanın görkəmli şəxsiyyətlərinin yubileylərinin müntəzəm surətdə qeyd olunması bir ənənə halını almış, bu isə Azərbaycan xalqının ümummilli problemləri ilə sıx bağlı olub milli ruhun, milli özünüdərkin yüksəlişi, xalqın tarixi yaddaşının özünə qaytarılması, müstəqil dövlətçilik ideyalarının gerçəkləşməsi üçün zəmin yaratmışdı.

Heydər Əliyevin 1969-82-ci illərdə Azərbaycana rəhbərlik etdiyi dövrdə görülən işlər milli özünüdərk duyğularını ideoloji sistemin keçmiş buxovlarından xilas edərək, xalqın tarixi yaddaşının özünə qaytarılması kimi təməl prinsiplər əsasında milli ruhun hədsiz yüksəlişini təmin etmiş, xalqımızın qəlbində illərdən bəri sıxılıb qalmış milli dövlətçilik ideyasının gələcəkdə böyük hərəkətverici qüvvəyə çevrilməsi üçün münbit zəmin yaratmışdı.

SSRİ-nin əyalətlərindən biri kimi baxıldığından 1960-cı illərin sonlarına doğru sosial-iqtisadi həyatın bütün sahələrinin gerilədiyi, mənfi meyllərin güclənərək getdikcə daha dərin kök saldığı, hakimiyyət uğrunda gizli rəqabətin artdığı və eybəcər şəkillər aldığı, bütün bunların isə xalqın milli-mənəvi birliyinə ziyan vurduğu Azərbaycanda hakimiyyətə gələn yeni rəhbərin birinci işi respublikada iqtisadi potensialın dağılmasının, ictimai-siyasi həyatda yaranmış tənəzzülün xalqın mənəvi-psixoloji vəziyyətinə mənfi təsir göstərə bilməsinin qarşısını almaqdan ibarət oldu. Respublikada kosmopolit bir əhvali-ruhiyyə hökm sürdüyündən milli kadrların hazırlanması, milli dilin inkişaf etdirilməsi və istifadə olunması, dövlət idarəetmə strukturlarında çalışan məmurların azərbaycanlı olmasına diqqət yetirilməsi istiqamətində nəinki ciddi addım atılmır, hətta bu yöndə edilə bilən təşəbbüslərin qarşısı alınırdı ki, belə bir hal da, heç şübhəsiz, milli şüura malik olan, milli düşüncə ilə yaşayan və milli mentalitetin daşıyıcısı sayılan kadrların yetişməsinə çox ciddi maneələr törədirdi.

İqtisadiyyatı bütövlükdə dərin və uzunmüddətli böhran mərhələsinə qədəm qoymuş respublikada yaranmış bu ağır vəziyyətdən çıxış yolu tapılmalı, onun iqtisadi inkişafını təmin etmək üçün prinsipial cəhətdən yeni konseptual səviyyədə yanaşma yolları işlənib hazırlanmalı, iqtisadiyyatda köklü struktur dəyişiklikləri aparılmalı, təsərrüfatçılıqda və iqtisadi həvəsləndirmədə yeni üsullar tətbiq olunmalı idi. Heydər Əliyev əmin idi ki, millətin siyasi müstəqilliyinin özülünü onun iqtisadi cəhətdən azadlığı şərtləndirir.

O illərdə milli ideyanın qıtlığı üzündən baş alıb gedən, həm iqtisadi, həm mədəni tənəzzülə aparan mənfi hallar Heydər Əliyevin hakimiyyətə gəlişi ilə aradan qaldırıldı. Onun yorulmaz fəaliyyətinin nəticəsidir ki, 1970-1985-ci illərdə baş verən dəyişikliklərin miqyasına görə, ictimai və iqtisadi sahədəki dərin islahatların səciyyəsinə və xalqın maddi rifah halının keyfiyyətcə yeni mərhələyə keçməsinə görə Azərbaycanın quruculuq salnaməsində, sözün həqiqi mənasında, ən parlaq səhifələr təşkil etmişdir.

İndiki dövrdə Azərbaycanın dövlət suverenliyi və iqtisadi müstəqilliyi, onun xarici iqtisadi əlaqələrinin sistemli olaraq genişlənməsi və dünya iqtisadiyyatına daha dərin bir şəkildə inteqrasiyası prosesi hələ 1970-1980-ci illərdə Heydər Əliyev tərəfindən təməli qoyulmuş potensiala əsaslanır.

Heydər Əliyevin dövlətçilik strateji proqramında azərbaycançılıq məfkurəsi ilə bağlı diqqəti bir də məhz belə bir cəhət çəkir ki, burada mənəvi, bədii, estetik intibah iqtisadiyyatda, sənaye, tikinti və təsərrüfatdakı böyük nailiyyətlərlə, güzərandakı elliklə yaxşılaşma və kütləvi ruh yüksəkliyi ilə birləşərək vahid axarda gerçəkləşmişdir.

70-ci illərdən başlayaraq iqtisadi potensialın yaratdığı bu yüksəliş Azərbaycanı özünün iqtisadi inkişafının növbəti mərhələsi kimi tarixən zəruri azadlıq mübarizəsinə də daxilən hazırlamışdır. 80-ci illərin sonu – 90-cı illərin əvvəlində müstəqillik hərəkatının geniş vüsət alması Heydər Əliyev dövründəki həmin iqtisadi yüksəliş və ona paralel olaraq tarixi fürsətdən dərhal bəhrələnməyə hazır milli mübarizlik ruhunun təşəkkül tapması sayəsində mümkün olmuşdur.

Totalitar sistemin elm və mədəniyyət xadimlərinə, ziyalılara qarşı ağır təzyiqləri, təqib və təhdidləri Sovetlər İttifaqının bir çox başqa respublikalarında özünü aşkar hiss etdirdiyi halda, qorxmaz, cəsur, möhkəm iradə sahibi olması sayəsində Heydər Əliyev Azərbaycanda yaradıcı insanlar üçün sərbəst düşünmək və düşündüyünü tam ifadə edə bilmək, alt qatda isə milli-mənəvi ideala, Azərbaycanın dövlətçilik tarixində suverenliyi, müstəqilliyi təmin edən dəyərlərə aparan yolları tapmaq imkanı verən bir şərait yaratmışdı.

Məhz həmin illər ərzində Bakıda ən böyük abadlıq işləri görülmüş, müasir Azərbaycan memarlığının əsərləri sayılan və respublikanın siyasi və mədəni həyatında böyük əhəmiyyəti olan bir sıra memarlıq ansamblı, inzibati mərkəz, saray, institut, nəşriyyat, tədris korpusu, kompleks və özünün görkəmi ilə şəhərə rövnəq verən neçə-neçə digər bina tikilib istifadəyə verilmişdir. Məhz Heydər Əliyevin təşəbbüsü sayəsində çox sayda memarlıq abidəsinin bərpası mümkün olmuşdur. O, Azərbaycan xalqının tarixi keçmişində, mənəvi mədəniyyəti tarixində iz qoymuş böyük şəxsiyyətlərin abidəyə çevrilməsinin xalqın milli varlığına, milli duyğularının güclənməsinə son dərəcə müsbət təsir edəcəyini çox gözəl bilirdi. Heydər Əliyevin mədəniyyətimizə, tariximizə dərin ehtiram nümayiş etdirərək göstərdiyi qayğı sayəsində Bakının ən görkəmli yerlərində xalqımızın milli varlığının daşıyıcısı olan böyük insanların əzəmətli heykəlləri ucaldılmış, böyük tarixi şəxsiyyətlərin hər biri üçün bir mədəniyyət mərkəzinə çevrilən ev-muzeyləri yaradılmışdır.

Heydər Əliyevin Azərbaycanın gələcəyini düşünərək uzaqgörənliklə atdığı addımlardan biri də azərbaycanlılardan ibarət gənclərimizi gələcəyin müstəqil ölkəsi üçün gərəkli ixtisaslara yiyələnməkdən ötrü keçmiş Sovetlər İttifaqının nüfuzlu ali məktəblərinə göndərmək təcrübəsi kimi dəyərli təhsil ənənəsinin əsasını qoyması idi. Bu yolla Azərbaycanımızın elmi və kadr potensialı yüksəldiyi kimi, xalqımızın milli-mənəvi, əxlaqi dəyərlərinin təbliği də həyata keçirilirdi.

Heydər Əliyevin başçılığı ilə 1969-82-ci illərdə Azərbaycandakı intibahı şərtləndirən amillərdən biri respublikada təhsilin inkişafına xüsusi diqqət yetirilməsi, gəncliyin ana dilində təhsilinə üstünlük verilməsi olmuşdur. Milli hərbçi kadrların hazırlanması da xalqın müstəqil gələcəyini görən Heydər Əliyevdən ötrü xüsusilə böyük əhəmiyyətli məsələ idi.

Heydər Əliyevin gələcəyin müstəqil Azərbaycanını nəzərdə tutaraq, milli məfkurənin yüksəlişi və xalqın milli dövlətçilik arzularının daha da güclənməsi üçün dövlət quruculuğu sahəsində gördüyü mühüm işlərdən biri SSRİ-nin xarici siyasəti çərçivəsində də olsa, Azərbaycanın xarici aləmlə elmi-texniki, iqtisadi və mədəni əlaqələrinin genişləndirilməsi üçün göstərdiyi maksimum səylərdir. Bu məqsədlə Bakıda ittifaq və beynəlxalq əhəmiyyətli tədbirlər təşkil olunduğu kimi, SSRİ respublikaları və sosialist düşərgəsi ölkələrində, eləcə də digər xarici ölkələrdə Azərbaycan mədəniyyəti və incəsənəti günləri keçirilirdi ki, bütün bunlar son nəticədə Azərbaycanın xarici ölkələrlə və orada yaşayan azərbaycanlılarla əlaqələrinin qurulması üçün zəmin yaradır, azərbaycanlıların özünəməxsus tarixi, mədəni ənənələri olan xalq olaraq tanınmasını, Bakının isə həmin dövrdə dünya miqyasında tanınan bir elm və mədəniyyət mərkəzinə çevrilməsini təmin edirdi.

Bu, həmin dövr idi ki, hətta Moskvada, Sankt-Peterburqda çıxan jurnallarda işıq üzü görə bilməyən yazılar fəal vətəndaşlıq nümunəsi olan əsərlər kimi dövrün Bakı mətbuatında dərc oluna bilir, şəxsən Heydər Əliyev səviyyəsində hər cür hücumdan və qəsdlərdən qorunurdu. Həmin illərdə mədəniyyət və incəsənət nümayəndələrinin tarixi keçmişimiz, eləcə də bugünümüzlə bağlı qadağa qoyulmadan milli ruhlu əsərlər yarada bilmələri üçün münbit şəraitin təmin olunması gənc qələm sahiblərinə xüsusi qayğı və diqqətlə yanaşılması ilə əlaqəlidir.

Hakimiyyətə gəldiyi ilk günlərdən Heydər Əliyevin gələcəyə hesablanaraq milli dövlət quruculuğunun əsasını təşkil edən strateji proqramında Azərbaycan dili ayrıca diqqət mərkəzində idi. Heydər Əliyevin respublikaya rəhbərliyi dövründə Azərbaycan dilinə həqiqi dövlət dili statusu qazandırmağa yönəlmiş fəaliyyətinin bəhrəsidir ki, 1978-ci il Konstitusiyasında Azərbaycan dilinin dövlət dili statusu təsbit olundu. Dövr baxımından sözün əsl mənasında qəhrəmanlığa bərabər belə bir addım məhz gələcəyin müstəqil yeni Azərbaycanı naminə atılmışdı. Azərbaycan dilinin idarəçilikdə geniş tətbiqi, demək olar ki, bütün böyük klassiklərin ittifaq miqyasında yubileylərinin keçirilməsi, Azərbaycan mədəniyyətinin ümumittifaq miqyasda ön mövqelərə çıxması, elmi, ədəbi, mədəni abidələrin planlı tədqiqi və nəşri — bütün bunlar Heydər Əliyevin gələcək milli dövlətçiliyimizin ideya təməlində dayanan siyasətinin əməli nəticələridir.

Heydər Əliyevin 1993-cü ildə Azərbaycan rəhbərliyinə qayıdışı ilə ölkənin ictimai-siyasi, sosial, iqtisadi, elmi-mədəni həyatında, beynəlxalq əlaqələrdə dönüş yaranmış, elmi əsaslara, beynəlxalq norma və prinsiplərə uyğun müstəqil dövlət quruculuğu prosesi başlanmışdır. Heydər Əliyevin həyata keçirdiyi təxirəsalınmaz tədbirlərin nəticəsi kimi, bir tərəfdən, Milli Ordunun formalaşdırılması, Azərbaycanın milli mənafelərini qorumağa qadir nizami silahlı qüvvələrin yaradılması, torpaqlarımızın müdafiə olunması ilə bağlı mühüm

addımlar atılmış, digər tərəfdən, atəşkəsə nail olmaq üçün bütün siyasi və diplomatik vasitələr işə salınmış, bunun da nəticəsində 1994-cü ilin mayında ölkəmiz üçün həyati əhəmiyyət kəsb edən atəşkəsə nail olunmuşdur.

Azərbaycan daxilində yaranmış nisbi sabitlikdən və beynəlxalq aləmdə ölkəmizə artan inam və maraqdan istifadə edərək, 1994-cü ilin sentyabrında "Əsrin müqaviləsi" adlandırılan ilk neft müqaviləsinin imzalanması və onun gerçəkləşdirilməsi Heydər Əliyev tərəfindən işlənib hazırlanmış və müstəqil Azərbaycanın iqtisadi inkişaf konsepsiyasını təşkil edən neft strategiyasının həyata keçirilməsinin parlaq təzahürüdür.

Heydər Əliyevin rəhbərliyi altında aparılmış son dərəcə gərgin fəaliyyət nəticəsində Azərbaycan xalqının taleyi ilə pərdəarxası oyunlara, siyasi anarxiya və eksperimentlərə son qoyulmuş, ölkədə cinayətkarlığın qarşısı tam alınmış, bütün qanunsuz silahlı dəstələr ləğv olunmuşdu ki, bunlar da bütövlükdə Azərbaycanda dövlət quruculuğu prosesinin uğurla aparılması üçün şərait yaratmışdı. Azərbaycan dövlətçiliyinin mövcudluğuna böyük təhlükə olan 1994-cü il oktyabr və 1995-ci il mart dövlət çevrilişi cəhdlərinin qarşısı Heydər Əliyevin qətiyyəti sayəsində alınmış, dövlət müstəqilliyi qorunub saxlanmışdır. Məhz buna görə də ölkəmizdə müstəqil dövlət təsisatlarının yaranması və dövlət quruculuğu prosesi böyük vüsət almışdı ki, bunun da əsasını müstəqil Azərbaycanın qəbul etdiyi ilk Konstitusiyası təşkil edirdi. Ondan sonrakı dövrdə Azərbaycanda dövlətçiliyin möhkəmlənməsi və demokratik prinsiplərin bərqərar olması, demokratik, hüquqi, dünyəvi dövlət quruculuğu prosesinin uğurla, sürətlə həyata keçirilməsi şəxsən Heydər Əliyevin adı ilə bağlıdır.

Heydər Əliyevin Azərbaycan rəhbərliyinə qayıdışı ilə başlıca qayəsini müstəqillik, azərbaycançılıq, dövlətçilik, ədalətlilik, demokratiya, milli tərəqqi, dünyəvilik kimi ümumbəşəri dəyərlər təşkil edən yeni bir ideologiyanın əsası qoyulmuşdur. Heydər Əliyevin apardığı daxili siyasət Azərbaycanın hər bir vətəndaşına azad, sərbəst yaşamaq hüquqlarını təmin etmək və öz rifahını yaxşılaşdırmaq imkanları yaratmaqdan ibarət olmuşdur. Heydər Əliyevin fəaliyyətində iqtisadi islahatlar, bazar iqtisadiyyatının bərqərar olması, iqtisadi inkişafın təmin edilməsi, Azərbaycanın dünya iqtisadiyyatına inteqrasiyası, özəlləşdirmə proqramının, aqrar islahatların həyata keçirilməsi ardıcıl prioritet sahələr olmuşdur.

Heydər Əliyev demokratik, hüquqi dövlət quruculuğu istiqamətində davamlı siyasət yeridərək, ölkədə insan hüquq və azadlıqlarının başlıca prinsiplərinin bərqərar olması üçün əsaslı zəmin yaratmışdır.

Heydər Əliyevin rəhbərliyi altında Azərbaycan dövlətinin xarici siyasəti, dünyanın aparıcı dövlətləri və beynəlxalq təşkilatları ilə əlaqələri milli maraqlara və uzaqgörən siyasi perspektivlərə əsaslanan xətlə inkişaf etməyə başlamışdır.

Heydər Əliyevin xarici siyasət məsələlərinə müstəsna əhəmiyyət verməsi, beynəlxalq miqyasda etiraf olunan uğurlu və cəsarətli addımlar atması, milli məqsədlər naminə ən nüfuzlu tribunalardan bacarıq və məharətlə istifadə etməsi Azərbaycan dövlətçiliyinin bu günü və gələcəyi baxımından son dərəcə əhəmiyyətli olmuşdur.

Heydər Əliyevin fəal diplomatiyası nəticəsində Azərbaycan dünyanın demokratik dövlətlərinin və aparıcı ictimai təşkilatlarının ölkəmizə, onun zorla cəlb olunduğu silahlı münaqişəyə münasibətinin əsaslı surətdə dəyişməsinə nail ola bilmişdir. Heydər Əliyevin xarici siyasətinin əsasını sülh, beynəlxalq hüquq normalarına, sərhədlərin bütövlüyünə və toxunulmazlığına, dövlətlərin ərazi bütövlüyünə hörmət və qarşılıqlı surətdə faydalı əməkdaşlıq prinsipləri təşkil etmişdir. Onun dünya təcrübəsinin bütün nailiyyətlərini, sivil beynəlxalq normaları özündə tam əks etdirən sülhsevər xarici siyasətinin əsasında isə, ilk növbədə, milli müstəqilliyin möhkəmləndirilməsi, dövlətlərin hüquqlarına hörmətlə yanaşılması, bütün mübahisəli məsələlərin sülh və danışıqlar yolu ilə həll edilməsi, qarşılıqlı surətdə faydalı iqtisadi, elmi və mədəni əməkdaşlıq yaradılması, dövlətlərarası əlaqələrə mane olan hər cür məhdudiyyətlərin aradan qaldırılması prinsipləri dayanırdı.

Heydər Əliyev 1992-ci ildən başlayaraq türkdilli dövlətlər arasında iqtisadi, siyasi, ədəbi-mədəni əlaqələrin genişləndirilməsi və möhkəmləndirilməsi sahəsində də gərgin fəaliyyət göstərmişdir. O, bütün türk dünyasının ən nüfuzlu şəxsiyyəti kimi şöhrət qazanmışdır.

Heydər Əliyev Azərbaycanın təbii sərvətlərindən, əlverişli coğrafi-strateji mövqeyinin üstünlüklərindən ölkənin milli mənafelərinə uyğun şəkildə istifadə edilməsinə yönəldilmiş irimiqyaslı beynəlxalq iqtisadi sazişlərin işlənib hazırlanması və həyata keçirilməsi sahəsində son dərəcə gərgin və səmərəli fəaliyyət göstərmişdir. Onun böyük siyasi iradəsi və müdrik uzaqgörənliyi sayəsində əhəmiyyətli beynəlxalq müqavilələrə imza atılmış və onların həyata keçirilməsinə başlanmışdır. Heydər Əliyevin təşəbbüsü ilə böyük siyasi məna kəsb edən bir sıra dünya miqyaslı iqtisadi proqramların həyata keçirilməsində Azərbaycan aparıcı rol oynamışdır. Böyük bir coğrafi məkanda region qüvvələrinin birləşməsində də Heydər Əliyevin danılmaz xidmətləri olmuşdur.

Tarixin amansız və sərt sınaqları dövründə dünyanın ayrı-ayrı ölkələrinə səpələnərək yaşamaq məcburiyyətində qalmış azərbaycanlıların birlik və həmrəyliyinin əldə edilməsi işində Heydər Əliyevin müstəsna xidmətləri vardır. O, dünya azərbaycanlılarının təşkilatlanması və onların bir Vətən – müstəqil Azərbaycan ətrafında sıx birləşməsi üçün daim və əzmlə səy göstərmiş, bu istiqamətdə son dərəcə qiymətli qərarlar qəbul etmişdir.

Heydər Əliyevin siyasi, iqtisadi, ictimai və mədəni həyatın bütün sahələrində həyata keçirdiyi planlar artıq Azərbaycanın gerçəkliyinə çevrilmişdir. Onun fəaliyyəti də, şəxsiyyəti də Azərbaycan tarixinin ayrılmaz bir hissəsini təşkil edir. Hər bir azərbaycanlının taleyində Heydər Əliyev dühasının bir zərrəsi vardır.

Heydər Əliyev bizim dahi müasirimizdir. Bu faktın özü hər bir azərbaycanlı üçün qürur və iftixar mənbəyidir. Heydər Əliyev eyni zamanda, taleyin xalqımıza bəxş etdiyi böyük tarixi şəxsiyyətdir. O, Azərbaycanın tarixi inkişaf prosesinə təkan vermişdir. Müstəqil Azərbaycan dövlətinin qurucusu kimi milli dövlətçiliyimizin ideya əsasını məhz Heydər Əliyev yaratmışdır.

Bütün mənalı həyatını öz xalqına bəxş etmiş Heydər Əliyevin siyasi və dövlət xadimi kimi zəngin fəaliyyəti Azərbaycan xalqının tarixində dərin iz buraxaraq, əsl dövlət idarəçiliyi məktəbinə çevrilmişdir. Azərbaycan xalqının hələ neçə-neçə nəsli bu böyük məktəbdən, Heydər Əliyevin zəngin siyasi irsindən ölkəmizin inkişafı, xalqımızın rifahı naminə faydalanacaqdır.

Azərbaycan xalqının milli lideri, müdrik rəhbər və dahi şəxsiyyət Heydər Əlirza oğlu Əliyevin əziz və işıqlı xatirəsi qədirbilən Azərbaycan xalqının qəlbində əbədi yaşayacaqdır.

Allah rəhmət eləsin!

**«AZƏRTAC». 13.12.03**

Özkəyistan Respublikasının Prezidenti İslam Kərimovun Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin vəfatı ilə əlaqədan başsağlığı məktubu

*Bu gün həyatını öz xalqına bağışlayan Azərbaycanın sədəqətli oğlu, möcüzəli insan, böyük dövlət xadimi, Özbəkistanın səmimi dostu Heydər Əlirza oğlu Əliyevin vəfatı həqqında xəbərini böyük bir faciə xəbəri kimi qəbul etdim.*

*Heydər Əliyevin siması ölkələrimiz və xalqlarımız arasında dostluğunun inkişafına daimi göstərdiyi böyük diqqəti qəlbimizdə əbədi olaraq qaldı.*

*Qardaş azərbaycanlılar üçün ağır olan bu itki ilə əlaqədar Özbəkistan xalqı və şəxsən öz adımdan bütün Azərbaycan xalqına, Heydər Əliyevin yaxınları, dost və qardaşlarınadərin hüzün bildirirəm.*

*İslam Kərimov,*
*Özbəyistan Respublikası Prezidenti*

*15 dekabr, 2003 il.*

Türkmənistanın Prezidenti Saparmurad Niyazovun Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin vəfatı ilə əlaqədan başsağlığı məktubu

*Heydər Əlirza oğlu Əliyevin vəfati ilə əlaqədar səmimi qəlbdən kədərləndiyimi bildirirəm.*

*Bu qəmli anda məhrumun ailə üzvlərini və yaxın qohumlarını dərin başsağlığı ilə əlaqədar ürək sözlərimi qəbul etməyi xahiş edirəm.*

*Saparmurad Niyazov,*

*Türkmənistanın Prezidenti*

*15 dekabr 2003 il.*

**Respublika sarayında ümumxalq vidalaşma mərasimi**

Azərbaycan özünün ən kədərli günlərindən birini yaşayır. Xalqımız bütün dövrlərdə yetirdiyi ən əzəmətli, qüdrətli şəxsiyyətlərindən birini – zəmanəmizin görkəmli siyasətçisi və dövlət xadimi, türk dünyasının fəxri, müstəqil Azərbaycan dövlətçiliyinin qurucusu, əfsanəyə çevrilmiş həyatını canından artıq istədiyi doğma Vətəninin inkişafına, xoşbəxt gələcəyinə həsr etmiş sədaqətli oğlu Prezident Heydər Əliyevi itirmişdir. Bu itki əvəzsizdir, onun ağrı-acısı ölçüyəgəlməzdir.

Ölkəmiz, xalqımız, bütün dünya azərbaycanlıları matəm içindədir. Dünyanın ən müxtəlif ölkələrinin dövlət və hökumət başçıları, tanınmış ictimai-siyasi xadimlər, mədəniyyət, incəsənət xadimləri Azərbaycan Prezidenti İlham Əliyevin ünvanına teleqramlar göndərir, ona, ailə üzvlərinə, xalqımıza başsağlığı verirlər. Bu, bir daha göstərir ki, Heydər Əliyev təkcə Azərbaycanın Prezidenti deyildi, həm də bütün dünyada böyük nüfuz qazanmış nadir şəxsiyyətlərdən biri idi.

Heydər Əliyev Azərbaycana rəhbərlik etdiyi bir qərinədən artıq dövrdə ölkənin həyatında, xalqın taleyində elə bir əzəmətli rol oynamışdır ki, bu, əsrlər boyu unudulmayacaqdır. O, təkcə rəhbər yox, sözün əsl mənasında, millətin atası idi. Azərbaycanın hər bir bölgəsində Heydər Əliyevin quruculuq siyasətinin silinməz izləri var.

Heydər Əliyevin Vətən, xalq qarşısında ən böyük xidməti müstəqil Azərbaycan dövlətini parçalanmaq, məhv olmaq təhlükəsindən qurtarması, müstəqilliyimizi əbədi və dönməz etməsidir. Məhz onun nəhəng fəaliyyəti nəticəsində Azərbaycan suveren dövlət kimi inkişaf etmiş, möhkəmlənmiş və dünya birliyində layiqli yerini tutmuşdur. Ona görə də biz haqlı olaraq deyirik ki, Heydər Əliyev müstəqil dövlətçiliyimizin qurucusudur, bugünkü güclü, inkişaf edən Azərbaycan dövləti onun şah əsəridir.

Prezident Heydər Əliyev əsl ümumxalq məhəbbəti, sevgisi qazanmış tək-tək siyasətçilərdən, dövlət xadimlərindəndir. O, respublikaya rəhbərlik etdiyi uzun illər ərzində gördüyü nəhəng işləri ilə xalqımızın qəlbində özünə əbədi abidə ucaltmışdır. Ona görə də nə qədər ki, müstəqil Azərbaycan dövləti var, Azərbaycan xalqı var, Heydər Əliyev də ürəklərdə yaşayacaqdır. Bu isə əbədiyyət deməkdir.

Dekabrın 15-də qədim Bakı, Prezident Heydər Əliyevin geniş quruculuq işləri sayəsində son 30 ildə görkəmini büsbütün dəyişmiş paytaxtımız matəm libasına bürünmüşdü. Həmin gün səhər saat 9-dan

Respublika sarayında Heydər Əliyevlə ümumxalq vidalaşma mərasimi keçirilmişdir. Sarayın qarşısından keçən prospektin hər iki tərəfinə qırmızı qərənfillər düzülmüşdü.

Xalqımızın dahi oğlu Heydər Əliyevin cənazəsi saraya gətirilərək, səhnədə postament üzərində qoyulmuş, ətrafına gül-çiçək düzülmüşdü. Tabutun üstünə Azərbaycanın dövlət bayrağı çəkilmişdi. Sarayın nəhəng salonu və səhnəsi matəmsayağı bəzədilmişdi. Səhnədə Prezident Heydər Əliyevin böyük portreti asılmış, fəxri qarovul düzülmüşdü. Səhnənin önündə çoxsaylı əklillər qoyulmuşdu.

Sarayın foyesində Heydər Əliyevin həyat və fəaliyyətinin müxtəlif mərhələlərini, o cümlədən Azərbaycan Prezidenti kimi xarici ölkələrə rəsmi səfərlərini, beynəlxalq tədbirlərdə iştirakını, dövlət və hökumət başçıları ilə görüşlərini əks etdirən fotoşəkillərdən ibarət stendlər qoyulmuşdu.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və ailə üzvləri, Heydər Əliyevin yaxınları saraya gəldilər.

Respublika sarayına aparan küçələr insan selinə qərq olmuşdu. Azərbaycan paytaxtının sakinləri, idarə, təşkilat və müəssisələrin kollektivləri, respublikanın rayonlarının nümayəndələri xalqımızın dahi oğluna son borclarını vermək üçün axın-axın saraya gəlirdilər.

Əslində, vidalaşma mərasimi elə Heydər Əliyevin vəfatı xəbəri alınan günün ertəsi başlamışdı, insanlar axın-axın Prezident sarayının qarşısına gəlir, pilləkənlərə gül, əklil qoyur, xalqımızın böyük oğlunun, nəhəng siyasətçinin xatirəsinə sonsuz ehtiramlarını bildirirdilər.

Son vidalaşma mərasiminin miqyası isə bambaşqa idi. Azərbaycan xalqının bütün təbəqələrindən olan insanlar – qocalar, ağbirçəklər, cavanlar, məktəblilər Respublika sarayına axışır, insan seli küçələrə sığmırdı. Bu, qədirbilən Azərbaycan xalqının öz dahi oğluna sonsuz hörmət və ehtiramının daha bir sübutu idi...

Cənazənin önündən hərbçilər keçirlər. İstər-istəməz, Heydər Əliyevin Azərbaycanda ordumuzun inkişafı ilə bağlı hələ sovet dövründə Naxçıvanski adına hərbi məktəbi yaratması və ilk milli hərbçi kadrların hazırlanması sahəsində xidmətləri yada düşür. Heydər Əliyev son 10 ildə Azərbaycanda ordu quruculuğu sahəsində çox böyük işlər görmüşdü və Ali Baş Komandan kimi fəxrlə deyirdi ki, indi bizim güclü ordumuz var. Bu, onun ən çox fəxr etdiyi uğurlardan biri idi...

Azərbaycanın xalq şairi Məmməd Araz, xəstəliyinə baxmayaraq, Heydər Əliyevə son borcunu verməyə gəlmişdir. Bu da təbiidir. Çünki Heydər Əliyev Azərbaycanda ədəbiyyatın, mədəniyyət və incəsənətin inkişafında misilsiz rol oynamışdır. O, özünü yaradıcı adamların dostu hesab edirdi. Yaradıcılığına böyük hörmət bəslədiyi ədəbiyyat xadimlərindən biri də Məmməd Araz idi.

Ümummilli liderimiz Heydər Əliyevin cənazəsi önündən dərin hüznlə keçən, bəziləri isə göz yaşlarını saxlaya bilməyən Azərbaycan vətəndaşlarının yaşlı nəslə mənsub olanları bu nəhəng insanın xalqımız və dövlətimiz qarşısında xidmətlərini yada salarkən, yəqin ki, Respublika sarayının inşasını da xatırlayırlar. Tikintisi uzun illər yarımçıq qalmış bu əzəmətli bina da Heydər Əliyevin səyləri sayəsində 1972-ci ildə istifadəyə verilmişdi.

Xalqımızın böyük oğlu bu sarayda neçə-neçə möhtəşəm tədbirlər keçirmiş, nitqlər söyləmiş, Azərbaycan Prezidenti kimi and içmişdi. İndi isə xalqımız onunla, o da gözəl əsərlərindən biri olan bu sarayla son vidalaşmaya gəlmişdi. Sarayın salonunun orta cərgələrindən birində, Heydər Əliyevin həmişə əyləşdiyi kresloya bu dəfə gül dəstəsi qoyulmuşdu.

Prezident Heydər Əliyevə son borclarını vermək, dünya miqyaslı siyasətçi kimi ona ehtiramlarını bir daha bildirmək üçün bir sıra xarici ölkələrin dövlət və hökumət başçıları, yüksək vəzifəli rəsmi şəxsləri, tanınmış şirkətlərin rəhbərləri də Bakıya gəlmişdilər. Onların adından salona əklillər gətirilir, özləri isə Azərbaycanın dahi övladının cənazəsi önündə baş əyir, Prezident İlham Əliyevə və ailə üzvlərinə, xalqımıza bir daha səmimi başsağlığı verirdilər.

Xarici qonaqlar arasında Azərbaycanın və Prezident Heydər Əliyevin böyük dostu, məşhur həkim, Türkiyənin Bilkənd Universitetinin qurucusu, professor İhsan Doğramacı və xanımı da vardı. Cənab İhsan Doğramacı ixtiyar yaşda olmasına baxmayaraq, uzaq yolu qət edib gəlmiş, dostluğa sədaqətini bir daha nümayiş etdirmişdir.

Heydər Əliyevin Azərbaycanla, xalqımızla bağlı arzuları bitib-tükənməz idi, Vətənə, xalqa olan məhəbbəti hədsiz-hüdudsuz idi. Onun ürəyi Azərbaycan qədər geniş idi. O, dünyanın hansı nöqtəsinə gedirdisə, Azərbaycanı, onun problemlərini də ürəyində aparırdı. Bu problemlərin həlli üçün bütün gücünü, qüvvəsini, varlığını əsirgəmirdi. Hər yerdə “Heydər Əliyev” deyəndə Azərbaycan, “Azərbaycan” deyəndə Heydər Əliyev düşünürdülər.

Heydər Əliyev Vətən üçün, xalq üçün doğuldu. Vətənin, xalqın tərəqqisi, inkişafı, azadlığı, müstəqilliyi üçün çalışdı və bu yolda ömrünü şam kimi əritdi. Lakin özü ərisə də, xalqın gözündə, qəlbində dağ kimi ucaldı. Ona görə də xalqın öz sədaqətli, dahi övladına məhəbbəti sonsuzdur, əbədidir...

Saraya insan axınının sonu görünmürdü. Vidalaşmaq istəyənlər saysız-hesabsız, vaxt isə az idi. Mərasimin sonu yaxınlaşırdı.

...Şeyxülislam Allahşükür Paşazadə ümummilli liderimiz Heydər Əliyevin ruhuna dua oxudu, cənazə Respublika sarayından çıxarıldı, Fəxri Xiyabana aparılmaq üçün top lafetinə qoyuldu.

Matəm karvanının önündə Prezident Heydər Əliyevin portreti, çoxsaylı əklillər aparılırdı. Həzin, kədərli musiqi səslənirdi.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, Əliyevlər ailəsinin üzvləri, dəfn mərasiminin təşkili üzrə Dövlət Komissiyasının üzvləri, xarici ölkələrin dövlət və hökumət başçıları, Bakıdakı diplomatik korpusun nümayəndələri cənazəni müşayiət edirdilər.

Yol boyu Prezident Heydər Əliyevin qara lentlə haşiyələnmiş çoxsaylı portretləri görünürdü, Azərbaycanın dövlət bayrağı endirilmişdi.

Küçələrdə izdihamın ucu-bucağı görünmürdü. Yüz minlərlə insan xalqımızın dahi oğlunu son mənzilə yola salırdı. Azərbaycan paytaxtı 1990-cı ilin qanlı yanvarından sonra ilk dəfə idi ki, belə bir izdihamın şahidi olurdu.

Prezident Heydər Əliyevi son mənzilə yola salanlar onun haqqında ürək yanğısı ilə danışır, qəm-qüssələrini bölüşdürür, onun əvəzsiz lider, qayğıkeş ata, dahi şəxsiyyət olduğunu, ideyalarının daim yaşayacağını vurğulayırdılar. Çoxları Heydər Əliyevin dünyasını dəyişdiyinə inanmaq istəmirdi, onun öz xalqının arasında olmamağını qəbul edə bilmirdi. Bu, dahi Heydər Əliyevin ölməzliyinin təcəssümü idi.

Xəzərdəki gəmilərin fit səsləri bütün şəhərə yayılırdı.

Yol boyu cənazəni müşayiət edənlər arasında qocaman aktrisa, Azərbaycan teatrının ağbirçəyi Nəsibə xanım Zeynalova da vardı. Səhhəti ilə bağlı çətinliyə baxmayaraq, o, Azərbaycan mədəniyyətinə və incəsənətinə daim qayğı göstərmiş Prezident Heydər Əliyevlə vidalaşmağa gəlmişdi.

Böyük öndərini itirən insanlar kədərini göz yaşları ilə bildirirdi. Bu, Azərbaycan xalqının, bütün dünya azərbaycanlılarının göz yaşları idi.

...Heydər Əliyevin uzun illər çalışdığı Prezident sarayının qarşısı qərənfillərə qərq edilmişdi. Prezidentin vəfatı xəbərinin alındığı gündən – dekabrın 13-dən burada insan axınının ardı-arası kəsilmirdi.

Xalqın böyük oğlunu son mənzilə yola salanlar arasında respublikanın müxtəlif şəhər və rayonlarından gəlmiş minlərlə adam vardı. AzərTAc-ın müxbirləri onların bəzilərindən ürək sözlərini söyləməyi xahiş etmişlər.

Sahib Məmmədov (Qazax rayonu): Ölüm sözünü dilimə gətirə bilmirəm, çünki Heydər Əliyev həmişə bizimlə olub və olacaqdır. O, bizə müstəqil Azərbaycan kimi bir dövləti əmanət qoyub gedir. Bu əmanəti göz bəbəyi kimi qoruyub saxlamaq onun ölməz ruhu qarşısında bizim ən müqəddəs borcumuzdur. Heydər Əliyev Azərbaycan tarixində və xalqımızın qan yaddaşında əbədi yaşayacaqdır.

Əli Quliyev (pensiyaçı, Ağcabədi rayonundakı “Qızıl ay” türk çadır şəhərciyindən gəlmiş ağdamlı məcburi köçkün): Necə deyim, ay oğul, dilim gəlmir axı. Biz Heydər Əliyevi həmişə böyük rəhbər kimi görmüşük və onun əziz xatirəsi həmişə ürəyimizdə yaşayacaqdır. O, biz qaçqın-köçkünlərin ümid yeri olub. Onun hər sözündən təsəlli tapmışıq, sabaha inamımızı itirməmişik. Heydər Əliyev yalnız cismən bizdən ayrılıb. Xalqımızın başı sağ olsun. Otuz beş min didərgin ağdamlı adından deyirəm: Allah ona qəni-qəni rəhmət eləsin, qəbri nurla dolsun. İnanıram ki, oğlu, indiki Prezidentimiz İlham Əliyev ona layiq övlad olacaq, xalqın ümidlərini doğruldacaqdır.

Hümbət Sadıqov (II qrup Böyük Vətən müharibəsi əlili): Heydər Əliyev insana qiymət verən, dəmir kimi möhkəm, ipək kimi yumşaq bir rəhbər idi. Mənim 82 yaşım var. Biz, çox az sayda qalmış 1941-45-ci illər müharibəsi əlilləri ona daha çox borcluyuq, o, bizə yüksək qiymət verirdi. Onun hər kəlməsi elə bil ömrümüzü uzadırdı. İnanıram ki, Prezidentimiz İlham Əliyev də xalqımızın Atatürkü olan Heydər Əliyevin yarımçıq

qalan işlərini layiqincə başa çatdıracaq. O dahi insan bizi cismən tərk etdi, ruhu isə həmişə bizim başımızın üstündə olacaqdır.

Minayə Qəhrəmanova (Qarabağ müharibəsi veteranı): Deməyə söz tapmıram. Allah rəhmət eləsin. Onun işıqlı ideyalarının reallaşması üçün əl-ələ verib hamımız çalışmalıyıq. Mən müharibədə tibb bacısı olmuşam, qan–qadanın canlı şahidiyəm. İgidliklə vuruşan cavan oğlan və qızlarımızın qan içində həlak olduğunu görmüşəm. Xalqımızı ürəkdən sevən Heydər Əliyevin uzaqgörən siyasəti nəticəsində atəşkəs sazişi imzalandı və ötən müddət ərzində respublikamız ordu quruculuğunda çox böyük inkişafa nail oldu. Bizim yenilməz xalq olduğumuz fikrini bizə bir daha aşıladı. Onun mənalı həyatı isə gənclərimiz üçün ən zəngin örnəkdir.

Şair Paşayev (Qusar rayonu): Rayonumuzun əhalisi Milli Məclisdən xahiş edir ki, Heydər Əliyevin xatirəsini əbədiləşdirmək məsələsi tezliklə həll edilsin. O, Azərbaycanda yaşayan milli azlıqların mənəvi atası idi, bütün xalqa, bəşəriyyətə gərək idi. Qəbri nurla dolsun.

Matəm karvanı Şəhidlər Xiyabanına yaxınlaşır. Burada Azərbaycanın azadlığı, müstəqilliyi və ərazi bütövlüyü uğrunda canlarından keçmiş Vətən övladları uyuyur. Prezidentimiz Heydər Əliyev müharibəni dayandırmasaydı, kim bilir, indi şəhidlərimiz nə qədər olardı. Heydər Əliyevin yaratdığı abidələrdən biri də bu xiyabandakı "Əbədi məşəl"dir. Həmin abidə dil açıb danışa bilsəydi, yəqin ki, deyərdi: "Sən bu torpağın ən böyük şəhidisən!"

Matəm karvanı saat 16.00 radələrində Fəxri Xiyabana çatdı.

Xiyabanın girəcəyində fəxri qarovul düzülmüşdü.

Fəxri Xiyabanın ətrafı öz müdrik rəhbərini və ulu öndərini son mənzilə yola salmaq üçün əklillər və gül-çiçək dəstələri gətirmiş insanlarla dolu idi.Cənazə top lafetindən endirilərək, məzarın yanına gətirildi. Qafqaz Müsəlmanları İdarəsinin sədri şeyxülislam hacı Allahşükür Paşazadə matəm duası oxuduqdan sonra üzərinə Azərbaycanın dövlət bayrağı çəkilmiş tabut məzara endirildi.

Müdafiə Nazirliyinin nümunəvi hərbi orkestrinin ifasında Azərbaycan Respublikasının Dövlət himni səsləndi. Toplardan yaylım atəşi açıldı.

Prezident Heydər Əliyevin dini və mənəvi dəyərlərimizə verdiyi yüksək qiymətdən, müqəddəs ziyarətgahlarımızın bərpasına göstərdiyi qayğıdan hər zaman razı qalan din xadimləri mərhum Prezidentin ruhuna yasin surəsi oxudular.

Şeyxülislam Hacı Allahşükür Paşazadə dəfn mərasiminə toplaşanlara müraciətlə dedi:

- Allah rəhmət eləsin!

Bu gün bizim üçün çox qəmli bir gündür. Bu yolu gələrkən düşündüm ki, mən ömrümdə iki dəfə bu qədər insan seli görmüşəm. Birinci dəfə 20 Yanvar hadisələri zamanı bu qədər insanın küçələrə çıxaraq, öz əzizlərini yola saldığının şahidi olmuşam. Bu gün xalq müstəqil Azərbaycanın qurucusu, istəkli və əziz Prezidentini, öndərini son mənzilə yola salmaq üçün küçələrə çıxmışdır. Mən buraya gələrkən fikirləşirdim ki,

Heydər Əliyevin nəsihətləri heç vaxt yaddan çıxmayacaq. Xalqın bu matəm günündə küçələrə çıxması Heydər Əliyevin siyasətinə səs vermək, İlham Əliyevi dəstəkləmək deməkdir.
Burada uzaqdan gəlmiş prezidentlər, baş nazirlər vardır. Heydər Əliyevin yaxın dostları gəliblər.
Allah dəfn olunanların da hamısına rəhmət eləsin, biz onların heç birini yaddan çıxarmırıq.
Mənim sizdən bir xahişim var. Prezidentimiz ömrü boyu yaxşılıq etmişdir və heç kimdə onun xətri yoxdur. Mən şeyxülislam kimi deyirəm: kimdə bir halallıq haqqı varsa, oğluna müraciət edə bilər. Gördüyü bu qədər işlərə görə biz hamımız onun haqqını halal etməliyik.
Allah-Təala ona rəhmət eləsin!
İlham müəllim, mən Sizə, ailə üzvlərinizə, mərhumun qardaşlarına başsağlığı verirəm. Allah Sizə hər vaxt kömək olsun. Onu bilin ki, inşallah, biz Heydər Əliyevin nəsihətlərini heç zaman yaddan çıxarmarıq. Xalq Sizinlədir.
Mən bu məzarın qarşısında söz verirəm ki, həmişə Heydər Əliyevin və Sizin siyasətinizi dəstəkləyəcəyik. Ən mühümü odur ki, Heydər Əliyev bizə Sizin kimi töhfə verib və inşallah, bu işıq, bu nur axıra qədər davam edəcəkdir.
Sonra Şeyxülislam Fəxri Xiyabanın ətrafına toplaşmış yüz minlərlə insana müraciətlə dəfn mərasiminin davam edəcəyini və buraya gəlmiş camaatın hamısının öz sevimli və əziz Prezidentinin məzarını ziyarət edə biləcəyini elan etdi.
Dəfn mərasimində iştirak edən dövlət və hökumət başçıları, digər xarici qonaqlar, səfirlər Azərbaycan Prezidenti İlham Əliyevə bir daha səmimi başsağlığı verdilər.
Saat 17.00 radələrindən başlayaraq, Azərbaycan vətəndaşları xalqımızın ümummilli liderinə sonsuz məhəbbətinin, onun misilsiz xidmətlərinə görə dərin minnətdarlığının ifadəsi olaraq, Prezident Heydər Əliyevin məzarına axışmağa başladı. Gözlərində yaş, qəlblərində kədər qarışıq qürur olan ağsaqqallar, ağbirçəklər, gənclər, Heydər babanı məsum baxışları ilə son mənzilə yola salmış uşaqlar saysız-hesabsız əklillər, gül-çiçək arasında görünməz olmuş məzarın önündən keçir, ən BÖYÜK AZƏRBAYCANLININ müqəddəs ruhu qarşısında baş əyirdilər.
Fəxri Xiyabana insan axını gecə yarıyadək davam etmişdir.
Allah Prezident Heydər Əliyevə rəhmət eləsin, qəbri nurla dolsun!
Vidalaşma və dəfn mərasimi Azərbaycan televiziyası vasitəsilə ölkənin bütün telekanalları ilə birbaşa yayımlanmışdır.

**«AZƏRTAC». 15.12.03**

**Rusiya Federasiyasının Prezidenti Vladimir Putin Prezident Heydər Əliyevin dəfn mərasimində iştirak etmişdir**

Azərbaycan xalqının dahi oğlu Prezident Heydər Əliyevin dəfn mərasimində iştirak etmək üçün Rusiya Federasiyasının Prezidenti Vladimir Putin dekabrın 15-də Bakıya gəlmişdir. Rusiya rəhbərini və onu müşayiət edən 100 nəfərlik nümayəndə heyətini Binə hava limanında Azərbaycanın Baş naziri Artur Rasizadə, dövlət və hökumət rəsmiləri, Rusiya Federasiyasının Azərbaycandakı səfiri Nikolay Ryabov qarşılamışlar.

Böyük siyasətçi və dövlət xadimi Heydər Əliyevlə bağlı xatirələrini yada salan Rusiya Federasiyasının Prezidenti Vladimir Putin AzərTAC-ın müxbirinə demişdir ki, "Heydər Əliyev təkcə Azərbaycanda deyil, bütün keçmiş ittifaq miqyasında tanınmış şəxsiyyət idi. Onun barəsində müxtəlif fikirlər var idi, amma mən şəxsən onunla tanış olduqdan və birgə işlədikdən sonra Heydər Əliyevə münasibətim kökündən dəyişdi. Başa düşdüm ki, o, heyrətamiz insan, ağıllı, dəqiq, bacarıqlı rəhbər, əsl siyasətçidir. Heydər Əliyevin miqyası Azərbaycanın hüdudlarından çox-çox kənara çıxmışdı. Açıq deyim, Azərbaycanın bəxti gətirmişdir ki, dövlətin başında Avropa və dünya miqyasında tanınan bir siyasətçi dururdu. O, bir tərəfdən beynəlmiləlçi, digər tərəfdən isə öz yurdunun vətənpərvəri idi. Heydər Əliyev həm də Rusiyanın dostu idi. Bu böyük insanın vəfatı onu tanıyanların hamısını, o cümlədən şəxsən məni çox kədərləndirmişdir. Onunla şəxsi, çox səmimi münasibətlərimiz var idi. Allah rəhmət eləsin. Qəbri nurla dolsun.

Rusiya dövlətinin başçısı və onu müşayiət edən nümayəndə heyəti Binə hava limanından Prezident Heydər Əliyevlə vidalaşma mərasimi keçirilən Respublika sarayına gəlmişdir.

Prezident Vladimir Putinin adından ümummilli liderimiz Heydər Əliyevin cənazəsi önünə əklil qoyulmuşdur. Azərbaycan xalqının dahi oğlu Heydər Əliyevin nurlu xatirəsi önündə ehtiramla baş əyən Prezident Vladimir Putin dövlətimizin rəhbəri İlham Əliyevə və ailə üzvlərinə dərin hüznlə başsağlığı vermiş, onlara səbr və təmkin diləmişdir.

Rusiya Federasiyasının Prezidenti Vladimir Putin ilə Azərbaycan dövlətinin rəhbəri İlham Əliyev arasında qısa görüş olmuşdur. Söhbət əsnasında Vladimir Putin İlham Əliyevə bir daha başsağlığı vermiş, Azərbaycan xalqının kədərinə şərik olduğunu, Prezident Heydər Əliyevin işıqlı xatirəsinin onu tanıyanların hamısının qəlbində əbədi yaşayacağını bildirmişdir. Cənab Putin Rusiya-Azərbaycan əlaqələrinin əsası unudulmaz Heydər Əliyev tərəfindən qoyulmuş xətt üzrə bundan sonra da inkişaf edəcəyinə əminliyini söyləmişdir.

Prezident İlham Əliyev Azərbaycanın böyük oğlunun xatirəsinə yüksək ehtiramına və xalqımızın kədərinə qəlbən şərik olduğuna görə, Rusiya dövlətinin başçısı Vladimir Putinə təşəkkürünü bildirmişdir.

Həmin gün Rusiya Federasiyasının Prezidenti Vladimir Putin və onu müşayiət edən nümayəndə heyəti Moskvaya yola düşmüşdür.

**«AZƏRTAC». 15.12.03**

## Moskvanın Meri Yuri Lujkov və RF Xarici İşlər Nazirinin Birinci Müavini Vyaçeslav Trubnikov Prezident Heydər Əliyevin dəfn mərasimində iştirak etmişlər

Təkcə Azərbaycanın deyil, vaxtilə Moskvada işlədiyi dövrdə Sovetlər birliyinin, həmçinin Rusiya paytaxtının inkişafında misilsiz xidmətləri olan Prezident Heydər Əliyevin dəfn mərasimində iştirak etmək üçün Moskva şəhərinin meri Yuri Lujkov və Rusiya Federasiyası xarici işlər nazirinin birinci müavini Vyaçeslav Trubnikov dekabrın 15-də Bakıya gəlmişlər.

Binə hava limanında hörmətli qonaqları Azərbaycanın Baş nazirinin müavini Abid Şərifov qarşılamışdır.

Yuri Lujkov Prezident Heydər Əliyevin vəfatından kədərləndiyini bildirərək AzərTAC-ın müxbirinə demişdir ki, Azərbaycan xalqına ağır itki üz vermişdir. Biz böyük dövlət xadimini, dünya miqyaslı siyasətçini itirmişik. Mən Heydər Əliyevi çoxdan tanıyırdım. O, hələ Moskvada işləyərkən dünyada sayılıb-seçilən rəhbərlərdən biri idi. Onun fenomenal yaddaşı hamını heyrətə salırdı. Heydər Əliyevin yoxluğu onu tanıyanların hamısını dərindən kədərləndirmişdir. Yeri behişt olsun.

Moskva şəhərinin başçısı Yuri Lujkov və Rusiya xarici işlər nazirinin birinci müavini Vyaçeslav Trubnikov Respublika sarayına gələrək Prezident Heydər Əliyevlə vidalaşma mərasimində iştirak etmişlər. Onlar Azərbaycan xalqının unudulmaz oğlu Heydər Əliyevin cənazəsi önünə əklil qoymuş, Prezident İlham Əliyevə dərin hüznlə başsağlığı vermişlər.

Yuri Lujkov və Vyaçeslav Trubnikov həmin gün Moskvaya qayıtmışlar.

**«AZƏRTAC». 15.12.03**

## Gürcüstan Prezidentinin vəzifəsini icra edən Nino Burcanadze Prezident Heydər Əliyevin dəfn mərasimində iştirak etmişdir

Gürcüstan prezidentinin vəzifəsini icra edən Nino Burcanadze və onun başçılıq etdiyi nümayəndə heyəti Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin dəfn mərasimində iştirak etmək üçün dekabrın 15-də Bakıya gəlmişdir.

Binə hava limanında Nino Burcanadzeni Azərbaycanın Baş naziri Artur Rasizadə qarşılamışdır.

Xanım Burcanadze jurnalistlərə ayaqüstü müsahibəsində demişdir ki, Heydər Əliyev Gürcüstan dövləti və xalqı üçün çox işlər görmüşdür. Onun xidmətləri əvəzolunmazdır. Xalqlarımızın, dövlətlərimizin əlaqələrinin və münasibətlərinin inkişafında Heydər Əliyevin müstəsna xidmətləri olmuşdur. Ümid edirəm ki, bizim

əlaqələrimiz bundan sonra da davam edəcəkdir. Mən Heydər Əliyev ilə keçirdiyim görüşləri heç vaxt unutmayacağam. Allahdan ona rəhmət diləyirəm.

Gürcüstan prezidentinin vəzifəsini icra edən Nino Burcanadze hava limanından Prezident Heydər Əliyevlə vidalaşma mərasimi keçirilən Respublika sarayına gəlmişdir. Onun adından Prezident Heydər Əliyevin cənazəsi önünə tər çiçəklərdən hörülmüş əklil qoyulmuşdur.

Gürcü xalqının böyük dostu, hər cür təzyiqlərə baxmayaraq, qərarından dönməyən, insanlara rifah gətirəcək Bakı-Tbilisi-Ceyhan neft və Bakı-Ərzurum qaz kəmərlərinin Gürcüstandan keçməsinə nail olan Prezident Heydər Əliyevin cənazəsi önündə ehtiramla baş əyən Nino Burcanadze Azərbaycan Prezidenti İlham Əliyevə öz adından və Gürcüstan xalqı adından dərin hüznlə başsağlığı vermişdir.

Vida mərasimindən sonra Fəxri Xiyabana gələn Nino Burcanadze Prezident Heydər Əliyevin dəfnində iştirak etmişdir.

Gürcüstan prezidentinin vəzifəsini icra edən Nino Burcanadze həmin gün Tbilisiyə qayıtmışdır.

**«AZƏRTAC». 15.12.03**

## Gürcüstanın sabiq Dövlət Başçısı Eduard Şevardnadze Prezident Heydər Əliyevin dəfn mərasimində iştirak etmişdir

Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin dəfn mərasimində iştirak etmək üçün Gürcüstanın sabiq prezidenti Eduard Şevardnadze dekabrın 15-də Bakıya gəlmişdir.

Binə hava limanında Eduard Şevardnadzeni Azərbaycanın Baş naziri Artur Rasizadə qarşılamışdır.

Jurnalistlərə ayaqüstü müsahibə verən cənab Şevardnadze əziz dostu Heydər Əliyevin vəfatının təkcə Azərbaycan üçün deyil, bütün Qafqaz üçün, eləcə də dünya üçün böyük itki olduğunu vurğuladı. O dedi ki, yaşımın bu çağında uzun illərin sınağından çıxmış sədaqətli dostumu itirməyim məni son dərəcə kədərləndirmişdir. Unudulmaz Heydər Əliyevin həyata keçirmək istədiyi bir sıra böyük layihələr var idi. Ümid edirəm ki, bunlar mütləq həyata keçiriləcəkdir. Heydər Əliyev təkcə mənim deyil, bütün Gürcüstan xalqının dostu və qayğıkeşi idi. Onun dünyasını dəyişməsi gürcüləri də azərbaycanlılar qədər kədərləndirmişdir. Mən Bakıya əziz və unudulmaz dostumla vidalaşmağa, onun ailəsinin, yaxınlarının, Azərbaycan xalqının kədərinə şərik olmağa gəlmişəm.

Eduard Şevardnadze hava limanından Prezident Heydər Əliyevlə vidalaşma mərasiminin keçirildiyi Respublika sarayına gəlmişdir. Onun adından Azərbaycanın ümummilli lideri Heydər Əliyevin cənazəsi önünə əklil qoyulmuşdur. Uzun illərin dostu ilə son dəfə vidalaşan Eduard Şevardnadze Azərbaycan

Prezidenti İlham Əliyevə, onun ailə üzvlərinə dərin hüznlə başsağlığı vermiş, xalqımızın kədərinə şərik olduğunu söyləmişdir.
Gürcüstanın sabiq prezidenti vidalaşma mərasimindən sonra vətənə qayıtmışdır.

**«AZƏRTAC». 15.12.03**

## Gürcüstan prezidentliyinə namizəd Mixail Saakaşvili Prezident Heydər Əliyevin dəfn mərasimində iştirak etmişdir

Azərbaycanın ümummilli lideri, Prezident Heydər Əliyevin dəfn mərasimində iştirak etmək üçün Gürcüstan prezidentliyinə namizəd Mixail Saakaşvili dekabrın 15-də Bakıya gəlmişdir.
Binə hava limanında Mixail Saakaşvili AzərTAC-ın müxbirinə demişdir: "Heydər Əliyev nəinki Azərbaycanda, bütün MDB məkanında və dünyada böyük nüfuza malik bir şəxsiyyət idi. Qafqaz respublikaları arasında, xüsusən Gürcüstanla Azərbaycan arasında əlaqələrin inkişaf etməsində Heydər Əliyevin müstəsna rolu olmuşdur. İndiki və gələcək nəsillər Heydər Əliyevin xidmətlərini heç zaman unutmayacaq, onun yaratdıqlarından bəhrələnəcəklər. Bundan sonra da Azərbaycan-Gürcüstan əlaqələri inkişaf edəcək, hər iki xalqın indiki və gələcək nəsilləri təməli qüdrətli dövlət xadimi Heydər Əliyev tərəfindən qoyulmuş dostluq və qardaşlıq münasibətlərini daha da möhkəmləndirəcəklər. Allah Heydər Əliyevə rəhmət eləsin".
Gürcüstan prezidentliyinə namizəd Respublika sarayına gələrək, Azərbaycan xalqının şöhrətli oğlu, ümummilli liderimiz Heydər Əliyevlə vidalaşma mərasimində iştirak etmiş, Azərbaycan Prezidenti İlham Əliyevə dərin hüznlə başsağlığı vermişdir.
M.Saakaşvili həmin gün Tbilisiyə qayıtmışdır.

**«AZƏRTAC». 15.12.03**

## Ukrayna Prezidenti Leonid Kuçma Prezident Heydər Əliyevin dəfn mərasimində iştirak etmişdir

Böyük dövlət xadimi, dünya miqyaslı siyasətçi, Azərbaycanın ümummilli lideri Prezident Heydər Əliyevin dəfn mərasimində iştirak etmək üçün Ukrayna dövlətinin başçısı Leonid Kuçma dekabrın 15-də Bakıya

gəlmişdir. Ukrayna Prezidentini Binə hava limanında Azərbaycan Respublikasının Baş naziri Artur Rasizadə qarşılamışdır.

Prezident Leonid Kuçma AzərTAC-ın müxbirinə demişdir: "Azərbaycanın əvəzsiz lideri Heydər Əliyev mənim və Ukrayna xalqının yaxın dostu idi. Bizim dostluq münasibətlərimiz onun sayəsində inkişaf edib möhkəmlənmişdir. Heydər Əliyev dahi insan, müdrik şəxsiyyət idi. Əminəm ki, Azərbaycan xalqı Heydər Əliyevin böyüklüyünü hələ bundan sonra daha dərindən dərk edəcəkdir".

Sonra Prezident Leonid Kuçma əziz və unudulmaz dostu Prezident Heydər Əliyevlə vidalaşmaq üçün Respublika sarayına gəlmişdir. Ümummilli liderimiz Heydər Əliyevin cənazəsi önünə Ukrayna dövlətinin başçısı adından əklil qoyulmuşdur.

Ukrayna rəhbəri unudulmaz dostu Heydər Əliyevə ehtiram əlaməti olaraq, onun cənazəsi önündə baş əymiş, Azərbaycan Prezidenti İlham Əliyevə və onun ailə üzvlərinə öz adından və Ukrayna xalqı adından dərin hüznlə başsağlığı vermiş, dünya siyasət aləmində xüsusi yeri və rolu olmuş Heydər Əliyevə Allahdan rəhmət diləmişdir.

Həmin gün Ukrayna dövlətinin başçısı Kiyevə qayıtmışdır.

**«AZƏRTAC». 15.12.03**

## Qazaxıstan Prezidenti Nursultan Nazarbayev Prezident Heydər Əliyevin dəfn mərasimində iştirak etmişdir

Qazaxıstan Respublikasının Prezidenti Nursultan Nazarbayev Azərbaycanın ümummilli lideri, əziz dostu Prezident Heydər Əliyevlə vidalaşmaq üçün dekabrın 15-də Bakıya gəlmişdir.

Prezident Nazarbayevi Binə hava limanında Azərbaycanın Baş naziri Artur Rasizadə qarşılamışdır.

Nursultan Nazarbayev jurnalistlərlə söhbətində demişdir: "Heydər Əliyev mənim yaxın dostum və ən çox hörmət etdiyim bir siyasətçi idi. Hamımıza məlumdur ki, Heydər Əliyev həm MDB ölkələri, həm də öz xalqı üçün çox işlər görüb. Onun öz xalqı qarşısında xidmətlərinin əsl qiymətini gələcək nəsillər verəcəkdir. Əziz və unudulmaz dostum haqqında keçmiş zamanda danışmaq mənim üçün ağrılı olsa da, deməliyəm ki, Heydər Əliyev son nəfəsinə qədər öz xalqının rifahı üçün çalışdı. Allah ona rəhmət eləsin".

Sonra Qazaxıstan Respublikasının Prezidenti Nursultan Nazarbayev xalqımızın ümummilli lideri Heydər Əliyevlə vidalaşma mərasimi keçirilən Respublika sarayına gəlmişdir. Onun adından Prezident Heydər Əliyevin cənazəsi önünə əklil qoyulmuşdur.

MDB ölkələri rəhbərlərinin müdrik ağsaqqalı və güvənc yeri olan həmkarına ehtiramını onun unudulmaz xatirəsi önündə baş əyməklə bildirən Prezident Nursultan Nazarbayev Azərbaycanın rəhbəri İlham Əliyevə və onun ailə üzvlərinə, yaxınlarına dərin hüznlə başsağlığı vermişdir.
Prezident Nursultan Nazarbayev həmin gün öz vətəninə qayıtmışdır.

**«AZƏRTAC». 15.12.03**

## ABŞ Prezidentinin Xüsusi Nümayəndəsi Brent Skoukroft, Dövlət Katibinin Müavini Elizabet Cons, Senator Sem Braunbək Prezident Heydər Əliyevin dəfn mərasimində iştirak etmişlər

ABŞ-Azərbaycan münasibətlərinin inkişafında əvəzsiz xidmətləri olan Prezident Heydər Əliyevin dəfn mərasimində iştirak etmək üçün Birləşmiş Ştatlar Prezidentinin xüsusi nümayəndəsi general Brent Skoukroft, dövlət katibinin müavini Elizabet Cons, senator Sem Braunbək dekabrın 15-də Bakıya gəlmişlər.
Nümayəndə heyəti Prezident Heydər Əliyevlə vidalaşma mərasiminin keçirildiyi Respublika sarayında olmuşdur. Azərbaycanın xilaskar oğlu Heydər Əliyevin cənazəsi önünə ABŞ Prezidenti Corc Buşun adından əklil qoyulmuşdur. General Brent Skoukroft ABŞ-Azərbaycan münasibətlərinin inkişafında müstəsna xidmətləri olmuş Heydər Əliyevə ehtiramını onun nurlu xatirəsi önündə baş əyməklə bildirmişdir. Sonra o, ABŞ Prezidentinin, rəhbərlik etdiyi nümayəndə heyətinin adından və öz adından Azərbaycan dövlətinin başçısı İlham Əliyevə dərin hüznlə başsağlığı vermişdir.
**«AZƏRTAC». 15.12.03**

## İranın Birinci Vitse-Prezidenti Məhəmməd Rza Arif Prezident Heydər Əliyevin dəfn mərasimində iştirak etmişdir

Yeni Azərbaycan dövlətinin qurucusu, dünya şöhrətli siyasi xadim Heydər Əliyevin dəfn mərasimində iştirak etmək üçün İran İslam Respublikasının birinci vitse-prezidenti Məhəmməd Rza Arif dekabrın 15-də Bakıya gəlmişdir. Onu Binə hava limanında respublikamızın Baş nazirinin müavini, Dövlətqaçqınkomun sədri Əli Həsənov qarşılamışdır.
İİR-in birinci vitse-prezidenti Məhəmməd Rza Arif AzərTAC-ın müxbirinə demişdir: “Görkəmli dövlət xadimi Heydər Əliyevin vəfatı İranda da böyük üzüntü və kədər hissi ilə qarşılanmışdır. Azərbaycan-İran münasibətlərinin inkişafında Heydər Əliyevin xidmətləri əvəzsizdir. Azərbaycanlı qardaş və bacılarımın kədərini bölüşərək Tanrının sevimli bəndələrindən olan Heydər Əliyevin şəxsiyyətinə dərin hörmət və ehtiramımı bildirir, Allahdan ona rəhmət diləyirəm”.

Məhəmməd Rza Arif hava limanından Prezident Heydər Əliyevlə vidalaşma mərasimi keçirilən Respublika sarayına gəlmişdir. Azərbaycanın xilaskarı və qurucusu Heydər Əliyevin cənazəsi önünə İran Prezidenti adından əklil qoyulmuşdur. Məhəmməd Rza Arif Azərbaycan Prezidenti İlham Əliyevə İran xalqı adından dərin hüznlə başsağlığı vermişdir.
İranlı qonaq həmin gün vətənə qayıtmışdır.

**«AZƏRTAC». 15.12.03**

## Özbəkistan Ali Məclisinin Sədri Erkin Xəlilov Prezident Heydər Əliyevin dəfn mərasimində iştirak etmişdir

Azərbaycan xalqının böyük oğlu Prezident Heydər Əliyevin dəfn mərasimində iştirak etmək üçün Özbəkistan Ali Məclisin sədri Erkin Xəlilov dekabrın 15-də Bakıya gəlmişdir.
Binə hava limanında onu Azərbaycanın Baş nazirinin müavini, Dövlətqaçqınkomun sədri Əli Həsənov qarşılamışdır.
Özbəkistan parlamentinin sədri AzərTAC-ın müxbirinə demişdir ki, Heydər Əliyev bütün türk dünyasının dahi lideridir. Mən Özbəkistan xalqı adından və öz adımdan, Özbəkistan Prezidenti adından Azərbaycan xalqına dərin hüznlə başsağlığı verirəm. Allah Heydər Əliyevə rəhmət eləsin.
Özbəkistan Ali Sovetinin sədri Erkin Xəlilov Prezident Heydər Əliyevlə vidalaşmaq üçün hava limanından Respublika sarayına gəlmişdir. Onun və Özbəkistan Prezidenti adından görkəmli dövlət xadimi Heydər Əliyevin cənazəsi önünə əklil qoyulmuşdur. Erkin Xəlilov Azərbaycan Prezidenti İlham Əliyevə Özbəkistan dövlətinin başçısı və xalqı, habelə öz adından dərin hüznlə başsağlığı vermişdir.
Parlamentin sədri həmin gün Daşkəndə qayıtmışdır.

**«AZƏRTAC». 15.12.03**

## Fransanın Müdafiə Naziri Mişel Alyo-Mari Prezident Heydər Əliyevin dəfn mərasimində iştirak etmişdir

Fransa Respublikasının müdafiə naziri Mişel Alyo-Mari Azərbaycan xalqının dahi oğlu Heydər Əliyevin dəfn mərasimində iştirak etmək üçün Bakıya gəlmişdir.
Xanım Alyo-Mari Azərbaycanın ümummilli lideri, Fransa xalqının sədaqətli dostu Heydər Əliyevlə vidalaşma mərasimi keçirilən Respublika sarayına gələrək, öz ölkəsinin Prezidenti Jak Şirakın adından xalqımızın böyük oğlunun cənazəsi önünə əklil qoymuşdur.

Müstəqil Azərbaycanın Fransada tanınmasında böyük xidmətləri olmuş Heydər Əliyevin cənazəsi önündə baş əyərək ona dərin ehtiramını bildirən Mişel Alyo-Mari ölkəmizin rəhbəri İlham Əliyevə və onun ailə üzvlərinə dərin hüznlə başsağlığı vermişdir.

**«AZƏRTAC». 15.12.03**

## Dağıstan Respublikası Dövlət Şurasının Sədri Məhəmmədəli Məhəmmədov Prezident Heydər Əliyevin dəfn mərasimində iştirak etmişdir

Dağıstan Respublikası Dövlət Şurasının sədri Məhəmmədəli Məhəmmədov Azərbaycanın ümummilli lideri, Prezident Heydər Əliyevin dəfn mərasimində iştirak etmək üçün dekabrın 15-də Bakıya gəlmişdir. Dağıstan rəhbərini Binə hava limanında Baş nazirin müavini, Dövlətqaçqınkomun sədri Əli Həsənov qarşılamışdır.

Məhəmmədəli Məhəmmədov AzərTAC-ın müxbirinə demişdir ki, Heydər Əliyev Qafqaz xalqları üçün elə böyük işlər görüb ki, bu gün onların hamısı qazandıqları müstəqillik və əmin-amanlıq üçün ona minnətdar olmalıdırlar. Heydər Əliyevin öz xalqı, habelə Dağıstan xalqı qarşısında çox böyük xidmətləri vardır. Dağıstan xalqı heç vaxt onu unutmayacaqdır. Mən Dağıstan xalqı adından və öz adımdan Heydər Əliyevin yaxınlarına, Azərbaycan Prezidenti İlham Əliyevə dərin hüznlə başsağlığı verirəm. Allah əziz və unudulmaz Heydər Əliyevə rəhmət eləsin.

Sonra Dağıstan rəhbəri Prezident Heydər Əliyevlə vidalaşmaq üçün Respublika sarayına gəlmişdir. Onun adından ümummilli liderimiz Heydər Əliyevin cənazəsi önünə əklil qoyulmuşdur. Ehtiram əlaməti olaraq Azərbaycanın dahi oğlunun cənazəsi önündə baş əyən Məhəmmədəli Məhəmmədov respublikamızın Prezidenti İlham Əliyevə və onun ailə üzvlərinə öz adından və Dağıstan xalqı adından dərin hüznlə başsağlığı vermişdir.

Həmin gün Dağıstan Dövlət Şurasının sədri Məhəmmədəli Məhəmmədov Mahaçqalaya qayıtmışdır.

**«AZƏRTAC». 15.12.03**

## Acarıstan Muxtar Respublikasının Başçısı Aslan Abaşidze Prezident Heydər Əliyevin dəfn mərasimində iştirak etmişdir

Azərbaycan xalqının ümummilli lideri, Prezident Heydər Əliyevin dəfn mərasimində iştirak etmək üçün Acarıstan Muxtar Respublikasının başçısı Aslan Abaşidze dekabrın 15-də Bakıya gəlmişdir.

Onu Binə hava limanında Azərbaycan Baş nazirinin müavini, Dövlətqaçqınkomun sədri Əli Həsənov qarşılamışdır.

Aslan Abaşidze AzərTAC-ın müxbirinə demişdir ki, Heydər Əliyevlə çoxlu görüşlər keçirmək mənə də nəsib olmuşdur. Mən bu dahi ilə həmişə fəxr etmişəm. Bu gün onun yoxluğu məni ürəkdən kədərləndirir. O, bizim xatirimizdə qüdrətli siyasətçi və müdrik Prezident kimi qalacaqdır.
Sonra Acarıstan rəhbəri Aslan Abaşidze Prezident Heydər Əliyevlə vidalaşmaq üçün mərasimin keçirildiyi Respublika sarayına gəlmişdir. Onun adından Azərbaycanın ümummilli lideri Heydər Əliyevin cənazəsi önünə əklil qoyulmuşdur. Aslan Abaşidze respublikamızın Prezidenti İlham Əliyevə dərin hüznlə başsağlığı verərək, xalqımızın sonsuz kədərinə şərik olduğunu bildirmişdir.
Fəxri Xiyabana gələn Aslan Abaşidze Prezident Heydər Əliyevin son mənzilə yola salınması mərasimində də iştirak etmişdir.

**«AZƏRTAC». 15.12.03**

## Dünya Şöhrətli Alim İhsan Doğramacı Prezident Heydər Əliyevin dəfn mərasimində iştirak etmişdir

Dünya şöhrətli alim, məşhur həkim, Türkiyənin Bilkənd Universitetinin qurucusu, professor İhsan Doğramacı özünün böyük dostu, xalqımızın ümummilli lideri Heydər Əliyevin dəfn mərasimində iştirak etmək üçün dekabrın 15-də xanımı ilə birlikdə Bakıya gəlmişdir.
Cənab İhsan Doğramacı yaşının ixtiyar çağında uzaq bir yol qət edərək, ağır və kədərli günümüzdə Prezidentimiz Heydər Əliyevə dostluq sədaqətini bir daha nümayiş etdirmişdir.
Professor İhsan Doğramacı və xanımı əziz, unudulmaz Heydər Əliyevlə vidalaşmaq üçün mərasimin keçirildiyi Respublika sarayına gəlmişdir. Onun adından əziz dostu Heydər Əliyevin cənazəsi önünə əklil qoyulmuşdur.
Türk dünyasının lideri Heydər Əliyevə sonsuz ehtiram əlaməti olaraq onun cənazəsi önündə baş əyən cənab İhsan Doğramacı sonra Azərbaycan Prezidenti İlham Əliyevə dərin hüznlə başsağlığı vermişdir.
Həmin gün İhsan Doğramacı və xanımı Türkiyəyə qayıtmışlar.

**«AZƏRTAC». 15.12.03**

## Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevə ünvanlanmış başsağlığı məktubların siyahısı

1. Almaniya Federativ Respublikasının Federal Kansleri cənab Gerhard Şröder
2. Rumıniyanın Prezidenti cənab İon İliesku

3. Yunanıstan Respublikasının Prezidenti cənab Konstantinos Stefanopoulos
4. Suriya Ərəb Respublikasının Prezidenti cənab Bəşar Əl Əssəd
5. İsveçrə Konfederasiyasının Prezidenti cənab Paskal Kuşepin
6. İran İslam Respublikasının Prezidenti Seyid Məhəmməd Xatəmi
7. Fələstin Milli Muxtariyyatının Başçısı cənab Yasir Ərafat
8. Özbəkistan Respublikasının Prezidenti cənab İslam Kərimov
9. Türkmənistanın Prezidenti cənab Saparmurat Niyazov
10. İsrail Dövlətinin Prezidenti cənab Moşe Katsav
11. Makedoniya Respublikasının Prezidenti cənab Boris Traykovski
12. Macarıstan Respublikasının Prezidenti cənab Ferens Madl
13. Polşa Respublikasının Prezidenti cənab Aleksandr Kvasnevski
14. Bolqarıstan Respublikasının Prezidenti cənab Qeorqi Pırvanov
15. Liviya Ərəb Xalq Sosialist Cəmahiriyyəsinin Rəhbəri cənab Müəmmar Qəzzafi
16. Çin Xalq Respublikasının Sədri cənab Xu Szintao
17. Pakistan İslam Respublikasının Prezidenti cənab Pərviz Müşərrəf
18. Litva Respublikasının Prezidenti cənab Rolandas Paksas
20. Səudiyyə Ərəbistanı Kralı Əlahəzrət Fəhd bin Əbdüləziz Al Səud
21. Vəliəhd Abdulla bin Əbdüləziz Al Səud
22. Səudiyyə Ərəbistanı Nazirlər Sovetinin II müavini Sultan bin Əbdüləziz Al Səud
23. KXDR Ali Xalq Məclisinin Rəyasət Heyətinin Sədri cənab Kim En Nam
24. İordaniya Haşimi Krallığının Şahzadəsi Əlahəzrət Al Həsən Bin Tallal
25. Norveç Krallığının Baş Naziri cənab Kell Maqne Bondevik
26. Pakistan İslam Respublikasının Baş Naziri cənab Mir Zəfərullah Xan Camali
27. Avropa Şurasının Baş Katibi cənab Valter Şvimmer
28. Avropa Şurası Parlament Assambleyasının Prezidenti cənab Piter Şider
29. Avropa Komissiyasının Prezidenti cənab Romano Prodi
30. BMT Baş Katibinin müavini, BMT-nin Cenevrə şəhərindəki bölməsinin Baş Direktoru cənab Serqey Orconikidze
31. Avropa İttifaqı Nazirlər Şurasının Baş Katibi, Ali Nümayəndə cənab Xavyer Solana
32. BMT-nin Qaçqınlar üzrə Ali Komissarı cənab Ruud Lübers
33. Gürcüstan Prezidentinin səlahiyyətlərini icra edən xanım Nino Burcanadze
34. Banqladeş Xalq Respublikasının Baş Naziri xanım Xalidə Ziya
35. İran Prezidentinin Xəzər məsələləri üzrə xüsusi nümayəndəsi cənab Mehdi Səfəri

36. İran İslam Respublikası xarici işlər nazirinin müavini cənab Möhsün Əminzadə
37. İtaliya Respublikası xarici işlər nazirinin müavini xanım Marqerita Boniver
38. Qara Dəniz İqtisadi Əməkdaşlıq Təşkilatının Baş Katibi cənab Valeri Çeçelaşvili
39. İsrail Parlamentinin üzvü cənab Ephraim Sneh
40. İran İslam Respublikasının Fövqəladə və Səlahiyyətli Səfiri cənab Əhəd Qəzayi
41. ATƏT-in Bakı Ofisinin Rəhbəri cənab Piter Burkhard
42. Liviya Ərəb Xalq Sosialist Cəmahiriyyəsinin Müvəqqəti işlər vəkili cənab Mustafa Məhəmməd Şaxtur
44. İsveç Krallığının Bakıdakı Konsulu cənab Erdal Otuzbir
45. Litva Respublikasının Fövqəladə və Səlahiyyətli Səfiri xanım Halina Kobeçkayte
46. Gürcüstanın İsveçrə Krallığındakı Fövqəladə və Səlahiyyətli Səfiri cənab A.Çikvaidze
47. Türkiyə Respublikasının Prezidenti cənab Əhməd Necdət Sezər
48. Türkiyə Respublikasının Baş Nazir cənab Rəcəb Tayyib Ərdoğan
49. Türkiyə Respublikasının Böyük Millət Məclisinin Sədri cənab Bülənd Arınç
50. Türkiyə Respublikasının xarici işlər naziri və Baş Nazirin müavini cənab Abdullah Gül
51. Türkiyə Respublikasının Səhiyyə Naziri cənab Rəcəb Akdağ
52. İstanbul millətvəkili cənab Ələddin Böyükkaya
53. İstanbul millətvəkili cənab Egemen Bağış
54. Qafqaz Üniversitetinin Rektoru cənab Necati Kaya
55. Süleyman Dəmirəl Üniversitetinin Rektoru cənab Lütvü Çakmaçı
56. Kocaeli Universitetinin Rektoru cənab Baki Komsuoğlu
57. cənab İsmet Sezgin və cənab Naim Tanyeri
58. Nigeriya Federativ Respublikasının Prezidenti cənab Olusequn Obasanco
59. Koreya Respublikasının Prezidenti cənab No Mu Xyon
60. Yaponiyanın Baş Naziri cənab Cuniçiro Koizumi
61. Enerji Xartiyası Katibliyinin Baş Katibi xanım Ria Kemper
62. Ümumdünya Gömrük Təşkilatı Katibliyinin Baş Katibi Mişel Dane
63. İslam Konfransı Təşkilatının Baş Katibi cənab Əbdülvahid Bilqəziz
64. Ukraynanın xalq deputatı Anatoliy Levin
65. Ukraynanın Azərbaycan Respublikasındakı Səfiri cənab Boris Aleksenko
66. “Varlıq” jurnalının təsisçisi və baş redaktoru cənab Cavad Heyət
67. Azərbaycan-Niderland Cəmiyyətinin Prezidenti cənab Sahil Qasımov
68. Niderlanddakı Türk Kültür Cəmiyyətinin Sədri cənab Cəlal Karagöz
69. Almaniyadakı Azərbaycan Federasiyasının Prezidenti cənab Nüsrət Delbesteh

70. Cənab Boris Titov
71. Birləşmiş Ərəb Əmirliklərində yaşayan Azərbaycan icması
72. Böyük Britaniya və Şimali İrlandiya Birləşmiş Krallığının Kraliçası Ülyahəzrət II Elizabet
73. Baş Nazir cənab Toni Bleyer
74. Yaponiyanın İmperatoru Əlahəzrət Akihito
75. İtaliya Respublikasının Prezidenti cənab Karlo Adzelio Çiampi
76. Avstriya Respublikasının Prezidenti cənab Tomas Klestil
77. UNİCEF-in İcraçı Direktoru xanım Kerol Bellami
78. NATO-nun Baş Katibi Lord Corc Robertson
79. İran İslam Respublikası Məsləhət Şurasının Sədri Əkbər Haşimi Rəfsəncani
80. Misir Ərəb Respublikasının xarici işlər naziri cənab Əhməd Mahir Əl Səyid
81. İran İslam Respublikasının Gilan vilayətinin ostandarı Məsud Soltanifər
82. İİR-nın İmam Xomeyni İmdad Komitəsi Beynəlxalq Humanitar Təşkilatının Sədri Seyid Rza Nəyiri
83. İran İslam Respublikası Strateji Araşdırmalar Mərkəzinin Xarici Siyasət və Beynəlxalq Əlaqələr şöbəsinin rəis müavini Mahmud Vaezi
84. İİR Ali Dini Rəhbərinin beynəlxalq məsələlər üzrə müşaviri Əliəkbər Vilayəti
85. Yaponiya Parlamentinin Müşavirlər Palatasının vitse-prezidenti cənab Soçi Motooka
86. Banqladeş Xalq Respublikasının Dhaka Universitetinin professoru cənab Rafiqul İslam
87. Tbilisi Dövlət Universitetinin rektoru Roin Metreveli
88. Keçid Problemləri və İnkişaf Siyasəti üzrə Bonn Tədqiqat Qrupu
89. Kimyəvi Silahların Qadağan Edilməsi üzrə Təşkilatın Baş Direktoru cənab Roqelio Pfirter
90. Almaniya Federativ Respublikasının sabiq Naziri cənab H.Y.Kesler
91. Türkiyə Respublikası Baş Nazirliyinin Din İşləri İdarəsinin Rəisi cənab Əli Bardakoğlu
92. Almaniyadakı Azərbaycan Kültür Cəmiyyəti
93. Cənab Boris Berezovskiy
94. Slovakiya Respublikasının Prezidenti cənab Rudolf Şuster
95. Vyetnam Sosialist Respublikasının Prezidenti cənab Çan Dık Lıonq
96. Misir Ərəb Respublikasının Prezidenti cənab Məhəmməd Hüsni Mübarək
97. Əfqanıstan İslam Dövlətinin Keçid Hökumətinin Başçısı cənab Həmid Kərzai
98. Belarus Respublikasının Prezidenti cənab Aleksandr Lukaşenko
99. Tacikistan Respublikasının Prezidenti cənab Emoməli Rahmonov
100. Şri Lanka Demokratik Sosialist Respublikasının Prezidenti xanım Çandrika Bandaranayke Kumaratunqa
101. Livan Respublikasının Baş Naziri cənab Rafiq Həriri

102. Bəhreyn Krallığının Azərbaycan Respublikasına akkreditə olunmaq üçün Səfir-namizədi cənab Kamel Saleh Əl-Saleh

103. Pakistan Müsəlman Liqasının Prezidenti cənab Çaudri Şücaət Hüseyn

104. Avropa İttifaqı-Azərbaycan Parlamentlərarası Əməkdaşlıq Komitəsinin həmsədri xanım Ursula Şleyxer

105. Böyük Liviya Ərəb Xalq Sosialist Cəmahiriyyəsi Beynəlxalq İslama Çağırış Cəmiyyətinin katibi cənab Məhəmməd Əhməd Şərif

106. Qara Dəniz Beynəlxalq Tədris Mərkəzinin Baş Direktoru cənab Yiannis Papanikolau

107. Estoniya Prezidenti cənab Arnold Rüütel

108. Pakistan İslam Respublikasının Xarici İşlər Nazirliyinin Avropa İdarəsinin baş direktoru cənab Faiz Məhəmməd Xoso

109. Fransa Respublikası Senatının Fransa-Qafqaz və Fransa-Azərbaycan Dostluq Qrupunun sədri cənab Ambruaz Düpon

110. Ukraynanın Prezidenti cənab Leonid Kuçma

111. Monqolustanın Prezidenti cənab Natsaqin Baqaband

112. Türkiyə Respublikasının Mədəniyyət və Turizm Naziri cənab Erkan Mumcu

113. Əlcəzair Xalq Demokratik Respublikasının Prezidenti cənab Əbdüləziz Botefilika

114. Hacettepe Universitetinin Rektoru cənab Tunçalp Özgen

115. Siyasət jurnalının idarə heyətinin Sədri cənab Gül Kılıcaslan

116. Avropa İnsan Hüquqları Komissarı cənab Alvaro Gil Robles

117. Qana Respublikasının Prezidenti cənab Con Aqyekum Kufur

118. BMT-nin İnkişaf Proqramının İnzibatçısı cənab Mark Mallok Braun

119. UNICEF-in İcraçı Direktoru xanım Karol Bellami

120. “Jhons Hopkins” Universiteti

121. Hindistanın Prezidenti cənab Abdul Kalam

122. Beynəlxalq Miqrasiya Təşkilatının Baş Direktoru cənab Branson Makkinli

123. Pakistan İslam Respublikasının keçmiş Prezidenti cənab Faruq Əhməd Xan Leqari

124. Avropa Komissiyasının Katibi cənab D. Bukikkio

125. Gürcüstanın Avropa Şurasındakı Daimi Nümayəndəsi xanım Lana Qoçoberidze

126. Moldova Prezidenti cənab Vladimir Voronin

127. Nederland Krallığının Baş Naziri cənab Jan Balkenende

128. İran İslam Respublikası Daxili İşlər Nazirinin beynəlxalq işlər və qubernatorluqların iqtisadi məsələlərinin koordinasiyası üzrə müavini cənab Əli Mohəqqer

129. İndoneziya Respublikasının Prezidenti xanım Meqvati Soekarnoputri

130. Namibiya Respublikasının Prezidenti cənab Sem Nuyom

131. Ermənistan Respublikasının Prezidenti cənab Robert Koçaryan

132. Pakistan-Azərbaycan Dostluq Cəmiyyətinin Baş Katibi cənab Zəfər Bəxtəvəri

133. Böyük Britaniya Lordlar Palatasının üzvü Braunstoun Lordu Canner

134. İran İslam Respublikasının Təhlükəsizlik Naziri Əli Yunisi

135. Anqola Respublikasının Prezidenti cənab Joze Eduardu Duş Santuş

136. Kuba Respublikası Dövlət Sovetinin və Nazirlər Sovetinin Sədri cənab Fidel Kastro

137. İran İslam Respublikasının Daxili İşlər Naziri cənab Əbdülvahid Musəvi Lari

138. Mərakeşin Kralı Əlahəzrət VI Məhəmməd

XİN, Dövlət protokolu idarəsinin məlumatı

# RƏSMİ XRONİKA



## AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ İLHAM ƏLİYEVİN 2003-CÜ İLİN OKTYABR-DEKABR AYLARI ƏRZİNDƏ DİPLOMATİK FƏALİYYƏTİ

### Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin andiçmə mərasimi

Müasir tariximizin 35 ilə yaxın bir mərhələsi ümummilli liderimiz Heydər Əlirza oğlu Əliyevin adı ilə bağlıdır. Bu illər ərzində Azərbaycanda bütün sahələrdə misli görünməmiş quruculuq işləri aparılmışdır. Azərbaycan xalqının uzun illər həsrətində olduğu dövlət müstəqilliyinə yenidən qovuşmasından ötən 12 il ərzində ölkəmiz, xalqımız bir sıra ağır sınaqlara məruz qalmış, çox böyük çətinliklərə sinə gərmiş, Ermənistanın hərbi təcavüzü nəticəsində torpaqlarının bir hissəsini müvəqqəti itirmiş, bir milyonadək soydaşımız doğma yurd-yuvasından didərgin salınmışdır. Bütün bunlara baxmayaraq, müstəqilliyimizi qoruyub saxlaya, dövlətçiliyimizi möhkəmləndirə bilmişik. Son on ildə ölkəmizdə geniş islahatlar aparılmış, demokratik, hüquqi, dünyəvi dövlət quruculuğu prosesi getmiş, Azərbaycanın beynəlxalq nüfuzu artmış və o, dünya birliyində layiqli yerini tutmuşdur. Bütün bunlar xalqımızın həqiqi lideri, dünya miqyaslı müdrik dövlət xadimi Heydər Əliyevin uzaqgörən daxili və xarici siyasəti, gecəli-gündüzlü gərgin fəaliyyəti nəticəsində mümkün olmuşdur. Məhz buna görə zəmanəmizin ən tanınmış dövlət başçıları və siyasətçiləri Heydər Əliyevi dünya miqyaslı siyasi xadim, fenomenal rəhbər kimi qiymətləndirirlər.

Heydər Əliyevin ötən on ildə gördüyü nəhəng işlər xalqımızı əmin etdi ki, Azərbaycanda bu siyasətin alternativi yoxdur, ölkəmizin gələcək inkişafı, vətəndaşlarımızın firavan həyatı məhz onun siyasətinin varisliyindən, dövlət hakimiyyətinin həmin siyasətin həyata keçirilməsini təmin edəcək etibarlı əllərə tapşırılmasından asılıdır. Bunu dərindən dərk edən Azərbaycan xalqı yeni minilliyin ilk prezident seçkilərində öz müdrik seçimini etdi, Heydər Əliyevin siyasi xəttinin ən layiqli davamçısı olan Baş nazir İlham Əliyevə səs verdi.

Xalqımızın müdrik oğlu Heydər Əliyevin təbirincə desək, İlham Əliyev yüksək intellektli, praqmatik düşüncəli, müasir dünya siyasətini və iqtisadiyyatını gözəl bilən, enerjili və təşəbbüskar bir şəxsiyyətdir. Belə bir şəxsiyyətin Azərbaycana rəhbər seçilməsini dünyanın tərəqqipərvər, sabitlik, demokratiya, sülh, rifah, inteqrasiya şəraitində yaşamağa üstünlük verən bütün sağlam qüvvələri təbii və labüd bir hadisə kimi qarşılamışlar.

Oktyabrın 31-də paytaxtın Respublika sarayında Azərbaycan Prezidenti İlham Əliyevin təntənəli andiçmə mərasimi keçirilmişdir.

Respublika sarayının bayram tərtibatı salonuna Milli Məclisin üzvləri, siyasi partiyaların, ictimai təşkilatların, ölkə ictimaiyyətinin nümayəndələri – ziyalılar, gənclər, hərbçilər, din xadimləri, əməkçilər, andiçmə mərasimində iştirak etməyə gəlmiş xarici ölkələrin təmsilçiləri, səfirlər, digər qonaqlar, mətbuat işçiləri toplaşmışdılar.

Salona toplaşanlar Gürcüstan Prezidenti Eduard Şevardnadzeni, Rusiya Federal Məclisi Federasiya Şurasının sədri Sergey Mironovu, Türkiyə Baş nazirinin müavini, dövlət naziri Əbdüllətif Şənəri, İranın vitse-prezidenti Seyid Məhəmmədəli Əbtəhini və Ukraynanın Baş naziri Viktor Yanukoviçi səmimiyyətlə qarşıladılar.

Mərasim iştirakçıları Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevi ayağa qalxaraq hərarətlə, gurultulu və sürəkli alqışlarla qarşıladılar.

Ümumxalq səsverməsi ilə Azərbaycan Respublikasının Prezidenti seçilmiş İlham Heydər oğlu Əliyevin andiçmə mərasimi açıq elan olundu.

Ölkəmizin Silahlı Qüvvələrinin əsgərləri Azərbaycan Respublikasının dövlət bayrağını təntənəli marşın sədaları altında səhnəyə gətirdilər.

Azərbaycan Respublikasının Konstitusiyası dinimizin müqəddəs kitabı Qurani-Şərif ilə yanaşı qoyulmuşdu.

Respublika Mərkəzi Seçki Komissiyasının sədri Məzahir Pənahova söz verildi. O dedi:

- Möhtərəm cənab İlham Heydər oğlu Əliyev!

Hörmətli xanımlar və cənablar!

Bu il oktyabrın 15-də xalqımız mühüm tarixi hadisənin şahidi oldu. Müstəqil Azərbaycan Respublikasında azad və ədalətli prezident seçkiləri keçirildi. Tam məsuliyyətlə deyə bilərəm ki, yeni Seçki Məcəlləsi əsasında keçirilən bu seçkilər, ümumiyyətlə, Azərbaycanda seçki sisteminin təkmilləşdirilməsində yeni bir mərhələ oldu. Ölkəmizdə mövcud olan siyasi plüralizm əsasında formalaşdırılmış seçki komissiyalarında 32 mindən artıq həlledici səs hüquqlu üzv, habelə qeydə alınmış namizədlərin və namizədləri qeydə alınmış siyasi partiyaların təyin etdiyi məşvərətçi səs hüquqlu üzvlər daxil olmaqla, 50 minə yaxın komissiya üzvü çalışırdı. Onların fəaliyyəti beynəlxalq standartlara uyğun hazırlanmış və demokratik, şəffaf seçkilər üçün normal şərait təmin edən qanunla tənzimlənirdi.

Mərkəzi Seçki Komissiyası tərəfindən yüksək peşəkarlıq səviyyəsində hazırlanan və beynəlxalq müşahidəçilər tərəfindən çox müsbət qiymətləndirilən 50-dən artıq təlimat, izah və qaydalar, faktiki olaraq, bütün seçki prosedurasını əhatə etmişdi. Seçki tədbirlərinin lazımi maddi-texniki təchizatı təmin olunmuşdu.

Geniş aşkarlıq şəraitində hazırlanıb keçirilən seçkiləri siyasi partiyaların, seçicilərin təşəbbüs qruplarının, ictimai təşkilatların çoxsaylı təmsilçiləri, habelə nüfuzlu beynəlxalq təşkilatların nümayəndələri və yerli vətəndaşlarımız da daxil olmaqla, 44 mindən artıq müşahidəçi izləmişdir. Azərbaycanın və dünyanın 70-dən yuxarı aparıcı kütləvi informasiya vasitələrinin nümayəndələri tədbirin bütün mərhələlərini əhatəli işıqlandırırdı.

Mərkəzi Seçki Komissiyasının nəzdindəki "Seçkilər" İnformasiya Mərkəzi səsvermə başlanandan nəticələr müəyyənləşdirilib başa çatanadək seçicilərin fəallığı, səsvermənin gedişi və ilkin nəticələri haqqında məlumatları mütəmadi qəbul edir, kütləvi informasiya vasitələrinin köməyi ilə ictimaiyyətə çatdırırdı.

Beş mindən artıq məntəqə seçki komissiyasının protokollarındakı məlumatlar səsvermənin başa çatmasından keçən 12 saat ərzində Mərkəzi Seçki Komissiyasının İnternet saytına qoyularaq dünya ictimaiyyətinə çatdırıldı ki, bu da seçkilərin aşkarlığı baxımından mühüm nailiyyət kimi xüsusi qeyd edilməlidir.

Seçkilərin yüksək səviyyədə hazırlanması və keçirilməsi üçün böyük əmək sərf olunmuşdur. Bu ilki prezident seçkilərini fərqləndirən mühüm cəhət odur ki, ölkəmizin vətəndaşları, Azərbaycan Respublikasının xarici ölkələrdəki diplomatik nümayəndəliklərində səs verən soydaşlarımız da daxil olmaqla, seçkilərdə böyük fəallıq göstərmişlər. Seçicilərin 71,23 faizi öz seçki hüququnu həyata keçirmək üçün həvəslə seçki məntəqələrinə gəlmişlər. Onların böyük əksəriyyəti vətənin tərəqqisi, xalqımızın xoşbəxt gələcəyi, şəhər və kəndlərimizdə əmin-amanlıq naminə prezidentliyə layiqli namizəd cənab İlham Heydər oğlu Əliyevə səs vermişdir. Cənab İlham Əliyev 76,84 faiz səs toplayaraq, növbəti beş il müddətinə Azərbaycan Respublikasının Prezidenti seçilmişdir.

Möhtərəm İlham Heydər oğlu Əliyev!

İcazə verin, Azərbaycan Respublikasının Prezidenti seçilməyiniz münasibətilə Sizi səmimi qəlbdən təbrik edim, dövlətimizin başçısı kimi son dərəcə çətin və məsuliyyətli işinizdə Sizə böyük uğurlar, möhkəm cansağlığı, səadət arzulayım.

Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin sədri Fərhad Abdullayev və Konstitusiya Məhkəməsinin hakimləri Fikrət Babayev, Bəhmən Qəribov, Rafael Qvaladze, Eldar Məmmədov, İsa Nəcəfov, Sona Salmanova və Əlǝddin Sultanov səhnəyə dəvət olundular.

Azərbaycan Respublikasının Prezidenti İlham Heydər oğlu Əliyev salondakıların sürəkli alqışları altında səhnəyə dəvət edildi.

Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin sədri Fərhad Abdullayevə söz verildi. O dedi:

- Hörmətli xanımlar və cənablar!

Bildiyiniz kimi, Azərbaycan Respublikasının Konstitusiya Məhkəməsi 2003-cü il 28 oktyabr tarixli qərarı ilə prezident seçkilərinə dair Mərkəzi Seçki Komissiyasının protokolunda əks etdirilmiş nəticələri təsdiqləyərək cənab İlham Heydər oğlu Əliyevi Azərbaycan Respublikasının Prezidenti seçilmiş elan etmişdir.

Azərbaycan Respublikasının Prezidenti seçilmiş cənab İlham Heydər oğlu Əliyevi Azərbaycan Respublikası Konstitusiyasının 103-cü maddəsinə uyğun olaraq, Konstitusiya Məhkəməsi hakimlərinin iştirakı ilə andiçməyə dəvət edirəm.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev əlini Azərbaycan Respublikasının Konstitusiyasının üzərinə qoyaraq dedi:

- Azərbaycan Respublikası Prezidentinin səlahiyyətlərini həyata keçirərkən Azərbaycan Respublikasının Konstitusiyasına əməl edəcəyimə, dövlətin müstəqilliyini və ərazi bütövlüyünü qoruyacağıma, xalqa ləyaqətlə xidmət edəcəyimə and içirəm!

Sonra Prezident müqəddəs Qurani-Şərifə əl basaraq dedi:

- Əlimi Qurani-Şərifə basaraq and içirəm, Azərbaycan xalqının əsrlər boyu yaratdığı milli-mənəvi dəyərlərə və ənənələrə sadiq qalacağam, onları daima uca tutacağam.

Azərbaycan Respublikasının dövlət himni əzəmətlə səsləndi.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev andiçmə mərasimində geniş nitq söylədi.

Dövlətimizin başçısının nitqi böyük diqqətlə dinlənildi və dəfələrlə gurultulu, sürəkli alqışlarla qarşılandı.

Prezident İlham Əliyevin nitqinin mətni qəzetin birinci və ikinci səhifələrində dərc edilir.

Azərbaycanın dövlət bayrağı səhnədən aparıldı.

Sonra incəsənət ustalarının iştirakı ilə böyük bayram konserti oldu.

Konsertin iştirakçıları İlham Əliyevi Prezident vəzifəsinə başlaması münasibətilə ürəkdən təbrik etdilər.

Milli Məclisin sədri Murtuz Ələsgərov, Prezidentin İcra Aparatının rəhbəri Ramiz Mehdiyev, Baş nazirin birinci müavini Artur Rasizadə, parlament sədrinin və Baş nazirin müavinləri, nazirlər, komitə və şirkət rəhbərləri, digər rəsmi şəxslər andiçmə mərasimində iştirak edirdilər.

## *Azərbaycan Respublikasının Prezidenti İlham Heydər oğlu Əliyevin andiçmə mərasimində nitqi*

- Hörmətli xanımlar və cənablar!

Hörmətli qonaqlar!

Azərbaycan Respublikasının Prezidenti seçilməyimlə mənə göstərilmiş bu böyük etimada görə Azərbaycan seçicilərinə, Azərbaycan vətəndaşlarına, bütün Azərbaycan xalqına öz dərin təşəkkürümü bildirirəm.

Mən bu böyük etimadı doğruldacağam, bu vəzifənin öhdəsindən layiqincə gələcəyəm, Heydər Əliyevin siyasətini davam etdirəcəyəm.

Oktyabrın 15-də Azərbaycan xalqı seçki məntəqələrinə gələrək Heydər Əliyev siyasətinə səs veribdir. Sülhə, əmin-amanlığa, tərəqqiyə, inkişafa, quruculuğa, sabitliyə səs veribdir. Bu siyasətə Azərbaycanda alternativ yoxdur.

Heydər Əliyevin siyasəti Azərbaycana böyük uğurlar gətiribdir. Bütün sahələrdə Azərbaycan inkişaf edir, uğurlar qazanır. Beynəlxalq aləmdə Azərbaycan yüksəlir, uğurlar qazanır. Azərbaycan beynəlxalq aləmdə özünəlayiq yerini tuta bilibdir, Azərbaycanın nüfuzu artıbdır. İndi Azərbaycanla hesablaşırlar, Azərbaycana hörmət edirlər. Regionda bütün beynəlxalq, irimiqyaslı layihələr Azərbaycanın iştirakı ilə, onun milli maraqlarının nəzərə alınması ilə həyata keçirilir.

Beynəlxalq təşkilatlarda Azərbaycan çox uğurlu fəaliyyət göstərir, onun nüfuzu artır. Avropa Şurası kimi mötəbər beynəlxalq təşkilat Azərbaycanın təkidi ilə Ermənistanı işğalçı dövlət kimi tanıyıbdır. Bu proses davam edəcəkdir. Azərbaycan beynəlxalq aləmdə, dünya miqyasında daha da möhkəm mövqelərə sahib olacaqdır.

Qonşularımızla münasibətlərimiz çox uğurla inkişaf edir. Həm ikitərəfli münasibətlərimiz güclənir, həm də regional əməkdaşlıq inkişaf edir. Bu gün andiçmə mərasimində iştirak etmək üçün Azərbaycana, Bakıya gəlmiş qonşu dövlətlərin görkəmli dövlət xadimlərinin iştirakı bunu bir daha sübut edir.

Mən bu fürsətdən istifadə edərək, bu gün bizimlə birlikdə mərasimdə iştirak edən Gürcüstan Prezidenti cənab Eduard Şevardnadzeni, Rusiya Federal Məclisi Federasiya Şurasının sədri cənab Sergey Mironovu, Türkiyə Cümhuriyyəti Baş nazirinin müavini cənab Əbdüllətif Şənəri, İran İslam Respublikasının vitse-prezidenti cənab seyid Məhəmmədəli Əbtəhini və Ukrayna hökumətinin başçısı cənab Viktor Yanukoviçi salamlayıram.

Azərbaycan hərtərəfli inkişaf edir, iqtisadiyyatı güclənir. Azərbaycanda iqtisadi islahatlar aparılır. Bu islahatların nəticəsində ölkəmiz qısa müddət ərzində öz iqtisadiyyatının yüksəlişini təmin etmişdir. İqtisadiyyatın ən mühüm göstəricisi – ümumi daxili məhsul son beş il ərzində hər il 10 faiz artır, inflyasiyanın səviyyəsi 2 faiz təşkil edir. Halbuki, on il bundan əvvəl inflyasiyanın səviyyəsi 1600 faiz idi.

Azərbaycanda özəl sektor uğurla inkişaf edir. Çox sevindirici haldır ki, ümumi daxili məhsulun formalaşmasında özəl sektorun payı 70 faiz təşkil edir. Sahibkarlar sinfi yaranır. Genişmiqyaslı özəlləşdirmə proqramı həyata keçirilir. Torpaq islahatı aparılıbdır və torpaq artıq kəndlilərin özəl mülkiyyətinə verilibdir. Bunun nəticəsində kənd təsərrüfatı istehsalı artır. Bütün bunlar onu göstərir ki, Azərbaycanda Heydər Əliyevin rəhbərliyi altında aparılan iqtisadi islahatlar öz gözəl nəticələrini verməkdədir.

Azərbaycana xarici sərmayə qoyuluşu çox yüksək səviyyədədir və bu proses davam edir. Sizə deyə bilərəm ki, bütün mənbələrdən qoyulan sərmayələrin həcmi 15 milyard dollar təşkil edir. Adambaşına xarici

sərmayənin həcminə görə Azərbaycan keçmiş sovet respublikaları arasında qabaqcıl yerdədir, bəzi Şərqi Avropa dövlətlərini də qabaqlayır.

Amma heç kəsə sirr deyil ki, sərmayələr, xüsusilə xarici sərmayələr sabitlik olan ölkələrə qoyulur. Çünki hər bir sərmayədar o qədər də risk etmək istəmir. Bu baxımdan da Azərbaycan sərmayə qoyuluşu üçün çox münasib ölkədir. Azərbaycanda son illər ərzində hökm sürən sabitlik, ictimai-siyasi asayiş sərmayələrin cəlb olunması istiqamətində böyük addımlar atmağa imkan veribdir.

Əlbəttə, bizim hamımızın borcudur ki, Azərbaycanda yaranmış bu sabitliyi qoruyaq, saxlayaq, möhkəmləndirək. Əgər Azərbaycanda sabitliyin pozulmasına kimsə can atarsa, biz buna imkan verməyəcəyik, Azərbaycan xalqının rahat, təhlükəsiz, sabitlik şəraitində yaşamasını təmin edəcəyik.

Bu sabitlik bizə imkan verəcək ki, gələcəkdə Azərbaycanı daha da sürətlə, hərtərəfli inkişaf etdirək. Bu barədə bizim çoxlu planlarımız vardır. Azərbaycanın hər bir sahəsi inkişaf etməlidir.

Təbii ki, Azərbaycan iqtisadiyyatının əsas istiqaməti onun neft strategiyasının həyata keçirilməsidir. 1994-cü ildə Heydər Əliyev tərəfindən başlanmış yeni neft strategiyası Azərbaycana böyük uğurlar gətiribdir. “Əsrin müqaviləsi”nin imzalanması ilə bu strategiya artıq 9 ildir ki, həyata keçirilir. Bunun nəticəsində Azərbaycan öz neft-qaz ehtiyatlarını çox səmərəli şəkildə dünya bazarlarına çıxarır. Azərbaycan Xəzər dənizinin özünə məxsus olan sektorunda xarici şirkətlərlə çox uğurlu əməkdaşlıq edir. Azərbaycanın neft sənayesinə on milyard dollar sərmayə qoyulubdur. On minlərlə yeni iş yerləri açılıb, qısa müddət ərzində qazma qurğuları, platformalar, neft kəmərləri, neft terminalları və ölkəmiz üçün vacib olan digər infrastruktur yaradılıbdır.

Azərbaycan öz neftini dünya bazarlarına artıq iki kəmər vasitəsilə çıxarır. Bakı-Novorossiysk neft kəməri ilə hazırda ildə 2,5 milyon ton neft ixrac olunur. Bakı-Supsa neft kəməri vasitəsilə qərb istiqamətində ildə 6,7 milyon ton neft ixrac edilir. Hazırda Bakı-Tbilisi-Ceyhan neft kəməri inşa edilir və artıq işlərin 40 faizi görülübdür. Artıq bu kəmərin inşasına 1 milyard 200 milyon dollar sərmayə qoyulubdur. Gələn ilin sonunda biz bunun açılışını qeyd edəcəyik.

Azərbaycan böyük qaz ehtiyatları olan “Şahdəniz” yatağında uğurla işləməyə başlayıbdır. Bakı-Ərzurum qaz kəmərinin tikintisinə vəsait qoyulur və əgər hər şey cədvəl üzrə gedərsə, 2006-cı ildə Azərbaycan qazı Avropaya çatdırılacaqdır.

Bütün bu planların, görülən işlərin əsası 1994-cü ildə qoyulubdur. O vaxt, çətin və mürəkkəb şərait vardı, Azərbaycan çox riskli bir ölkə sayılırdı. Azərbaycana sərmayənin cəlb edilməsi üçün cənab Prezident Heydər Əliyev böyük işlər görmüşdür. Nəhayət, əfsanəni reallığa, gerçəkliyə çevirmişdir.

Neft strategiyasının tərkib hissəsi ondan ibarətdir ki, neftdən əldə olunan gəlirlər Azərbaycan xalqına səmərəli şəkildə xidmət etsin. Bu məqsədlə Azərbaycan Dövlət Neft Fondu yaradılmışdır. Fondun yaradılması Azərbaycanın müasir tarixində çox əlamətdar hadisədir. O, bütün beynəlxalq standartlara cavab verən, şəffaf qurumdur. Beynəlxalq maliyyə qurumları onun fəaliyyətini çox yüksək qiymətləndirirlər.

Hazırda Neft Fondunda 800 milyon dollar vəsait yığılıbdır. Bu, xalqın vəsaitidir. Buna görə də Neft Fondunun fəaliyyəti haqqında ictimaiyyətə mütəmadi qaydada məlumat verilir. Hər bir vətəndaş bilməlidir ki, onun ölkəsinin valyuta ehtiyatları nə qədərdir və necə, hansı istiqamətlərə sərf olunur.

Gələcəkdə Azərbaycan öz iqtisadi potensialını inkişaf etdirdikcə, Azərbaycanda yeni neft yataqları kəşf olunandan sonra, Bakı-Tbilisi-Ceyhan neft kəməri istismara veriləndən sonra, əlbəttə, ölkəmizin imkanları daha da artacaqdır. Hər il Azərbaycana milyardlarla dollar vəsait daxil olacaqdır. Bu vəsaitlə Azərbaycanda bütün sahələrdə quruculuq işləri aparılacaq, sosial problemlərin həlli istiqamətində böyük işlər görüləcəkdir.

Bilirsiniz ki, Neft Fondundan ayrılan vəsait, ilk növbədə, Azərbaycanda ən çətin vəziyyətdə yaşayan qaçqın-köçkünlərə, onların həyat səviyyəsinin yaxşılaşdırılması üçün sərf olunur. Cənab Prezident Heydər Əliyevin Fərmanları ilə bu məqsəd üçün 70 milyon dollar ayrılmışdır və qaçqın-köçkünlərdən ötrü yeni qəsəbələr, şəhərciklər, evlər tikilir. On minlərlə qaçqın və köçkün artıq çadır düşərgəsindən çıxarılaraq müasir evlərə köçürülüb və bu proses davam edəcəkdir. Biz gələcəkdə də bu məsələyə çox böyük diqqət göstərəcəyik. Əminəm ki, yaxın gələcəkdə işğaldan əziyyət çəkən bütün qaçqın və köçkünlər müasir şəraitlə təmin olunacaqlar.

Azərbaycanda digər sosial məsələlər də öz həllini tapır. Bilirsiniz ki, bu yaxınlarda cənab Prezidentin Sərəncamları ilə səhiyyə, təhsil, mədəniyyət işçilərinin və başqalarının əmək haqqı 50 faiz artırılmışdır. Pensiyalar 40 faiz artırılmışdır. Bu, bir daha onu göstərir ki, sosial məsələlər Prezidentimizin daim diqqət mərkəzində olmuşdur. Bu siyasət bundan sonra da davam etdiriləcəkdir. Ölkənin bütün imkanları buna xidmət edəcəkdir. Təsadüfi deyil ki, gələn ilin büdcəsinin 60 faizi sosial məsələlərə sərf olunacaqdır.

Azərbaycan gələcəkdə çox zəngin və qüdrətli ölkəyə çevriləcəkdir. Neft strategiyasını davam etdirərək, qısa müddət ərzində ölkəmizi hərtərəfli inkişaf etdirəcəyik.

Xüsusilə qeyri-neft sektoruna böyük diqqət göstəriləcəkdir. Yeni zavodlar, fabriklər istifadəyə veriləcəkdir. Sahibkarlığın inkişafı üçün tədbirlər planı, Azərbaycanda iqtisadi inkişaf proqramı hazırlanır. Bu çoxşaxəli inkişaf proqramı Azərbaycanı qısa müddət ərzində zəngin dövlətə çevirməyə imkan verəcəkdir. Bizdə bütün imkanlar – təbii sərvətlər, insan potensialı və ən önəmlisi, xalqın iradəsi vardır. Biz hamımız birləşərək və bir nöqtəyə vuraraq Azərbaycanı zəngin, qüdrətli dövlətə çevirəcəyik.

Azərbaycanda ordu quruculuğu sahəsində də böyük işlər görülmüşdür. Ölkəmizdə güclü ordu yaradılmışdır və bu proses davam edəcəkdir. Bu məsələ daim mənim diqqət mərkəzimdə olacaqdır. Azərbaycanın çox güclü ordusu olmalıdır. O, qarşıda duran bütün məsələləri həll etmək iqtidarında olmalıdır. Əminəm ki, Azərbaycanın iqtisadi potensialı ordumuzun ən yüksək standartlara cavab verməsinə və qarşıda duran bütün vəzifələri yerinə yetirməsinə imkan verəcəkdir.

Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi ölkəmiz üçün ən ağır problemdir. Uzun illərdir ki, biz atəşkəs rejimində yaşayırıq. Təəssüflər olsun ki, bu məsələ ilə bilavasitə məşğul olan ATƏT-in Minsk

qrupunun fəaliyyəti hələlik heç bir nəticə vermir. Biz hələ də ümidlərimizi itirmirik. Hələ də ümid edirik ki, həmsədrlər bu məsələ ilə daha ciddi şəkildə, məsuliyyətlə məşğul olacaqlar. Bu məsələ öz həllini tapmalıdır. Bu problem yalnız bir neçə prinsiplər, beynəlxalq hüquq normaları əsasında həll oluna bilər: Azərbaycanın torpaqları işğaldan azad olunmalıdır, bir milyon qaçqın və köçkün öz doğma yurdlarına qayıtmalıdır, ölkəmizin ərazi bütövlüyü bərpa edilməlidir. Azərbaycan heç vaxt bu vəziyyətlə, torpaqlarının işğal altında qalması ilə barışmayacaqdır. Hamı bilməlidir ki, sülh tərəfdarı olmağımıza baxmayaraq, müharibənin yenidən başlanmamasını və bu məsələnin sülh yolu ilə həllini istəməyimizə baxmayaraq, bizim səbrimiz də tükənməz deyildir. Azərbaycan öz doğma torpaqlarını nəyin bahasına olursa-olsun, azad edəcəkdir.

Mən Azərbaycanın xoşbəxt gələcəyinə inanıram. Əminəm ki, ölkəmiz bundan sonra da inkişaf edəcək, daha da güclənəcəkdir. Azərbaycanda demokratiya daha da inkişaf edəcək, siyasi plüralizm, söz azadlığı təmin olunacaqdır. Ölkəmiz müasir dövlətə çevriləcəkdir. Bütün bunları etmək üçün Azərbaycanda çox işlər görmək lazımdır.

Ancaq bütün bunları həyata keçirmək və Azərbaycanı qüdrətli dövlətə çevirmək üçün ən başlıcası, ölkədə Heydər Əliyevin siyasəti davam etdirilməlidir. Bu gün yüksək kürsüdən çıxış edərkən mən Azərbaycan xalqına söz verirəm ki, bu siyasətə sadiq qalacağam, heç vaxt bu yoldan dönməyəcəyəm, Heydər Əliyevin siyasətini davam etdirəcəyəm.

Mən bu gün bu yüksək kürsüdən əziz Prezidentimiz cənab Heydər Əliyevə müraciət edərək deyirəm: Əziz Prezident, əsərin olan müasir Azərbaycanı gücləndirəcəyik, zənginləşdirəcəyik, hərtərəfli inkişaf etdirəcəyik, Sizin yolunuzla yeni qələbələrə doğru gedəcəyik.

Yaşasın Azərbaycan xalqının milli lideri, müasir Azərbaycanın qurucusu Heydər Əliyev!

Yaşasın qəhrəman Azərbaycan xalqı!

Yaşasın azad və müstəqil Azərbaycan!

## *“Gülüstan” sarayında rəsmi qəbul*

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin təntənəli andiçmə mərasimindən sonra, oktyabrın 31-də “Gülüstan” sarayında bu əlamətdar hadisə münasibətilə rəsmi qəbul təşkil olunmuşdur.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev rəsmi qəbulda nitq söylədi.

Rusiya Federal Məclisi Federasiya Şurasının sədri Sergey Mironov, Ukraynanın Baş naziri Viktor Yanukoviç, Türkiyə Baş nazirinin müavini, dövlət naziri Əbdüllətif Şənər və Gürcüstanın xarici işlər naziri İrakli Menaqarişvili qəbulda çıxış edərək, İlham Əliyevi Azərbaycanın dövlət başçısı seçilməsi və Prezident kimi and içərək, öz vəzifəsinə başlaması münasibətilə səmimi qəlbdən təbrik etdilər.

Prezident İlham Əliyev yekun nitqi söylədi.

Respublikamızın incəsənət ustalarının çıxışları hərarətlə qarşılandı.

Qəbulda Milli Məclisin sədri Murtuz Ələsgərov, Prezidentin İcra Aparatının rəhbəri Ramiz Mehdiyev, parlament sədrinin və Baş nazirin müavinləri, nazirlər, komitə və şirkət rəhbərləri, səfirlər və digər rəsmi şəxslər, Azərbaycan ictimaiyyətinin nümayəndələri iştirak edirdilər.

### *Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin yekun nitqi*

- Hörmətli xanımlar və cənablar!

Hörmətli qonaqlar!

Mən bu tədbirdə iştirak edən xarici ölkələrdən gəlmiş qonaqları bir daha salamlamaq istəyirəm.

Mən andiçmə mərasimində iştirak etmək üçün ölkəmizə gəlmiş Sergey Mixayloviç Mironovu salamlamaq istəyirəm. Bu gün biz onunla görüşdük və bir çox məsələləri müzakirə etdik.

Rusiya ilə Azərbaycan arasında son illər yaranmış münasibətlərdən biz çox razıyıq. Bu münasibətlərin əsası Rusiya Federasiyasının Prezidenti Vladimir Putinin Azərbaycana səfəri zamanı qoyulmuşdur. İki ölkənin prezidentinin – Vladimir Putinin və Heydər Əliyevin şəxsi münasibətləri və qarşılıqlı hörməti ölkələrimiz arasında münasibətlərin inkişafının, möhkəmlənməsinin və yeni məzmun almasının əsasını qoymuşdur. Ötən 3 il ərzində bütün istiqamətlərdə - həm siyasi, həm mədəni sahələrdə böyük tərəqqi əldə olunmuş və əlaqələrimiz keyfiyyətcə yeni mərhələlərə qədəm qoymuşdur. Bu, bir daha sübut edir ki, rəhbərlərin siyasi iradəsi olarsa, problemlər həllini tapacaqdır. Bu gün Rusiya ilə Azərbaycan arasında həll olunmayan heç bir problem yoxdur. Bütün məsələlər, hətta uzun illərdən bəri yığılıb qalmış və kimin üçünsə həlli qeyri-mümkün görünən mürəkkəb məsələlər də hər iki tərəfin mənafeyinə uyğun olaraq həll edilmişdir.

Əminəm ki, gələcəkdə də Rusiya və Azərbaycan arasında münasibətlər dostluq, qarşılıqlı anlaşma və strateji tərəfdaşlıq zəminində qurulacaqdır. Mən vaxt tapıb bizim tədbirimizdə iştirak etdiyi üçün Sergey Mixayloviçə öz təşəkkürümü bildirirəm.

Bu gün bu tədbirdə bizə dost ölkə olan Ukraynanın Baş naziri də iştirak edir. Azərbaycan və Ukraynanı dərin tarixi köklər birləşdirir. Müstəqillik əldə etdikdən sonra ölkələrimizin əsl tərəfdaş olması çox sevindiricidir. Biz beynəlxalq təşkilatlarda əməkdaşlıq edirik, demək olar ki, həmişə eyni mövqedən çıxış edirik. Bizim ikitərəfli əlaqələrimiz real məzmuna malikdir. Bu sahədə məlumatı olan şəxs kimi deməliyəm ki, əlaqələrimizin inkişafında ölkələrimizin prezidentləri - Leonid Kuçmanın və Heydər Əliyevin dostluq münasibətlərinin böyük rolu vardır.

Sentyabr ayında Yaltada Ukrayna Prezidentinin məni səmimi qəbul etməsi bir daha onu göstərir ki, gələcəkdə də ölkələrimiz arasında dostluq və qardaşlıq münasibətləri inkişaf edəcəkdir.

Mən bizim bugünkü tədbirimizdə iştirak etdiyinə görə Viktor Fyodoroviçə təşəkkürümü bildirirəm və ümidvaram ki, ölkələrimiz gələcəkdə də bir-birinə dost və qardaş münasibəti bəsləyəcək, xalqlarımız daha da yaxın olacaqlar.

Bizim bugünkü tədbirimizin rəsmi hissəsindən sonra Eduard Amvrosiyeviç Şevardnadze vətənə qayıtdı. Bu gün onun çox gərgin iş cədvəli var idi. O, Azərbaycana gəlməzdən əvvəl çox mühüm tədbir keçirmişdir. Hamımız bilirik ki, iki gündən sonra Gürcüstanda parlament seçkiləri olacaqdır. Əlbəttə, mən bu gün orada təbliğat kampaniyasının son günü olmasına rəğmən Eduard Şevardnadzenin vaxt tapıb ölkəmizə gəlməsini çox yüksək qiymətləndirirəm. Bu ölkəni – müasir Azərbaycanı onun dostu və qardaşı Heydər Əliyev yaratmışdır. O, öz Vətəninə, öz ailəsinə, öz evinə gəlmişdir.

Mən Baş nazir vəzifəsinə təyin olunduqdan sonra MDB dövlət başçılarının zirvə görüşündə ilk dəfə iştirak etdim. Orada mən Eduard Amvrosiyeviçlə görüşmək şərəfinə nail oldum. O, məni çox səmimiyyətlə və hərarətlə qarşıladı. Bizim rəhbərlərimiz - Eduard Şevardnadze və Heydər Əliyev arasında olan münasibətlər həmişə, demək olar ki, 40 ilə yaxın müddət ərzində qardaşlıq münasibətləri olmuşdur. Onlar bir-birinə həmişə kömək etmişlər, istər hüquq-mühafizə orqanlarında çalışdıqları dövrdə, istər respublikalarımıza rəhbərlik etdikləri dövrdə, istərsə də Moskvada işlədikləri dövrdə, Siyasi Büronun üzvü olarkən bir-birilərini yaxından tanıyırdılar. O zaman onlar sovet dövlətinin inkişafını müəyyən edən səkkiz nəfərdən ikisi idi.

Ən başlıcası, ölkələrimizi parçalanmaqdan, xaosdan və anarxiyadan xilas etmək üçün çağırdıqları zaman da onlar çiyin-çiyinə müasir Gürcüstanı və müasir Azərbaycanı yaratdılar. Onlar bir çoxlarına əfsanə kimi gələn layihələri həqiqətə çevirdilər. Hər iki rəhbərin siyasi müdrikliyi, əzmi, cəsarəti və öz xalqına sədaqəti onlara bu işləri görməyə imkan verdi. Mən Eduard Amvrosiyeviçin xidmətlərini xüsusi qeyd etmək istəyirəm və xarici işlər nazirindən mənim xoş arzularımı bir daha ona çatdırmağı xahiş edirəm. Mən ona uzun illər qardaş Gürcüstana rəhbərlik etməsini arzulayıram.

Bu gün hörmətli Baş nazirin müavini Əbdüllətif Şənər də bizim qonağımızdır. Mən onu səmimiyyətlə salamlayıram.

Türkiyə ilə Azərbaycan arasında mövcud olan dostluq və qardaşlıq münasibətləri əbədidir, sarsılmazdır. Bu münasibətlər gələcəkdə də inkişaf edəcək və xalqlarımızı daha da yaxınlaşdıracaqdır. Türkiyə bütün sahələrdə daim Azərbaycana dayaq və arxa olmuşdur. Azərbaycan müstəqilliyini əldə etdikdən sonra ilk olaraq ölkəmizi tanıyan məhz qardaş Türkiyə olmuşdur. Biz daim belə bir ifadəni işlədirik: Türkiyə haradadır, Azərbaycan da oradadır, Azərbaycan haradadır, Türkiyə də oradadır.

Mən hörmətli Əbdüllətif bəydən səmimi salamlarımı dostum və qardaşım hörmətli Baş nazir Rəcəb Tayyib Ərdoğana və hörmətli Prezident Əhməd Necdət Sezərə çatdırmağı xahiş edirəm. Bir daha sizi əmin etmək istəyirəm ki, ölkələrimiz gələcəkdə də vahid mövqedən çıxış edərək həm ikitərəfli münasibətlərdə, həm də regional məsələlərdə yaxından əməkdaşlıq edəcəklər.

Əziz dostlar, bu gün mən fürsətdən istifadə edərək, bütün Azərbaycan xalqına müraciət etmək istəyirəm. Oktyabrın 15-də mənə göstərilən etimada görə bir daha xalqımıza öz minnətdarlığımı bildirmək istəyirəm. Bu gün Respublika sarayında keçirilmiş andiçmə mərasimində iştirak etmək istəyən insanların hamısı orada iştirak edə bilmədilər. Bilirəm ki, bu gözəl salonda da vətəndaşlarımız iştirak etmək istəyirlər. Əlbəttə, buna imkan yoxdur. Eyni zamanda, bilirəm ki, Azərbaycanın müxtəlif yerlərində - Bakıda, digər şəhərlərdə şənliklər keçirilir. Bu gün Bakının Azadlıq meydanında yüz minlərlə insan elə bu vaxt yığışaraq bu günü qeyd edirlər, sevinirlər, bir-birlərini təbrik edirlər, bayram edirlər. Mənim üçün ən böyük xoşbəxtlik məhz bundadır. Oktyabrın 15-də Azərbaycan xalqı sərbəst şəkildə öz iradəsini ifadə etmişdir ki, bu da mənim üçün böyük səadətdir. Seçkilərin nəticələri məhz Azərbaycan xalqının iradəsini əks etdirir.

Bu gün mən bu masa arxasında Azadlıq meydanında toplaşmış və şənlənən soydaşlarımızı salamlayıram. Qaçqın düşərgəsində yaşayan soydaşlarımızı salamlayıram. Orduda xidmət edən, sərhədlərimizin keşiyində duran əsgərləri salamlayıram. Bu gün növbədə olan həkimlərimizi, hər bir Azərbaycan vətəndaşını salamlayıram. Mən hər bir Azərbaycan vətəndaşı üçün Prezident olacağam. Milliyətindən, dinindən, siyasi əqidəsindən asılı olmayaraq, hər bir Azərbaycan vətəndaşının Prezidenti olacağam və Azərbaycan xalqının etimadını doğruldacağam.

Bu badəni Azərbaycan xalqının şərəfinə qaldırıram.

“Gülüstan” sarayında təşkil olunmuş rəsmi qəbulun sonunda Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev idmançılarla və incəsənət xadimləri ilə səmimi görüşdü.

Sonra Prezident İlham Əliyev, onun xanımı Mehriban Əliyeva və dəvət olunmuş qonaqlar saraydan bayram atəşfəşanlığını seyr etdilər.

**«AZƏRTAC». 31.10.03**

## Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin jurnalistlərə ilk müsahibəsi

Azərbaycan **Respublikasının** Prezidenti İlham Əliyev oktyabrın 31-də “Ulduz” sarayında kütləvi informasiya vasitələrinin nümayəndələrinə ilk müsahibəsini vermişdir.

SUAL: Cənab Prezident, artıq Siz and içdiniz. İndi ölkənin birinci şəxsisiniz və hansı hissləri keçirirsiniz?

CAVAB: Bilirsiniz, bu gün mənim üçün əlamətdar bir gündür. Əlbəttə, bir az həyəcanlı idim, gələcək haqqında düşünürdüm, planlar haqqında düşünürdüm. Mənə göstərilən bu böyük etimadı gərək doğruldam. Gərək mən ümidləri doğruldam. Azərbaycanı xalqın dəstəyi ilə inkişaf etdirəm ki, yaxın zamanlarda respublikamız qüdrətli dövlətə çevrilsin. Gərək Heydər Əliyevin siyasətini davam etdirəm.

Qarşımda çoxlu vəzifələr var, çoxlu işlər görmək əzmindəyəm. Bütün bunlar haqqında düşünürdüm. Keçmiş həyatım haqqında düşünürdüm. Bu da təbii idi ki, keçmişdə gördüyüm işlər haqqında düşünürdüm. Həyatımın artıq növbəti və elə bil ki, sonuncu mərhələsi başlanır. Çünki bundan yuxarı vəzifə yoxdur. Bu, elə bir zirvədir

ki, əlbəttə, mən bu zirvədə duraraq, təkcə özümü deyil, bütün Azərbaycan xalqını beynəlxalq aləmdə təmsil edəcəyəm. Əlbəttə, bu, mənim çiyinlərimə əlavə məsuliyyət yükü qoyur. Düşünürəm ki, bu yük nə qədər ağır olacaq, məni gələcəkdə nələr gözləyir. Belə, bu barədə düşünürdüm.

SUAL: Sizcə, Sizi asan işlər gözləyir, yoxsa çətin?

CAVAB: Həm asan, həm də çətin. Asan o mənada ki, artıq Azərbaycanda ölkəmizi hərtərəfli inkişaf etdirmək üçün gözəl zəmin yaranıbdır. On il ərzində Heydər Əliyevin siyasəti Azərbaycanda çox güclü bir təməl qoyubdur. Bu təməlin üzərində gözəl binanın inşa edilməsi asan görünə bilər. Amma eyni zamanda, həyat yerində durmur. Yeni tələblər çıxır, qarşımıza yeni vəzifələr çıxır. Əlbəttə, yəqin çətinliklər də olacaqdır. Amma mən bu çətinliklərə hazıram. Əgər mən özümdə belə bir hazırlıq görməsəydim, heç vaxt bu yola getməzdim. Mən məsuliyyətə də, çətinliklərə də hazıram. Əminəm ki, Azərbaycan xalqının dəstəyi ilə qarşıda duran bütün vəzifələri ləyaqətlə yerinə yetirəcəyəm. Demişəm, Azərbaycan xalqı görəcək ki, mən Azərbaycan üçün, xalqımız üçün yaxşı Prezident olacağam.

SUAL: İlham müəllim, müxalifətlə dialoq barədə Sizin təklifiniz oldu. Bu təklif qüvvəsində qalırmı?

CAVAB: Mən bu barədə öz fikirlərimi dəfələrlə bildirmişəm. Sizə deyə bilərəm ki, o, səmimi sözlər idi. Yəni təbliğat naminə deməmişdim. Əlbəttə, qüvvədə qalır. Azərbaycanda siyasi partiyalar arasında gərək mədəni səviyyədə münasibətlər qurulsun. Bəzi hallarda bunu milli həmrəylik kimi qələmə verməyə çalışırlar. Mən bununla razı deyiləm. Azərbaycanda milli həmrəylik var. Azərbaycan xalqı oktyabrın 15-də öz iradəsini göstərdi, öz mövqeyini bildirdi və Azərbaycanda heç bir vətəndaş qarşıdurması yoxdur. Azərbaycan xalqı bu baxımdan vahid bir fikirdədir. Amma siyasi partiyalar arasında həmrəyliyin yaradılması zəruridir.

Yenə deyirəm, mən bu barədə dəfələrlə öz fikirlərimi bildirmişəm, belə dəvətlər etmişəm. Amma onu da bilməlisiniz ki, bu dəvətlər müəyyən bir müddət ərzində masa üzərində qala bilər. Yəni mən bunu davamlı olaraq təkrarlamaq fikrində deyiləm. Kim mənim bu dəvətimə qoşulursa, qəbul edirsə, mən bu dialoqa hazıram. Yox, kimsə əgər başqa fikirdədir, onda özləri bilər.

SUAL: İlham müəllim, Sizin imzalayacağınız ilk Fərman nə ilə bağlı olacaqdır?

CAVAB: Yəqin ki, ilk Fərman ənənəvi xarakter daşıyacaqdır. Bəzi məsələlər var ki, onlar öz həllini bəlkə də bu gün tapmalıdır. Yəni bu texniki məsələlər. Amma o ki qaldı Azərbaycanın gələcəyi üçün vacib olan hansısa sənədlər haqqında hələ bir söz demək istəmirəm. Amma belə fikirlərim var və yaxın gələcəkdə görərsiniz.

SUAL: İlham müəllim, Sizin andiçmə mərasiminizə baxdıq. Siz ölkənin iqtisadiyyatının inkişafını tez-tez vurğulayırdınız. Çünki doğrudan da hər şey iqtisadiyyatdan asılıdır. Hesab etmək olarmı ki, iqtisadiyyatın inkişafı üçün yeni mərhələ başlayır. İlk növbədə, Sizdən hansı addımları gözləyəcəyik ki, iqtisadiyyatın inkişafı üçün bunlar zəruridir?

CAVAB: O, təsadüfi deyildi. Çünki hər şey iqtisadiyyat üzərində qurulur. Azərbaycanın iqtisadiyyatı möhkəm olarsa, bütün məsələləri həll etmək imkanımız olacaqdır. Artıq bu istiqamətdə çox böyük işlər görülübdür. Mən bu gün də, bundan əvvəlki çıxışımda da bu barədə kifayət qədər geniş məlumat vermişdim.

Azərbaycanın bütün iqtisadi göstəriciləri onu göstərir ki, ölkə dinamik şəkildə inkişaf edir. Vəzifəmiz bundan ibarətdir ki, bu ənənələri inkişaf etdirək, sahibkarlara gözəl şərait yaradaq. Çünki iqtisadiyyatımızın birinci inkişaf mərhələsi dövlətin qayğısı ilə bağlıdır. Dövlət tərəfindən görülən tədbirlər nəticəsində sərmayəni cəlb edə, neft sektorunu inkişaf etdirə bildik. Dövlət tərəfindən tənzimlənməklə torpaq islahatları apardıq.

Hesab edirəm ki, iqtisadiyyatımızın növbəti mərhələsi məhz özəl sektorun daha fəal iştirakından asılı olmalıdır və bu istiqamətdə bizim üzərimizə düşən vəzifələri yerinə yetirməyə hazırıq. Bazar iqtisadiyyatı davam etdiriləcəkdir. Sahibkarlar sinfi yaranacaq və beləliklə, özəl sektorun fəaliyyəti nəticəsində Azərbaycanın büdcəsi də artacaqdır, iş yerləri də açılacaqdır. Yəni hesab edirəm ki, indi qlobal şəkildə bu istiqamət də Azərbaycan üçün lazımdır.

Əlbəttə, sosial məsələlər, ordu quruculuğu, qaçqın-köçkünlərin həyat səviyyəsinin yaxşılaşdırılması, əziyyət içində yaşayan insanların, pensiyaçıların həyat səviyyəsinin yaxşılaşdırılması, onların taleyi ilə ciddi məşğul olacağam. Mən bütün Azərbaycan xalqının, hər bir Azərbaycan vətəndaşının Prezidentiyəm. Mənim borcumdur ki, imkan daxilində hər bir vətəndaş inkişafa, yaxşılığa doğru irəliləyişi görsün və onu hiss eləsin.

**«AZƏRTAC». 31.10.03**

## Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Gürcüstan Prezidenti Eduard Şevardnadze ilə görüşü

Oktyabrın 31-də “Ulduz” sarayında Azərbaycan Prezidenti İlham Əliyev ilə dövlətimizin başçısının andiçmə mərasimində iştirak etmək üçün Bakıya gələn Gürcüstan Prezidenti Eduard Şevardnadzenin görüşü olmuşdur.

İlham Əliyevi dövlətdə ali vəzifəyə seçilməsi münasibətilə gürcü xalqı adından və şəxsən öz adından təbrik edən cənab Şevardnadze Azərbaycan-Gürcüstan münasibətlərinin bundan sonra da qardaşlıq və mehriban qonşuluq ruhunda inkişaf edəcəyinə ümidvar olduğunu bildirdi, bu münasibətlərin bərqərar olmasında Azərbaycan Prezidenti Heydər Əliyevin misilsiz rolunu xüsusi vurğuladı.

Azərbaycan Prezidenti İlham Əliyev səmimi sözlərə görə Prezident Eduard Şevardnadzeyə təşəkkür etdi, Gürcüstan rəhbərinə andiçmə mərasiminə şəxsən təşrif gətirdiyinə görə Heydər Əliyevin adından və öz adından minnətdarlığını bildirdi. O, nəzərə çarpdırdı ki, Azərbaycan rəhbərliyinin Gürcüstan barəsində Azərbaycan Prezidenti Heydər Əliyevin dövründə təşəkkül tapmış siyasəti dəyişməyəcəkdir.

Görüşdən sonra Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Gürcüstan Prezidenti Eduard Şevardnadze jurnalistlərin suallarına cavab verdilər.

SUAL: İlham Heydəroviç, Gürcüstan Prezidenti Eduard Şevardnadzenin andiçmə mərasimində iştirakı Sizin üçün nə deməkdir?

İLHAM ƏLİYEV: Bugünkü andiçmə mərasimində iştirak etmək üçün vaxt tapıb Azərbaycana gəldiyinə görə çox hörmətli Eduard Amvrosiyeviçə səmimi qəlbdən təşəkkürümü bildirdim. Bu, indiki mərhələdə xeyli dərəcədə xalqlarımızın liderləri Eduard Şevardnadze ilə Heydər Əliyevin şəxsi dostluğu və qarşılıqlı hörmətinin nəticəsi olan münasibətlərimizin qardaşlıq xarakterini bir daha nəzərə çarpdırır. Mənə son dərəcə xoşdur ki, çox məşğul olmasına və Gürcüstanda gözlənilən proseslərə baxmayaraq, Eduard Şevardnadze vaxt tapıb buraya gəldi. Buna görə mən ona çox minnətdaram. Ölkələrimiz arasında münasibətlər əvvəlki ruhda, əvvəlki məcrada, qardaşlıq, qarşılıqlı yardım, qarşılıqlı anlaşma əsasında inkişaf edəcəkdir. Ümidvaram ki, Azərbaycanda varislik siyasəti və Gürcüstanda aparılan siyasət ölkələrimizin və xalqlarımızın bir-birinə daha yaxın olmasına rəvac verəcəkdir.

SUAL: Cənab Şevardnadze, Siz Azərbaycanın yeni Prezidentindən Gürcüstan barəsində nə gözləyirsiniz?

EDUARD ŞEVARDNADZE: Mən İlham Heydəroviçin dediklərinə təzə bir şey əlavə edə bilmərəm. Biz, iki prezident – Heydər Əliyeviç və mən birlikdə işlədiyimiz illərdə xalqlarımız arasında dostluq və qardaşlığın sanballı bünövrəsini qoymağa müvəffəq olduq. Biz iqtisadi problemləri, neft kəməri və qaz kəməri ilə bağlı çox mürəkkəb problemləri, digər məsələləri birlikdə həll edirdik. Bu gün razılığa gəldiyimiz ən başlıca məsələ dostluğu əvvəlki ruhda davam etdirməkdir. Prezidentlərin dostluq etməsi xalqlar üçün çox yaxşı nümunədir. Biz Heydər Əliyeviçlə xalqlarımıza sübut edə bildik ki, bu, xalqlarımızın – Azərbaycan və gürcü xalqlarının xeyrinədir. Xoşbəxtəm ki, biz bunu İlham Əliyevlə də həyata keçirəcəyik.

Mən onu çoxdan tanıyıram, amma Heydər Əliyeviçi tanıdığım qədər çoxdan yox. Biz onunla MDBMİ-də oxuduğu vaxtdan tanışıq. Ona diqqət yetirirdim. Zənnimcə, Azərbaycan xalqı və Heydər Əliyeviç düzgün seçim etmişlər və Azərbaycanı xoşbəxt gələcək gözləyir.

Görüşdə Gürcüstanın Azərbaycandakı səfiri Zurab Qumberidze və Gürcüstan Beynəlxalq Neft Korporasiyasının prezidenti Giorgi Çanturia iştirak edirdilər.

**«AZƏRTAC». 31.10.03**

## Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Rusiya Federal Məclisi Federasiya Şurasının Sədri Sergey Mironov ilə görüşü

Oktyabrın 31-də "Ulduz" sarayında Azərbaycan Prezidenti İlham Əliyev RF Federal Məclisi Federasiya Şurasının sədri Sergey Mironov başda olmaqla respublikamızın Prezidentinin andiçmə mərasimində iştirak etmək üçün Bakıya gəlmiş Rusiya Federasiyasının nümayəndə heyəti ilə görüşmüşdür.

Azərbaycan Prezidenti İlham Əliyev qonaqları səmimiyyətlə salamlayaraq, bünövrəsi Azərbaycan Prezidenti Heydər Əliyev və Rusiya Prezidenti Vladimir Putin tərəfindən qoyulan dostluq əlaqələrinin ölkəmizdə əziz tutulduğunu vurğulayaraq dedi ki, biz bu siyasətin davam etdirilməsi üçün mümkün olan bütün işləri görəcəyik. Prezident İlham Əliyev bildirdi ki, bu siyasətin alternativi yoxdur, iki prezident Azərbaycan-Rusiya münasibətlərində yeni mərhələnin təməlini qoymuşlar. Dövlətlərimiz arasındakı dostluq və mehriban qonşuluq əlaqələri əvvəlki kimi inkişaf etdiriləcək və bu məsələdə varislik qorunub saxlanacaqdır.

Azərbaycan dövlətinin başçısı iqtisadiyyatda, mədəniyyətdə və iki ölkənin parlamentləri arasında qarşılıqlı sürətdə faydalı münasibətlərin davam etdirilməsinin vacibliyini də nəzərə çarpdırdı.

Rusiya Federal Məclisi Federasiya Şurasının sədri Sergey Mironov Prezident İlham Əliyevi Azərbaycan dövlətinin başçısı seçilməsi münasibətilə təbrik edərək dedi ki, ölkələrimiz arasında münasibətlər dinamik və müsbət şəkildə inkişaf edir. Hər iki tərəf üçün faydalı olan bu münasibətlərin bünövrəsini Azərbaycan və Rusiya prezidentləri qoymuşlar. İndi dövlətlərimiz siyasətin, iqtisadiyyatın bir çox sahələrində, beynəlxalq terrorizmlə mübarizədə əməkdaşlıq edirlər. Rusiyalı qonaq ölkələrimizin parlamentləri arasında əməkdaşlıqdan danışaraq söylədi ki, bu sahədə münasibətlər yaxşı sürətlə və yüksələn xətlə inkişaf edir. O, ölkəmizdə rus millətindən olan vətəndaşlara qayğı göstərildiyini, rus dilinin saxlanmasına diqqət yetirildiyini sevindirici fakt kimi qeyd edərək dedi ki, bu, Azərbaycanı keçmiş SSRİ-nin bir sıra digər ölkələrindən fərqləndirir.

Görüşdə Rusiyanın xarici işlər naziri İqor İvanov, ölkəmizin Moskvadakı səfiri Ramiz Rizayev, Rusiyanın Bakıdakı səfiri Nikolay Ryabov iştirak edirdilər.

**«AZƏRTAC». 31.10.03**

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Ukraynanın Baş Naziri Viktor Yanukoviç ilə görüşü**

Oktyabrın 31-də “Ulduz” sarayında Azərbaycan Prezidenti İlham Əliyev Ukraynanın Baş naziri Viktor Yanukoviç başda olmaqla respublikamızın Prezidentinin andiçmə mərasimində iştirak etmək üçün Bakıya gəlmiş nümayəndə heyəti ilə görüşmüşdür.

Prezident İlham Əliyev andiçmə mərasimində iştiraka görə Ukrayna tərəfinə təşəkkürünü bildirdi və xoş arzularını Prezident Leonid Kuçmaya yetirməyi xahiş etdi. O dedi ki, Heydər Əliyevin və Leonid Kuçmanın siyasəti sayəsində Azərbaycanla Ukrayna, xalqlarımız arasında mehriban dostluq münasibətləri yaranmışdır və bu münasibətləri Azərbaycanda çox əziz tuturlar. Ölkələrimiz beynəlxalq həyatın bir çox məsələlərində çox vaxt eyni mövqelərdən çıxış edirlər. Dövlətimizin başçısı əmin etdi ki, ölkələrimiz arasında münasibətlər gələcəkdə də genişlənəcək və möhkəmlənəcəkdir.

Ukraynanın Baş naziri seçkilərdə inamlı qələbə münasibətilə İlham Əliyevi Ukrayna Prezidenti Leonid Kuçmanın adından və öz adından təbrik edərək dedi ki, prezidentlər Heydər Əliyevin və Leonid Kuçmanın uğurlu siyasəti sayəsində çox böyük stimul alan Azərbaycan-Ukrayna münasibətləri daha da inkişaf edəcəkdir. O, ikitərəfli əlaqələrin strateji xarakter daşıdığını qeyd edərək vurğuladı ki, Ukrayna Azərbaycanın ərazi bütövlüyünü həmişə dəstəkləmişdir. İqtisadi əlaqələr də yaxşı sürətlə inkişaf edir. Son vaxtlar ölkələrimiz arasında əmtəə dövriyyəsinin artdığı müşahidə olunur. Viktor Yanukoviç iqtisadi mənafelərin öncüllüyündən danışaraq nəzərə çarpdırdı ki, Ukrayna Azərbaycana kənd təsərrüfatı məhsulları göndərməkdə və Xəzər neftinin Odessa-Brodı boru kəməri ilə nəql edilməsində maraqlıdır. O, yaxın vaxtlarda Ukraynaya səfər etmək barədə Leonid Kuçmanın dəvətini Azərbaycanın yeni Prezidentinə təqdim etdi.

Prezident İlham Əliyev Ukrayna şirkətlərinin ölkəmizin iqtisadi həyatında fəal iştirakından söhbət açaraq, Xəzər neftinin Odessa-Brodı boru kəməri ilə nəql edilməsi, habelə Azərbaycanda kənd təsərrüfatı istehsalı səviyyəsinin yüksək olmasına baxmayaraq, Ukraynadan kənd təsərrüfatı məhsulları idxalı ideyasını dəstəklədi.

Ukraynanın Avropa Şurası Parlament Assambleyasında nümayəndə heyətinin üzvü Anatoli Raxanski AŞPA üzvlərinin tapşırığı ilə İlham Əliyevi ali dövlət vəzifəsinə seçilməsi münasibətilə təbrik edərək, AŞPA-nın fəaliyyətində onun böyük xidmətlərini vurğuladı, Beynəlxalq İnsan Hüquqlarını Müdafiə Komitəsi tərəfindən təsis olunmuş “Şərəf və ləyaqət” Qızıl Ulduzunu ona təqdim etdi.

Görüşdə Ukraynanın Azərbaycandakı səfiri Boris Aleksenko iştirak edirdi.

**«AZƏRTAC». 31.10.03**

## Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin İnformasiya və kommunikasiya texnologiyalarının milli strategiyaları və elektron idarəçiliyi üzrə beynəlxalq forumun iştirakçılarına müraciəti

Bakı şəhəri, 5 noyabr 2003-cü il

Hörmətli Forum iştirakçıları!

Hamınızı Azərbaycan Respublikasının paytaxtı Bakı şəhərində ürəkdən salamlayır, hər birinizə cansağlığı, xoşbəxtlik və uğurlar arzulayıram. Ümidvar olduğumu bildirirəm ki, bu ilin dekabrında keçiriləcək Ümumdünya Sammiti ərəfəsində təşkil edilən bu Forum informasiya cəmiyyətinin qurulmasının siyasi, sosial, humanitar və texnoloji aspektlərinin müzakirə edilməsi yolunda mühüm bir mərhələ olacaqdır.

Dinamik inkişaf yoluna qədəm qoymuş Azərbaycan dövləti qlobal informasiya cəmiyyətinin qurulması ideyasını dəstəkləyir və onun gerçəkləşdirilməsini öz siyasətinin prioritetlərindən hesab edir. Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ilə təsdiq olunmuş informasiya və kommunikasiya texnologiyaları üzrə milli strategiya Azərbaycan dövlətinin bu sahədə siyasətini əks etdirərək ölkəmizin hərtərəfli inkişafına, demokratik cəmiyyət quruculuğuna, elektron idarəçiliyinin tətbiq edilməsinə, Azərbaycanın beynəlxalq aləmə inteqrasiyasının sürətləndirilməsinə xidmət edir. Son illər ərzində Azərbaycan Respublikasında informasiya və kommunikasiya texnologiyaları bir çox sahələrdə uğurla tətbiq edilmiş və bu proses mütəmadi olaraq genişlənməkdədir.

Forumunuzun Bakı şəhərində keçirilməsini ölkəmizin informasiya və kommunikasiya texnologiyalarının tətbiqi sahəsindəki nailiyyətlərinin beynəlxalq miqyasda tanınması kimi qəbul edir və güman edirəm ki, Forum iştirakçıları bu sahənin ölkəmizdəki inkişaf səviyyəsini layiqincə qiymətləndirmək imkanına malik olacaqlar.

İqtisadiyyatı keçid dövründə olan Azərbaycan dövləti yaxşı dərk edir ki, elektron hökumətinin yaradılması ölkənin intellektual potensialından səmərəli istifadə edərək hərtərəfli inkişafın təmin edilməsi, korrupsiya ilə mübarizə, yoxsulluq və işsizliyin aradan qaldırılması, cəmiyyətdə aşkarlıq və şəffaflığın bərqərar edilməsi, bütövlükdə ictimai həyatın demokratikləşməsi üçün güclü vasitədir. Odur ki, Azərbaycan hökuməti informasiya cəmiyyətinin qurulması yolunda əməkdaşlığın hər cür formasına daim hazır olduğunu bəyan edir.

İnanıram ki, Bakıda keçirilən Forumunuz bu əməkdaşlığın konkret formalarının müəyyən edilməsi yolunda da mühüm addım olacaqdır.

Forumunuzun işinə uğurlar diləyir, ölkələrinizin hərtərəfli inkişafına yönəldilmiş nəcib fəaliyyətinizdə hamınıza müvəffəqiyyətlər arzulayıram.

## Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev İtaliya hərbçilərinin İraqda həlak olması ilə əlaqədar bu ölkənin Bakıdakı Səfirliyinə başsağlığı vermişdir

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev İraqın Ən-Nasiriyyə şəhərində törədilmiş terror aktı nəticəsində italiyalı sülhməramlıların həlak olması ilə əlaqədar noyabrın 17-də İtaliyanın Bakıdakı səfirliyinə gələrək başsağlığı vermişdir.

İtaliyanın İçərişəhərdə yerləşən binası qarşısında Azərbaycan dövlətinin başçısını bu ölkənin ölkəmizdəki səfiri xanım Marqarita Kosta qarşıladı.

Prezident İlham Əliyev noyabrın 12-də İraqda törədilən terror aktı nəticəsində italiyalı hərbçilərin həlak olması ilə əlaqədar səfirliyin xatirə kitabına aşağıdakı sözləri yazdı:

"İraqda İtaliya hərbçilərinin amansız terror aktı nəticəsində həlak olması məni dərindən sarsıtdı. Dost İtaliya üçün bu ağır gündə İtaliya hökumətinə və xalqına, hərbçilərin ailəsinə və qohumlarına dərin hüznlə başsağlığı verir, onlara səbr və dözüm arzulayıram.
Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev".
Xatirə kitabına imza atdıqdan sonra Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin İtaliyanın ölkəmizdəki səfiri xanım Marqarita Kosta ilə təkbətək görüşü oldu.

**«AZƏRTAC». 18.11.03**

## Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin İnformasiya cəmiyyəti üzrə dünya sammitində iştirak etmək üçün İsveçrəyə səfəri

### *Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Cenevrəyə yola düşmüşdür*

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev İnformasiya Cəmiyyəti üzrə Dünya Sammitində iştirak etmək üçün dekabrın 9-da İsveçrənin Cenevrə şəhərinə yola düşmüşdür.
Prezident İlham Əliyev yola düşməzdən əvvəl Binə hava limanında jurnalistlərin suallarına cavab vermişdir.
SUAL: Cənab Prezident, ilk dəfədir ki, belə bir Sammit keçirilir. Bu Sammitin məramı, mahiyyəti barədə nə demək olar? Cenevrədə ikitərəfli görüşlər nəzərdə tutmusunuzmu?
CAVAB: Sammitdə yeni informasiya texnologiyaları müzakirə olunacaqdır. Bilirsiniz ki, bu, gələcək üçün çox vacib bir sahədir. Azərbaycan da bu istiqamətdə inkişaf edir, ölkəmizdə yeni texnologiyalar tətbiq olunur, irimiqyaslı beynəlxalq layihələr həyata keçirilir, onlar da öz növbəsində, yeni texnologiyaların tətbiq olunmasını tələb edir. Bu baxımdan, ümumiyyətlə, dünyanın gələcək inkişafı üçün Sammit böyük əhəmiyyət kəsb edir.
İkitərəfli görüşlər də gözlənilir, onlar da keçiriləcəkdir. Yəni, çalışacağam ki, bu Sammitdən səmərəli istifadə edim.
SUAL: Cənab Prezident, Azərbaycanın Cənubi Qafqaz və Orta Asiya regionunda liderliyi əldə saxlaması üçün görülən işlər Prezident kimi Sizi qane edirmi?
CAVAB: Mən hesab edirəm ki, Azərbaycan liderliyi saxlayacaqdır. Uzun illərdir ki, Azərbaycan regionda çox önəmli rol oynayır. Azərbaycan regionda aparıcı bir dövlətdir, öz mövqeyini möhkəmləndirir. Bütün irimiqyaslı beynəlxalq və regional layihələrdə də Azərbaycan aparıcı rol oynayır. Azərbaycanın rolu olmadan heç bir layihə həyata keçirilmir. Energetika sektorunda, eyni zamanda, nəqliyyat sektorunda da, gələcəkdə "Şimal-Cənub" nəqliyyat dəhlizində də Azərbaycan önəmli rol oynayacaqdır. Əlbəttə, Azərbaycan

çalışacaqdır ki, yeni informasiya texnologiyaları sahəsində də öz mövqelərini möhkəmləndirsin. Bu, gələcək üçün lazımdır. Yeni nəsil üçün lazımdır. Azərbaycan əhalisinin böyük əksəriyyəti gənc insanlardan ibarətdir. Ölkəmiz müasirləşəcək, yeniləşəcək, yeni mərhələyə qədəm qoyacaqdır.
Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevi Bina hava limanında Milli Məclisin sədri Murtuz Ələsgərov, Baş nazir Artur Rasizadə, Prezidentin İcra Aparatının rəhbəri Ramiz Mehdiyev və digər rəsmi şəxslər yola saldılar.

### ***Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Cenevrəyə gəlmişdir***

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev İnformasiya Cəmiyyəti üzrə Dünya Sammitində iştirak etmək üçün dekabrın 9-da Cenevrəyə gəlmişdir.
Prezident İlham Əliyevi hava limanında, zirvə görüşünün protokoluna uyğun olaraq, Cenevrə kantonunun naziri, İsveçrənin BMT və digər beynəlxalq təşkilatlar yanında daimi nümayəndəsi Jan Mark Vuqari, BMT-nin regional bölməsinin rəhbərləri, Azərbaycan Respublikasının Almaniya və İsveçrədəki səfiri Hüseynağa Sadıqov, ölkəmizin BMT və digər beynəlxalq təşkilatlar yanında daimi nümayəndəliyinin müvəqqəti işlər vəkili Murad Nəcəfov və digər rəsmi şəxslər böyük hörmətlə qarşıladılar.
Azərbaycan Prezidenti İlham Əliyev hava limanından onun üçün ayrılmış iqamətgaha yola düşdü.
Azərbaycan Prezidenti İlham Əliyev günün ikinci yarısında Cenevrənin Palekspo sarayına gəldi.
Burada zirvə görüşündə iştirak etmək üçün gəlmiş dövlət və hökumət başçıları, habelə BMT-nin strukturlarının rəhbərləri üçün İsveçrə konfederasiyası və Cenevrə kantonu tərəfindən qeyri-rəsmi qəbul təşkil olundu. Prezident İlham Əliyev qəbulda iştirak etdi.
Birləşmiş Millətlər Təşkilatının və Beynəlxalq Telekommunikasiya İttifaqının təşkil etdikləri İnformasiya Cəmiyyəti üzrə Dünya Sammitini iki mərhələdə keçirmək nəzərdə tutulmuşdur. Bu il dekabrın 10-12-də Cenevrədə Sammitin birinci mərhələsi, 2005-ci ilin noyabrında isə Tunisdə ikinci mərhələsi keçiriləcəkdir.

### ***Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin BMT-nin Baş Katibi Kofi Annan ilə görüşü***

İnformasiya Cəmiyyəti üzrə Dünya Sammitində iştirak etmək üçün Cenevrədə səfərdə olan Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin dekabrın 9-da, zirvə görüşünün keçiriləcəyi Palekspo sarayında Birləşmiş Millətlər Təşkilatının Baş katibi Kofi Annan ilə təkbətək görüşü olmuşdur.
BMT-nin Baş katibi Prezident İlham Əliyevi Azərbaycanın dövlət başçısı seçilməsi münasibətilə ürəkdən təbrik etdi, bu məsuliyyətli vəzifədə ona uğurlar dilədi.

Prezident İlham Əliyev bildirdi ki, ölkəmizdə keçid dövrünün öz problemləri olsa da, Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi onu ən çox düşündürən məsələ, Azərbaycanın ən ağrılı problemidir.

Cənab Kofi Annan dedi ki, bu münaqişənin hərbi yolla həlli regionda qeyri-sabitliyi gücləndirə bilər, ona görə də problemin sülh yolu ilə aradan qaldırılması məqsədəuyğundur.

Azərbaycan Prezidenti münaqişənin həllində vasitəçilik edən ATƏT-in Minsk qrupunun fəaliyyətinin heç bir nəticə vermədiyini təəssüflə xatırladaraq vurğuladı ki, BMT, digər beynəlxalq təşkilatlar münaqişəyə son qoyulması ilə bağlı qəti sözlərini deməlidir.

Azərbaycan Prezidenti donorların respublikamızdakı qaçqınlara və məcburi köçkünlərə humanitar yardımı azaltmasından narahatlığını da söylədi. Eyni zamanda bildirdi ki, Azərbaycan hökuməti qaçqınların və məcburi köçkünlərin ehtiyacları üçün Neft Fondundan 70 milyon dollardan artıq vəsait ayırmışdır. Bununla belə, beynəlxalq təşkilatların yardımına böyük ehtiyac var. Dövlətimizin başçısı Neft Fondunun fəaliyyəti barədə də məlumat verdi.

BMT-nin Baş katibi Azərbaycanda yaradılmış Neft Fondunun fəaliyyətini yüksək qiymətləndirdi, eyni zamanda, neft hasil edən ölkələrin təcrübəsini öyrənməyin də zəruri olduğunu söylədi.

Prezident İlham Əliyev bildirdi ki, ölkəmizdə Neft Fondu yaradılarkən Norveç modeli nümunə kimi götürülmüşdür. Azərbaycanın Neft Fondu şəffaf bir qurumdur və beynəlxalq maliyyə təşkilatları da onun fəaliyyətinə yüksək qiymət vermişlər.

Cənab Kofi Annan söz verdi ki, Azərbaycanda qaçqınlara və məcburi köçkünlərə yardımların artırılması üçün donorlarla müvafiq iş aparacaqdır. Eyni zamanda, ümidvar olduğunu bildirdi ki, Dağlıq Qarabağ problemi tezliklə sülh yolu ilə həll ediləcəkdir.

BMT-nin Baş katibi son dövrdə dünyada terror aktlarının artmasından narahatlığını ifadə etdi, Azərbaycanın antiterror koalisiyasında iştirakını yüksək qiymətləndirdi.

Cənab Kofi Annan ölkəmizdə təsisatların yaradılması və təkmilləşdirilməsinin zəruriliyini vurğuladı və bildirdi ki, BMT bu yöndə Azərbaycana hər cür yardım göstərəcəkdir.

Azərbaycanda yoxsulluğun azaldılması ilə bağlı dövlət proqramının qəbul edilməsindən məmnunluğunu söyləyən Baş katib bu sahədə də ölkəmizə köməyini əsirgəməyəcəyini bildirdi.

Respublikamızda işsizliyin aradan qaldırılmasının, yoxsulluğun azaldılmasının dövlət başçısı kimi özünün ən əsas vəzifələrindən olduğunu vurğulayan Prezident İlham Əliyev BMT Baş katibini əmin etdi ki, ölkəmiz təsisatların yaradılması və təkmilləşdirilməsi sahəsində beynəlxalq birliklə əməkdaşlığı davam etdirəcəkdir.

Daha sonra cənab Kofi Annan xalqımızın ümummilli lideri Heydər Əliyevin səhhəti ilə maraqlandı, özünün salamlarını və xoş arzularını ona çatdırmağı Prezident İlham Əliyevdən xahiş etdi.

Səmimilik şəraitində keçən söhbət zamanı tərəfləri maraqlandıran bir sıra digər məsələlər barədə də ətraflı fikir mübadiləsi aparıldı.

### *Azərbaycan Prezidenti İlham Əliyev açılış mərasimində iştirak etmişdir*

Dekabrın 10-da Cenevrənin Palekspo sarayında İnformasiya Cəmiyyəti üzrə Dünya Sammiti öz işinə başlamışdır.

Açılış mərasimindən əvvəl Birləşmiş Millətlər Təşkilatının Baş katibi Kofi Annanın adından İnformasiya Cəmiyyəti üzrə Dünya Sammitində iştirak edən dövlət və hökumət başçılarının şərəfinə rəsmi qəbul təşkil olundu. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev qəbulda iştirak edirdi.

Rəsmi qəbuldan sonra BMT-nin Baş katibi, dövlət və hökumət başçıları birgə xatirə şəkli çəkdirdilər.

Dekabrın 10-da günortadan sonra İnformasiya Cəmiyyəti üzrə Dünya Sammitinin açılış mərasimi oldu. Azərbaycan Prezidenti İlham Əliyev mərasimdə iştirak edirdi.

Tədbirə ev sahibliyi edən İsveçrə Konfederasiyasının Prezidenti Paskal Kuşpen nümayəndələri salamlayaraq, belə bir mötəbər görüşün onun ölkəsində keçirilməsinə görə təşəkkürünü bildirdi və Sammitin işinə uğurlar arzuladı. O xatırlatdı ki, hazırda dünya əhalisinin yarısından çoxu hətta telefondan da istifadə edə bilmir, onların İnternet şəbəkəsindən istifadəsi barədə isə söhbət ola bilməz. Ona görə də inkişaf etmiş cəmiyyət insanların informasiya almaq imkanları sahəsindəki kəskin fərqin azaldılmasına nail olmalıdır.

Sonra BMT-nin Baş katibi Kofi Annan çıxış etdi. O, informasiya-kommunikasiya texnologiyalarının vətəndaş cəmiyyətinin, iqtisadiyyatın inkişafında, yoxsulluğun azaldılmasında və bəşəriyyətin qarşısında duran digər sosial problemlərin həllində mühüm rolunu vurğuladı. Baş katib bildirdi ki, dekabrın 9-da Sammit çərçivəsində elektron kütləvi informasiya vasitələri nümayəndələrinin görüşündə qəbul edilmiş bəyannamənin əsas şərtlərindən biri də dünyada mövcud olan sosial bərabərsizliyi aradan qaldırmaq üçün məqsədyönlü iş aparmaqdan ibarətdir.

İnformasiya Cəmiyyəti üzrə Dünya Sammitinin 2005-ci ildə keçiriləcək ikinci mərhələsinə ev sahibliyi edəcək Tunis Respublikasının Prezidenti Zeynulabidin ben Əli müasir dünyada informasiya almaq imkanları baxımından həm qlobal mənada, həm də ayrıca bir ölkənin regionları arasında fərqlərin olduğunu, bu fərqləri aradan qaldırmaq üçün əməli tədbirlər görülməsinin vacibliyini vurğuladı. O, bu barədə diskussiyaların Sammitin ikinci mərhələsinədək davam edəcəyinə əmin olduğunu söylədi.

Beynəlxalq Telekommunikasiya İttifaqının (İTU) prezidenti Yosiko Utsumi çıxışında dünyada informasiya texnologiyaları sahəsində qazanılmış nailiyyətlərdən və bu sahədə qarşıda duran vəzifələrdən söhbət açdı. O dedi ki, son dövrdə informasiya texnologiyalarının sürətlə inkişafı nəticəsində telekommunikasiya şəbəkələrinin sayı 1998-ci ildəki 1,5 milyarddan 2,5 milyarda çatmışdır. İTU-nun prezidenti bütün dövlət və hökumət başçılarını bu sahədə BMT və Beynəlxalq Telekommunikasiya İttifaqı ilə sıx əməkdaşlığa çağırdı.

Açılış mərasimindən sonra Sammitin birinci geniş iclasında ümumi müzakirələr başlandı. İlk olaraq, Finlandiya Respublikasının Prezidenti Tarya Halonen çıxış etdi.

Sonra Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə söz verildi.

Həmin gün Azərbaycan Prezidentinin sammitin keçirildiyi salonda dövlət başçıları ilə bir sıra görüşləri oldu.

Azərbaycan Prezidenti İlham Əliyevin Estoniya Respublikasının Prezidenti Arnold Rüütel ilə görüşündə beynəlxalq problemlər, ölkələrimizi maraqlandıran bir sıra məsələlər ətrafında fikir mübadiləsi aparıldı. Dövlət başçıları Azərbaycan-Estoniya əlaqələrinin inkişaf etdirilməsinə də xüsusi diqqət yetirdilər.

Sonra Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Rumıniya Respublikasının Prezidenti İon İliyesku ilə görüşdü. Söhbət zamanı ölkələrimiz arasında münasibətlərin, o cümlədən iqtisadi sahədə əməkdaşlığın genişləndirilməsi, hər iki tərəfi maraqlandıran beynəlxalq və regional məsələlər barədə fikir mübadiləsi edildi.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Palekspo sarayının iclas salonunda növbəti görüşü İran İslam Respublikasının Prezidenti Seyid Məhəmməd Xatəmi ilə oldu. Səmimilik şəraitində keçən söhbət zamanı prezidentlər dost və qonşu ölkələrimiz arasında qarşılıqlı surətdə faydalı münasibətlərin yüksələn xətlə inkişafından məmnun olduqlarını və bu münasibətlərin daha da möhkəmləndirilməsinin vacibliyini vurğuladılar. Dövlət başçıları ölkələrimizi maraqlandıran bir sıra məsələlər haqqında da fikir mübadiləsi apardılar.

İnformasiya Cəmiyyəti üzrə Dünya Sammiti öz işini davam etdirir.

### *Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Qırğızıstan Prezidenti Əsgər Akayev ilə görüşü*

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev dekabrın 10-da Cenevrədə Palekspo sarayında Qırğızıstan Respublikasının Prezidenti Əsgər Akayev ilə görüşmüşdür.

President Əsgər Akayev İlham Əliyevi Azərbaycanın dövlət başçısı seçilməsi münasibətilə ürəkdən təbrik etdi və onun Heydər Əliyevin siyasi xəttini davam etdirəcəyinə əmin olduğunu söylədi. Qırğızıstan dövlətinin başçısı son dövrdə türkdilli ölkələrin rəhbərlərinin az-az görüşdüklərini xatırlatdı. O, əvvəllər bu sahədə Prezident Heydər Əliyevin xüsusi xidməti olduğunu vurğuladı və onu həmin görüşlərin əsas təşəbbüsçüsü kimi səciyyələndirdi. Qırğızıstan Prezidenti vurğuladı ki, türk dünyasına Heydər Əliyev kimi liderlər gərəkdir. Cənab Əsgər Akayev ümidvar olduğunu söylədi ki, Prezident İlham Əiyev bu xətti davam etdirəcəkdir.

Ölkələrimiz arasında iqtisadi əlaqələrdən söhbət açan Prezident Əsgər Akayev bu sahədə hökumətlərarası komissiya yaradılmasını təklif etdi. Onun fikrincə, bu komissiya əməkdaşlığın genişləndirilməsi üçün mövcud imkanlardan daha səmərəli istifadə olunmasına kömək edərdi.

Qırğızıstan Prezidenti Dağlıq Qarabağ probleminə toxunaraq dedi ki, biz Azərbaycanın ərazi bütövlüyünü dəstəkləyirik və bu mövqeyimizdə qalacağıq.

Prezident İlham Əliyev Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin ölkəmizin ən ağrılı problemi olduğunu söyləyərək vurğuladı ki, dövlət başçısı kimi o, bütün görüşlərində və çıxışlarında bu məsələni ön plana çəkir. Azərbaycan Prezidenti BMT-nin Baş katibi ilə görüşündə də Dağlıq Qarabağ probleminin həllini əsas məsələ kimi qaldırdığını bildirdi.

Prezident İlham Əliyev Prezident Əsgər Akayevi Qırğızıstan dövlətçiliyinin bu yaxınlarda qeyd olunacaq 2000 illiyi münasibətilə ürəkdən təbrik etdi.

Prezident Əsgər Akayev səmimi təbrikə görə minnətdarlığını bildirərək xatırlatdı ki, Qırğızıstanda çoxsaylı Azərbaycan diasporu mövcuddur. Ölkənin tanınmış cərrahları, iş adamları arasında azərbaycanlılar da çoxdur. Qırğızıstan rəhbəri Azərbaycan Dövlət Neft Fondunun fəaliyyəti ilə də maraqlanaraq dedi ki, biz də ölkəmizdə buna bənzər fond yaratmaq istəyirik.

Görüşdə tərəfləri maraqlandıran bir sıra başqa məsələlər də müzakirə olundu.

***Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Makedoniya Prezidenti Boris Traykovski ilə görüşü***

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev dekabrın 10-da Cenevrədə – İnformasiya Cəmiyyəti üzrə Dünya Sammitinin keçirildiyi Palekspo sarayında Makedoniya Respublikasının Prezidenti Boris Traykovski ilə görüşmüşdür.

Makedoniya rəhbəri Prezident İlham Əliyevi dövlət başçısı seçilməsi münasibətilə, habelə Cenevrədə keçirilən sammitin açılışındakı məzmunlu nitqinə görə səmimiyyətlə təbrik etdi. O, həmin gün BMT-nin Baş katibi adından təşkil edilmiş rəsmi qəbulda Azərbaycan Prezidenti ilə bir masa arxasında əyləşməsindən məmnunluğunu da bildirdi.

Prezident Traykovski vurğuladı ki, ölkələrimiz arasında əlaqələr təkcə BMT çərçivəsi ilə məhdudlaşmamalı, ikitərəfli əsasda da inkişaf etməlidir. O dedi ki, Xorvatiya Prezidenti ilə də məsləhətləşmişdir və onlar Prezident İlham Əliyevi Makedoniyaya və Xorvatiyaya rəsmi səfərə dəvət etmək istəyirlər. Cənab Traykovski, eyni zamanda, özünün də Azərbaycana və Qazaxıstana səfər etmək niyyətində olduğunu bildirdi. O xatırlatdı ki, vaxtilə ölkələrimiz sosializm blokuna daxil idilər və bu baxımdan onların oxşar cəhətləri çoxdur və qarşılıqlı əlaqələrdə bundan istifadə edilə bilər. Prezident Boris Traykovski Makedoniyanın və Azərbaycanın NATO-nun "Sülh naminə tərəfdaşlıq" proqramında iştirak etdiyini vurğulayaraq, bu sahədə də əməkdaşlığın mümkünlüyünü söylədi.

Prezident İlham Əliyev Azərbaycanın sosial-iqtisadi inkişafı barədə Makedoniya rəhbərinə ətraflı məlumat verdi. Dövlətimizin başçısı neçə illərdən bəri davam edən Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsindən geniş söhbət açdı. O xatırlatdı ki, BMT Azərbaycan ərazilərinin işğaldan dərhal azad olunması barədə 4 qətnamə qəbul etmiş, Avropa Şurası öz sənədlərində Ermənistanı təcavüzkar dövlət kimi

tanımışdır. Azərbaycan Prezidenti vurğuladı ki, bununla belə, bəzi dövlətlərin bu problemə münasibətində ikili standart mövcuddur.

Dövlət başçıları belə bir razılığa gəldilər ki, Azərbaycanın Avropa ölkələrindəki səfirlərindən biri həm də Makedoniyada səfir kimi akkreditə olunsun, eyni zamanda, Makedoniyanın Azərbaycana yaxın ölkələrdən birindəki səfiri Bakıda da akkreditə edilsin.

### *Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Banqladeşin Baş Naziri Xalidə Ziya Rəhman ilə görüşü*

İnformasiya Cəmiyyəti üzrə Dünya Sammitində iştirak edən Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev dekabrın 10-da Cenevrənin Palekspo sarayında Banqladeş Xalq Respublikasının Baş naziri Xalidə Ziya Rəhman ilə görüşmüşdür.

Prezident İlham Əliyev son on ildə ölkəmizdə iqtisadi inkişaf sahəsində gedən proseslər barədə xanım Xalidə Ziya Rəhmana ətraflı məlumat verdi.

Dövlətimizin başçısı ölkəmizin ən ağrılı problemi – 1988-ci ildən bəri davam edən Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsindən və onun ağır nəticələrindən söhbət açdı. Bildirdi ki, Ermənistanın təcavüzü nəticəsində Azərbaycan ərazisinin 20 faizi işğal olunmuşdur, 1 milyon insan qaçqın-köçkün vəziyyətində, dözülməz şəraitdə yaşayır. Prezident İlham Əliyev Banqladeşin Azərbaycanın mövqeyini BMT çərçivəsində dəstəkləməsinə görə Baş nazirə minnətdarlığını bildirdi.

Baş nazir Xalidə Ziya Rəhman bu yaxınlarda Azərbaycanın Prezidenti seçilməsi münasibətilə İlham Əliyevi təbrik etdi. O xatırlatdı ki, hələ Sovet İttifaqı dövründə Azərbaycanda Banqladeşdən gəlmiş çoxlu tələbə təhsil almışdır və indi onlar yüksək ixtisaslı mütəxəssis kimi ölkə iqtisadiyyatının müxtəlif sahələrində uğurla çalışırlar. Baş nazir dedi ki, biz bu ənənənin davam etdirilməsini istəyirik.

Banqladeş hökumətinin başçısı Prezident İlham Əliyevin sammitdəki məzmunlu çıxışını yüksək qiymətləndirdi, Azərbaycana geniş həcmdə sərmayə axınını hökumətin səmərəli fəaliyyətinin nəticəsi olduğunu bildirdi və respublikamızın rəhbərini bu uğur münasibətilə təbrik etdi.

Xanım Xalidə Ziya Rəhman Azərbaycan Prezidenti İlham Əliyevi Banqladeşə rəsmi səfərə dəvət etdi. Dəvət razılıqla qəbul olundu.

Görüşdə ölkələrimizi maraqlandıran bir sıra məsələlər də müzakirə edildi.

### *Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Ermənistan Prezidenti Robert Köçəryan ilə görüşü*

Cenevrədə İnformasiya Cəmiyyəti üzrə Dünya Sammitində iştirak edən Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev dekabrın 11-də "İnterkontinental" mehmanxanasının "Millətlər salonu"nda Ermənistan Respublikasının Prezidenti Robert Köçəryan ilə görüşmüşdür.

Görüş ATƏT-in Minsk qrupu həmsədrlərinin iştirakı ilə başlandı və sonra dövlət başçıları söhbəti təkbətək davam etdirdilər. Daha sonra Minsk qrupunun həmsədrləri yenidən görüşə qatıldılar.

Görüş başa çatdıqdan sonra Azərbaycan Prezidenti İlham Əliyev və Ermənistan Prezidenti Robert Köçəryan jurnalistlər qarşısında bəyanatla çıxış etdilər. Dövlət başçıları tanışlıq xarakteri daşıyan bu görüşün qarşılıqlı anlaşmaya kömək edəcəyini bildirdilər. Prezidentlər Ermənistan-Azərbaycan münaqişəsinin aradan qaldırılmasına dair ikitərəfli danışıqların bərpa olunmasını müsbət addım kimi qiymətləndirdilər, fikir mübadiləsinin faydalı olduğunu söylədilər.

Görüşlərin gələcəkdə də davam etdiriləcəyinə inandıqlarını bildirən prezidentlər hər iki tərəfin problemin həllinə maraq göstərdiyini vurğuladılar. Prezident İlham Əliyev dedi ki, biz görüşdə öz fikirlərimizi açıq şəkildə ifadə etdik.

## *Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin BMT-nin Qaçqınların İşi ürə Ali Komissarı ilə görüşü*

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev dekabrın 11-də Cenevrədə, BMT-nin Qaçqınların İşi üzrə Ali Komissarlığının iqamətgahında bu qurumun rəhbəri Ruud Lubbers ilə görüşmüşdür.

Prezident İlham Əliyevi dövlət başçısı seçilməsi münasibətilə təbrik edən cənab Lubbers bu görüşə vaxt ayırdığına, habelə Azərbaycanın Ali Komissarlıqla səmərəli əməkdaşlığına görə minnətdarlığını bildirdi. O dedi ki, Azərbaycanda Dağlıq Qarabağdan, ətraf rayonlardan məcburi köçkünlər və Ermənistandan gəlmiş qaçqınlar vardır. Azərbaycan dini və etnik baxımdan o qədər dözümlü ölkədir ki, hətta Məshəti türkləri, çeçen qaçqınlar da buraya pənah gətirmişlər. Ali Komissar bu insanlara qayğı göstərdiyinə görə Azərbaycan hökumətinə minnətdarlıq etdi.

Prezident İlham Əliyev Ermənistanın Azərbaycana qarşı hərbi təcavüzü nəticəsində yurd-yuvasından didərgin düşmüş bir milyondan artıq soydaşımızın ağır vəziyyəti, onların yaşayışının yüngülləşdirilməsi üçün hökumətin gördüyü tədbirlər haqqında ali komissara ətraflı məlumat verdi. Dövlətimizin başçısı bildirdi ki, respublikamızda Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsi fəaliyyət göstərir. Azərbaycan hökuməti son dövrdə qaçqın-köçkünlərdən ötrü evlər tikilməsi üçün 70 milyon dollardan artıq vəsait ayırmışdır. Həmin evlər su və elektrik enerjisi ilə təchiz olunmuşdur. Prezident İlham Əliyev bu işin gələcəkdə də davam etdiriləcəyini bildirərək dedi ki, çünki hələ də çadırlarda, yataqxanalarda məskunlaşmış qaçqın-köçkünlər vardır.

Azərbaycan Prezidenti vurğuladı ki, bu, problemin bir tərəfidir. Bizim əsas məqsədimiz Ermənistan silahlı qüvvələrinin işğal edilmiş ərazilərdən tamamilə çıxarılmasına nail olmaqdır. Dövlətimizin başçısı xatırlatdı ki, münaqişənin həlli ilə bağlı Azərbaycan və Ermənistan prezidentləri 20-dək birbaşa görüşlər keçirmişlər. Bir neçə saat əvvəl də Ermənistan Prezidenti ilə görüşümüz olmuşdur.

Prezident İlham Əliyev bildirdi ki, işğal qüvvələrinin Azərbaycan torpaqlarından çıxarılması barədə BMT-nin 4 qətnaməsi var, Avropa Şurasının rəsmi sənədində Ermənistan işğalçı dövlət kimi göstərilmişdir. Lakin Ermənistanın qeyri-konstruktiv mövqe tutması münaqişənin həllinə mane olur.

Dövlətimizin başçısı son vaxtlar donorların Azərbaycandakı qaçqın-köçkünlərə yardımı azaltmasını vurğulayaraq, BMT-nin Qaçqınların İşi üzrə Ali Komissarlığının bu sahədə ölkəmizə kömək göstərməsinin zəruriliyini bildirdi.

Söhbət zamanı regionda gedən proseslər, Gürcüstandakı son hadisələr haqqında da geniş fikir mübadiləsi aparıldı. Ali komissar Azərbaycanın qonşu dövlətlərlə münasibətləri ilə də maraqlandı. Prezident İlham Əliyev ona bu barədə ətraflı məlumat verdi.

Cənab Ruud Lubbers Dağlıq Qarabağ münaqişəsinin sülh yolu ilə tezliklə aradan qaldırılması sahəsində səylərin artırılmasının, tərəflərin bu problemi danışıqlar vasitəsilə tezliklə həll etməsinin vacibliyini bildirdi. O, qaçqınların və məcburi köçkünlərin tezliklə doğma yurdlarına qayıdacağına ümidvar olduğunu söylədi. Eyni zamanda dedi ki, onun rəhbərlik etdiyi qurum Azərbaycanda qaçqınlara və məcburi köçkünlərə kömək göstərilməsi sahəsində daha intensiv işləyəcəkdir.

Ali komissar dedi ki, biz yanvar ayının axırlarında Bakıda konfrans keçirməyi planlaşdırırıq. Konfransda qaçqın-köçkünlər yerlərinə qayıtdıqdan sonra görüləcək işlər haqqında müzakirələr aparılacaqdır. Eyni zamanda, bu insanların yoxsulluq səviyyəsində yaşayan hissəsinin problemlərinə xüsusi diqqət yetirmək nəzərdə tutulur.

Prezident İlham Əliyev bu təşəbbüsü bəyənərək bildirdi ki, konfransın keçirilməsi üçün Azərbaycanda hər cür şərait yaradılacaqdır.

Görüş başa çatdıqdan sonra Prezident İlham Əliyev və ali komissar Ruud Lubbers jurnalistlərin suallarına cavab verdilər.

## *Dövlətimizin başçısı İlham Əliyev Cenevrə Sammiti çərçivəsində təşkil edilmiş sərgidə ölkəmizin stendi ilə tanış olmuşdur*

Xəbər verdiyimiz kimi, Cenevrədə İnformasiya Cəmiyyəti üzrə Dünya Sammitində iştirak edən BMT-nin Baş katibi, dövlət və hökumət başçıları birgə xatirə şəkli çəkdirmişlər.

AzərTAC-ın xüsusi müxbiri xəbər verir ki, İsveçrənin Cenevrə şəhərində İnformasiya Cəmiyyəti üzrə Dünya Sammitində iştirak edən Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Sammit çərçivəsində təşkil edilmiş sərgidə ölkəmizin stendi ilə tanış olmaq üçün dekabrın 11-də Palekspo sarayının sərgi salonuna gəldi.
Azərbaycan Prezidenti İlham Əliyevi burada İsveçrə parlamentinin nüfuzlu üzvü Qalli Remo, Qlobal Bilik Tərəfdaşlığı Təşkilatının sədri, Dünya Sammitinin həmtəşkilatçısı Valter Fast səmimiyyətlə qarşıladılar.
Dövlətimizin başçısı İlham Əliyev informasiya-kommunikasiya texnologiyaları sahəsində Azərbaycanın nailiyyətlərini əks etdirən stendlə, bu mövzuda kitablar və broşürlərlə tanış oldu. Burada Azərbaycanın müasir telekommunikasiya sahəsində uğurlarına dair ətraflı məlumatlar almaq olar. Ölkəmizin Prezidenti müasir dünyanın informasiya və telekommunikasiya sisteminə sıx inteqrasiyası, yeni texnologiyaların tətbiqinin respublikamızda daha da genişləndirilməsi üçün dövlət səviyyəsində bütün zəruri addımların bundan sonra da atılacağını bildirdi, bu istiqamətdə özəl sektorun da öz uğurlarını artıracağına əmin olduğunu nəzərə çarpdırdı.
Azərbaycan Prezidenti İlham Əliyev BMT İnkişaf Proqramının stendi ilə də tanış oldu və respublikamızın nümayəndələrinə müvafiq tapşırıqlar və tövsiyələr verdi.

### *Prezident İlham Əliyev BMT-nin Cenevrə bölməsinin Baş Direktoru ilə görüşmüşdür*

İnformasiya Cəmiyyəti üzrə Dünya Sammitində iştirak etmək üçün Cenevrədə səfərdə olan Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və xanımı Mehriban Əliyeva dekabrın 12-də Millətlər sarayına gəldilər. Sarayın qarşısında Azərbaycan Prezidentinin şərəfinə fəxri qarovul düzülmüşdü.
Birləşmiş Millətlər Təşkilatının Cenevrə bölməsinin baş direktoru Sergey Orconikidze Prezident İlham Əliyevi sarayın önündə böyük hörmətlə qarşıladı.
Sonra Prezident İlham Əliyev ilə BMT-nin Cenevrə bölməsinin baş direktoru Sergey Orconikidze arasında görüş oldu. Sergey Orconikidze vurğuladı ki, bu, Azərbaycan Respublikası Prezidentinin BMT-nin Cenevrə bölməsinə ilk gəlişidir və BMT ilə Azərbaycan arasında əlaqələrin daha da intensivləşməsinə xidmət edəcəkdir.
BMT-nin Cenevrə bölməsinin baş direktoru bildirdi ki, bölmənin yerləşdiyi bina ötən əsrin 30-cu illərində Millətlər Cəmiyyətinə məxsus olmuşdur.
Dövlətimizin başçısı ona və nümayəndə heyətinin üzvlərinə göstərilən yüksək qonaqpərvərliyə görə təşəkkür etdi. Prezident İlham Əliyev Dünya Sammitində iştirak etdiyini, BMT-nin baş katibi Kofi Annanla, bir sıra dövlət və hökumət başçıları ilə faydalı görüşlər keçirdiyini xatırlatdı, Cenevrəyə səfərinin faydalı və yaddaqalan olduğunu söylədi.
Azərbaycan Prezidenti İlham Əliyev BMT-nin baş katibi Kofi Annanın ölkəmizdə aparılan islahatları dəstəklədiyini bildirdi və qeyd etdi ki, Azərbaycan BMT Təhlükəsizlik Şurasında baş verəcək dəyişiklikləri

müsbət qarşılayır. Dövlətimizin başçısı İnformasiya Cəmiyyəti üzrə Dünya Sammitində inkişaf edən ölkələr üçün İnternet şəbəkəsinin təkmilləşdirilməsi ilə bağlı fond yaradılması təklifini də dəstəklədiyini söylədi. O, Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ problemini önə çəkərək dekabrın 11-də Ermənistan Prezidenti Robert Köçəryan ilə görüşdüyünü bildirdi və ATƏT-in Minsk qrupunun fəaliyyətinin hələ də heç bir nəticə vermədiyini diqqətə çatdırdı.

Sergey Orconikidze təəssüflə qeyd etdi ki, İkinci Dünya müharibəsindən sonra münaqişələr daha da artmışdır. O, Dağlıq Qarabağ problemi və qaçqınların vəziyyətinin yaxşılaşdırılması ilə əlaqədar BMT-nin Baş katibi Kofi Annanla və BMT-nin qaçqınların işi üzrə ali komissarı Ruud Lubberslə söhbət edəcəyini bildirdi.

BMT-nin Cenevrə bölməsinin baş direktoru terrorizmə və narkotiklərin daşınmasına qarşı mübarizədə Azərbaycana hər cür yardım etməyə hazır olduqlarını da qeyd etdi.

Dövlətimizin başçısı beynəlxalq terrorizmə qarşı mübarizədə Azərbaycanın fəal və birmənalı mövqe tutduğunu xüsusi vurğulayaraq dedi ki, BMT və digər nüfuzlu təşkilatlar Azərbaycanın yerləşdiyi regionda da terrorizmlə mübarizəni gücləndirməlidirlər. Prezident İlham Əliyev bildirdi ki, Azərbaycan BMT ilə sıx əməkdaşlıq edir və bütün dünyada, o cümlədən regionumuzda sülhün və təhlükəsizliyin təmin olunması naminə bu əməkdaşlığı gələcəkdə də davam etdirəcəkdir.

Azərbaycan Prezidenti İlham Əliyev təəssüflə qeyd etdi ki, ölkəmizin ərazisinin İranla 143 kilometrlik sərhədi Ermənistan tərəfindən zəbt olunmuş və bu ərazi nəzarətsiz zona hesab olunur.

BMT-nin Cenevrə bölməsinin baş direktoru Sergey Orconikidze Prezident İlham Əliyevin uğurlarını məmnunluqla izlədiyini bildirərək dedi ki, müasir dünyada gedən proseslərə dərindən bələd olan liderlərin keçmiş sovet respublikalarında hakimiyyətə gəlməsi böyük rəğbət hissi doğurur.

Görüşdə bir sıra digər məsələlər ətrafında da geniş fikir mübadiləsi aparıldı.

Sonda Sergey Orconikidze Azərbaycan Prezidenti İlham Əliyevə dünya xalqlarının mədəniyyət incilərini əks etdirən foto-albom, BMT-nin Cenevrə bölməsi barədə məlumat kitabı və BMT-nin fəaliyyəti ilə bağlı markalar kolleksiyası hədiyyə etdi.

Azərbaycan Prezidenti İlham Əliyev BMT-nin Cenevrə bölməsinin xatirə kitabına ürək sözlərini yazdı.

Görüşdən sonra Sergey Orconikidze və BMT-nin Cenevrə bölməsinin məsul əməkdaşları Prezident İlham Əliyevi Millətlər sarayının nəhəng inzibati binası, o cümlədən iclas salonları, görüşlər keçirilən otaqları ilə tanış etdilər.

Daha sonra BMT-nin Cenevrə bölməsinə Azərbaycan Respublikası adından hədiyyə edilən rəsm əsərinin təqdimat mərasimi oldu.

Sergey Orconikidze çıxış edərək, Azərbaycan Respublikası Prezidentinin BMT-nin Cenevrə bölməsinə ilk gəlişini əlamətdar hadisə kimi qiymətləndirdi. O, BMT-nin fəaliyyətinə Azərbaycanın verdiyi töhfəyə görə

təşəkkürünü bildirdi və bu sahədə əməkdaşlığın gələcəkdə də davam edəcəyinə ümidvar olduğunu söylədi. Baş direktor Azərbaycan Respublikasının Cenevrə bölməsinə hədiyyəsinə görə də minnətdarlığını bildirdi.

Prezident İlham Əliyev BMT-nin Cenevrə bölməsinə gəlməsindən məmnun olduğunu vurğuladı. Dövlətimizin başçısı xatırlatdı ki, Azərbaycan xalqının qədim və zəngin mədəniyyəti var, dövlət müstəqilliyi qazandıqdan sonra ölkəmiz siyasi və iqtisadi baxımdan sürətlə inkişaf edir, regionda çox mühüm rol oynayır. Ölkəmiz bundan sonra da təkcə regionumuzda deyil, bütün dünyada, o cümlədən Avropada öz layiqli yerini tutmağa və mühüm rol oynamağa çalışacaqdır.

Prezident İlham Əliyev bildirdi ki, Azərbaycan Avropaya, ümumən dünyaya inteqrasiyasını gücləndirmək niyyətindədir. Bu baxımdan İnformasiya Cəmiyyəti üzrə Dünya Sammitində respublikamızın layiqincə təmsil olunması çox əlamətdar bir hadisə kimi qiymətləndirilməlidir. Azərbaycan informasiya-kommunikasiya texnologiyaları sahəsində mühüm uğurlar əldə etmişdir və gələcəkdə daha böyük inkişafa nail olacaqdır.

Sonra Azərbaycan Prezidenti İlham Əliyev Bakının mənzərəsi təsvir olunmuş tablonun üzərindəki ağ örtüyü götürdü.

Təqdimat mərasimindən sonra BMT-nin Cenevrə bölməsinin baş direktoru Sergey Orconikidzenin adından Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin şərəfinə rəsmi nahar təşkil olundu.

Azərbaycan Prezidentinin xanımı Mehriban Əliyeva, respublikamızın xarici işlər naziri Vilayət Quliyev və digər rəsmi şəxslər naharda iştirak edirdilər.

Dekabrın 12-də Azərbaycan Prezidenti İlham Əliyevin Cenevrəyə səfəri başa çatdı.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev həmin gün gecə vətənə qayıtdı

Prezident İlham Əliyevi Binə beynəlxalq hava limanında Milli Məclisin sədri Murtuz Ələsgərov, Baş nazir Artur Rasizadə, Prezidentin İcra Aparatının rəhbəri Ramiz Mehdiyev və digər rəsmi şəxslər qarşıladılar.

**«AZƏRTAC». 12.12.03**

## Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Süleyman Dəmirəl ilə görüşü

Dekabrın 20-də "Ulduz" sarayında Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev xalqımızın ümummilli lideri Heydər Əliyevin vəfatı ilə əlaqədar başsağlığı vermək üçün Bakıya gəlmiş Türkiyə Cümhuriyyətinin 9-cu Prezidenti Süleyman Dəmirəl ilə görüşmüşdür.

Prezident Heydər Əliyevin vəfatının bütün türk dünyası üçün ağır itki olduğunu bildirən Süleyman Dəmirəl dedi:

- Azərbaycan xalqının böyük oğlu, böyük dövlət adamı, əziz qardaşım və dostum Prezident Heydər Əliyevin vəfatı ilə əlaqədar hörmətli Prezident İlham Əliyevə və onun şəxsində Azərbaycan xalqına başsağlığı verməyə gəldim.

Mərhum Heydər Əliyev Azərbaycanın, Türkiyənin, türk dünyasının lideri idi. Bu dünyanın bütün insanlarına da başsağlığı verməyə gəldim.

Allah rəhmət eləsin!

Mən Sizin kədərinizə şərik çıxıram.

Azərbaycan Prezidenti İlham Əliyev cənab Süleyman Dəmirələ təşəkkürünü bildirdi:

- Hörmətli cənab Prezident, gəldiyinizə görə sağ olun.

Həqiqətən, Azərbaycan xalqı, bütün türk dünyası üçün böyük itkidir. Heydər Əliyev ümummilli lider, Azərbaycan xalqının atasıdır.

Azərbaycan xalqı bu günədək özünə gələ bilməyib. Onun uyuduğu məzarın önünə yüz minlərlə insan gəlir və bu axının ardı-arası kəsilmir. Bu, bir daha göstərir ki, xalqımız onu nə qədər sevirdi, nə qədər böyük hörmət edirdi. Heydər Əliyevin xatirəsi bizim qəlbimizdə yaşayacaqdır.

Hamımızın – onun davamçılarının əsas vəzifəsi ondan ibarətdir ki, Heydər Əliyevin yolunu davam etdirək. Mən əminəm ki, Azərbaycan xalqı bu yolun yolçusu olacaq və onun nəzərdə tutduğu bütün işləri yerinə yetirəcəkdir. Heydər Əliyevin təməlini qoyduğu layihələr, işlər davam etdiriləcəkdir və nəticədə Azərbaycan xalqı daha firavan və xoşbəxt yaşayacaqdır.

Hörmətli Cümhurbaşqanı, mən bir daha Sizə öz təşəkkürümü bildirirəm. Siz Heydər Əliyevlə yaxın dost, qardaşsınız. Məhz bu qardaşlığın nəticəsində Türkiyə ilə Azərbaycan arasında münasibətlər daha da yaxın olmuşdur. Bu ikitərəfli münasibətlərin nəticəsində ölkələrimiz, region və bütün dünya üçün böyük miqyaslı layihələr həyata keçirilir.

Mən Sizi görməyimə çox şadam. Siz Heydər Əliyevin qardaşısınız. Əlbəttə, biz istərdik ki, başqa bir məqamda görüşək. Amma bu kədərli günlərdə Sizi görməyimə çox şadam. Bu, mənə böyük təsəllidir.

Cənab Süleyman Dəmirəl son olaraq dedi:

- Azərbaycan xalqının böyük dövlət adamı Heydər Əliyevə göstərmiş olduğu qədirbilənlik və vəfa Türkiyədə böyük təqdirlə qarşılanmış, dünyanın diqqətini çəkmişdir.

Dəyərli Prezident, əziz qasrdaşım Heydər Əliyev "Türkiyə-Azərbaycan münasibətləri sonsuza qədər yaşayacaqdır. Biz bir millətin iki dövlətiyik. Bu münasibətləri pozmağa kimsə nail ola bilməz" – demişdir. Mən də bununla əlaqədar məmnunluğumu ifadə etmişdim.

Təkrar edirəm ki, qonşu və qardaş olan iki ölkə sonsuza qədər birlik, bərabərlik və qardaşlıq içində olacaqdır.

Sizə də bu böyük vəzifənizdə uğurlar diləyirəm.

Görüşdə xarici işlər naziri Vilayət Quliyev, Türkiyənin ölkəmizdəki səfiri Əhməd Ünal Çeviköz iştirak edirdilər.

**«AZƏRTAC». 20.12.03**

***Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin digər görüşləri***

04 noyabr – Bolqarıstan Respublikasının müdafiə naziri Nikolay Svinarov və onu müşayiət edən şəxslərlə görüş

07 noyabr – ABŞ Prezidentinin milli təhlükəsizlik məsələləri üzrə sabiq müşaviri Zbiqnev Bjezinski və onu müşayiət edən şəxslərlə görüş

07 noyabr – Qara Dəniz İqtisadi Əməkdaşlıq Təşkilatının (QİƏT) baş katibi Valeri Çeçelaşvili ilə görüş

10 noyabr – Ukrayna Dövlət Millətlərin İşləri və Miqrasiya Komitəsinin sədri Gennadi Moskalın başçılıq etdiyi nümayəndə heyəti ilə görüüş

11 noyabr – Dünya Bankının Cənubi Qafqaz üzrə direktoru Donna Dousset-Koyrolonun başçılıq etdiyi nümayəndə heyəti ilə görüş

11 noyabr – Qafqaz Müsəlmanları İdarəsinin sədri Şeyxülislam Hacı Allahşükür Paşazadə ilə görüş

12 noyabr – Gürcüstanın Acarıstan Muxtar Respublikasının başçısı Aslan Abaşidze ilə görüş

15 noyabr – Avropa Parlamentinin Xarici Əlaqələr, İnsan Hüquqları, Birgə Təhlükəsizlik və Müdafiə Siyasəti Komitəsinin Cənubi Qafqaz üzrə məruzəçisi Per Qarton ilə görüş

17 noyabr – Amerika Birləşmiş Ştatları Dövlət Katibi müavinin Avro-Asiya məsələləri üzrə nümayəndəsi Linn Pasko ilə görüş

19 noyabr – Böyük Britaniya və Şimali İrlandiya Birləşmiş Krallığının Azərbaycandakı səfiri Endrü Taker ilə görüş

19 noyabr – Fransa Respublikasının Azərbaycandakı səfiri Şantal Puare ilə görüş

20 noyabr – Beynəlxalq Valyuta Fondunun İkinci Avropa Departamentinin direktoru Con Odlinq-Smi ilə görüş

21 noyabr – Amerika Birləşmiş Ştatlarının Avropa Komandanlığının Qərargah rəisinin müavini general Çarlz Uoldun ilə görüş

21 noyabr – Məşhur iqtisadçı, Nobel mükafatı laureatı, Kolumbiya Universitetinin professoru Cozef Stiqlits ilə görüş

24 noyabr – Yaponiya Xarici işlər nazirinin müavini İçiro Fucisaki ilə görüş

24 noyabr – Müsəlman ölkələrinin Bakıdakı diplomatik nümayəndəliklərinin başçıları ilə görüş

26 noyabr – Rusiya Federasiyası xarici işlər nazirinin birinci müavini Vyaçeslav Trubnikov ilə görüş

26 noyabr – Özbəkistan Respublikasının Azərbaycandakı səfiri Əbdüqafur Əbdürəhmanov ilə görüş

26 noyabr – Qazaxıstan Respublikasının Azərbaycandakı səfiri Andar Şukputov ilə görüş

28 noyabr – Rusiya Federasiyası hökuməti sədrinin müavini Viktor Xristenko ilə görüş

28 noyabr – Polşa Respublikasının Azərbaycandakı səfiri Marçın Navrot ilə görüş

28 noyabr – Yunanıstan Respublikasının Azərbaycandakı səfiri Merkurious Karafotias ilə görüş

01 dekabr – Amerika Birləşmiş Ştatlarının Azərbaycandakı səfiri Rino Harniş ilə görüş

01 dekabr – Pakistan İslam Respublikasının Azərbaycandakı səfiri Məhəmməd Hafiz ilə görüş

03 dekabr – Amerika Birləşmiş Ştatlarının Müdafiə Naziri Donald Ramsfeld ilə görüş

04 dekabr – BMT Baş katibinin müavini və bu təşkilatın Narkotiklər və Cinayətkarlıq üzrə idarəsinin icraçı direktoru Antonio Maria Kosta ilə görüş

05 dekabr – ATƏT-in Minsk qrupunun Rusiyadan, Amerika Birləşmiş Ştatlarından və Fransadan olan həmsədrləri ilə görüş

05 dekabr – Hindistanın xarici işlər nazirinin müavini Racindra Madhukar Abhyankar ilə görüş

08 dekabr – Avropa Şurası Parlament Assambleyasının Azərbaycanda siyasi məhbuslar məsələsi üzrə məruzəçisi Malkolm Bryus, Hüquq məsələləri və insan hüquqları komitəsi katibinin müavini Devid Kupina ilə görüş

08 dekabr – Avropa Komissiyasının Azərbaycandakı xüsusi elçisi Antonius De Vris ilə görüş

22 dekabr – Rumıniyanın Azərbaycandakı səfiri Tasın Cəmil ilə görüş



# AZƏRBAYCAN RESPUBLİKASININ XARİCİ İŞLƏR NAZİRİ VİLAYƏT QULİYEVİN 2003-CÜ İL OKTYABR-DEKABR AYLARI ƏRZİNDƏ DİPLOMATİK FƏALİYYƏTİ

**YUNESKO-nun Baş konfransında Azərbaycan Respublikasının Xarici İşlər Naziri Vilayət Quliyevin iştirakı**

Oktyabrın 1-də YUNESKO-nun Baş konfransının 32-ci sessiyası öz işini davam etdirmişdir. Müxtəlif ölkələrin xarici işlər nazirlərinin və nazir müavinlərinin iştirakı ilə keçirilən sessiyada bu beynəlxalq qurumla bağlı ümumi məsələlər ətrafında müzakirələr aparılmışdır.

YUNESKO üzrə Azərbaycan Milli Komissiyasının sədri, xarici işlər naziri Vilayət Quliyev müzakirələrdə çıxış edərək demişdir ki, son vaxtlar dünya ictimaiyyəti mədəni-tarixi abidələrin bilərəkdən dağıdılması faktları ilə tez-tez üzləşir. Məhz bu baxımdan ümumbəşəri mədəni irsin qəsdən məhv edilməsinə qarşı YUNESKO tərəfindən əhəmiyyətli mexanizmlərin hazırlanması təqdirəlayiqdir. Digər tərəfdən, narahatlıq doğuran əsas fakt budur ki, bir çox dövlətlər mədəni dəyərlərin qorunmasına dair konvensiyalara üzv olsalar da, həmin sənədlərin tələblərindən irəli gələn öhdəlikləri yerinə yetirmirlər. Mədəni abidələrin qəsdən dağıdılması, məhv edilməsi təcavüzü ilə Azərbaycanda üzləşmişdir. Ermənistanın hərbi qüvvələri tərəfindən işğal olunmuş Azərbaycan ərazilərində qədim qəbiristanlıqların qəsdən dağıdılmasını təsdiqləyən sənədlər cari ildə iki dəfə YUNESKO-ya təqdim olunmuşdur.

Sonra nazir YUNESKO-nun "Bəşəriyyətin şifahi və qeyri-maddi irsinin şah əsərləri" adlı səmərəli proqramını, qeyri-maddi irsin qorunması sahəsində bu təşkilatın gördüyü işləri yüksək qiymətləndirmişdir.

Vilayət Quliyev ölkələrarası münasibətlərə və əməkdaşlıq məsələlərinə toxunaraq bildirmişdir ki, Cənubi Qafqazda qeyri-sabitliyin, münaqişələrin mövcudluğu bəzi dövlətlər tərəfindən yürüdülən separatçı meyllər regional əməkdaşlığa mane olur. Azərbaycan torpaqlarının 20 faizini işğal etmiş və bir milyondan artıq qaçqın ordusunun yaranmasına səbəb olmuş Ermənistanla hansısa bir sahədə əməkdaşlıqdan söhbət gedə bilməz. Ermənistanla geniş miqyasda əməkdaşlıq yalnız münaqişənin həllindən sonra mümkün olduğu üçün hələ 31-ci

sessiyada Qafqaza dair layihələrin əsasən milli səviyyələrdə həyata keçirilməsinə üstünlük verilməsi fikri irəli sürülmüşdü.

Təhsil problemindən bəhs edən nazir dövlətin bu sahəyə xüsusi diqqət və qayğı göstərdiyini qeyd etmiş, bu beynəlxalq təşkilatın üzvü olan dövlətlərdə təhsilin səviyyəsinin yaxşılaşdırılmasına YUNESKO-nun yardımının əhəmiyyətini xüsusi vurğulamış, kommunikasiya və informasiyanın inkişafi sahəsindəki səyləri, İnkişaf proqramı, Müntəzəm proqram, Təqaüd, Bank və Etibar Fondunun yardımı sahəsində həyata keçirilən layihələri yüksək qiymətləndirmişdir.

Azərbaycan Milli Komissiyası sədrinin çıxışı böyük maraqla qarşılanmışdır.

**«AZƏRTAC». 02.10.03**

## BMT-nin Baş katibi Kofi Annanın Azərbaycan Respublikasının Xarici İşlər Naziri Vilayət Quliyevə ünvanladığı məktubu

2003 ilin oktyabr ayının 17-də BMT-nin Baş katibi Kofi Annan Azərbaycan Respublikasının xarici işlər naziri Vilayət Quliyevin bu ilin sentyabr ayının 20-də ona göndərdiyi və Ermənistan silahlı qüvvələri tərəfindən Azərbaycan-Ermənistan sərhəddində və Dağlıq Qarabağda atəşkəs rejiminin pozulması və regionda gərginliyin artması ilə bağlı məktubuna cavab məktubu göndərmişdir.

Məktubda Kofi Annan vurğulayır ki, onun fikrincə Azərbaycan Respublikasının Dağlıq Qarabağ regionunda və onun ətrafında baş verən münaqişə yalnız siyasi yolla və kompromislər nəticəsində həll oluna bilər.

O, tərəfləri 1994-cü ildə əldə edilmiş atəşkəs rejiminə riayət etməyə, danışıqları ən qısa bir zamanda bərpa etməyə və ATƏT-in Minsk Qrupu və ATƏT-in Şəxsi Nümayəndəsi ilə fəaliyyətlərini davam etdirməyə çağırmışdır.

Son olaraq Baş katib ümidvar olduğunu bildirir ki, Minsk Qrupun səyləri və tərəflərin numayiş etdirəcəkləri əzm əsasında məsələnin həll olunmasında həlledici irəliləyiş mümkün olacaq.

**XİN, Mətbuat Mərkəzinin məlumatı, 24.10.03**

## Azərbaycan Respublikasının Xarici İşlər Naziri Vilayət Quliyevin ATƏT-in Hazirki Sədri, Niderlandin Xarici işlər naziri Yaap de Hoop Sxeffer ilə görüşü

Həmin gün ATƏT-in hazırkı sədri, Niderlandın xarici işlər naziri Yaap de Hoop Sxeffer Azərbaycanın Xarici işlər naziri Vilayət Quliyevlə görüşmüşdür.

Qonağı səmimi salamlayan Vilayət Quliyev Azərbaycanda keçirilən prezident seçkiləri barədə ətraflı məlumat verərək demişdir ki, xalqın mütləq əksəriyyətinin iradəsi ilə seçilmiş Prezident yaxın günlərdə öz səlahiyyətlərinin icrasına başlayacaqdır. Yeni Prezident və Azərbaycan hökuməti əsas diqqəti bir sıra mühüm məsələlərin, o cümlədən ölkəmiz üçün ən ağrılı problem olan Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həllinə yönəldəcəkdir. Azərbaycan bu münaqişənin beynəlxalq hüquq normalarına uyğun, Azərbaycanın ərazi bütövlüyü çərçivəsində həllinə tərəfdardır. Ölkəmiz bunun üçün bütün mümkün vasitələrdən istifadə edir, eyni zamanda, beynəlxalq təşkilatların, o cümlədən ATƏT-in də bu istiqamətdə səylərini artıracağına ümid edir. Münaqişənin həlli təkcə Azərbaycanın ərazi bütövlüyünün bərpasına, 1 milyondan çox qaçqın və məcburi köçkünün öz doğma yurd-yuvalarına qayıtmasına deyil, bütövlükdə regionun inkişafına səbəb olacaqdır.

Vilayət Quliyev cənab Sxefferin yaxın vaxtlarda NATO-nun Baş katibi vəzifəsində çalışacağını xatırladaraq, onun bu vəzifədə də münaqişənin sülh yolu ilə həlli üçün səylərini artıracağına ümidvar olduğunu vurğuladı.

Cənab Yaap de Hoop Sxeffer dedi ki, regiona səfərinin müddəti qısa olsa da, öz proqramında Azərbaycana daha çox vaxt ayırmışdır. Ermənistan və Gürcüstan prezidentləri ilə görüşlərində regionun inkişafına dair fikir mübadiləsi apardığını söyləyən qonaq Azərbaycanın yeni seçilmiş Prezidenti ilə görüşdə də bir sıra məsələləri müzakirə etmək arzusunda olduğunu bildirdi, yeni dövlət başçısının münaqişənin həllində təzə imkanlar yaradacağına ümidvar olduğunu vurğuladı. O, təsdiqlədi ki, regionda bir sıra nailiyyətlər əldə olunsa da, bəzi problemlər, o cümlədən Dağlıq Qarabağ münaqişəsi hələ də öz həllini tapmamışdır.

ATƏT-in sədri səfərindən əvvəl Minsk qrupunun həmsədrləri ilə görüşdüyünü və onların noyabrın 8-də regiona gəlmək niyyətində olduqlarını bildirdi. O, bu səfər zamanı münaqişənin həlli ilə bağlı səmərəli fikir mübadiləsi aparılacağına və həmsədrlərin problemin həllində əllərindən gələni edəcəklərini ümidvar olduğunu söyləyərək dedi ki, beynəlxalq təşkilatlar, o cümlədən ATƏT münaqişənin həll olunmasını istəyir. Amma bu, ilk növbədə, region dövlətlərindən asılıdır. Eyni zamanda, cənab Sxeffer münaqişənin ədalətli həllini tapacağına ümidvar olduğunu bildirdi.

**«AZƏRTAC». 22.10.03**

**Azərbaycan Respublikasının Xarici İşlər Naziri Vilayət Quliyevin Qara Dəniz İqtisadi Əməkdaşlıq Təşkilatının (QİƏT) üzvü olan ölkələrin Xarici İşlər Nazirləri Şurasının 9-cu iclasında iştirakı**

Oktyabrın 31-də Bakıda Qara Dəniz İqtisadi Əməkdaşlıq Təşkilatının (QİƏT) üzvü olan ölkələrin Xarici İşlər Nazirləri Şurasının 9-cu iclası keçirilmişdir.

Şuranın sədri, Azərbaycanın xarici işlər naziri Vilayət Quliyev iclası açaraq qonaqları salamlamış və onlara uğurlar arzulamışdır. Bu iclasın ölkəmizdə əlamətdar bir günə təsadüf etdiyini vurğulayan nazir, oktyabrın 15-də keçirilən seçkilərdə böyük üstünlüklə qələbə qazanmış Azərbaycan Prezidenti İlham Əliyevin məhz bu gün təntənəli andiçmə mərasimi olduğunu diqqətə çatdırmış, bütün iştirakçıları mərasimə dəvət etmişdir.

Sonra Vilayət Quliyev Azərbaycanın quruma sədrliyi dövründə görülən işlərlə bağlı hesabat vermişdir. Natiq demişdir ki, ötən altı ay ərzində Azərbaycan QİƏT ölkələri arasında, xüsusən də regionda nəqliyyat və energetika sahələrində əməkdaşlığın inkişaf etdirilməsinə çalışmışdır. Neft və qaz kəmərlərinin çəkilməsi, Qara dəniz və Xəzəryanı ölkələrdə nəqliyyat şəbəkəsinin gücləndirilməsi məqsədilə xüsusi sənədlər imzalanmış, bir sıra vacib addımlar atılmışdır. Turizm sahəsinin inkişafı üçün də layihələr hazırlanmışdır. Azərbaycan hesab edir ki, turizm təkcə biznesin deyil, bütün sahələrdə əlaqələrin inkişafı üçün vacibdir. QİƏT-in inkişafı üçün daha səmərəli addımlar atılmalıdır. Təşkilatla Avropa Birliyi, Dünya Bankı, eləcə də digər siyasi və maliyyə qurumları arasında əməkdaşlıq gücləndirilməlidir. Bir sıra layihələrin həyata keçirilməsi üçün güclü maliyyə yardımlarına ehtiyac vardır. Bundan başqa, QİƏT-in rəhbərliyinin, xüsusən də Baş katibinin statusu gücləndirilməli, ona əlavə səlahiyyətlər verilməlidir.

Vilayət Quliyev bir sıra problemlərin regional əməkdaşlığa əngəl yaratdığını da qeyd etmişdir.

Sonra QİƏT-in Baş katibi Valeri Çeçelaşvili çıxış etmişdir. Təşkilata rəhbərliyi dövründə Azərbaycanın rolunu yüksək qiymətləndirən Baş katib demişdir ki, bir sıra regional layihələrin həyata keçirilməsində, inkişafın davamlılığının təmin olunmasında Şuranın indiki rəhbərinin xüsusi əməyi olmuşdur. O, Azərbaycanın quruma daha altı ay sədrlik edəcəyini bildirmişdir.

Türkiyə Respublikası Baş nazirinin müavini, dövlət naziri Əbdüllətif Şənər də öz çıxışında bir sıra layihələrin həyata keçirilməsində və təşkilatın çiçəklənməsində Azərbaycanın rolunu xüsusi qeyd etmişdir.

Sonra regionda enerji, nəqliyyat sahələrinin, cinayətkarlığa qarşı mübarizənin gücləndirilməsi, viza sənədləşmələrinin sadələşdirilməsi, fövqəladə vəziyyətlərdə kömək göstərilməsi, regional və beynəlxalq əməkdaşlığın perspektivləri barədə çıxışlar olmuş, təkliflər səslənmişdir.

Müzakirələr zamanı Qara dəniz regionundakı münaqişələrin region ölkələrinin inkişafına vurduğu ziyan, eləcə də problemin həlli yollarına da toxunulmuşdur.

Ermənistan xarici işlər nazirinin müavini Ruben Şuqaryan çıxışında bildirib ki, regional münaqişələr, o cümlədən Dağlıq Qarabağ problemi danışıqlar yolu ilə həll olunmalıdır. Azərbaycanda və Ermənistanda gedən seçkilər Dağlıq Qarabağ münaqişəsinin həlli ilə bağlı danışıqların bir qədər səngiməsinə səbəb olmuşdur. Danışıqlar Ki-Uest və Paris razılaşmaları əsasında davam etdirilməlidir.

Azərbaycanın xarici işlər naziri Vilayət Quliyev isə demişdir ki, Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli ilə bağlı danışıqlar daha intensiv şəkildə davam etdiriləcəkdir. Sülh prosesi Azərbaycanın irəli sürdüyü tələblər tam nəzərə alınmaqla həyata keçirilməlidir. Ki-Uest və Parisdə heç bir razılaşma olmadığını bir daha xatırladan Vilayət Quliyev demişdir ki, danışıqlar prosesi üçün elə bir baza yaranmamışdır ki, indi də həmin nöqtədən başlanılsın. Ona görə də danışıqlar tam ağ səhifədən də başlana bilər.

Şura üzvləri təşkilati məsələyə baxaraq Azərbaycanın yenidən təşkilata sədrlik etməsini xahiş etmişlər. Qeyd olunmuşdur ki, əlifba sırası ilə Şuraya sədrlik Bolqarıstana verilməli idi. Amma Bolqarıstan gələn ildən ATƏT-ə sədrlik edəcəkdir. Bir dövlət eyni vaxtda iki beynəlxalq təşkilatda sədrlik edə bilməz. Azərbaycanın sədrliyi dövründə təşkilatın qazandığı uğurları yüksək qiymətləndirən Şura üzvləri ona görə də yenidən ölkəmizin bu təşkilata sədrlik etməsinə səs vermişlər.

Müzakirələr zamanı QİƏT-in digər qurumlarının roluna toxunulmuş, bu institutların daha da inkişaf etdirilməsi qərara alınmışdır.

İclasın sonunda QİƏT Parlament Assambleyasında qəbul olunacaq qərarların üzv dövlətlər tərəfindən baxılmasının zəruriliyinə imkan yaradan və təşkilatın parlamentariləri üçün bəzi imtiyazlar nəzərdə tutan "İmtiyazlar və immunitetlər haqqında" Protokol imzalanmışdır.

Bununla da Qara Dəniz İqtisadi Əməkdaşlıq Təşkilatı Xarici İşlər Nazirləri Şurasının Bakıda keçirilən 9-cu iclası öz işini başa çatdırmışdır.

**«AZƏRTAC». 31.10.03**

## Azərbaycan Respublikasının Xarici İşlər Naziri Vilayət Quliyevin Avropa Şurası Xarici işlər nazirlərinin 113-cü iclasında iştirakı

Azərbaycanın Xarici işlər naziri Vilayət Quliyevin başçılıq etdiyi nümayəndə heyəti Avropa Şurası xarici işlər nazirlərinin noyabrın 5-də öz işinə başlayan 113-cü iclasında iştirak etmək üçün Moldova Respublikasının paytaxtına gəlmişdir.

Kişinyov beynəlxalq hava limanında Azərbaycan nümayəndə heyətini ölkəmizin Moldovadakı səfiri T.Əliyev, Azərbaycanın Avropa Şurası yanında daimi nümayəndəsi səfir A.Mehdiyev, Moldova Respublikası xarici işlər nazirinin müavini İ.Stevile, Moldova Azərbaycanlıları Konqresinin sədri M.İsmayılov və digər rəsmi şəxslər qarşılamışlar.

Noyabrın 5-dən 7-dək Moldova Respublikasının paytaxtında Avropa Şurası Nazirlər Komitəsinin 113-cü iclası keçirilir. İclasda ölkəmizin Xarici işlər naziri Vilayət Quliyev başda olmaqla Azərbaycan nümayəndə heyəti də iştirak edir.

Noyabrın 6-da V.Quliyev hələ açılışından əvvəl Avropa Şurasının Baş katibi Valter Şvimmerlə görüşdü. Söhbət zamanı V.Quliyev AŞ-nın Baş katibinə Azərbaycanda prezident seçkilərinin yekunları, İlham Əliyevin ölkənin yeni Prezidenti seçilməsi barədə məlumat verdi. O, İlham Əliyevin Avropa Şurası ilə əməkdaşlıqda yaxşı təcrübəyə malik olduğunu vurğuladı və qəti əminliyini bildirdi ki, ölkənin yeni rəhbəri bu təcrübədən Prezident vəzifəsindəki fəaliyyətində istifadə edəcəkdir.

Nazir Azərbaycanda yeni hökumətin yaradılmasına başlandığı barədə də məlumat verdi. Baş katib Valter Şvimmer 15 oktyabrda İlham Əliyevin Azərbaycan Prezidenti seçilməsi münasibətilə naziri səmimiyyətlə və ürəkdən təbrik etdi və özünün ən xoş arzularını ölkəmizin başçısına yetirməyi xahiş etdi.

Azərbaycanın Xarici işlər naziri prezident seçkilərindən sonra ölkədə törədilmiş hadisələr barədə ətraflı məlumat verdi. V.Quliyev bu hadisələr barədə yazılı, çap məlumatını, habelə video və foto materialları müsahibinə təqdim etdi. O bildirdi ki, hüquq mühafizə orqanları əməkdaşlarının hərəkətləri asayişi qorumaq zəruriliyi ilə bağlı idi və polisi sərt reaksiyaya müxalifətin pozucu qüvvələri təhrik edirdi.

V.Quliyev Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin nizama salınması məsələsinə toxunaraq, bu problemin həllinə beynəlxalq birliyin obyektiv və ədalətli münasibət göstərməsinin vacibliyini nəzərə çarpdırdı. Avropa Şurasının Baş katibi isə ümidvar olduğunu söylədi ki, Azərbaycanın yeni Prezidenti seçildikdən sonra danışıqlar prosesinə təzədən başlanacaqdır.

Söhbət zamanı Azərbaycanın Avropa Şurası ilə əməkdaşlığına dair bir sıra məsələlər müzakirə edildi.

Noyabrın 6-da Kişinyovun “Respublika” sarayında Avropa Şurasının Nazirlər Komitəsinin 113-cü iclasının təntənəli açılışı oldu.

Əcnəbi həmkarları Azərbaycanın Xarici işlər naziri Vilayət Quliyevi və onun simasında bütün xalqımızı İlham Əliyevin ölkəmizin Prezidenti seçilməsi münasibətilə səmimiyyətlə və ürəkdən təbrik etdilər, dövlətimizin başçısına hər cür uğurlar arzuladılar.

Nazirlər Komitəsinin sədri, Moldovanın Xarici işlər naziri Nikolae Dudeu iclası giriş sözü ilə açaraq, təbrik üçün Moldova Prezidenti Vladimir Voroninə söz verdi. Moldova rəhbəri iclas iştirakçılarını Avropadakı silahlı münaqişələrə diqqət yetirməyə çağırdı.

Avropa Şurasının Baş katibi V.Şvimmer indiki iclasda Avropa Birliyi genişləndikdən sonra qitənin yeni siyasi arxitekturasını müzakirə etmək, ayırıcı xətlər olmayan Avropa yaradılmasının mümkünlüyünü nəzərdən keçirmək, Avropa Şurasının III zirvə toplantısının məzmunlu gündəliyini hazırlamaq təklifi irəli sürdü.

Ümumi iclasda Azərbaycanın xarici işlər naziri Vilayət Quliyev məruzə ilə çıxış etdi. O, III zirvə toplantısından danışaraq, nizama salınmamış silahlı münaqişələrlə, onların nəticələri və Avropa Şurasının

üzvü olan ölkələrdə demokratiya quruculuğuna təsiri ilə bağlı problemlərin gündəlikdə əks etdirilməsinin zəruriliyini vurğuladı.

V.Quliyev Ermənistan-Azərbaycan münaqişəsi məsələsinə toxunaraq, nəzərə çarpdırdı ki, bu münaqişə nəinki Azərbaycanın, həm də Cənubi Qafqaz regionunun və bütün Avropanın təhlükəsizliyinə qorxu yaradır. O, forum iştirakçılarının diqqətini insan hüquqlarının qorunmasını öz fəaliyyətində öncül istiqamətlərdən biri hesab edən Avropa Şurası kimi təşkilatın üzvü olan ölkələrin siyasi iradə göstərməsinin zəruriliyinə yönəltdi, bir milyon qaçqın və məcburi köçkünün hüquqlarından söhbət getdiyini bildirdi.

Nazir dedi ki, beynəlxalq terrorizmə qarşı fəal çıxış edən Azərbaycan terrorizmə əlverişli şərait yaradan hallarla – təcavüzkar millətçilik və silahlı separatçılıqla mübarizə aparılmasını labüd bilir. V.Quliyev qlobal problem və cinayətkarlığın ən mənfur forması olan insan alveri mövzusuna da toxunaraq dedi ki, beynəlxalq birlik bu problemin öhdəsindən ancaq birgə səylərlə gələ bilər.

V.Quliyev ATƏT-in Baş katibi Y.Kubiş, Moldovanın xarici işlər naziri N.Dudeu, gələn ilin yanvarından Avropa Birliyində sədrlik edəcək İrlandiyanın xarici siyasət idarəsinin başçısı B.Kouen ilə də danışıqlar apardı. O, gələcəkdə bu təşkilatın Ermənistan-Azərbaycan münaqişəsinin nizama salınmasına qoşulmasının vacibliyini vurğuladı.

Kişinyov forumunun işində Azərbaycanın Avropa Şurası yanında daimi nümayəndəsi, səfir Aqşin Mehdiyev də iştirak edirdi.

Avropa Şurası Nazirlər Komitəsinin 113-cü iclası başa çatdıqdan sonra Azərbaycanın Xarici işlər naziri Moldova XİN-in başçısı N.Dudeu tərəfindən təşkil olunmuş təntənəli ziyafətdə iştirak etdi.

Noyabrın 6-da Kişinyovda nazir Vilayət Quliyev Moldova Azərbaycanlıları Konqresinin (MAK) rəhbərliyi və fəalları ilə görüşdü.

MAK-ın sədri Mehman İsmayılov ölkəmiz üçün tarixi hadisə – Avropa miqyaslı siyasətçi İlham Əliyevin Azərbaycan Prezidenti vəzifəsinə rəsmən başlaması münasibətilə V.Quliyevi çoxminli Azərbaycan diasporu adından səmimiyyətlə təbrik edərək dedi ki, Moldova azərbaycanlıları öz sıralarını bundan sonra da möhkəmləndirərək, millətin lideri Heydər Əliyevin xalqımızı sıx birləşdirmək siyasətini həyata keçirəcəklər.

Görüşdə Azərbaycanın Moldovadakı səfiri Tələt Əliyev iştirak edirdi.

**«AZƏRTAC». 06.11.03**

**Azərbaycan Respublikasının Xarici İşlər Naziri Vilayət Quliyevin Almaniyada keçirilmiş "Cənubi Qafqaz: siyasi problemlər və regionun inkişaf perspektivləri" mövzusunda beynəlxalq forumda iştirakı**

Noyabrın 12-13-də Berlində "Cənubi Qafqaz: siyasi problemlər və regionun inkişaf perspektivləri" mövzusunda beynəlxalq forum keçirilmişdir. Məhdud Məsuliyyətli Beynəlxalq Təkmilləşdirmə və İnkişaf Cəmiyyətinin təşkil etdiyi dialoq-forumu Almaniya hökuməti, Federal İqtisadi Əməkdaşlıq və İnkişaf Nazirliyi dəstəkləmişdir.

Azərbaycan, Gürcüstan və Ermənistanın xarici işlər nazirləri başda olmaqla çoxtərkibli nümayəndə heyətləri foruma Cənubi Qafqazda indiyədək həll edilməmiş münaqişələrin aradan qaldırılması, siyasi sabitliyin, iqtisadi inkişafın bərqərar olunması istiqamətində regional, beynəlxalq səylərin daha da artırılması yollarını realistcəsinə təhlil etməyə, qarşılıqlı etimada söykənən tənqidi, konstruktiv dialoq aparmağa dəvət olunmuşdular.

Forumun işində Avropa Birliyinin, Avropa Komissiyasının, Avropa Şurası Parlament Assambleyasının, ATƏT-in, MDB-nin, beynəlxalq maliyyə qurumlarının və humanitar yardım təşkilatlarının, qeyri-hökumət təşkilatlarının, donor ölkələrin nüfuzlu nümayəndələri də iştirak edirdilər.

Dialoq-forumu giriş sözü ilə açan dövlət katibi cənab Erix Ştather bildirmişdir ki, Almaniya hökuməti 2001-ci ildən başlayaraq, Cənubi Qafqaz ölkələrinin dirçəlişinə yardım təşəbbüsünü həyata keçirməkdədir. Hüquq-ədliyyə sisteminin inkişafına, energetika sektorunun və sahibkarlığın inkişafına, vərəm xəstəliyinin qarşısının alınmasına, ətraf mühitin mühafizəsi sahələrində regional əməkdaşlıq layihələrinin həyata keçirilməsi işinə yardım göstərilir. Almaniya hökuməti bu səylərini gələcəkdə də davam etdirmək əzmindədir. Lakin regionda iqtisadi yüksəlişin və əmin-amanlığın tam bərqərar olması üçün Cənubi Qafqazdakı mövcud problemlər öz həllini tapmalıdır. Gürcü-abxaz, xüsusilə Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişələrinin həll edilməməsi regionun tərəqqisini ləngidir. Cənubi Qafqaz münaqişələr meydanına çevrilməsəydi, burada inkişafın və həyatın başqa mənzərəsi ilə üzləşmək mümkün olardı.

ATƏT-in Baş katibi Yan Kubiş öz çıxışında xatırlatdı ki, hər üç Cənubi Qafqaz dövləti Avropaya inteqrasiyanı bəyan etmiş və ATƏT-in üzvü seçilmişlər. Ermənistan və Azərbaycanda prezident seçkiləri, Gürcüstanda isə parlament seçkiləri artıq başa çatmışdır. Dağlıq Qarabağ münaqişəsinin həlli ilə məşğul olan ATƏT-in Minsk qrupu dekabr ayından başlayaraq regiona səfərlərini davam etdirəcək, münaqişənin aradan qaldırılmasına dair yeni təkliflərini bildirəcəkdir.

Sonra Azərbaycan və Ermənistan xarici işlər nazirləri Vilayət Quliyev və Vardan Oskanyan münaqişənin həllində mövcud durumun təhlilini verdilər.

Son dərəcədə emosional çıxış edən Ermənistanın xarici işlər naziri Oskanyan öz sərt bəyanatlarını verməyə başladı. O dedi ki, vaxtilə bu şəhəri və xalqı iki hissəyə bölən Berlin divarları, nəhayət, dağıdılmış,

Almaniyanın ərazi bütövlüyü bərpa olunmuş, xalq bir-birinə qovuşmuşdur. Qarabağın da taleyi Berlinin taleyinin eynidir. Heç vaxt Azərbaycan torpağı olmayan Dağlıq Qarabağın əhalisi də, mədəniyyəti də erməniyə məxsusdur. Bunu tarixin səhifələrini vərəqləməklə aydın görmək olar. Avropa indi bizə Dağlıq Qarabağ münaqişəsinin həllinə dair yeni perspektivlər axtarır. Amma əbəs yerə. Dağlıq Qarabağ artıq "Azərbaycan divarlarını" yıxmış, sərhədlərini müəyyənləşdirmiş, erməni xalqı tarixi vətəninə yiyələnmiş, xalq bir-birinə qovuşmuşdur. Ermənistan hazırda Dağlıq Qarabağın iqtisadi yüksəlişi haqqında düşünür və Avropadan Dağlıq Qarabağın iqtisadi dirçəlişinə yardımçı olmağı xahiş edir. Bütün region dövlətləri bu işdə Ermənistana yardım göstərməlidir. Qarabağ ya Azərbaycanın, ya da Ermənistanın olmalıdır.

Azərbaycan Respublikasının Xarici işlər naziri Vilayət Quliyev öz çıxışında Ermənistan xarici işlər nazirinin sərsəm uydurmalarına tutarlı və əsaslı cavablar verərək qətiyyətlə bildirdi ki, Dağlıq Qarabağın əzəli Azərbaycan torpağı olmasını sübut etmək üçün tarixi vərəqləmək gülünc və lüzumsuzdur. Qarabağ Azərbaycan torpağı olmuşdur və olacaqdır. O bildirdi ki, öz ərazisini qonşu dövlətlərin torpaqları hesabına genişləndirməyin mümkünlüyü barədə təcavüzkarlıq xülyalarına qapılan Ermənistan Dağlıq Qarabağa müstəqillik verilməsini və Azərbaycan ərazisinin Ermənistana birləşdirilməsini tələb etmişdir. Bu məqsədlə o, Dağlıq Qarabağla yanaşı, onun ətrafındakı yeddi bölgəni də zəbt etmiş, işğal altında saxlayaraq anklav yaratmışdır. Bu ərazidə tam etnik təmizləmə aparılmış, nəticədə, hazırda Azərbaycanda 1 milyonadək qaçqın və məcburi köçkün vardır.

Vilayət Quliyev vurğuladı ki, BMT Təhlükəsizlik Şurasının Dağlıq Qarabağ münaqişəsinə dair dörd qətnaməsində Helsinski Yekun Aktının tələblərinə uyğun olaraq, Azərbaycan Respublikasının suverenliyinə və ərazi bütövlüyünə hörmət edilməsinin təsdiqlənməsi Ermənistan Respublikasının Dağlıq Qarabağa iddiasının beynəlxalq hüquqi əsası olmadığına sübutdur. Nazir bildirdi ki, ölkəmizin niyyəti münaqişənin sülh yolu ilə ədalətli həll edilməsi olsa da, beynəlxalq ictimaiyyət bilməlidir ki, Azərbaycan öz torpağının bir qarışının belə itirilməsi ilə razılaşmayacaqdır. Xalqın səbri tükənmişdir və heç kim bundan istifadə edə bilməz. Yadda saxlamaq lazımdır ki, bir vaxt torpaqlarını itirən Azərbaycan indi onları geri qaytarmağa qadirdir. Münaqişənin həllinin düyünə düşməsinin səbəbkarı isə təcavüzkar Ermənistandır. Dağlıq Qarabağ münaqişəsi həll edilməsə, Azərbaycanın ərazi bütövlüyü təmin olunmasa, ölkəmizin Avropaya inteqrasiyasından söhbət gedə bilməz.

Müzakirədə çıxış edən Milli Məclisin deputatı, parlamentin AŞPA-dakı nümayəndə heyətinin üzvü Asim Mollazadə xatırlatdı ki, çadırlarda yaşayan minlərlə azərbaycanlı üçün hazırda həyat çətin imtahana çevrilmişdir. Qaçqın düşərgələrində və digər müvəqqəti sığınacaq yerlərində yaşayan soydaşlarımız 10 ildən artıqdır ki, ağır psixoloji sarsıntı keçirirlər. Burada məişət, təhsil, tibb və sosial sahələrdə yüksəlişin və tərəqqinin olması üçün münaqişə öz həllini tapmalı, beynəlxalq humanitar qayğının işlək mexanizmləri

hazırlanmalıdır. O, BMT-nin müvafiq təşkilatlarını, donor ölkələri və qeyri-hökumət təşkilatlarını Azərbaycanda qaçqın və məcburi köçkünlərə diqqəti daha da artırmağa çağırdı.

Azərbaycan nümayəndələri "İnsan hüquqları və səmərəli hökumət idarəçiliyi", "Energetika sektorunda əməkdaşlıq", "Ticarət, iqtisadiyyat və maliyyə" bölmələrində fəaliyyət göstərən işçi qruplarının iclaslarında da müzakirələrdə fəal iştirak edərək, əməli təkliflərlə çıxış etdilər, informasiya mübadiləsi apardılar.

Azərbaycan Respublikasının Xarici işlər naziri Vilayət Quliyev Berlində ikitərəfli görüşlər də keçirmişdir.

Almaniya Federal İqtisadi Əməkdaşlıq və İnkişaf naziri xanım Haydemari Viçorek-Soyl ilə görüşdə Almaniya-Azərbaycan iqtisadi əməkdaşlıq əlaqələri diqqət mərkəzində olmuşdur. Azərbaycan xarici siyasət idarəsinin başçısı Vilayət Quliyev respublikamızda demokratiyanın, iqtisadiyyatın inkişafı, insan haqlarının müdafiəsi, Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli istiqamətində görülən işlər, qaçqınların vəziyyəti barədə məlumat vermişdir.

Almaniya xarici siyasət idarəsinin başçısı Yoşka Fişerlə görüşdə Cənubi Qafqazda mövcud ictimai-siyasi vəziyyət, Dağlıq Qarabağ münaqişəsinin dinc yolla həllinin perspektivləri barədə fikir mübadiləsi aparılmışdır. Vilayət Quliyev həmkarına Azərbaycanda keçirilən prezident seçkiləri barədə ətraflı məlumat vermişdir. O bildirmişdir ki, seçkilər azad, şəffaf, ədalətli və beynəlxalq standartlara uyğun şəkildə keçirilmişdir. Seçkilərin gedişini ATƏT, Avropa Şurası və digər beynəlxalq təşkilatların müşahidəçiləri izləmişlər. Azərbaycan xarici siyasət idarəsinin başçısı əminliklə vurğulamışdır ki, Almaniya-Azərbaycan ikitərəfli əlaqələri ölkəmizin yeni Prezidenti İlham Əliyevin fəaliyyəti dövründə də genişlənməyə və dərinləşməyə doğru inkişaf edəcəkdir.

**«AZƏRTAC». 14.11.03**

**Azərbaycan Respublikasının Xarici İşlər Naziri Vilayət Quliyevin Rusiya Federasiyasına rəsmi səfəri**

Azərbaycanın Xarici işlər naziri Vilayət Quliyev rusiyalı həmkarı İqor İvanovun dəvəti ilə noyabrın 24-də Moskvaya ikigğnlök işgğzar səfərə gəlmişdir. Xarici siyasət idarələrinin başçıları noyabrın 24-də keçirilən görğşdə ikitərəfli dövlətlərarası əməkdaşlı□ a dair geniş səpkili məsələləri mğzakirə etmiş, bu mğnasibətlərin, xğsusən son vaxtlar, yaxşı səviyyədə oldu□ unu vur□ ulamışlar.

Vilayət Quliyev danışıqların yekunlarını şərh edərək demişdir ki, mğzakirə olunan əsas məsələ Gğrcğstanda yaranmış ictimai-siyasi vəziyyətlə ba□ lı idi. Nazirin süzlərinə gürə, tərəflər orada yaranmış vəziyyətdən narahat olduqlarını ifadə etmiş və bildirmişlər ki, onların düvlətləri Gğrcğstanda vəziyyətin qanunçuluq və Konstitusiya prinsipləri əsasında sabitləşməsində maraqlıdır.

Digər mğhğm məsələ Rusiya ilə Ermənistan arasındakı hərbi-texniki əməkdaşlıq barədə idi. V.Quliyev demişdir: “İqor İvanov bizi əmin etdi ki, Rusiya Da□ lıq Qaraba□ mğnaqişəsinin tezliklə və ədalətlə həllində, sğlh prosesinin fəallaşmasında maraqlıdır. Lakin Rusiya tərəflərdən birinə bu və ya digər şərtləri qəbul etdirə bilməz, buna baxmayaraq, münaqişənin həlli yollarının axtarışını AT□ T-in Minsk qrupu çərçivəsində davam etdirəcəkdir”.

Danışıqların yekunlarına dair birgə mətbuat konfransında İqor İvanov bəyan etmişdir ki, “Rusiya və Ermənistanın hərbi-texniki əməkdaşlı□ ı Azərbaycana ziyan vurmayacaqdır”. Onun süzlərinə gürə, Ermənistanla hərbi-texniki əməkdaşlıq çərçivəsində Rusiya Azərbaycanın milli təhlğkəsizliyinə ziyan vura biləcək heç bir iş gürməyib və gürməyəcəkdir. İ.İvanov Azərbaycan XİN-in həmin məsələ ilə əlaqədar bu yaxınlarda verdiyi notaya toxunaraq vur□ ulamışdır ki, Rusiya tərəfi bu məsələdə şəkk-şübhəyə hətta eyhamın belə olmaması ğçğn Azərbaycanla da hərbi-texniki əməkdaşlı□ ı inkişaf etdirməyə hazır oldu□ unu dəfələrlə açıqlamışdır.

Tərəflər regional problemlərə də büyğk diqqət yetirmiş, Xəzərin statusu məsələsini və Xəzəryanı düvlətlərin xarici işlər nazirlərinin qarşıdakı gürğşğnğ mğzakirə etmişlər. Hərbi-texniki, ticarət-iqtisadi, mədəni əməkdaşlıq məsələləri də diqqət mərkəzində olmuşdur.

Ğmumiyyətlə, Azərbaycanın və Rusiyanın xarici işlər nazirləri ən ğmdə məsələlərə dair danışıqların yekunlarından razı qalmışlar.

Xatırladaq ki, bu, Azərbaycan Respublikasının Prezidenti İlham □ liyevin oktyabrın 31-də düvlət başçısı vəzifəsinin icrasına başlayandan sonra ülkəmizin xarici siyasət idarəsi rəhbərinin Rusiya paytaxtına ilk səfəridir.

### ***Az□ rbaycan Respublikas□ n□ n Xarici □ l□ r Naziri Vilay□ t Quliyevin Rusiya Federasiyası Təhlğkəsizlik Şurasının katibi Vladimir Ruşaylo ilə gürğ□ ğ***

Moskvada səfərdə olan Azərbaycanın Xarici işlər naziri Vilayət Quliyev Rusiya Federasiyası Təhlğkəsizlik Şurasının katibi Vladimir Ruşaylo ilə də gürğşmğşdğr.

Gürğşdə RF Təhlğkəsizlik Şurasının katibi son vaxtlar Azərbaycanla Rusiya arasında dinamik inkişaf edən və bğtğn Qafqazda sabitliyin mühkəmlənməsinə kümək güstərən ikitərəfli mğnasibətlərin səviyyəsindən razı oldu□ unu bildirmişdir. V.Ruşaylo demişdir ki, Azərbaycan-Rusiya mğnasibətlərində yeni keyfiyyət əldə olunmuşdur və bu, ilk nüvbədə, Rusiya Prezidenti Vladimir Putinin və Azərbaycan Prezidenti Heydər □ liyevin siyasi iradəsi sayəsində mğmkğn olmuşdur. İkitərəfli mğnasibətlərin mühkəm əsasını məhz onlar qoymuşlar. Biz əminik ki, yğksək səviyyəli gürğşlər gələcəkdə də qarşılıqlı mğnasibətlərimizin istiqamətlərini mğəyyənləşdirəcəkdir.

Rusiya Təhlğkəsizlik Şurasının katibi indiki Prezident İlham □ liyevlə seçkilər ərəfəsindəki gürğşğnğ büyğk səmimiyyətlə xatırlamışdır. O, azərbaycanlı həmkarları ilə yaranmış etibarlı mğnasibətləri də xğsusi vur□ ulamışdır. Vladimir Ruşaylo demişdir: “Biz Azərbaycan Prezidenti İcra Aparatının rəhbəri Ramiz Mehdiyevlə daim əlaqə saxlayırıq və belə səmərəli əlaqələrin davam etdiriləcəyinə ğmid bəsləyirik”.

Azərbaycanın Xarici işlər naziri Vilayət Quliyev bildirmişdir ki, Prezident İlham □ liyev mğstəqil Azərbaycanın siyasi xəttini, əsası ğmummilli liderimiz Heydər □ liyev tərəfindən qoyulmuş xətti davam etdirəcəkdir. Prezident Heydər □ liyev ilə Prezident Vladimir Putin arasında dialoq sayəsində Azərbaycan-Rusiya mğnasibətləri strateji tərəfdaşlıq səviyyəsinə çatmışdır və Azərbaycan bunu yğksək qiymətləndirir.

Tərəflər regional təhlğkəsizlik problemlərinə də toxunmuş, Gğrcğstandakı vəziyyəti mğzakirə etmişlər. Qeyd olunmuşdur ki, bğtğn qonşu düvlətlər Gğrcğstanda vəziyyətin sabitləşməsində maraqlıdırlar, çğnki bu, bğtğn regionun sabitliyi və təhlğkəsizliyi ğçğn vacibdir.

V.Quliyevin dediyinə gürə, ülkəmizin əsas narahtlı□ ı bununla izah olunur ki, “Gğrcğstan Azərbaycanın qonşusu və strateji tərəfdaşıdır, bir sıra iqtisadi və enerji layihələrini birlikdə həyata keçiririk. Azərbaycan Gğrcğstanda yaşayan azərbaycanlıların taleyindən də narahatdır”.

***Az□ rbaycan Respublikas□ n□ n Xarici □ l□ r Naziri Vilay□ t Quliyevin MDB ülkələri Xarici İşlər Nazirləri Şurasının nüvbədənkənar iclasında i□ tirak□***

Noyabrın 25-də Kiyevdə MDB ülkələri Xarici İşlər Nazirləri Şurasının nüvbədənkənar iclası olmuşdur. Azərbaycanın Xarici işlər naziri Vilayət Quliyev iclasda iştirak etmişdir.

Kiyevin Borispol hava limanında xarici işlər naziri Vilayət Quliyevi Azərbaycanın Ukraynadakı səfiri Tələt □ liyev, Ukrayna XİN-in əməkdaşları qarşılamışlar.

İclasda Gğrcğstandakı son hadisələr, Birlik düvlətlərinin bu ülkədəki vəziyyətlə ba□ lı müvqeləri diqqət mərkəzində olmuşdur.

Azərbaycan Xarici işlər naziri Vilayət Quliyev çıxışında dost və qonşu Gğrcğstandakı siyasi vəziyyətlə ba□ lı rəsmi Bakının narahatlı□ ını ifadə etmişdir. O, vur□ ulamışdır ki, Gğrcğstan Azərbaycanın nəinki mehriban qonşusu, həm də ülkəmizlə birgə beynəlxalq layihələri gerçəkləşdirən, yarım milyondan çox azərbaycanlının yaşadı□ ı strateji tərəfdaşıdır. Ona gürə də Gğrcğstanın taleyinə biganə qala bilmərik və respublikamız ictimai-siyasi vəziyyətin nizama salınmasında dost ülkəyə və qardaş gğrcğ xalqına əlindən gələn küməyi etməyə hazırdır.

İclasda birgə bəyanat qəbul edilmişdir. Bəyanatda belə bir əminlik ifadə olunur ki, Gğrcğstanın siyasi qğvvələri Konstitusiya çərçivəsində fəaliyyət güstərərək, ülkədə siyasi vəziyyətin sabitləşməsi ğçğn var qğvvə ilə çalışacaqlar.

**«AZ□ RTAC». 26.11.03**

**Azərbaycan Respublikasın□ n Xarici □ şlər Naziri Vilayət Quliyevin AT□ T-in xarici işlər nazirlərinin Maastrixtda kezirilmi□ sammitində iştirak□**

Noyabr□ n 30-da Azərbaycan Respublikasının Xarici işlər naziri Vilayət Quliyev AT□ T-in xarici işlər nazirlərinin növbəti sammitində iştirak etmək ğzğn Niderland□ n Maastrixt şəhərinə gəlmişdir. Həmin ggn axşam Azərbaycanın və Ermənistanın xarici işlər nazirlərinin AT□ T-in Minsk qrupunun həmsədrləri ilə işzi görğşğ kezirilmişdir. Görğş zamanı həmsədrlərin regiona dekabr□ n 4-8-də planlaşd□ r□ lan səfəri ətrafında geniş fikir mğbadiləsi kezirilmişdir. Həmsədrlər Da□ lıq Qaraba□ mğnaqişəsinin nəticələrinin aradan qaldır□ lması ğzğn danışıqlar prosesinin intensivləşdirilməsi ğzğn hazırladıqlar□ təklifləri Azərbaycanın və Ermənistanın xarici işlər nazirləri ilə mğzakirə etmişlər. Dekabnn 1-də Maastrixt şəhərinin konfranslar zalında AT□ T xarici işlər nazirlərinin növbəti XI sammiti öz işinə başlamışdır. Sammiti AT□ T-in fəaliyyətdə olan sədri, Niderland□ n Xarici işlər naziri Yaap de Hoop Sxeffer azmışdır. Gğnğn ikinci yar□ s□ nda Azərbaycan□ n Xarici işlər naziri Vilayət Quliyevin sammitdə zıxışı olmuşdur. Nazirin zıxış□ nda əsas diqqət AT□ T prinsiplərinin, təşkilat□ n qəbul etdiyi qərar və qətnamələrin yerinə yetirilməsinə yönəldilmişdir. AT□ T ərazisində indiyə qədər öz həllini tapmamış mğnaqişələrin mövcudlu□ u, separatzı qurumlar□ n AT□ T ğzvğ olan ölkələrin suverenliyinə və ərazi bğtövlğyğnə qarşı yönəldilmiş da□ ıdıcı fəaliyyəti təşkilat□ n öz qərarlar□ n□ n icrasındakı qətiyyətsizliyi və qeyri-prinsipiallı□ ı ilə izah olunmuşdur. Nazir Vilayət Quliyev Ermənistan-Azərbaycan, Da□ lıq Qaraba□ mğnaqişəsi ğzərində geniş dayanmış, mğnaqişənin tənzimlənməsi baxımından AT□ T-in, ilk növbədə isə onun Minsk qrupunun fəaliyyətinin yetərli olmadı□ ını vur□ ulamışdır. Üz ölkəsinin mövqeyini sammit iştirakzılar□ n□ n diqqətinə zatdıran nazir bir daha bildirmişdir ki, mğnaqişənin mövcud reallıqlar əsas□ nda həlli planı hez zaman Azərbaycan tərəfindən qəbul edilməyəcəkdir. Vilayət Quliyev Ermənistanı və ona havadarlıq edən qğvvələri mğmkğn qədər tez bir vaxtda bu illğziyalardan xilas olma□ a və konstruktiv mövqe tutma□ a za□ ırmışdır.

Dekabrın 1-də Maastrixtin konfranslar zal□ nda Azərbaycan Respublikas□ n□ n Xarici işlər naziri Vilayət Quliyevin Gğrcğstan prezidentinin səlahiyyətlərini icra edən xanım Nino Burcanadze və Gğrcğstanın bu vəzifəyə yenicə təyin olunmuş xarici işlər naziri Tedo Caparidze ilə görğşğ olmuşdur. Görğş zamanı qonşu ölkədə baş vermiş son hadisələr ətrafında geni□ fikir mğbadiləsi apar□ lm□ d□ r. Xanım Burcanadze Azərbaycana mğnasibətdə öz ölkəsinin bundan sonra da ənənəvi dostluq və □ məkdaşlıq mğnasibətlərini davam etdirəcəyini bildirmiş, birgə iqtisadi layihələrin həyata keçirilməsində, ikitərəfli və beynəlxalq qurumlar çərçivəsində

əməkdaşlı□ ın genişləndirilməsində və dərinləşdirilməsində yeni gğrcğ rəhbərliyinin ardıcıl və səmərəli mövqe tutaca□ ını vur□ ulamışdır.

Nazir Vilayət Quliyev öz ölkəsinin gğrcğ xalq□ nın istəyinə və iradəsinə həssaslıqla yanaşdı□ ını qeyd etmiş və qonşu ölkədə baş verən proseslərin nəticə etibar□ ilə Gğrcğstanı indiki a□ ır və böhranlı vəziyyətdən xilas olması ilə nəticələnəciyinə ğmid etdiyini bilirmişdir. Görğşdə Gğrcğstanda qarşıdan gələn prezident seçkiləri və ölkənin azərbaycanlı əhalisinin vəziyyəti ilə ba□ lı məsələlər də mğzakirə olunmuşdur.

Həmin gğn Azərbaycan□ n Xarici i□ lər naziri Vilayət Quliyevlə Kipr Respublikasının xarici işlər naziri aras□ nda görğş keçirilmişdir. Kiprli nazir adanın yunan və tğrk icmaları arasında mövcud mğnaqişənin tənzimlənməsi istiqamətində görğlən işlər barəsində azərbaycanlı həmkar□ na ətraflı məlumat vermi□ dir. Tərəflər ilk mənbədən məlumat almaq baxım□ ndan belə görğşlərin əhəmiyyətli oldu□ unu vur□ ulamışlar. Xarici işlər naziri Vilayət Quliyevin AT□ T-in Demokratik təsisatlar və İnsan Haqlar□ Bğrosunun direktoru səfir V.Strouqal ilə görğşğndə Azərbaycandakı seçkisonu vəziyyətlə ba□ lı fikir mğbadiləsi apar□ lmışdır.

Dekabnn 1-də Maastrixtin konfranslar salonunda GUÖAM ölkələri xarici işlər nazirlərinin qeyri-formal görğşğ keçirilmişdir. Görğş zamanı GUÖAM xarici işlər nazirlərinin bu il sentyabr□ n 28-də Nyu-Yorkdakı toplantısı zamanı qəbul olunmuş qərarlann icra vəziyyəti mğzakirə edilmişdir. Görğşdə Azərbaycanın Xarici işlər naziri Vilayət Quliyev, Ukraynanın Xarici işlər naziri K.Qrişenko, Gğrcğstan□ n xarici işlər naziri T. Caparidze, Moldovanın xarici işlər naziri N. Dudey, Üzbəkistan xarici işlər nazirinin birinci möavini V. Norov çıxış edərək GUÖAM-ın fəaliyyətini daha da intensivləşdirmək haqq□ nda fikir və mğlahizələrini bildirmişlər. Noyabr□ n 2-də AT□ T xarici işlər nazirlərinin XI zirvə görğşğ AT□ T-in Fəaliyyətdə olan yeni Sədri, Bolqar□ stanın xarici işlər naziri S.Passinin sədrliyi ilə öz işini davam etdirmişdir.

Həmin gğn xarici işlər naziri Vilayət Quliyev AT□ T-in Baş katibi Yan Kubiş ilə görğş keçirmişdir. Gürğşdə Azərbaycanla AT□ T arasında bğtğn səviyyələrdə əməkdaşl□ n genişləndirilməsi, Azərbaycan□ n təşkilatın fəaliyyətinə daha yax□ ndan cəlb olunması mğzakirə olunmuşdur. Görğş zamanı həmçinin AT□ T Baş katibinin 2004-cğ ilin ilk rğbğndə Azərbaycana səfəri haqq□ nda razılıq əldə olunmuşdur.

AT□ T-in XI sammiti mğzakirə olunan məsələlərlə ba□ lı mğvafiq qərarlar□ n qəbul olunması ilə öz işini başa çatdırmışdır.

Xarici işlər naziri Vilayət Quliyev Ermənistan-Azərbaycan, Da□ lıq Qaraba□ mğnaqişəsi ilə ba□ lı AT□ T sədrinin yekun nitqində öz əksini tapmış mğddəalarla əlaqədar izahedici bəyanatla çıxış etmişdir.

***Gündəliyin 8-ci bəndinə əsasən Azərbaycan Respublikasının Bəyanatı***

Maastrixt, 2 dekabr 2003-cü il

Cənab Sədr,

Azərbaycan Respublikası Ermənistan və Azərbaycan arasında olan münaqişə ilə bağlı Nazirlər Şurasının görüşünün bəyanatına dair konsensus olmamasından təəssüflənir.

Bu məsələ üzrə mənim Hökumətimin mövqeyi ATƏT-də dəfələrlə bildirilmişdir. Bu gün həmin mövqeyin mühüm elementlərini təkrar etməyi vacib sayıram.

Biz Ermənistan və Azərbaycan arasında olan münaqişənin nizamlanması prosesində ATƏT-in aşağıda qeyd edilən prinsiplərindən çıxış edirik:

"İştirakçı Dövlətlər hər bir iştirakçı Dövlətin ərazi bütövlüyünə hörmət etməlidirlər. Müvafiq olaraq, onlar BMT-nin Nizamnaməsinin məqsəd və prinsiplərinə zidd olaraq iştirakçı Dövlətin ərazi bütövlüyünə, siyasi müstəqilliyinə və ya vahidliyinə qarşı yönəldilmiş, xüsusilə də güc hədəsi və ya ondan istifadə edilməsindən ibarət olan addımlardan, eyni zamanda digər Dövlətin ərazisinin hərbi və ya beynəlxlaq hüquqa zidd olan birbaşa və ya dolayı tədbirlər vasitəsilə işğal obyektinə çevrilməsi, yaxud bu kimi tədbirlər və ya onların hədəsi vasitəsilə ərazinin əldə edilməsindən çəkinməlidirlər. Bu kimi işğal və əldə edilmə hüquqi cəhətdən tanınmayacaq."

Eyni zamanda, Azərbaycan Respublikası vurğulamaq istərdi ki, xalqların müqəddaratının təyin edilməsi hüququ Helsinki Yekun Aktının aşağıdakı prinsiplərinə uyğun həyata keçirilməlidir:

"İştirakçı Dövlətlər xalqların bərabərlik və onların müqəddaratının təyin edilməsi hüquqlarına hörmət etməli, hər zaman BMT-nin Nizamnaməsinin məqsəd və prinsiplərinə və dövlətlərin ərazi bütövlüyü daxil olmaqla beynəlxalq hüququn müvafiq normalarına uyğun olaraq hərəkət etməlidirlər."

Bundan əlavə, Azərbaycan Respublikası bəyan edir ki, Ermənistan və Azərbaycan arasında mövcud olan münaqişə yalnız Azərbaycanın ərazi bütövlüyünə tam hörmət prinsipinə əsasən həll edilə bilər, yəni: Ermənistan Dağlıq Qarabağ regionu daxil olmaqla Azərbaycan Respublikasının ərazi bütövlüyünü birmənalı olaraq tanımalı; işğalçı erməni qüvvələri dərhal və qeyd-şərtsiz Dağlıq Qarabağ regionu da daxil olmaqla Azərbaycan Respublikasının bütün ərazilərindən çıxarılmalı; zorla qovulmuş Azərbaycanlı əhalinin öz daimi yaşayış yerlərinə təhlükəsiz şəkildə qaytarılması üçün əlverişli şərait yaradılmalıdır.

Daha sonra, Azərbaycan Respublikası bəyan edir ki, Azərbaycanın Dağlıq Qarabağ regionunun erməni icması üçün hər hansı bir özünüidarəetmə statusu işlənib hazırlanacaqsa, bu, yalnız ölkənin ərazi bütövlüyünə tam hörmət prinsipinə əsasən həyata keçirilməlidir.

Biz dərin təəssüf hissi ilə BMT Təhlükəsizlik Şurasının işğalçı qüvvələrin zəbt edilmiş ərazilərdən dərhal, tam və qeyd-şərtsiz olaraq çıxarılmasını və məcburi köçkünlərin daimi yaşayış yerlərinə qaytarılmasını tələb edən 822, 853, 874 və 884 saylı qətnamələrinin qəbul edilməsinin on illiyini qeyd edirik. Təəssüflər olsun ki, hələ də Təhlükəsizlik Şurasının heç bir qətnaməsi Ermənistan tərəfindən yerinə yetirilməmişdir.

Biz güman edirik ki, ATƏT Ermənistanın Azərbaycan Respublikasına qarşı təcavüzünün nəticələrinin aradan qaldırılması üçün qəti tədbilər həyata keçirəcək və – öz qərarlarının yerinə yetirilməsi istiqamətində – hərbi münaqişəyə son qoyulmasına dair siyasi razılaşma əldə edilməsinə xidmət edən təcili addımlar atacaqdır ki, bu razılaşmanın həyata keçirilməsi münaqişənin bütün tərəflər üçün əsas nəticələrini aradan qaldıracaq və ATƏT-in Minsk Konfransının cağırılmasına imkan yaradacaq.

Mən bu bəyanatın bu günün jurnalına əlavə edilməsini xahiş edirəm.

***Azərbaycan Respublikasının Xarici İşlər Naziri Vilayət Quliyevin ATƏT Nazirlər Şurasının 11-ci görüşü zamanı Müraciəti***

Xanım Sədr,

Mənim ölkəm Ukraynanın hörmətli Xarici İşlər Nazirinin GUÖAM ölkələri adından verdiyi bəyanata qoşulur. Ölkəm adından çıxış edərək, mən də digər həmkarlarıma qoşularaq Niderlandın ATƏT-ə Sədrliyi dövründə görülən işlərə görə Nazir Yaap de Hoop Sxefferə minnətdarlığımı bildirmək istəyirəm. Eyni zamanda ATƏT-in Fəaliyyətdə olacaq növbəti Sədri Bolqarıstanın Xarici İşlər Naziri c-b Solomon Passini salamlayaraq, ona Təşkilatın qarşısında duran çoxsaylı məsələlərin həll edilməsi kimi çətin işdə müvəffəqiyyətlər arzulayıram.

Həmçinin, mən bu görüşdə Gürcüstan Prezidentinin səlahiyyətlərini icra edən xanım Nino Burcanadzeni salamlayıram və demokratiya, qanun aliliyi, suverenlik və ərazi bütövlüyü prinsiplərinə əsaslanmış sülh, sabitlik və firavanlıq naminə dost və qonşu gürcü xalqına və hökumətinə tezliklə normal və konstruktiv həyata dönməyi arzu edirəm.

Çox əhatəli və bölünməz təhlükəsizliyin bütün aspektlərinin prinsip və normalarını müəyyən edən yeganə pan-Avropa təsisatı olan ATƏT, şübhəsiz ki, öz tarixi boyu mühüm rol oynamış və bu gün də həmin rolu oynamalıdır.

Lakin, ATƏT-in potensialının praktiki cəhətdən istifadə edilməsi və ya nəhəng ATƏT məkanının həm daxilində, həm də xaricində yaranan və uzun illər boyu Avropanın təhlükəsizliyi ilə qarşılaşan kompleks problemlərin həll edilməsinin real səmərəliliyi bizə fəaliyyətimizdən razı olmağa imkan vermir.

Xanım Sədr,

Ötən illər ərzində biz ATƏT çərçivəsində fəaliyyətin mahiyyətində və üslüblarında olan çatışmamazlıqlara dair narahatlığımızı ifadə etmişdik. Təəssuflər olsun ki, bu il də Təşkilat öz norma və prinsiplərinin həyata keçirilməsinin təsviq edilməsində, xüsusilə də oz ərazisi daxilində on illərlə mövcud olan münaqişələrin nizamlanmasında heç də həmişə uğurlu və ardıcıl fəaliyyət aparmamışdır. ATƏT və onun iştirakçı ölkələri bu istiqamətdə bundan artıq etmək iqtidarındadırlar və bunu etməlidirlər. Avropanın təhlükəsizliyi və sabitliyi suverenlik, ərazi bütövlüyü və sərhədlərin toxunulmazlığı kimi fundamental prinsiplər əsasında qurulmuş və bu prinsiplər istisnasız və ikili standart tətbiq edilmədən ATƏT regionunda  qorunmalıdırlar.

Açıq aydındır ki, bütün iştirakçı Dövlətlərə davamlı əhəmiyyətin verilmədiyi şəraitində, Təşkilatın tədricən üzv ölkələr arasında siyasi dəstəyini itirmək təhlükəsi ilə üzləşməsi labüddur.

Buna görə, biz ümidvarıq ki, ATƏT-in bizim görüşümuz əsnasında bir qədər sonra qəbul ediləcək Strategiyası ATƏT çərçivəsində təhlükəsizlik məsələləri, o cümlədən həll edilməmiş münaqişələrə dair real dialoqun canlandırılmasına xidmət edəcəkdir. Eyni zamanda bu sənəd Təşkilat çərçivəsində azad şəkildə götürülmüş bütün öhdəliklərin yerinə yetirilməsinin təmin edilməsində bizə kömək edəcəkdir. Bu mənada, bizim xidmətimizdə yeni alət olan Təhlükəsizliyin İcmalına dair İllik Konfrans daha da intensiv və səmərəli şəkildə istifadə edilməlidir.

Xanım Sədr,

Son illər ərzində terrorizmin bütün forma və  təzahürlərinin artması ATƏT-in şərin bü növü ilə mübarizəsi üçün tənzimlənmiş və çox əhatəli səylərini zəruri edir. Təhlükəsizliyə dair Əməkdaşlıq Forumunun müvafiq qərarlarının dəstəklənməsi və Nazirlər Şurasının qəbul edə biləcəyi sənədlər terror bəlasına qarşı qlobal mübarizəyə ATƏT-in verə biləcəyi praktiki töhfənin yaxşı nümünəsi ola bilər.

Terrorizmin aradan qaldırılması məqsədinə nail olmaq yolunda biz terrorizmin köklərini araşdırmalı, onun mütəşəkkil cinayətkarlıqla əlaqələrini müəyyən etməli və terrorizmin maliyyələşdirilməsinin qarşısını effektiv şəkildə almalıyıq.

Beynəlxalq ictimaiyyət terrorçuluq və qanunsuzluğa səbəb olan əsas faktorlardan təcavüzkar milliyətçilik, zorakı ekstremizm və silahlı separatizm ilə səmərəli və ardıcıl şəkildə mübarizə aparmalıdır.

ATƏT məkanında separatçılar tərəfindən idarə edilən və ədalət üçün əlçatmaz olan ərazilər cinayətkarlar üçün təhlükəsiz sığınacağa çevrilmişdir. Bu ərazilər cinayətkarlıq fəaliyyəti zonalarına çevrilmiş və qanunsuz silah, narkotik maddə və insan qaçaqmalçılığı, habelə pulların yuyulması məqsədilə geniş şəkildə istifadə olunur. Hazırda dünyada müşahidə edilən mütəşəkkil cinayətkarlığın müxtəlif formalarının birləşməsi tendensiyasını nəzərə alaraq, mənim ölkəm təşkilat tərəfindən ATƏT məkanında terrorçuluq və mütəşəkkil cinayətkarlığın maliyyə və iqtisadi dayaqlarının ifşa edilməsi üçün əhatəli və çoxaspektli təhqıqat aparılmasını vacib hesab edir. Bu, terrorçuluğun qarşısının alınması məqsədilə ATƏT tərəfindən artıq başlanmış praktik tədbirlərin

işlənib hazırlanması işinə əlavə olacaqdır. Beynəlxalq terrorçuluq şəbəkələri və silahlı separatçı hərəkatları ilə yaxın operativ əlaqələri olan mütəşəkkil cinayətkar qrupların maliyyələşdirilməsi üçün istifadə olunan böyük vəsaitlərin toplanması yolları və vasitələrinin müəyyən edilməsi çox vacibdir.

Xanım Sədr,

Mən dəfələrlə bu forumdakı həmkarlarımın diqqətini Ermənistan və Azərbaycan arasında mövcud olan münaqişənin ATƏT çərçivəsində nizamlanmasına çəkmişəm. 1992-ci ildən bu günədək ATƏT-in Minsk prosesi münaqişənin həllində hələ heç bir nəticə verməmişdir.

Mən bilirəm ki, çıxışımdan dərhal sonra Erməni həmkarım söz alacaq və Dağlıq Qarabağın heç vaxt Azərbaycana məxsus olmadığını iddia edəcəkdir. Bunu təqzib etmək üçün bizim kifayyət qədər dəlillərimiz olsa da, mən ATƏT-in bu yüksək tribunasını ittihamların irəli sürülməsi məqsədilə istifadə etmək niyyətində deyiləm. Lakin, bu təkzibedilməz faktdır ki, Erməni silahlı qüvvələri tək Dağlıq Qarabağ deyil, onunla sərhəd olan digər Azərbaycan ərazilərini də işğal etməkdədir və bunun nəticəsində yüz minlərlə insan əziyyət çəkir. İki ölkə arasında davam edən münaqişə regionun siyasi, iqtisadi və humanitar inkişafına mane olur və bizim ölkərimizin Avropaya inteqrasiyası yolunda ciddi çətinliklər yaradır.

Biz hələ də, hərbi münaqişənin sülh yolu ilə və beynəlxalq hüququn tanınmış norma və prinsipləri, BMT TŞ-ın müvafiq qətnamələri və ATƏT-in müvafiq sənəd və qərarlarına əsasən həll edilməsinə sadiq qalmaqdayıq.

Biz Ermənistanla münasibətlərimizi normallaşdırmaq və iki ölkə arasında yaxşı qonşuluq əlaqələrini bərpa etmək istəyirik, lakin buna silahlı təcavüz nəticəsində yaradılmış mövcud "reallıqlar" əsasında nail olmaq mümkün deyil və bizim qonşumuz bu xülyadan əl çəkməlidir. Əks təqdirdə, yenidən başlanmış qarşıdurma təhlükəsi Damokl qılıncı kimi regionu təhdid etməkdə davam edəcəkdir. Azərbaycanın işğal edilmiş torpaqlarını azad etməyə həm mənəvi, həm də siyasi hüququ var və heç kəs bizi bu hüquqdan məhrum edə bilməz.

Nizamlanma prosesində yaranmış çıxılmaz vəziyyət prinsipial yanaşmaların tətbiq edilməsini və BMT TŞ daxil olmaqla, beynəlxalq ictimaiyyətdən təcili tədbirlər görülməsini tələb edir. Bu mənada, biz ümidvarıq ki, Bolqarıstan Sədrliyi bu məsələyə öz töhfəsini verəcəkdir. ATƏT-in hələ də Ermənistan və Azərbaycan arasında və ATƏT-in məkanında digər bənzər münaqişələrin nizamlanmasında istifadə ediləcək potensialı var. ATƏT məkanında təcavüzə və təcavüzkara yer olmamalıdır.

Təşəkkür edirəm.

XİN, Mətbuat Mərkəzinin məlumatı, 03.12.03

**Azərbaycan Respublikasının Xarici İşlər Naziri Vilayət Quliyevin NATO və Avro-Atlantik Tərəfdaşlıq Şurasının xarici işlər nazirlərinin illik toplantısında iştirakı**

2003-cü ilin dekabr ayının 4-də Azərbaycan Respublikasının xarici işlər naziri Vilayət Quliyev NATO və Avro-Atlantik Tərəfdaşlıq Şurasının xarici işlər nazirlərinin illik toplantısında iştirak etmək üçün Brüssel şəhərinə gəlmişdir.
Dekabrın 5-də NATO-nun Baş Katibi Lord Robertsonun sədrliyi ilə NATO və Avro-Atlantik Tərəfdaşlıq Şurasının Sammiti öz işinə başlamışdır. Müasir dövrdə dövlətlər üçün hədə və risklərə həsr olunmuş ikinci plenar Sammitdə Azərbaycan Respublikasının xarici işlər naziri məruzəçi qismində çıxış etmişdir. O, regionda yaranmış mövcud vəziyyət, öz həllini tapmamış münaqişələr və onların beynəlxalq təhlükəsizliyə törətdiyi qorxu haqqında məlumat vermiş və o cümlədən indiyə qədər öz həllini tapmamış Dağlıq Qarabağ münaqişəsinə toxunmuşdur.
Gələcəkdə NATO ilə əməkdaşlığın genişləndirilməsi baxımından xarici işlər naziri NATO rəhbərliyinə bir sıra konkret təkliflər, o cümlədən NATO-nun Bakıda informasiya ofisinin yaradılması, birgə treninqlərin keçirilməsi və s. məsələlərlə bağlı müraciət etmişdir. Həmin gün xarici işlər naziri Vilayət Quliyev Türkiyə xarici işlər naziri Abdulla Güllə görüş keçirmişdir. Türkiyə tərəfinin təşəbbüsü ilə keçirilən görüşdə regiondakı vəziyyət ətraflı təhlil olunmuş, hər iki tərəf Gürcüstandakı vəziyyətlə bağlı öz mövqelərini açıqlamışlar.
Görüş zamanı həmçinin Dağlıq Qarabağ münaqişəsinin həlli və regionda nüfuza malik Türkiyənin bu münaqişənin həllində fəal iştirakı barədə fikir mübadiləsi aparılmışdır. Nazirlər belə görüşlərin gələcəkdə də sistematik davam etdirilməsinə və bu sahədə atılacaq addımlar barədə bir-birilərini məlumatlandıracaqları barədə qərar qəbul etmişlər.
XİN, Mətbuat Mərkəzinin məlumatı, 05.12.03

***Azərbaycan Respublikasının Xarici İşlər Naziri Vilayət Quliyevin digər görüşləri***

08 oktyabr – Pakistan İslam Respublikasının Azərbaycandakı Fövqəladə və Səlahiyyətli Səfiri Məhəmməd Hafiz ilə görüş
08 oktyabr – ATƏT-in Demokratik Təsisatlar və İnsan Hüquqları Bürosunun Azərbaycandakı Secki müşahidə missiyasının rəhbəri Piter Ayxer ilə görüş
09 oktyabr – Bolqarıstanın Azərbaycandakı Səfirliyinin müvəqqəti işlər vəkili İvan Palçev ilə görüş
09 oktyabr – Böyuk Britaniyanın Azerbaycandaki Səfiri Endrü Taker ilə görüş
21 oktyabr – ATƏT-in Demokratik Təsisatlar və İnsan Hüquqları Bürosunun Azərbaycandakı seçki müşahidə missiyasının rəhbəri Piter Ayxer ilə görüş
28 oktyabr – İran İslam Respublikasının Azərbaycandakı səfiri Əhəd Qəzayi ilə görüş

30 oktyabr – Avropa Birliyinin Cənubi Qafqaz üzrə xüsusi nümayəndəsi Heyki Talvityenin başçılıq etdiyi nümayəndə heyəti ilə görüş

30 oktyabr – Rumıniya xarici işlər nazirinin müavini Kristian Diakonesku ilə görüş

14 noyabr - Yunanıstanın Azərbaycandakı səfiri Merkurios Karafotias ilə görüş

15 noyabr – Avropa Parlamentinin Xarici Əlaqələr, İnsan Hüquqları, Birgə Təhlükəsizlik və Müdafiə Siyasəti Komitəsinin Cənubi Qafqaz üzrə yeni məruzəçisi, Avropa Parlamentinin üzvü Per Qarton ilə görüş

17 noyabr – Amerika Birləşmiş Ştatları Dövlət katibi köməkçisinin müavini Linn Pasko ilə görüş

19 noyabr – İrlandiya Krallığının Azərbaycandakı səfiri Sean Uelan ilə görüş

20 noyabr – ATƏT-in Demokratik Təsisatlar və İnsan Hüquqları Bürosunun direktoru Kristian Ştrohal ilə görüş

21 noyabr – Türkiyə Respublikasının Azərbaycandakı səfiri Əhməd Ünal Çeviköz ilə görüş

28 noyabr – Böyük Britaniyanın Azərbaycandakı səfiri Endryu Taker ilə görüş

08 dekabr – Beynəlxalq Qırmızı Xaç Komitəsinin Azərbaycandakı nümayəndəliyinin başçısı Floran Kornaz, onun fəaliyyətinin başa çatması il əlaqədar və bu vəzifəyə yeni təyin olunmuş x-m Meri Verntzi ilə görüş

22 dekabr – Rumıniyanın Azərbaycandakı səfiri Tasin Cəmil ilə görüş

23 dekabr – Qazaxıstan Respublikasının Azərbaycandakı səfiri Andar Şukputov ilə görüş

26 dekabr – Özbəkistan Respublikasının Azərbaycandakı səfiri Abduqafur Abduraxmanov ilə görüş

31 dekabr – İtaliya Parlamentinin üzvü Covanni Kesler ilə görüş

# RƏSMİ MƏLUMAT

**Azərbaycan Respublikası ilə Amerika Birləşmiş Ştatları arasında sülh korpusunun proqramı haqqında saziş imzalanmışdır**

2003-cü il oktyabrın 9-da Bakıda Azərbaycan Respublikası Hökuməti və Amerika Birləşmiş Ştatları Hökuməti arasında Azərbaycan Respublikasında sülh korpusunun proqramı haqqında Saziş imzalanmışdır. Sazişi Azərbaycan hökuməti adından Azərbaycan Respublikasının xarici işlər naziri Vilayət Quliyev, ABŞ adından bu ölkənin Azərbaycandakı Səfiri Rene Harniş imzalamışlar.

XİN, Beynəlxalq hüquq və müqavilələr idarəsi, 10.10.03

**ATƏT-in Fəaliyyətdə olan Sədri, Niderlandın Xarici işlər naziri Yaap de Hoop Sxefferin Azərbaycan Respublikasına səfəri**

ATƏT-in sədri, Niderland Krallığının xarici işlər naziri Yaap de Hoop Sxeffer oktyabrın 22-də ölkəmizə səfərə gəlmişdir.
Binə hava limanında qonağı Azərbaycan xarici işlər nazirinin müavini Araz Əzimov, ATƏT-in Bakı ofisinin rəhbəri Piter Burhard qarşıladılar.
Cənab Sxeffer jurnalistlərə bildirdi ki, Azərbaycana səfərindən məqsəd oktyabrın 15-də keçirilmiş prezident seçkiləri, regional münaqişələr, o cümlədən Dağlıq Qarabağ problemi ilə bağlı fikir mübadiləsi aparmaqdır.

***Dağlıq Qarabağın Azərbaycan icmasının sədri Nizami Bəhmənovla görüş***

Sonra ATƏT-in sədri və onu müşayiət edən şəxslər Dağlıq Qarabağın Azərbaycan icmasının sədri Nizami Bəhmənovla görüşmüşlər.
Dağlıq Qarabağın tarixi, ermənilərin bu ərazilərə köçürülməsi barədə qonaqlara ətraflı məlumat verən Nizami Bəhmənov dedi ki, ermənilər bu ərazilərə köçürüldükdən sonra oradakı qədim tarixi abidələri uçurmuş və ya özününküləşdirmişlər. Ermənilər qədim Alban kilsələrini də öz adlarına çıxmaqla tarixi saxtalaşdırmağa cəhd edirlər və bu barədə artıq beynəlxalq təşkilatlara məlumatlar verilmişdir. Azərbaycana qarşı ərazi iddiasında olan ermənilər bəzi havadarlarının köməyi ilə müxtəlif dövrlərdə müəyyən nəticələr əldə edə bilmişlər. 1988-

ci ildən başlayan təcavüz siyasəti də həmin niyyətlərin davamıdır. Azərbaycan bu münaqişənin sülh yolu ilə həllini istəyir. Amma sülh danışıqları uzun müddət davam edə bilməz. Azərbaycan xalqı öz ərazi bütövlüyünü bərpa etməyə qadirdir. ATƏT və digər beynəlxalq təşkilatlar yenidən qan tökülməsinə yol verməmək üçün kəsərli addımlar atmalıdırlar.

Sonra N.Bəhmənov qonaqlara Ermənistanın silahlanmasını sübut edən faktlar, o cümlədən raket qurğuları yerləşdirilmiş ərazilərin, eləcə də işğal olunmuş Azərbaycan torpaqlarının xəritələrini təqdim etdi.

Cənab Yaap de Hoop Sxeffer bildirdi ki, ATƏT münaqişənin sülh yolu ilə həllinə tərəfdardır. İndi yenidən qan tökülməsinə, əldə olunmuş atəşkəsin pozulmasına yol vermək olmaz.

### *Mətbuat konfransı*

Həmin gün ATƏT-in Fəaliyyətdə olan Sədri, Niderlandın xarici işlər naziri Yaap de Hoop Sxeffer "Hyatt Recensi-Naxçıvan" mehmanxanasında yerli və xarici kütləvi informasiya vasitələrinin nümayəndələri üçün mətbuat konfransı keçirmişdir.

Yaap de Hoop Sxeffer jurnalistləri salamlayaraq dedi ki, bu gün Azərbaycan Respublikasının rəsmi nümayəndələri – Baş nazir, gələcək Prezident cənab İlham Əliyevlə, xarici işlər naziri cənab Vilayət Quliyevlə, qeyri-hökumət təşkilatlarının nümayəndələri ilə görüşmüşəm. Görüşlərdə söhbətimizin əsas mövzusu Dağlıq Qarabağ problemi və bu yaxınlarda başa çatmış Prezident seçkiləri olmuşdur. Cənab İlham Əliyevlə görüşümdən sonra məndə belə bir ümid yaranmışdır ki, Dağlıq Qarabağ münaqişəsinin həlli ilə əlaqədar yeni pəncərələr açılacaq, yeni mövzular yaranacaqdır. ATƏT münaqişənin tezliklə həllini istəyir. Münaqişənin həlli isə iki ölkənin – Azərbaycanın və Ermənistanın prezidentlərindən asılıdır. İnanıram ki, hər iki prezident münaqişənin həlli üçün cəsarət göstərəcəkdir. ATƏT Qarabağ probleminin həllində yalnız köməkçi rolunda çıxış edə bilər.

Qonaq bu yaxınlarda başa çatmış prezident seçkilərinə də toxundu. O dedi ki, Azərbaycanda qəbul olunmuş Seçki Məcəlləsi irəliyə doğru böyük bir addımdır. Son seçkilərlə bağlı isə bəzi beynəlxalq qurumların, ABŞ-ın müəyyən iradları vardır. Uzunmüddətli demokratik ənənələrə malik olan Hollandiyanın nümayəndəsi kimi bildirməliyəm ki, demokratiyanın yolu çox uzundur. Azərbaycan bu yola çıxıb və əminəm ki, onu uğurla keçəcək, bu ölkədə qanunun aliliyi qeyd-şərtsiz təmin olunacaqdır.

Sonra cənab Yaap de Hoop Sxeffer jurnalistlərin suallarına cavab verdi. Oktyabrın 15-16-da paytaxtda törədilmiş iğtişaşda təqsirli bilinib tutulanlarla bağlı suala cavabında bildirdi ki, qanunu pozanlar cəzalandırılmalıdır. Ancaq onların əməli diqqətlə, qanun çərçivəsində araşdırılmalıdır. Qonaq dedi ki, o, hər cür zorakılığın əleyhinədir, iqtidar-müxalifət münasibətləri isə söz müstəvisində həll olunmalıdır.

**«AZƏRTAC». 22.10.03**

## A.T.RASİZADƏNİN AZƏRBAYCAN RESPUBLİKASININ BAŞ NAZİRİ TƏYİN EDİLMƏSİ HAQQINDA

## AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN FƏRMANI

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 4-cü bəndini rəhbər tutaraq qərara alıram:

1. Artur Tahir oğlu Rasizadə Azərbaycan Respublikasının Baş naziri təyin edilsin.
2. Bu Fərman imzalandığı gündən qüvvəyə minir.

İlham Əliyev
Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 4 noyabr 2003-cü il.

**«AZƏRTAC». 04.11.03**

## A.T.RASİZADƏNİN AZƏRBAYCAN RESPUBLİKASININ BAŞ NAZİRİ VƏZİFƏSİNƏ TƏYİN EDİLMƏSİNƏ RAZILIQ VERİLMƏSİ HAQQINDA

## AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN QƏRARI

Azərbaycan Respublikası Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 95-ci maddəsinin 9-cu bəndinə müvafiq olaraq, Azərbaycan Respublikası Prezidentinin təqdimatına əsasən qərara alır:
Artur Tahir oğlu Rasizadənin Azərbaycan Respublikasının Baş naziri vəzifəsinə təyin edilməsinə razılıq verilsin.

Azərbaycan Respublikası Milli Məclisinin sədri

M.Ələsgərov

Bakı şəhəri, 4 noyabr 2003-cü il.

**«AZƏRTAC». 04.11.03**

## V.M.QULİYEVİN AZƏRBAYCAN RESPUBLİKASININ XARİCİ İŞLƏR NAZİRİ TƏYİN EDİLMƏSİ HAQQINDA

### AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 5-ci bəndini rəhbər tutaraq qərara alıram:

1. Vilayət Muxtar oğlu Quliyev Azərbaycan Respublikasının xarici işlər naziri təyin edilsin.
2. Bu Sərəncam imzalandığı gündən qüvvəyə minir.

İlham Əliyev
Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 8 noyabr 2003-cü il.

**«AZƏRTAC». 08.11.03**

# ÇIXIŞLAR

## Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 12 noyabr Konstitusiya günü münasibətilə Azərbaycan xalqına təbrik müraciəti

Bakı şəhəri, 11 noyabr 2003-cü il

Əziz həmvətənlər!

Bu il Müstəqil Azərbaycan Respublikasının ilk Konstitusiyasının ümumxalq səsverməsi yolu ilə qəbul edilməsinin səkkiz ili tamam olur.

Xalqımızın ümummilli lideri, müasir Azərbaycan dövlətinin qurucusu cənab Heydər Əliyevin bilavasitə rəhbərliyi ilə hazırlanmış və 1995-ci il noyabrın 12-də referendum yolu ilə qəbul olunmuş Konstitusiya müasir dünyanın sivil dəyərlərinə və qanun yaradıcılığı təcrübəsinə, xalqımızın çoxəsrlik dövlətçilik ənənələrinə, milli və ümumbəşəri prinsiplərə söykənərək demokratik, hüquqi, dünyəvi dövlət quruculuğu üçün möhkəm təməl yaratmışdır.

Əsas Qanunumuz xalqın yekdil və sarsılmaz iradəsini əks etdirərək, Azərbaycan dövlətinin fəaliyyətinin əsas prinsiplərini, demokratik dövlət quruculuğu prosesinin başlıca istiqamətlərini, vətəndaşların fundemantal hüquq və vəzifələrini müəyyən etmişdir.

Konstitusiyanın qəbulundan sonra ölkəmizdə bir çox sahələrdə, xüsusən hüquqi dövlət quruculuğu və insan haqlarının təmini sahəsində əhəmiyyətli dəyişikliklər baş vermişdir. Hakimiyyətlərin bölgüsü prinsipinin daha ardıcıl həyata keçirilməsi üçün məhkəmə-hüquq islahatları aparılmış, respublikamız insan hüquqları sahəsində bir çox konvensiyalara qoşulmuş, vətəndaşların hüquq və azadlıqlarının qorunması üçün ölkə daxilində yeni mexanizmlər yaradılmışdır.

Bu gün Azərbaycan dövləti demokratik dəyərlərə əsaslanan azad vətəndaş cəmiyyətinin bərqərar edilməsi naminə Konstitusiyanın əsas müddəalarının dönmədən həyata keçirilməsinə, onların reallaşdırılması üçün zəruri hüquqi-normativ baza və siyasi mühit yaradılmasına, bu müddəalara dolğun məzmun verilməsinə çalışır, ölkənin ictimai-siyasi, iqtisadi və mədəni həyatının yeniləşməsində onun açdığı geniş imkanlardan səmərəli istifadə olunmasına böyük əhəmiyyət verir.

Azərbaycan Konstitusiyası dolğun və mükəmməl olmaqla yanaşı, dinamik bir sənəddir, həyatımızın yeniləşməsi və tərəqqisi üçün mühüm vasitədir. 2002-ci il avqustun 24-də referendum yolu ilə Konstitusiyamıza edilmiş əlavələr dövlət və cəmiyyətin hüquqi əsaslarının inkişafında baş vermiş

dəyişiklikləri əks etdirdi, insan hüquq və azadlıqlarının təminatı üçün yeni institutlar yaratdı, Əsas Qanunumuzu müasirləşdirdi və zənginləşdirdi.

Konstitusiyamızın əsas prinsiplərinin və müddəalarının vətəndaşlarımız tərəfindən dərindən öyrənilməsi, dövlət və cəmiyyət həyatının bütün sahələrinin Əsas Qanunumuza tamamilə uyğunlaşdırılması və onun yaratdığı təminatların reallaşdırılması qarşıda duran ən mühüm vəzifələrdəndir.

Əmin olduğumu bildirirəm ki, Azərbaycanın hər bir vətəndaşı yeniləşən həyatımızın bütün sahələrində Konstitusiyanın müəyyən etdiyi prinsiplərin və başlıca müddəaların ardıcıl və tam surətdə tətbiq olunmasına böyük məsuliyyət hissi ilə kömək göstərəcəkdir.

Əziz həmvətənlər!

Sizi Konstitusiya Günü münasibətilə ürəkdən təbrik edir, hər birinizə müstəqil və suveren dövlətimizin güclənməsi və tərəqqisi yolunda uğurlar arzulayıram.

**«AZƏRTAC». 11.11.03**

## Cenevrədə İnformasiya Cəmiyyəti Üzrə Dünya Sammitinin açılışında Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin nitqi

Cenevrə,

Əziz cənab Sədr!

Əziz Sammit iştirakçıları, Forumun nümayəndələri, qonaqlar!

Xanımlar və cənablar!

Son on il müddətində kommunikasiya texnologiyaları bizim gündəlik həyatımızın tərkib hissəsinə çevrilmişdir. Artıq bugünkü gündə gündəlik həyatımızı İnternetsiz, e-mail-siz və qlobal rabitənin imkanları olmadan təsəvvür etmək mümkün deyildir.

Bu gün biz yeni informasiya cəmiyyəti haqqında söhbət edirik. Bu gün biz yeni informasiya idarəçiliyi haqqında söhbət edirik. Mən əminəm ki, bugünkü Sammitin qərarları, xüsusilə gənc nəsil üçün çox əhəmiyyətli olacaqdır. Çünki, əslində, gənc nəsil yeni informasiya cəmiyyətini yaradan nəsildir. Hesab edirəm ki, bu Sammitin sənədlərinin Azərbaycan üçün xüsusi əhəmiyyəti vardır. Çünki bizim ölkənin əhalisinin 70 faizinin yaşı 35 yaşdan aşağıdır. Azərbaycanın gənc nəsli fəal surətdə informasiya və kompüter texnologiyaları layihələrini həyata keçirməkdədir. Bu işdə bizə BMT-nin İnkişaf Proqramı yaxından yardım edir.

İstərdim ki, bu yardıma görə BMT-yə və digər beynəlxalq təşkilatlara Azərbaycan hökuməti adından minnətdarlığımı bildirim və bir daha kompüter işinin Azərbaycanda inkişaf etdirilməsinə sadiq olacağımızı bildirim. Hazırda biz dövlət proqramı kimi "İ - Azərbaycan" /"Elektron Azərbaycanı"/ proqramını inkişaf etdiririk. Elə bilirəm ki, bu, iqtisadiyyatın idarəçiliyində bizə yaxından kömək edəcəkdir.

Azərbaycanda son 10 il müddətində bərqərar olmuş iqtisadi və siyasi sabitlik bu cür inkişafın sürətlə aparılmasına tam əsas verir. Biz ölkəmizdə iqtisadi, sosial və siyasi islahatlara əsas yer ayırmışıq. Bizim iqtisadiyyatımız və cəmiyyətimiz dünya birliyinə inteqrasiyanı özünün ən başlıca prioriteti kimi görür. Cəmiyyətimiz demokratiyaya doğru irəliləməkdədir, ölkəmizdə iqtisadi artım hiss olunur. Son 6 ildə Azərbaycanda ümumi daxili məhsulun illik artımı 10 faiz təşkil etmişdir. Azərbaycanda ümumi daxili məhsulun 70 faizdən artığı özəl sektorun payına düşür. Azərbaycan keçmiş sovet ölkələri içərisində də, Mərkəzi Avropa ölkələri içərisində adambaşına düşən xarici sərmayələrin payına görə aparıcı mövqedədir.

Bu gün Azərbaycanda nəhəng enerji layihələri yerinə yetirilməkdədir. Azərbaycanın neft və qaz sənayesinin inkişafı üçün on milyardlarla ABŞ dolları ayrılmışdır. Xəzər dənizinin Azərbaycana aid olan hissəsində neft və qaz layihələri uğurla həyata keçirilir və biz bu məhsulların daşınması üçün boru kəmərləri yaradırıq.

Azərbaycanda yaradılmış əlverişli sərmayə mühiti, eləcə də möhkəm siyasi sabitlik ölkəmizə sürətli investisiya axınının əsas amillərindən biridir.

Ölkəmizin əlverişli coğrafi-siyasi mövqeyi Azərbaycanı Şərq-Qərb, Şimal-Cənub nəqliyyat dəhlizlərinin vacib hissəsi etmişdir. Bu nəqliyyat dəhlizləri vasitəsilə Azərbaycana yeni bizneslər və yeni informasiya növləri axıb gəlir. Hazırda həmin informasiyanı rabitə texnologiyalarına çevirmək ehtiyacı duyulur.

Biz inanırıq ki, ölkəmiz bu mənada aparıcı rol oynayacaqdır və bütün ölkələrə bəyan etmək istəyirik ki, bu sahədə əməkdaşlığa hazırıq. Azərbaycan regional layihələrdə nəinki iştirak edir, eyni zamanda, aparıcı rol oynayır. Azərbaycanın regional əməkdaşlığı bundan sonra da davam etdiriləcəkdir.

Təəssüflər olsun ki, Azərbaycanda olan ən ağrılı problem hələ də regional əməkdaşlığa tam miqyasda imkan vermir. Bu problem dedikdə, mən Azərbaycanın on ildən artıq sürən münaqişəsini nəzərdə tuturam. Azərbaycan artıq on ildən çoxdur ki, qonşu Ermənistan tərəfindən təcavüzə məruz qalıbdır. Azərbaycanın 20 faiz ərazisi – Dağlıq Qarabağ və 7 digər inzibati rayon Ermənistan tərəfindən işğal olunmuşdur. Bu işğalın nəticəsi kimi, bir milyondan artıq azərbaycanlı qaçqın və məcburi köçkünə çevrilmişdir. Ermənistanın təcavüzkar olması BMT-nin 4 qətnaməsində öz əksini tapmışdır. Bu barədə ATƏT-in Minsk qrupu bəyanat vermişdir. Bu barədə Avropa Şurasının rəsmi sənədlərində qeydlər vardır. Beynəlxalq icma öz gücündən və nüfuzundan istifadə edib Ermənistanı məcbur etməlidir ki, Azərbaycanın işğal olunmuş ərazilərindən geri çəkilsin.

Xanımlar və cənablar!

Azərbaycanda informasiya texnologiyalarının yaradılmasına və eyni zamanda, informasiya texnologiyalarının infrastrukturunun qurulmasına böyük əhəmiyyət verilir. Bizim ölkədə həm elmi potensial mövcuddur, həm də texnoloji nailiyyətlər imkan verir ki, Azərbaycan bu yöndə regionda aparıcı ölkə olsun.

Azərbaycanda Neft Fondu yaradılmışdır ki, bu da tam şəffaf bir təşkilatdır. Beynəlxalq auditorlar bu təşkilatın işini nəzərdən keçirirlər. Bu Fond bizə imkan verir ki, əsas ehtiyatlarımızı gələcəkdə əhalimizin güzəranının daha da yaxşılaşdırılması üçün istifadə edək.

Diqqətinizə görə sağ olun.

## Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 31 dekabr Dünya azərbaycanlılarının həmrəylik günü münasibətilə dünya azərbaycanlılarına müraciəti

Bakı şəhəri, 26 dekabr 2003-cü il

Əziz həmvətənlər!

Hörmətli soydaşlarımız!

Sizə Azərbaycan xalqının ən mühüm bayramlarından biri olan Dünya azərbaycanlılarının həmrəyliyi günü münasibətilə müraciət edirəm. Azərbaycan xalqının müstəqillik əldə etdiyi vaxtdan 31 dekabr bütün dünyada yaşayan soydaşlarımız tərəfindən hər il qeyd edilən ümummilli bir bayramdır. Onun əsas qayəsini Azərbaycan dövlətçiliyi, xalqımızın milli-mənəvi dəyərlərinə hörmət, Azərbaycan xalqına mənsubluq, Vətənə bağlılıq hissi və ideyaları təşkil edir.

Dünya azərbaycanlılarının milli birlik və həmrəyliyinin güclənməsi müstəqil dövlət quruculuğu dövründə mümkün olmuşdur. 31 dekabr ilk dəfə ümummilli liderimiz Heydər Əliyev tərəfindən, o, hələ Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sədri olarkən dünya azərbaycanlılarının həmrəylik və milli birlik bayramı elan edilmiş, sonra isə bütün Azərbaycan xalqının, dünya azərbaycanlılarının milli bayramına çevrilmişdir. Keçən dövrdə Heydər Əliyev bütün dünyada azərbaycanlıların milli birlik və həmrəylik hisslərinin güclənməsi, onların ümummilli ideyalar, Azərbaycan dövlətçiliyi ətrafında sıx birləşməsi üçün ardıcıl və məqsədyönlü fəaliyyət göstərmişdir. Xarici ölkələrə səfərləri zamanı Azərbaycan diasporunun nümayəndələri ilə görüşləri, 2001-ci ilin noyabrında Bakıda yüksək səviyyədə Dünya azərbaycanlılarının I qurultayını keçirməsi və sonrakı məqsədyönlü siyasəti dünya azərbaycanlılarının milli mənlik şüurunun güclənməsinə, müxtəlif ölkələrdə azərbaycanlı icmalarının mütəşəkkilliyinin artmasına, onların tarixi Vətənlə əlaqələrinin möhkəlmənməsinə güclü təkan vermişdir.

Azərbaycançılıq ideyasının birləşdirici dəyər kimi bütün dünyada yaşayan azərbaycanlılar arasında yayılması, dilimizin, mədəniyyətimizin, mütərəqqi adət-ənənələrimizin, tariximizin yaşadılması və inkişaf etdirilməsi Prezident Heydər Əliyevin ideyası idi. Düşünürəm ki, bütün dünyada yaşayan soydaşlarımızın mədəni-mənəvi birliyinin mühüm şərti olaraq bu ideya bu gün də, gələcəkdə də bizim siyasətimizin əsasını təşkil edəcəkdir.

Dünya azərbaycanlılarının Azərbaycan Respublikası ilə, xalqımızın yeganə milli dövləti ilə əlaqələrinin möhkəmləndirilməsi, bu əlaqələrin hüquqi və mədəni-mənəvi əsaslarının gücləndirilməsi qarşımızda duran mühüm vəzifələrdən biridir. Hər bir azərbaycanlı dünyanın hansı ölkəsində yaşamasından asılı olmayaraq, Azərbaycan dövlətinin, xalqının problemləri ilə yaşamalı, onların həlli üçün əlindən gələni etməlidir. Eyni

zamanda, Azərbaycan hökuməti də dövlətin maddi və mənəvi imkanlarından bütün dünya azərbaycanlılarının bəhrələnməsinə şərait yaratmalı, onların milli və vətəndaş hüquqlarının qorunması üçün istifadə etməlidir.

Tarixi təcrübə sübut edir ki, dünyanın müxtəlif ölkələrində sıx icmalar şəklində yaşayan, öz milli-etnik mənsubiyyətini və xüsusiyyətlərini, mədəni-mənəvi dəyərlərini qoruyub saxlayan soydaşlar həm məskun olduqları ölkələrin və dövlətlərin iqtisadi, siyasi və sosial-mədəni həyatında fəal iştirak edir, həm də tarixi Vətəninin, ölkəmizin qayğısına qala bilir. Bu baxımdan Müstəqil Dövlətlər Birliyi ölkələrində, Avropada, Amerikada, Asiyada yaşayan çoxsaylı Azərbaycan icmalarının və cəmiyyətlərinin geniş imkanları, istifadə olunmamış potensialı mövcuddur və bu potensial ümummilli maraqlara xidmətə yönəldilməlidir.

Bu gün dünya azərbaycanlılarının həmrəyliyinin və mütəşəkkilliyinin güclənməsi, onların ümummilli ideyalar ətrafında sıx birləşməsi üçün daha geniş imkanlar yaranmışdır. Son on ildə aparılan düzgün daxili və xarici siyasət nəticəsində Azərbaycan dövləti güclənmiş, qlobal iqtisadi-enerji və nəqliyyat-kommunikasiya layihələrinin mərkəzinə, regional proseslərin həlledici faktoruna çevrilmişdir. Hazırda Azərbaycan dövləti dünya azərbaycanlılarının ümumbəşəri və milli-mədəni hüquqlarının, beynəlxalq konvensiyalarla təsbit edilmiş insan haqlarının qorunmasını təmin etmək üçün daha təsirli vasitələrə malikdir. Əmin ola bilərsiniz ki, Azərbaycan dövləti və onun siyasi rəhbərliyi dünya azərbaycanlılarının Vətənə və xalqa mənsubluq hissini gücləndirmək, onların respublikamızın iqtisadi, mədəni həyatında, dövlət quruculuğunda hərtərəfli iştirakı üçün bütün zəruri tədbirləri görəcəkdir.

Dünya azərbaycanlılarının mütəşəkkilliyinin möhkəmlənməsi, soydaşlarımızın milli birlik və həmrəyliyinin, sözün həqiqi mənasında, təmin edilməsi ümummilli liderimiz Heydər Əliyevin ən böyük arzularından biri idi. Xalqımız, bütün dünya azərbaycanlıları mərhum Prezidentimizin dünyasını dəyişməsindən sonra daha sıx birləşdi, onun müəyyən etdiyi strateji kursa, ideyalara sədaqət nümayiş etdirdi, onları həyata keçirib başa çatdırmaq əzmini bir daha təsdiq etdi.

Bu əziz bayram günündə Sizi bir daha səmimi qəlbdən təbrik edir, hər birinizə sağlamlıq, firavanlıq, əmin-amanlıq və Vətənimizin tərəqqisi yolunda davamlı uğurlar arzulayıram.

İlham Əliyev

Azərbaycan Respublikasının Prezidenti

«AZƏRTAC». 26.12.03

# BƏYANATLAR

**Azərbaycan Respublikası Xarici İşlər Nazirliyinin bəyanatı**

Bu gün İran İslam Respublikasının Azərbaycandakı Fövqəladə və Səlahiyyətli Səfiri Əhəd Qəzayi Azərbaycan Respublikası Xarici İşlər Nazirliyinə çağırılmış və ona etiraz notası təqdim olunmuşdur.

Səfirin diqqətinə çatdırılmışdır ki, 14 oktyabr 2003-cü il tarixdə, Bakı vaxtı ilə axşam saat 21-dən 22.30-dək İran İslam Respublikasının «Səhər-2» dövlət televiziya kanalı ilə Azərbaycanda prezident seçkilərinə həsr olunmuş Azərbaycan dilində ayrıca proqram nümayiş etdirilmişdir. Proqram əvvəldən axıra kimi prezidentliyə namizədlərdən birinin – İsa Qəmbərin təbliğinə həsr olunmuşdur. Belə bir faktın Azərbaycanda seçki qabağı təbliğat kampaniyasının dayandırıldığı vaxtda – seçki gününə bir gün qalmış – baş verməsi onun əvvəlcədən düşünülmüş və məqsədyönlü şəkildə həyata keçirildiyini bir daha sübut edir. «Səhər-2» televiziya proqramının Azərbaycanın İran İslam Respublikası ilə həmsərhəd rayonlarda yayımlanması nəzərə alınarsa, İranın rəsmi informasiya orqanının bu təbliğat aksiyası Azərbaycanın daxili işlərinə qarışmaq, İsa Qəmbərin namizədliyini açıq şəkildə dəstəkləmək və bu istiqamətdə Azərbaycan seçicilərinə psixoloji təsir göstərmək kimi qiymətləndirilməlidir. İranın «Səhər-2» teveviziya kanalının İsa Qəmbərin təbliğatına yönəldilmiş bu şousu İranla həmsərhəd bölgələrdə yaşayan Azərbaycan Respublikası vətəndaşlarının ciddi narahatlığına səbəb olmuş və kəskin etirazla qarşılanmışdır. Vətəndaşlar dövlət hakimiyyəti orqanlarına – ilk növbədə Xarici İşlər Nazirliyinə, habelə Mərkəzi Seçki Komissiyasına müraciət edərək seçki kampaniyasına bu cür kənardan müdaxilə hallarını qətiyyətlə pisləyir və müvafiq tədbirlərin görülməsini tələb edir.

Səfirin diqqətinə çatdırılmışdır ki, Azərbaycan Respublikasının daxili işlərinə qarışmaq Azərbaycanla İran arasında mövcud olan dövlətlərarası münasibətlərin prinsipləri, qarşılıqlı hörmətə əsaslanan dinc qonşuluq əlaqələri ilə bir araya sığmır, eləcə də beynəlxalq hüquq normaları ilə ziddiyyət təşkil edir. Bildirilmişdir ki, beynəlxalq təşkilatlardan və dünya dövlətlərindən min nəfərdən artıq müşahidəçinin, habelə minlərlə yerli müşahidəçinin izlədiyi Azərbaycandakı prezident seçkilərinə qonşu dövlətin elektron kütləvi informasiya vasitsləri tərəfindən bu cür açıq müdaxilə edilməsinə baxmayaraq Azərbaycan xalqı öz seçimini ədalətli, demokratİk, beynəlxalq standartlara uyğun şəkildə həyata keçirəcəkdir. Belə bir əminlik vurğulanmışdır ki, bu cür xoşagəlməz hərəkətlər Azərbaycan xalqının iradəsinə və azad, doğru seçiminə təsir edə bilməz.

XİN, Mətbuat Mərkəzinin məlumatı, 15.10.03

**2003-cü il oktyabrin 15-də keçirilmiş Azərbaycan Respublikasi Prezidenti seçkilərinə dair XIN-in bəyanati**

2003-cü il oktyabrın 15-də Azərbaycan Respublikasında Prezident seçkiləri keçirilmişdir. Seçkilər Azərbaycan vətəndaşlarının indiyə qədər görünməmiş fəallığı şəraitində azad, ədalətli, demokratik və beynəlxalq standartlara uyğun şəkildə baş tutmuşdur. Bu ümumi sayı 1000-dən artıq olan beynəlxalq müşahidəçilərin böyük əksəriyyəti tərəfindən də açıq şəkildə etiraf edilmişdir.

Eyni zamanda, Azərbaycan hökuməti seçkilərin gedişində müəyyən qüsurlara təsadüf olunması faktını da qəbul edir. Lakin, bu qüsurlar ümumilikdə tendensiya səciyyəsi daşımayaraq, bəzi hallarda təhrikçilik əməllərinin nəticəsi kimi meydana çıxmışdır. Beynəlxalq müşahidəçilərin də qeydə aldığı konkret qanun pozuntuları ilə əlaqədar müvafiq araşdırmalar aparır.

Seçkilərin beynəlxalq standartlara uyğun şəkildə keçirilməsinə, aparıcı beynəlxalq təşkilatlarla əməkdaşlıqda hazırlanmış və müasir demokratik seçki prinsip və normalarını tam şəkildə özündə əks etdirən, cəmiyyətin geniş dairələrinin də müzakirəsinə cəlb edildiyi yeni Seçki Məcəlləsi vasitəsilə möhkəm hüquqi özül yaradılmışdır. Bu fundamental sənəd seçkilər zamanı saxtalaşdırma və digər pozuntu hallarınnın baş verməsi ehtimalını heçə endirmişdir.

Müsbət amil kimi, yüksək siyasi fəallıqla müşahidə olunan seçki kampaniyası dövrünün dinc və sabit mühitlə səciyyələndiyini də ayrıca qeyd etmək lazımdır. Azərbaycan Respublikası Prezidentliyinə bütün namizədlərə öz seçki kampaniyalarını müvafiq şəkildə aparmaq üçün lazımi səviyyədə bərabər imkanlar yaradılmışdır.

Beynəlxalq müşahidəçilərin və geniş ictimaiyyətin, o cümlədən bir sıra müxalifət partiyaları təmsilçilərinin də qeyd etdiyi kimi, seçkilər yüksək səviyyədə təşkil olunmuşdur. Həyata keçirilən həmin təşkilati tədbirlər müsbət istiqamətdə mühüm dəyişiklik kimi dəyərləndirilməlidir. Seçki Məcəlləsində təsbit edilmiş dürüst səsvermə prosedurları və qabaqcıl texniki təminat seçki prosesinin azad və ədalətli keçirilməsində böyük rol oynamışdır. Bu baxımdan Azərbaycanda ilk dəfə məhz 15 oktyabr Prezident seçkilərində səffaf seçki qutularının istifadə olunması, seçki məntəqələrindən səsvermənin nəticələrinin operativ və açıq şəkildə mərkəzə çatdırılması, nəticələrin hesablanmasının şəffaf və sistemli qaydada aparılmaqla avtomatlaşdırılması, məntəqə seçki komissiyalarının protokollarının 24 saat müddətində Mərkəzi Seçki Komissiyası tərəfindən İnternetə daxil edilməsi xüsusi vurğulanmalıdır.

Seçkilərdə əhalinin yüksək iştirak səviyyəsi ölkədə müşahidə olunan demokratik sabitlik və inkişafın obyektiv təcəssümü kimi qiymətləndirilməlidir. Seçicilərin əksəriyyətinin alternativ seçim variantlarına üstünlük verməməsi onların Azərbaycanın inkişafı yolunda əhəmiyyətli uğurların əldə edilməsinə gətirib çıxarmş mövcud siyasi xətti dəstəkləməsinin danılmaz göstəricisidir. Səsvermənin nəticələri eyni zamanda, demokratik seçki mexanizmləri ilə təmin olunan fikir plüralizmini bir daha nümayiş etdirmişdir.

Beynəlxalq təşkilatlarla əməkdaşlıq şəraitində hazırlanaraq keçirilən və Azərbaycanın siyasi həyatında tarixi rol oynayan seçkilərin bu nailiyyətlərinə rəğmən, açıq və demokratik mübarizədə məğlubiyyətə uğrayan, lakin bununla barışmaq istəməyən qüvvələr seçkilərin yekunlarını ləkələmək üçün qanunsuz əməllərə əl atmışlar. Heç də bütün müxalifəti təmsil etməyən «Müsavat» partiyası və onun təsiri altında olan destruktiv qüvvələr oktyabrın 15-16-da Bakı şəhərində ictimai asayişin ciddi şəkildə pozulması, kütləvi dağıntılarla müşayiət olunan və dinc siyasi aksiya kimi dəyərləndirilməsi qətiyyən mümkün olmayan kütləvi iğtişaşlar təşkil etmişlər. Özlərini sırf qanuni çərçivədən kənara çıxarmış həmin qüvvələrin məqsədyönlü təhrikçi əməlləri ilk növbədə demokratiyaya, ölkədə gedən demokratik proseslərə qarşı çevrilmişdir və cəmiyyətdə vətəndaş qarşıdurması yaratmaq niyyəti güdmüşdür. Cəmiyyətin mütləq əksəriyyətinin qətiyyətlə pislədiyi bu zorakılıq aksiyaları seçkilərin nəticələrinə qətiyyən kölgə sala bilməz.

Siyasi müxalifətin mühüm bir qismi isə seçkilərin demokratik şəkildə keçdiyini etiraf edərək onun nəticələrini tanımış və bəzi liderlər seçkilərdə qalib gəlmiş namizədi təbrik etmişlər ki, bu da Azərbaycanda siyasi mədəniyyətin dinamik inkişafda olmasının daha bir göstəricisidir.

Azərbaycandakı Prezident seçkiləri milyonlarla insanın qatıldığı bu cür proseslər üçün səciyyəvi olan cüzi nöqsanlar prizmasından deyil, beynəlxalq müşahidəçilər tərəfindən də etiraf edilən əhəmiyyətli müsbət məqamlar baxımından nəzərdən keçirilməlidir. Həmin müsbət məqamların əhəmiyyətini kiçiltməklə mənfi çaların qabardılması özü-özlüyündə təqdirəlayiq hal deyil və son nəticədə beynəlxalq əməkdaşlığa heç də müsbət təsir göstərə bilməz.

Azərbaycan hökuməti seçkilərlə bağlı bütün məsələlər üzrə beynəlxalq təşkilatlarla əməkdaşlığı yüksək qiymətləndirir və bu il oktyabrın 15-də keçirilmiş Prezident seçkılərini müşahidə etmiş bütün beynəlxalq müşahidəçilərə öz minnətdarlığını bildirir. Azərbaycan hökuməti xüsusilə, əksər beynəlxalq müşahidəçilərin seçkilərə hazırlıq, onların keçirilməsi və nəticələri ilə bağlı obyektiv müsbət rəylərini razılıqla qeyd edir və gələcək seçkilərdə də onlarla əməkdaşlığa hazır olduğunu bildirir.

15 oktyabr 2003-cü ildə Azərbaycanda keçirilmiş Prezident seçkiləri xalqımızın demokratik seçiminin dönməzliyini və ölkədə demokratik islahatların davamlılığına sadiqliyini bir daha sübut etmiş və Azərbaycanda demokratik cəmiyyət quruculuğunda mühüm irəliləyiş olmuşdur.

XİN, Mətbuat mərkəzinin məlumatı, 21.10.03

### Azərbaycan Respublikası Xarici İşlər Nazirliyinin bəyanatı

Bu günlərdə Ermənistan Respublikasında səfərdə olan Rusiyanın müdafiə naziri S.İvanov iki ölkə arasında hərbi əməkdaşlığın bundan sonra da genişləndiriləcəyi və dərinləşdiriləcəyi barədə bəyanat vermişdir. Rusiya

müdafiə naziri bildirmişdir: "Hazırda Ermənistanda olan beş min nəfərlik Rusiya hərbi kontingentinin (sərhəd qoşunları daxil olmamaqla) sayı kifayətdir, lakin buna baxmayaraq həmin kontingentin hərbi texnika ilə təchizatı bizi təmin etmir. Bu məqsədlə biz Rusiyanın Ermənistanda yerləşən 102-ci ordu bazasının yenidən silahlandırılmasını və təchiz olunmasını həyata keçirəcəyik".

Daha sonra rusiyalı nazir bildirmişdir ki, perspektivdə Rusiya-Ermənistan birləşmiş hərbi qruplaşmalarının yaradılması planı vardır və bu məsələ ilə hər iki ölkənin baş qərargahları ardıcıl məşğul olacaqlar. Cənubi Qafqazda qüvvələr balansının dəyişdirilməsinə, regiondakı mürəkkəb vəziyyətin daha da gərginləşdirilməsinə xidmət edən bu kimi bəyanatlar Azərbaycan tərəfinin haqlı narahatlığına səbəb olmaya bilməz. Cənubi Qafqazda öz həllini tapmamış münaqişələr, xüsusən də indiyə qədər tənzimlənməmiş Dağlıq Qarabağ münaqişəsi fonunda Ermənistan-Rusiya hərbi əməkdaşlığının daha da intensiv xarakter alması yeni təhlükəli meyllərdən xəbər verir. Üstəlik, Rusiyanın Dağlıq Qarabağ münaqişəsinin siyasi yollarla nizama salınması ilə bağlı ATƏT-in Minsk qrupunun həmsədrlərindən biri olması bu ölkədən münaqişə tərəfləri ilə münasibətlərin qurulmasında son dərəcə dəqiq və tarazlaşdırılmış siyasət yürütməyi tələb edir. Təəssüf ki, bir çox hallarda bunun tam əksi müşahidə olunur. Məhz buna görə də hərbi sahədə Rusiya-Ermənistan əməkdaşlığının genişlənməsi nəticə etibarilə Azərbaycan torpaqlarını işğal etmiş Ermənistanın danışıqlar prosesində daha sərt mövqe nümayiş etdirməsi üçün mühüm stimul yaradır. Rusiyanın müəyyən dairələrinin himayədarlığı sayəsində bu gün Ermənistan regionda destruktiv və dağıdıcı bir gücə çevrilmişdir.

Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi Rusiyanın ATƏT-in Minsk qrupunun həmsədri kimi münaqişə tərəflərindən biri ilə müştərək hərbi qruplaşmalar yaratmaq niyyətinə öz kəskin etirazını bildirir və regionda sülhün, sabitliyin təmin olunması, münaqişənin həlli və onun ağır nəticələrinin aradan qaldırılması, region xalqları və dövlətləri arasında qarşılıqlı inam və etimad yaradılması üçün Rusiyanı daha konstruktiv mövqe tutmağa, Ermənistanın hərbi potensialını artırmamağa çağırır.

**XİN, Mətbuat mərkəzinin məlumatı, 18.11.03**

# *AZƏRBAYCAN RESPUBLİKASININ XARİCİ İŞLƏR NAZİRLİYİNDƏ*

**Azərbaycan Respublikası Xarici İşlər Nazirinin müavini Araz Əzimovun Bolqarıstanın ölkəmizdə səfərdə olan müdafiə naziri Nikolay Svinarovun başçılıq etdiyi nümayəndə heyəti ilə görüşü**

Noyabrın 5-də Azərbaycanın xarici işlər nazirinin müavini Araz Əzimov Bolqarıstanın ölkəmizdə səfərdə olan müdafiə naziri Nikolay Svinarovun başçılıq etdiyi nümayəndə heyəti ilə görüşmüşdür.

Xarici İşlər Nazirliyinin mətbuat mərkəzindən AzərTAC-a bildirmişlər ki, qonaqları salamlayan nazir müavini Araz Əzimov bu səfərin Bolqarıstan ilə Azərbaycan arasında inkişaf edən münasibətlərin və hərbi əməkdaşlığın fəal göstəricisi kimi dəyərləndirmiş, iki ölkənin Müdafiə nazirlikləri arasındakı əlaqələrin daha da genişlənməsi üçün faydalı olacağına ümid etdiyini bildirmişdir. Araz Əzimov ölkələrimizin hərbi əlaqələrinin inkişafı üçün yaradılmış hüquqi bazanın genişləndirilməsinin, Azərbaycanın Avroatlantika strukturlarına inteqrasiyası istiqamətində, beynəlxalq terrorizmə qarşı mübarizədə Bolqarıstanla səmərəli əməkdaşlığın inkişaf etdirilməsinin zəruriliyini diqqətə çatdırmışdır.

Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli sahəsində mövcud vəziyyətlə bağlı qonaqlara məlumat verən Araz Əzimov xarici işlər naziri adından 2004-cü ildə ATƏT-in sədri qismində Bolqarıstanın xarici işlər nazirini Azərbaycana dəvət etmiş və bu səfərin Bolqarıstanın həmin təşkilata sədrlik edəcəyi dövrün əvvəlində baş tutacağına ümidvar olduğunu bildirmişdir. Nazir müavini münaqişənin tezliklə beynəlxalq hüquq və normalar əsasında həll edilməsi istiqamətində ATƏT-in Minsk qrupunun fəaliyyətinin gücləndirilməsinin vacibliyini vurğulamışdır.

Bolqarıstanın müdafiə naziri Nikolay Svinarov öz ölkəsinin Azərbaycanla münasibətlərinin genişlənməsinə böyük əhəmiyyət verdiyini vurğulayaraq, əlaqələrin bütün sahələrdə inkişafına, beynəlxalq təşkilatlar çərçivəsində əməkdaşlığın davam etdirilməsinə tərəfdar olduğunu bildirmişdir. Nazir Nikolay Svinarov Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinə toxunaraq, ölkəsinin ATƏT-ə sədrlik edəcəyi dövrdə Bolqarıstanın bu münaqişənin həllinə öz töhfəsini verəcəyinə əminliyini bildirmişdir.

Görüşdə qarşılıqlı maraq doğuran bir sıra digər məsələlər də müzakirə edilmişdir.

**«AZƏRTAC». 05.11.03**

**Azərbaycan Respublikası Xarici İşlər Nazirliyinin İqtisadi əməkdaşlıq və inkişaf idarəsinin rəisi Altay Əfəndiyevin keçirdiyi mətbuat konfransı**

Azərbaycan Qara Dəniz İqtisadi Əməkdaşlıq Təşkilatı (QİƏT) Xarici İşlər Nazirləri Şurasına daha altı ay sədrlik edəcəkdir.

Respublika Xarici İşlər Nazirliyinin İqtisadi əməkdaşlıq və inkişaf idarəsinin rəisi Altay Əfəndiyev noyabrın 4-də keçirdiyi mətbuat konfransında demişdir ki, bu, ölkəmizin həmin təşkilatdakı fəallığı və səmərəli fəaliyyəti ilə bağlıdır. QİƏT Nazirlər Şurasının bu günlərdə Bakıda keçirilən 9-cu iclasında Azərbaycan sədrliyi Yunanıstana və ya Gürcüstana verməli idi. Şura üzvlərinin oktyabrın 31-də keçirdikləri qapalı iclasında məsələnin müzakirəsi zamanı Yunanıstan tərəfi 2004-cü ildən ATƏT-ə sədrlik edəcəyini bildirərək, vəzifədən imtina edib. Gürcüstan isə bu vəzifəni tutmağa hazır olmadığını bildirmişdir. Müzakirələrdə sədrliyin başqa dövlətlərə verilməsi təklifi də səslənmişdir. Amma nümayəndələrin əksəriyyəti Azərbaycanın təşkilata sədrliyi dövründə əldə olunan nailiyyətləri, gələcək inkişaf naminə hazırlanan layihələri nəzərə alaraq, bu vəzifənin daha altı ay onda qalmasını təklif etmişlər. Beləliklə, təşkilatın 11 illik fəaliyyəti tarixində ilk dəfə bir ölkə yenidən Nazirlər Şurasına sədrlik etməli olacaqdır. Azərbaycan gələn ilin aprelində sədrliyi Gürcüstana verəcəkdir.

QİƏT Baş katibinin müavini vəzifəsi yenə də boş qalmışdır. Bu yerə Azərbaycan, Rusiya və Rumıniya öz namizədlərini irəli sürsələr də, 1 il ərzində onların heç biri səslərin 2/3-sini toplaya bilməmişdir.

Ölkəmiz təşkilatda əlaqələndirici vəzifəsini də icra edir. Azərbaycan enerji və nəqliyyat layihələrinin gerçəkləşməsi üçün çalışan əlaqələndirmə mərkəzinə 2005-ci ilə qədər rəhbərlik edəcəkdir.

**«AZƏRTAC». 05.11.03**

**Azərbaycan Respublikası Xarici işlər nazirinin muavini Xələf Xələfovun Norveç Krallığının Xarici İşlər Nazirliyinin dövlət katibi Kim Traavik ilə görüşü**

2003-ci ilin noyabr ayının 7-də Azərbaycan Respublikasının xarici işlər nazirinin müavini Xələf Xələfov Azərbaycanda səfərdə olan Norveç Krallığının xarici işlər nazirliyinin Dövlət katibi Kim Traaviki qəbul etmişdir.

Xələf Xələfov qonaqları salamlayaraq bu səfərin, Norveç Krallığı ilə Azərbaycan arasındakı dostluq münasibətlərinin möhkəmlənməsi və işgüzar əlaqələrin genişlənməsi üçün faydalı olacağına, iki ölkə arasındakı əməkdaşlıq üçün gələcək perspektivində mühüm əhəmiyyət kəsb edəcəyinə inam yaratdığını qeyd etmişdir. Nazir müavini Xələf Xələfov Norveç Krallığı və Azərbaycan parlamentlərarası dostluq qrupu,

əlagələrin həmçinin enerjı, humanitar və neft sahələrində inkişaf etdirilməsini yüksək qiymətləndirmiş və beynəlxalq təşkilatlar çərçivəsində səmərəli əməkdaşlığın davam etdirilməsinə tərəfdar olduğunu, Azərbaycanın Avro-Atlantik strukturlarına inteqrasiyası istiqamətində, beynəlxalq terrorizmə qarşı mübarizədə Norveç Krallığı ilə səmərəli əməkdaşlığın inkişaf etdirilməsinin zəruriliyini qeyd etmişdir.

Nazir müavini Xələf Xələfov oktyabr ayının 15-də ədalətli və demokratik şəraitdə keçirilmiş prezident seçkilərini ölkəmizdə demokratik cəmiyyətin quruculuğu istiqamətində aparılan işlərin məntiqi davamı kimi dəyərləndirmişdir. O, daha sonra Azərbaycan hökumətinin müvafıq beynəlxalq təşkilatlarla əməkdaşlığa xüsusi önəm verdiyini vurğulayaraq, seçki prosesini izləmək üçün Azərbaycana dəvət olunmuş bir çox ölkələrin və beynəlxalq qurumların nümayəndələrinin səylərini yüksək qiymətləndirmişdir.

Görüş zamanı nazir müavini Xələf Xələfov Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi və onun həlli istiqamətində görülən işlər, ATƏT-in Minsk qrupunun fəaliyyəti barədə ətraflı məlumat vermiş, həmçinin bu münaqişənin dövlətlərin suverenliyi, ərazi bütövlüyü və sərhəd toxunulmazlığı əsasında tezlikdə aradan qaldırılması üçün beynəlxalq birliyin səylərinin artırılmasının vacibliyini qeyd etmişdir.

Norveç Krallığının xarici işlər nazirliyinin Dövlət katibi Kim Traavik Norveç ilə Azərbaycan arasındakı əlaqələrin inkişafına böyük əhəmiyyət verdiyini və bu istiqamətdə əməkdaşlığın davam etdirilməsinə ümid etdiyini bildırmiş, Azərbaycanın müxtəlif sahələrdə nailiyyətlərini yüksək qiymətləndirmiş, öz ölkəsi ilə Azərbaycan arasındakı əlaqələrin bütün sahələrdə inkişaf etdirilməsinə Norveç tərəfinin böyük əhəmiyyət verdiyini, beynəlxalq təşkilatlar çərçivəsində daha sıx əməkdaşlığın davam etdirilməsinin zəruriliyini vurğulamışdır.

Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinə toxunaraq, Kim Traavik Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin tezliklə beynəlxalq birliyin birgə səyləri əsasında sülh yolu ilə həll edilməsinə ümidvar olduğunu qeyd etmişdir.

K.Traavik Norveç Krallıġnın Azərbaycanla enerji, humanitar və neft sahələrində əməkdaşlığın inkişafında maraqlı olduğunu qeyd edərək, kənd təssərufatı və bir çox sahələrdə də əməkdaşlığın inkişaf etdirilməsinin zəruri olduğunu bildirdi.

O, həmcinin Azərbaycanın Avro-Atlantik strukturlarına inteqrasiyasının Norveç tərəfindən dəstəkləndiyini qeyd edərək, bu istiqamətdə səylərin bundan sonra da davam etdiriləcəyini bildirmişdir. Dövlət Katibi Norveç Krali V Haraldin Azərbaycan Respublikasinin Prezidenti seçilməsi münasibətilə cənab İ.Əliyevə ünvanladığı təbrik məktubu barədə məlumat verdi və sənədin diplomatik kanallarla nazirliyə çatdirilacağını söylədi.

Görüşdə qarşılıqlı maraq doğuran bir sıra məsələlər də müzakirə edilmişdir.

**XİN, Mətbuat mərkəzinin məlumatı, 07.11.03**

**Azərbaycan Respublikası Xarici İşlər Nazirliyinin Mətbuat mərkəzinin məlumatı**

Son günlər bəzi kütləvi informasiya vasitələrində guya Azərbaycan hökumətinin BMT Təhlükəsizlik Şurasının Terrorçuluğa qarşı Komitəsinə terrorçuluqla mübarizə üzrə milli hesabatı vaxtında təqdim etməməsi və bu səbəbdən Azərbaycana qarşı müvafiq tədbirlərin tətbiq olunmasının mümkünlüyünə dair yanlış məlumatlar özünə yer almışdır.

Bununla bağlı Xarici İşlər Nazirliyi aşağıdakıların bildirilməsini məqsədəmüvafiq hesab edir:

1. BMT Təhlükəsizlik Şurasının 1373 saylı qətnaməsinin həyata keçirilməsi üzrə milli hesabatlar Azərbaycan tərəfindən mütəmadi qaydada hər il Komitəyə təqdim olunur. Terrorçuluqla mübarizə üzrə həyata keçirilmiş addımlara dair birinci hesabatını Azərbaycan BMT-də ilk ölkələr sırasında 2001-ci ildə təqdim etmişdir.

2. Bu qəbildən olan sonuncu hesabatı Xarici İşlər Nazirliyi respublikamızın hüquq-mühafizə orqanları ilə birlikdə müfəssəl şəkildə hazırlamış, o cümlədən bu hesabata donor ölkələrdən müvafiq yardımın əldə olunmasına dair Komitə tərəfindən dəstəyin göstərilməsi məqsədi ilə “Terrorçuluqla mübarizə sahəsində Azərbaycanın ehtiyaclarının qiymətləndirilməsi üzrə məruzə” də əlavə etmiş və bu ilin oktyabrın sonunda artıq Komitəyə təqdim etmişdir.

3. Sonuncu hesabat Azərbaycan tərəfindən Komitəyə göndərildiyi zaman Azərbaycan artıq Komitənin katibliyinin hazırladığı milli hesabatları təqdim etməyən ölkələrin siyahısına salınmış və texniki səbəbdən dolayı bu siyahı yeniləşdirilməmişdir.

4. Dövlətlərin hazırladıqları milli hesabatların tərkibi əhatəli xarakter daşıyır və müvafiq qanunvericilik, praktiki tədbirlər, maliyyə sektoru və digər aidiyyəti məsələlər daxil olmaqla özündə bir çox sahələri əhatə etdiyindən, hesabatların hazırlanmasına çox vaxt tələb olunur. Qeyd etmək lazımdır ki, BMT-yə üzv olan dövlətlərdən 1/3-i öz hesabatlarının tamamlanması üzrə işi hələ də davam etdirir.

5. Hesabatların təqdim olunması müddətləri tələb səciyyəsi daşımır və Komitənin işinin müvafiq qaydada aparılması məqsədini güdür. Ümumiyyətlə, milli hesabatların təqdim olunmasının gecikdirilməsi ilə bağlı Komitə tərəfindən iştirakçı dövlətlərə münasibətdə hər hansı sanksiyaların tətbiq edilməsi ehtimalı barədə söz-söhbət tamamilə əsassızdır.

6. Terrorçuluğa qarşı koalisiyanın fəal iştirakçısı olan Azərbaycan beynəlxalq və regional təşkilatlar çərçivəsində də intensiv şəkildə əməkdaşlıq edir. GUÖAM-ın Terrorçuluqla mübarizə üzrə İşçi qrupunun sədri olan Azərbaycan bu il martın 6-da və oktyabrın 7-də Komitənin regional və subregional təşkilatlarla keçirilmiş görüşlərində GUÖAM-ı təmsil etmişdir. GUÖAM-ın terrorçuluqla mübarizə sahəsində həyata keçirdiyi layihələr və əldə olunmuş nailiyyətlər haqqında hesabatlar Komitədə yayılmışdır.

7. Hazırda Bakıda Azərbaycanın sədrliyi ilə keçirilən GUÖAM-ın Terrorçuluqla mübarizə üzrə işçi qrupunun iclasında terrorçuluq və mütəşəkkil cinayətkarlığın digər novləri ilə mübarizə üzrə Virtual Mərkəzin yaradılması istiqamətində iş aparılır.
8. Azərbaycan dəfələrlə BMT Təhlükəsizlik Şurasının iclaslarında terrorçuluğa qarşı mübarizəyə dair çıxışlar etmiş və belə çıxışlardan sonuncusu 2003-cü il oktyabrın 16-da olmuşdur.

Yuxarıda qeyd olunanlardan göründüyü kimi, Azərbaycan öz imkanlarını nəinki siyasi, həm də praktiki səviyyədə də fəal şəkildə gerçəkləşdirir. Buna əsasən Xarici İşlər Nazirliyi hesab edir ki, ictimaiyyətdə yaranmış narahatçılıq üçün heç bir səbəb yoxdur.

XİN. Mətbuat Mərkəzinin məlumatı, 08.11.03

**Azərbaycan Respublikasının Xarici İşlər Nazirinin müavini Xələf Xələfovun Yaponiyanın xarici işlər nazirinin müavini İçiro Fucisaki ilə görüşü**

2003-cü ilin noyabr ayının 24-də Azərbaycan Respublikasının xarici işlər nazirinin müavini Xələf Xələfov Yaponiya xarici işlər nazirinin müavini İçiro Fucisakini qəbul etmişdir.

Görüş zamanı nazir müavini Xələf Xələfov Yaponiya ilə əlagələrin davamlı inkişafını vurğulayaraq, onların Azərbaycan üçün xüsusi əhəmiyyət kəsb etdiyini qeyd etmişdir. O, Yaponiyanın ökəmizdə enerji sahəsində bir sıra iri layihələrin həyata keçirilməsini yüksək qiymətləndirmiş, ölkəmizlə qeyri-neft sahəsində əməkdaşlıq üçün böyük potensialın mövcud olduğunu bildirmişdir. Xələf Xələfov Avropa-Qafqaz-Asiya Nəqliyyat dəhlizi TRACECA çərçivəsində əmədaşlığın möhkəmlənməsinin və konkret layihələrin həyata keçirilməsinin zəruriliyini qeyd etmişdir.

Daha sonra, nazir müavini Xələf Xələf Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli istiqamətində aparılan danışıqlar və Azərbaycan qaçqınları və məcburi köçkünlərinin ağır vəziyyəti barədə qonağa məlumat vermiş və bu münaqişənin regionda təhlükəsizliyin bərqərar olunmasına, habelə iqtisadiyyatın inkişafına ciddi maneə törətdiyini vurğulamışdır.

Öz növbəsində İçiro Fucisaki sərmayələr, ticarət və digər sahələrdə ikitərəfli əməkdaşlığın daha da dərinləşməsinin zəruriliyini qeyd etməklə yanaşı, Yaponiya tərəfindən ölkəmizə yardım göstərilməsi, qaçqınlara və məcburi köçkünlərə yardımların davam etdiriləcəyini bildirmişdir. O, demokratik proseslərə və bazar iqtisadiyyatının inkişafında Azərbaycana dəstək verəcəklərini qeyd etmişdir.

Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinə toxunan qonaq münaqişənin həllinin bütün dünyada təhlükəsizlik və əməkdaşlığın möhkəmlənməsində mühüm rol oynadığını vurğulamış, münaqişənin tezliklə sülh vasitələri və dialoq yolu ilə həll ediləcəyinə ümüdvar olduğunu bildirmişdir.

Həmçinin, görüşdə beynəlxalq təşkilatlarda əməkdaşlıq, habelə qarşılıqlı maraq kəsb edən beynəlxalq və regional məsələlərə dair fikir mübadiləsi aparılmışdır.

**XİN. Mətbuat Mərkəzinin məlumatı, 24.11.03**

**Azərbaycan Respublikasının Xarici işlər nazirinin müavini Xələf Xələfovun Azərbaycanda səfərdə olan Hindistanın xarici işlər nazirinin müavini Racindra Madhukar Abhyankar ilə görüşü**

2003-ci ilin dekabr ayının 5-də Azərbaycan Respublikasının xarici işlər nazirinin müavini Xələf Xələfov Azərbaycanda səfərdə olan Hindistanın xarici işlər nazirinin müavini Racindra Madhukar Abhyankarı qəbul etmişdir.

Xələf Xələfov qonağı salamlayaraq bu səfərin, Azərbaycan ilə Hindistan arasındakı dostluq münasibətlərinin möhkəmlənməsi və işgüzar əlaqələrin genişlənməsi üçün faydalı olacağına, iki ölkə arasındakı əməkdaşlığın gələcək perspektivində mühüm əhəmiyyət kəsb edəcəyinə inam yaratdığını qeyd etmişdir. Nazir müavini Xələf Xələfov Azərbaycan və Hindistanın Xarici işlər nazirlikləri arasındakı dialoqların artırılmasının, əlagələrin iqtisadi, humanitar, kənd təsərrüfatı, tibb, enerjı və neft sahələrində inkişaf etdirilməsi üçün hüquqi bazanın gücləndirilməsinin, beynəlxalq təşkilatlar çərçivəsində səmərəli əməkdaşlığın davam etdirilməsinin və beynəlxalq terrorizmə qarşı mübarizədə Hindistan ilə əməkdaşlığın inkişaf etdirilməsinin zəruriliyini qeyd etmişdir. Nazir müavini Xələf Xələfov respublikamızdakı ictimai-siyasi vəziyyət, 15 oktyabrda azad və demokratik şəraitdə keçirilmiş prezident seçkiləri, ölkəmizdə aparılan iqtisadi islahatlar və TRASEKA Proqramı çərçivəsində "Avropa-Qafqaz-Asiya" nəqliyyat dəhlizinin inkişafı və genişlənməsi istiqamətində həyata keçirilən bir sıra iqtisadi layihələr barədə qonağa məlumat vermişdir.

Görüş zamanı nazir müavini Xələf Xələfov Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi və onun həlli istiqamətində görülən işlər, ATƏT-in Minsk qrupunun fəaliyyəti, Ermənistanın təcavüzü nəticəsində öz torpaqlarından didərgin düşmüş 1 milyona yaxm azərbaycanlı qaçqınların ağır vəziyyəti barədə ətraflı məlumat verərək, bu münaqişənin dövlətlərin suverenliyi, ərazi bütövlüyü və sərhəd toxunulmazlığı əsasında tezliklə aradan qaldırılması üçün beynəlxalq birliyin səylərinin artırılmasının vacibliyini qeyd etmişdir.

Hindistanın xarici işlər nazirinin müavini Racindra Madhukar Abhyankar öz ölkəsi ilə Azərbaycan arasındakı əlaqələrin inkişafına böyük əhəmiyyət verdiyini və bu istiqamətdə əməkdaşlığın davam etdirilməsinə ümid etdiyini bildirmişdir. Nazir müavini ikitərəfli əlaqələrin siyasi, iqtisadi, elm və texnologiya sahələrində inkişaf etdirilməsinə ölkəsinin tərəfdar olduğunu, beynəlxalq təşkilatlar çərçivəsində daha sıx əməkdaşlığın davam etdirilməsinin vacibliyini vurğulamışdır.

Nazir müavini Racindra Madhukar Abhyankar Hindistan və Azərbaycan arasındakı əlaqələrin daha da genişlənməsi üçün Birgə komissiyanın yaradılmasına, ölkələrimiz arasında sərmayələrin qorunması, ikiqat

vergiqoymaların aradan qaldırılması və hüquqi yardım sahələrində əməkdaşlığın inkişaf etdirilməsinə Hindistan tərəfinin maraqlı olduğunu bildirmişdir.

Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinə toxunaraq, Racindra Madhukar Abhyankar Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin tezliklə beynəlxalq birliyin birgə səyləri əsasında sülh yolu ilə həll ediləcəyinə ümidvar olduğunu qeyd etmişdir.

Görüşdə qarşılıqlı maraq doğuran bir sıra məsələlər də müzakirə edilmişdir.

**XİN. Mətbuat Mərkəzinin məlumatı, 05.12.03**

## «Azərbaycan Respublikası Hökuməti və Amerika Birləşmiş Ştatları Hökuməti arasında narkotiklərə nəzarət və hüquq mühafizə orqanlarına yardım haqqında 3 yanvar 2003-cü il tarixli Saziş Məktubuna Düzəliş» imzalanması

8 dekabr 2003-cü ildə Azərbaycan Respublikası Xarici İşlər Nazirliyində «Azərbaycan Respublikası Hökuməti və Amerika Birləşmiş Ştatları Hökuməti arasında narkotiklərə nəzarət və hüquq mühafizə orqanlarına yardım haqqında 3 yanvar 2003-cü il tarixli Saziş Məktubuna Düzəliş» imzalanmışdır.

Göstərilən sənədi Azərbaycan tərəfindən Azərbaycan Respublikasının xarici işlər naziri Vilayət Quliyev, Amerika tərəfindən isə Amerika Birləşmiş Ştatlarının Fövqəladə və Səlahiyyətli Səfiri Reno Harniş imzalamışdır.

İmzalanmış sənəd Azərbaycan Respublikası Hökumətinə ABŞ təşkilatları vasitəsi ilə tədarük edilən texniki kömək, Dövlət Departamenti tərəfindən alınmış avadanlıq və təlimi də daxil olmaqla 2,550.000ABŞ dolları məbləğində əlavə yardımı təmin etmək məqsədini daşıyır.

Düzəliş çərçivəsində Rezident hüquq məsləhətçisi, Hüquq mühafizəsinin inkişafı, Narkotiklər əleyhinə təlim və avadanlıq, Məhkəmə ekspertizası laboratoriyasının inkişafı və Maliyyə cinayətləri üzrə məsləhətçi layihələrin maliyyələşdirilməsi nəzərdə tutulur.

XİN, Mətbuat Mərkəzinin məlumatı, 08.12.03

## XİN-in Xarici siyasətin planlaşdırılması və strateji araşdırmalar idarəsinin rəisi İ.Məmmədovun Polşaya səfəri

2003-cü ilin dekabrın 11-12-də Varşavada Polşanın Şərqi tədqiqatlar mərkəzi tərəfindən Polşanın xarici işlər nazirliyinin köməyi ilə «NATO-nun yeni müstəqil dövlətlərdə rolu: NATO və onun Şərqi Avropa və Cənubi

Qafqazda tərəfdaşları» adlı seminar keçirilmişdir. Seminarda NATO-nun Rusiya, Belorus, Moldova, Gürcüstan, Azərbaycan və Ermənistan ilə əlaqələri müzakirə olunmuşdur.

Seminarda Xarici işlər nazirliyini Xarici siyasətin planlaşdırılması və strateji araşdırmalar idarəsinin rəisi İlqar Məmmədov təmsil edirdi. İ.Məmmədov seminarda NATO-Azərbaycan münasibətləri mövzusunda çıxış etdi. İ.Məmmədov öz çıxışında bu münasibətlərin tarixindən danışarkən prezident Heydər Əliyevin 1994-cü ildə Brüsselə səfərini və Sülh naminə tərəfdaşlıq proqramına qoşulmağımızı qeyd etdi. Azərbaycanın bu proqram çərçivəsində NATO ilə əməkdaşlığından geniş danışdı. Regionda vəziyyət, Ermənistan-Azərbaycan münaqişəsindən, NATO-nun mümkün rolundan söhbət açdı.

Səfərin proqramına uyğun olaraq dekabrın 13-də «Tribuna», «Reçpospolita», «Qazeta Vıborça» qəzetlərini təmsil edən jurnalistlərlə görüş keçirildi. Jurnalistlər Azərbaycanda və regionda vəziyyət, ölkəmizin xarici siyasəti ilə maraqlandılar. İ.Məmmədov ölkəmizdə baş verən islahatlardan, xarici sərmayələr üçün əlverişli şəraitin yaradılmasından, demokratikləşmə proseslərindən danışdı. Bu yaxınlarda keçirilmiş prezident seçkilərinin demokratik inkişafda yeni mərhələnin olduğunu qeyd etdi. Yeni seçilmiş prezident İlham Əliyev istər daxili, istərsə də xarici siyasətdə dəyişikliyin olmayacağına, əvvəlki prezidentin siyasətinə sadiq qalacağını jurnalistlərin nəzərinə çatdırdı. Regionda vəziyyətdən danışarkən, Ermənistanın təcavüzkar siyasətini, Azərbaycanın torpaqlarını işğal etdiyini qeyd etdi.

XİN, Mətbuat Mərkəzinin məlumatı, 14.12.03

# AZƏRBAYCAN RESPUBLİKASININ XARİCDƏKİ DİPLOMATİK NÜMAYƏNDƏLİKLƏRİNDƏ

## Azərbaycan Respublikasının AŞ yanında Daimi Nümayəndəliyinin fəaliyyətinə dair qısa məlumat (oktyabr-noyabr 2003)

*Ermənistan-Azərbaycan münaqişəsinin həll olunmıası*

- Nazirlər Komitəsinin "Aqo" Monitorinq Qrupunun Azərbaycan tərəfdən AŞ qarşısında üzərinə götürdüyü öhdəliklərin yerinə yetirilməsinə dair hazırladığı 3-cü Hesabatı əsasında Daimi Nümayəndəliyin təşəbbüsü ilə Ermənistan-Azərbaycan münaqişəsinin həll olunmasına dair bir sıra qərarlar təklif edilmişdir. Maraqlı tərəflərlə keçirilmiş görüşlərin nəticəsində kompromis qərar layihələri razılaşdırılmış və Nümayəndələr Komitəsinin oktyabr ayının 9-da keçirdiyi 855-ci iclasında qəbul olunmuşdur.

Nümayəndələr Komitəsi Dağlıq Qarabağ miinaqişəsinin həll olunması ilə bağlı öhdəliyin yerinə yetirilməsi ilə bağlı son iki ildə real irəliləyişin olmadığınıı göstərmiş, münaqişə nəticəsində əmələ gəlmiş qaçqın və məcburi köçkünlərin ağır vəziyyətindən təssüflərini bildirmiş, münaqişənin beynəlxalq hüquq və AŞ-nın normaları və prinsipləri əsasında həll edilməsini vurğulamış və Minsk Qrupunun Həmsədrləri tərəfindən bu istiqamətlə fəaliyyətin artırılmasına çağırmışlar. Bu məsələyə Nümayəndələr Komitəsi tərəfdən bu ilin sonunadək yenidən baxılacağı qərara alınmışdır.

*Mədəniyyət, tehsil, elm*

- Daimi Nümayəndəliyin təşəbbüsü ilə Təhsil Naziri M.Mərdanov Baş Katibə ünvanladığı məktubda Azərbaycan və AŞ arasında tarixin tədris olunması barədə iki il müddəti üçün ikitərəfli proqramın tərtib edilməsi və maliyyələşdirilməsi məsələsi ilə müraciəl etmiş və bunun əsasında 3 oktyabr tarixində Daimi Nümayəndə tərəfdən Baş Katib ilə keçirdiyi görüşdə V.Şvimmer bu məsələdə səy göstərəcəyini vəd etmişdir.

- Bu il 15 oktyabr tarixində Azərbaycan Respublikasının AŞ yanında Daimi Nümayəndəsi A.Mehdiyevin Sədrliyi altında Nazirlər Komitəsinin Aralıq dənizinin hövzəsində əməkdaşlıq üzrə məruzəçi qrupunun (RAP-MED) iclası keçirilmişdir. İclas zamanı AŞ-nın Şimal-Cənub Mərkəzinin Direktoru ilə fikir mübadiləsi keçirilmişdir. Sonra

mədəniyyətlərarası dialoq üzrə işçi qrupun sədri, Litva Daimi Nümayəndəsi çıxış ctmişdir. Qeyd olunmalıdır ki, Qrupun Sədri AŞ-nın Aralıq dənizinin hövzəsindəki ölkələrlə siyasi, humanitar sahələrdə əməkdaşlığa məsuldur və Nazirlər Komitəsini AŞ-nın yüksək səviyyəli tədbirlərində təmsil edir.

*Hüquqi əməkdaşlıq*

- Bu il 22 oktyabr tarixində Daimi Nümayəndə A.Mehdiyev və Baş Katib V.Şvimmer arasında Azərbaycan Respublikası tərəfindən "Ev heyvanlarının müzafizəsi haqqıda Avropa Konvensiyası»na, «Avropa Şurasının immunitet və imtiyazları haqqında Baş Sazişə dair Altıncı Protokoluna və «Avropa Landşaft Konvensiyası»na qoşulması üzrə imzalama mərasimi keçirilmişdir.

- Bu ilin 27-30 oktyabr tarixində keçirilmiş AŞ-nın Terrorçuluğa qarşı mübarizə üzrə Ekspertlər Komitəsinin (CODEXTER) iclasında Azərbaycan nümayəndəsi R.Əliyev iştirak etmişdir. 29 oktyabr tarixində sözügedən Komitənin Bürosuna keçirilmiş seçkilər nəticəsində R.Əliyev büro üzvü seçilmişdir.

- Bu il 04 noyabr tarixində Daimi Nümayəndə A.Mehdiyev və Baş Katib V.Şvimmer arasında Azərbaycan Respublikası tərəfindən «Anti-Dopinq konvensiyası»nın ratifikasiyasına dair instrumentin təqdim olunması marasirni keçirilmişdir. Azərbaycan tərəfi münasibətdə qeyd olunan Konvensiya depozitə alındığı gündən üç ay sonra, 1 fevral 2004-cü il tarixində qüvvəyə minəcəkdir.

Azərbaycan Respublikasının Avropa Şurası yanında Nümayəndəliyi

**Azərbaycan Respublikasının Pakistan İslam Respublikasındakı Fövqəladə və Səlahiyyətli səfiri Eynulla Mədətlinin Pakistan senatinin sədri**
Məhəmmədmian Sumro **ilə görüşü**

Oktyabrın 16-da Azərbaycan Respublikasının Pakistan İslam Respublikasındakı Fövqəladə və Səlahiyyətli Səfiri Eynulla Mədətli Pakistan Senatının sədri Məhəmmədmian Sumro ilə görüşmüşdür.
Səfirlikdən AzərTAC-a daxil olmuş məlumatda deyilir ki, Milli Məclisin sədri Murtuz Ələsgərovun salamlarını cənab M.Sumroya yetirən Azərbaycan diplomatı ölkələrimiz arasında mehriban dostluq və qardaşlıq münasibətlərinin formalaşmasında və daha da möhkəmlənməsində prezidentlər Heydər Əliyevin və

Pərviz Müşərrəfin xidmətlərini vurğulamış, həmin siyasətin qətiyyətlə davam etdirildiyini bildirmişdir. O, Azərbaycan Respublikasının Baş naziri İlham Əliyevin BMT Baş Məclisinin 58-ci sessiyası zamanı Pakistan Prezidenti general Pərviz Müşərrəflə görüşünün əhəmiyyətini vurğulamışdır.

Səfir ölkəmizdə keçirilən prezident seçkiləri haqqında Senatın sədrinə ətraflı məlumat vermiş, demokratik, şəffaf və minlərlə müşahidəçinin iştirak etdiyi seçkidə Baş nazir İlham Əliyevin böyük üstünlüklə qalib gəldiyini bildirmişdir.

Cənab M.Sumro bu xəbərdən məmnunluğunu vurğulayaraq, səmimi təbriklərini İlham Əliyevə yetirməyi xahiş etmişdir. O demişdir ki, İlham Əliyev mükəmməl təhsil görmüş, yaxşı siyasi təcrübə qazanmış, cavan və enerjili siyasətçidir və onun fəaliyyətinin dost Azərbaycan xalqı üçün faydalı olacağına ürəkdən inanır.

M.Sumro Azərbaycan Prezidenti Heydər Əliyevin səhhəti ilə maraqlanmış, ona cansağlığı arzulamışdır.

Görüşdə parlamentlərarası əlaqələrin möhkəmləndirilməsi barədə də söhbət getmişdi.

Milli Məclisdə Pakistan parlamenti ilə əlaqələr üzrə işçi qrupu yaradıldığını xatırladan səfir özünün xahişi ilə Pakistanın Milli Assambleyasında da Azərbaycan parlamenti ilə dostluq qrupunun təşkil edildiyini bildirmişdir.

M.Sumro senatorların qrupun işinə cəlb ediləcəyini, ölkələrimiz arasında münasibətlərin inkişafına səy göstərəcəklərini söyləmişdir.

Azərbaycan diplomatı Milli Məclisin sədri Murtuz Ələsgərovun adından cənab M.Sumronu ölkəmizə səfərə dəvət etmişdir. Dəvət razılıqla qəbul olunmuşdur. E.Mədətli Pakistan Senatının sədrinə Azərbaycan səfirliyinin İslamabadda urdu dilində buraxdığı “Heydər Əliyev və onun Azərbaycanı” kitabını təqdim etmişdir.

**«AZƏRTAC». 17.10.03**

## Azərbaycan Respublikasının Özbəkistandakı səfirliyində keçirilən mətbuat konfransı

Azərbaycanın Özbəkistandakı səfirliyində respublikamızın müstəqilliyinin on ikinci ildönümü ilə əlaqədar yerli və xarici jurnalistlər üçün mətbuat konfransı keçirilmişdir.

Səfir Aydın Əzimbəyov Azərbaycan müstəqillik qazandıqdan sonra ölkənin siyasi, iqtisadi və mədəni həyatında baş verən uğurlardan söhbət açmış, Bakı-Novorossiysk, Bakı-Supsa, Bakı-Tbilisi-Ceyhan neft, Bakı-Tbilisi-Ərzurum qaz kəmərləri barədə məlumat vermişdir.

O,Ermənistanın təcavüzkar siyasəti nəticəsində torpaqlarımızın 20 faizinin işğal olunduğunu, bir milyondan artıq adamın öz doğma el-obasından qovulduğunu da xatırlatmışdır.

Səfir oktyabrın 15-də keçirilən prezident seçkilərindən danışaraq demişdir ki, səsvermədə seçicilərin əksəriyyətinin iştirak etdiyini, seçkilərin demokratik, sərbəst və şəffaf keçdiyini bildirmişdir. A.Əzimbəyov axırda jurnalistlərin suallarına cavab vermişdir.

**«AZƏRTAC». 22.10.03**

**Azərbaycanın Ukraynadakı Səfiri Tələt Əliyevin Ukrayna Prezidenti yanında Milli Dövlət İdarəçiliyi Akademiyasının dinləyiciləri qarşısında mühazirə oxuması**

AzərTAC-ın xüsusi müxbiri xəbər verir ki, Azərbaycanın Ukraynadakı səfiri Tələt Əliyev Ukrayna Prezidenti yanında Milli Dövlət İdarəçiliyi Akademiyasının dinləyiciləri qarşısında mühazirə oxumuşdur.

Mühazirədən əvvəl akademiyanın rektoru, professor Vladimir Luqovoy respublikamızın Baş naziri İlham Əliyevin ölkə Prezidenti seçilməsi münasibətilə Azərbaycan diplomatını təbrik etmişdir.

Səfir "Azərbaycan: dünən, bu gün, sabah" mövzusundakı mühazirəsində ölkənin siyasi, iqtisadi, sosial həyatından, prezident seçkilərində İlham Əliyevin inamlı qələbəsindən, Azərbaycanın GUÖAM ölkələri ilə tərəfdaşlığından ətraflı söhbət açmışdır.

O, Ermənistanın ölkəmizə təcavüzü və işğal olunmuş torpaqlardan didərgin salınmış 1 milyon qaçqının məşəqqətləri barədə geniş məlumat vermişdir.

Sonra səfir T.Əliyev Kiyevdə Prezident Heydər Əliyevin yubileyinə həsr olunmuş elmi-praktik konfransın materiallarından ibarət kitabı və konfransın videokasetini V. Luqovaya təqdim etmişdir.

**«AZƏRTAC». 30.10.03**

**İranın mədəniyyət və İslam oriyentasiyası naziri Əhməd Məcid Cəminin Azərbaycanın Tehrandakı səfiri Abbasəli Həsənov ilə görüşü**

İranla Azərbaycanın mədəniyyət sahəsindəki ikitərəfli əlaqələri genişləndirilməlidir. Bu barədə İranın mədəniyyət və İslam oriyentasiyası naziri Əhməd Məcid Cəmi Azərbaycanın Tehrandakı səfiri Abbasəli Həsənovla görüşündə bildirib. "İran və Azərbaycanın yazıçı və ədəbiyyatşünaslarının bir sıra sahələrdə əməkdaşlığı bizim xalqlar arasında mədəni əlaqələrin inkişafına və möhkəmləndirilməsinə əhəmiyyətli təsir göstərəcək", - deyən nazir iki ölkənin uyğunluğunun böyük potensialını nəzərə çatdırıb. Nazir həmçinin Azərbaycan mədəniyyət həftəsinin Tehranda keçirilməsini təklif edib. Azərbaycanın İrandakı səfiri

A.Həsənov isə iki ölkə arasında mədəni əlaqələr proqramının həyata keçirilməsinin zəruriliyini qeyd edib və gələn ay Azərbaycanın yüksək vəzifəli nümayəndə heyətinin Tehrana səfər edəcəyini bildirib.

**«AZADİNFORM». 30.10.03**

## Azərbaycanın ABŞ-dakı səfiri Hafiz Paşayevin "Vaşinqton Post" qəzetinə etirazını bildirmişdir

Azərbaycanın Vaşinqtondakı səfiri Hafiz Paşayev ölkəmizdə keçirilmiş prezident seçkilərinin "Vaşinqton Post"da qərəzli işıqlandırılmasına etiraz olaraq, qəzetə məktub göndərmişdir. Qəzetin 30 oktyabr tarixli nömrəsində dərc edilən məktubda deyilir ki, «Vaşinqton Post» seçkilərə dair oktyabrın 22-də çap etdiyi yazıda beynəlxalq müşahidəçilərin rəyinə istinadən çoxsaylı çatışmazlıqlar, müxalifət tərəfdarlarının döyülməsi və həbsindən bəhs edir, lakin ATƏT müşahidəçilərinin «qeyri-adi şəffaflıq», Avropa Birliyinin «Azərbaycanda əvvəlki seçkilərə nisbətən irəliləyiş» və «beynəlxalq standartlar istiqamətində əhəmiyyətli səy» kimi ifadələrini yada salmamışdır. Səfir vurğulayır ki, Amerika mediasından fərqli olaraq, avropalıların münasibəti Azərbaycanı demokratiya istiqamətində irəliləyişə ruhlandırır. «Vaşinqton Post» Avropanın fərqli demokratiya standartlarına riayət etdiyinimi düşünür?» -deyən Azərbaycan diplomatı onu da bildirir ki, müxalifət liderləri hələ oktyabrın 15-dən əvvəl Bakı küçələrində qan töküləcəyini bəyan etmiş və tərəfdarlarını seçkilərin nəticələrini hələ onlar bəlli olmamışdan əvvəl qəbul etməməyə çağırmışlar.

«Vaşinqton Post»a həmçinin xatırladılır ki, Azərbaycanın Əfqanıstan və İraqda ABŞ-a dəstəyi yalnız hava məkanından istifadəyə icazə verilməsi ilə bitmir. Azərbaycanın əsgər və zabitləri Amerika hərbçiləri ilə çiyin-çiyinədirlər.

Səfir Paşayev daha sonra yazır ki, neft və demokratiya, geostrategiya və insan haqları anlayışları arasında ziddiyyət axtarmaq «Vaşinqton Post» üçün səciyyəvi olsa da, bu amillər uzlaşa bilər. Bu baxımdan Azərbaycan nümunə olmağa çalışır.

Qəzetin qərəzli yanaşmasına daha bir etiraz Dövlət Departamenti mətbuat katibinin müavini Adam Erelinin «Vaşinqton Post»a ünvanladığı məktubda bildirilir. Adam Ereli hesab edir ki, qəzet yazısında ABŞ-ın Azərbaycan siyasətinə dair bir neçə mühüm faktı nəzərə almamışdır. ABŞ Azərbaycan hakimiyyətini xalqın iradəsini əks etdirən azad və ədalətli prezident seçkilərini təmin etməyə çağırmışdır. Dövlət Katibinin birinci müavini Riçard Armitac Baş nazir İlham Əliyevlə telefon söhbətində onunla və hökuməti ilə yaxından işləyəcəyini demişdir. Bununla belə, söhbətin əksər hissəsi seçkilərdən sonra hökumətin təmkinli olmasının vacibliyinə, kimliyindən asılı olmayaraq, cinayət törədən istər polis, istərsə də müxalifət nümayəndələrinin məsuliyyətə cəlb edilməsinə həsr olunmuşdur.

**«AZƏRTAC». 31.10.03**

**Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi Mətbuat Mərkəzinin məlumatı**

2003-cü ilin noyabr ayının 1-də Azərbaycan Respublıkasının Rumıniyadakı Fövqəladə və Səlahiyyətli Səfiri Eidar Həsənov cənab İlham Əliyevin Azərbaycan Respubilikasının yeni prezidenti seçilməsi münasibəti ilə **öz** səmimi təbrikərini göndərmiş yüksək səviyyəli rumın rəsmiləri, ziyalılar, senator **və** deputatları, Ruminiya-Azərbaycan Dostluq Cəmiyyətinin üzvləri, türk-tatar icmasının nümayəndələri, iran azərbaycanlıları, ölkədə yaşayan və təhsil alan azərbaycanlılarla görüş keçirmişdir.

Tədbiri Eldar Həsənov açaraq, müstəqil Azərbaycanımız üçün belə bir tarixi **və** əlamətdar gündə dövlətimiz və xalqımızın dost Rumıniyadan, türk soydaşlarımızdan və Rumıniyadakı diasporamızdan gözlədiyi daimi dəstəyin, xoş və isti münasibətin bir daha şahidi olduğu fikrini söylədi.

E.Həsənov əvvəlcə prezident seçkilərinə hazırlıq, özündə beynəlxalq hüquq və Avropa standartları prinsipiərini əks etdirən mükəmməl Seçki Məcəlləsinin işlənib hazırlanması, seçkiqabağı təbliğat kampaniyasının həyata keçirilməsi üçün bütün prezidentliyə namizədlərə bərabər imkanların yaradılması, seçici fəallığının çox yükşək səviyyədə olması, ilk dəfə olaraq şəffaf qutulardan, müasir elektron-kompüter sistemindən istifadə olunması, BMT, Avropa İttifaqı, Avropa Şurası, ATƏT kimi nüfuzlu beynəlxalq, eləcə də insan hüquqları üzrə ixtisaslaşmış bir sıra hökumət, qeyri-hökumət və ictimai təşkilatlar, siyasi partiya üzvləri və Azərbaycan vətəndaşları da daxil olmaqla 44 mindən artıq müşahidəçinin iştirak etməsi, seçkinin bütün mərhələlərinin Azərbaycanın **və** dünyanın 70-dən yuxarı aparıcı kütləvi informasiya vasitələrinin nümayəndələri tərəfindən işıqlandmlması haqqında ətraflı məlumat vermişdir.

Səfir həmçinin seçkilərdə cənab İlham Əliyevin böyük fərqlə qalib gəlməsinə və bir neçə prezidentliyə namizədin bu qələbəni və öz məğlubiyyətlərini qəbul etməsinə baxmayaraq, radikal müxalifətdən olan bir qrup şəxsin ifratçılığa vararaq törətdikləri cinayət əməlləri barədə məlumat vermişdir.

Tədbirdə iştirak edən Rumıniya-Azərbaycan Dostluq Cəmiyyətinin Baş Katibi, senator Akademik İoan Pop de Popa Rumıniya Prezidenti c-b İon İliyeskunun 2002-ci ilin oktyabr ayında Azərbaycan Respublikasında rəsmi səfəri zamanı c-b İlham Əliyevlə şəxsən tanış olmaq imkanına nail olduğunu bildirərək Azərbaycan xalqının düzgün seçim etməsindən şevindiyini qeyd etdi və səmimi təbriklərini çatdırdı.

Rumıniya İnsan Hüquqlarının Müdafiəsi Təşkilatının Prezidenti c-b Flarentin Skaletski 15 oktyabr tarixində keçirilmiş prezident seçkilərində ATƏT-in müşahidəçisi kimi iştirak etdiyini tədbir iştirakçılarının diqqətinə çatdıraraq, seçkilərin yüksək səviyyədə təşkil olunması, demokratik keçirilməsi faktlarının rəsmi məruzəsində əks olunduğunu qeyd etmişdir.

Tədbirdə iştirak edən Rumıniya-Türkiyə Sənaye və Ticarət Palatasının sədri c-b Tamer Atalay Azərbaycanda keçirilmiş Prezident seçkiləri ilə bağlı müsbət fikirlərini bölüşərək, Rumıniyadakı türk icmasının qardaş Azərbaycanın xarici siyasi xəttinin həyata keçirilməsində əlindən gələn yardımı etməyə və dəstək göstərməyə hazır olduğunu vurğulamışdır.

Seçkilərlə bağlı fikirlərini bölüşən türk-tatar icmasını təmsil edən millət vəkili c-b Necat Sali Rumıniya Parlamentində Azərbaycanı dəstəkləyənlərin az olmadığını tədbir iştirakçılarının diqqətinə çatdırmışdır.

Tədbirdə iştirak edən tanınmış jurnalist Minodor Mitrika müəllifi olduğu c-b Heydər Əliyevin siyasi həyat və fəaliyyətinə, Rumıniya-Azərbaycan dostluq münasibətlərinin inkişaf tarixinə həsr olunmuş və sonradan c-b H.Əliyevin 80 illik yubileyi münasibəti ilə Azərbaycan Respublikasının Rumıniyadakı Səflrliyinin təşbbüsü ilə ingilis dilinə tərcümə edilmiş "Azərbaycanın dirçəlişi" kitabı barədə məlumat vermişdir.

Mərasim iştirakçıları arasında söz alan natiqlərdən Rumıniya "Paul Polidor" Mədəniyyət Fondıınun Prezidenti, Rumıniya-Azərbaycan Dostluq cəmiyyətinin idarə heyətinin üzvü Corc Qeara, Buxarest Universitetinin professoru Dimutru Balan, Rumıniya-Azərbaycan İş Adamları Birliyinin prezidenti Elçin Məmmədov Rumıniya ilə Azərbaycan arasındakı son zamanlar inkişaf etməkdə olan əlaqələri yüksək qiymətləndirərək, səfirliyimizin bu sahədəki səylərinə xüsusi önəm verdiklərini vurğulamışlar.

Tədbirin sonunda Azərbaycanın Rumıniyadakı səfiri Eldar Həsənov tədbirdə iştirak etmiş 128 nəfərin hamısına dəvəti qəbul etdiklərinə, göstərdikləri dəstək və səmimi münasibətə görə dərin minnətdarlığını bildirmişdir.

Daha sonra şam masası ətrafında görüş iştirakçıları arasında fikir mübadiləsi və müzakirələr davam etdirilmişdir.

Tədbirdə həmçinin Rumıniya Xarici İşlər Nazirliyi, Nəqliyyat, Tikinti və Turizm Nazirliyinin rəhbər vəzifəli şəxsləri, MDB ölkələrinin və Türkiyənin Səfirləri, İran və Qazaxıstan Səfirliklərinin Müvəqqəti İşlər Vəkilləri, Azərbaycana isti münasibətləri və daimi dəstəyi ilə seçilən nüfuzlu dövlət və ictimai xadimləri, o cümlədən kütləvi informasiya vasitələrinin nümayəndələri də iştirak etmişlər.

XİN, Mətbuat mərkəzinin məlumatı, 04.11.03

**Azərbaycan Respublikası ilə Moldova Respublikası arasında dostluq və əməkdaşlıq haqqında 1998-ci ildə Bakıda imzalanmış müqavilə barədə ratifikasiya sənədlərinin mübadiləsinə dair protokolun imzalanması**

Noyabrın 4-də ölkəmizin Ukraynadakı səfirliyində Azərbaycan Respublikası ilə Moldova Respublikası arasında dostluq və əməkdaşlıq haqqında 1998-ci ildə Bakıda imzalanmış müqavilə barədə ratifikasiya

sənədlərinin mübadiləsinə dair protokolun imzalanması mərasimi olmuşdur. Protokolu Azərbaycan hökuməti adından ölkəmizin Moldova Respublikasındakı səfiri Tələt Əliyev, Moldova tərəfindən bu ölkənin Ukraynadakı səfiri Nikolae Çernomaz imzalamışlar.

Moldova diplomatı AzərTAC-ın müxbiri ilə söhbətində İlham Əliyevin Azərbaycan Respublikasının Prezidenti vəzifəsinə başlaması münasibətilə xalqımızı səmimiyyətlə və ürəkdən təbrik etdi və Moldova-Azərbaycan münasibətlərinin bütün sahələrdə gözəl perspektivinə qəti əmin olduğunu bildirdi.

**«AZƏRTAC». 05.11.03**

## Azərbaycanın Ukraynadakı səfiri Tələt Əliyevin Luqansk vilayətin səfəri

Azərbaycanın Ukraynadakı səfiri Tələt Əliyev noyabrın 12-13-də Luqansk vilayətində olmuşdur. Səfirlikdən AzərTAC-ın xüsusi müxbirinə bildirmişlər ki, o, vilayət icra hakimiyyətinin başçısı Aleksandr Yefremovla görüşmüşdür. Qubernator diplomatımızı Konstitutsiya günü münasibətilə təbrik etmiş və respublikamızın yeni prezidenti İlham Əliyevə çoxcəhətli fəaliyyətində uğurlar, xalqımıza isə tərəqqi arzulamışdır.

Görüşdə tərəflər regional səviyyədə ticarət-iqtisadi, mədəni əməkdaşlığın gücləndirilməsi barədə fikir mübadiləsi aparmışlar. A.Yefremov Luqansk vilayəti ilə Azərbaycanın bölgələrindən biri arasında qardaşlıq əlaqələri yaradılmasını təklif etmişdir. Qubernator vilayət həyatının bütün sahələrində fəal iştirak edən Ukrayna Azərbaycanlıları Konqresinin (UAK) Luqansk regional təşkilatında birləşən diasporumuz barədə xoş sözlər demişdir.

Luqansk vilayət sovetinin başçısı M.Tixonovla və şəhərin meri Y.Burlaçenko ilə də görüşlər olmuş, qarşılıqlı maraq doğuran bir sıra məsələlərə toxunulmuşdur.

Tələt Əliyev vilayətin ticarət-sənaye palatasında da (TSP) olmuşdur. Luqansk vilayətinin 10-a yaxın müəssisəsi, birliyi və firması azərbaycanlı tərəfdaşları ilə işləyir. “Linos” dəzgahqayırma zavodu, boru, jelatin, soda zavodları və kombinatları onların arasındadır. Səfir TSP-da görüşdə qeyd etmişdir ki, Azərbaycanla Luqansk vilayəti arasında əmtəə dövriyyəsinin ümumi həcmi 3,3 milyon ABŞ dolları təşkil etsə də, mövcud potensiala cavab vermir. Əməkdaşlığın genişləndirilməsi üçün mövcud imkanlardan səmərəli istifadə olunması hər iki tərəfə fayda gətirə bilər.

**«AZƏRTAC». 14.11.03**

## Azərbaycanın Özbəkistandakı səfiri Aydın Əzimbəyovun Azərbaycan məscidinin açılış mərasimdə iştirakı

Daşkənddə soydaşlarımızın yığcam yaşadıqları Tezikovka yaşayış sahəsində Azərbaycan məscidinin açılışı münasibətilə mərasim keçirilmişdir.

Azərbaycanın Özbəkistandakı səfiri Aydın Əzimbəyov mərasimdə çıxış edərək demişdir: Çox şadam ki, biz müqəddəs Ramazan ayında məscidin qapılarını soydaşlarımızın üzünə açdıq. Məscid həmvətənlərimizin vəsaiti hesabına tikilmişdir. Fərrux Şirinov, Həmid Hüseynov, Ələm Məhərrəmov, Kamil Kərimov və bir çox başqalarının yardımı olmasaydı bu gözəl binanın tikintisini başa çatdıra bilməzdik.

Sonra səfir buraya toplaşanları iftara dəvət etmişdir.

Məscidin mollası Asif Hüseynov dua oxumuş, məscidin tikintisinə yardım edənlərə və inşaatçılara minnətdarlığını bildirmişdir.

Xatırladaq ki, Tezikovka yaşayış sahəsində 10-12 min azərbaycanlı yaşayır və bir ay əvvəl burada Azərbaycan məktəbinin də açılışı olmuşdur.

**«AZƏRTAC». 14.11.03**

## Azərbaycanın Səudiyyə Ərəbistanındakı səfirliyində 15 oktyabr prezident seçkilərinin nəticələri ilə əlaqədar mətbuat konfransı

Azərbaycanın Səudiyyə Ərəbistanındakı səfirliyindən AzərTAC-a daxil olmuş məlumatda deyilir ki, dövlətimizin bu ölkədəki səfiri Elman Araslı respublikamızda 15 oktyabr prezident seçkilərinin nəticələri ilə əlaqədar mətbuat konfransı keçirmişdir.

Konfransda Səudiyyə Ərəbistanının aparıcı qəzet və televiziyalarının, bu ölkədə akkreditə olunmuş bir sıra xarici informasiya agentliklərinin müxbirləri iştirak etmişlər.

Səfir seçkilərin beynəlxalq standartlara uyğun tam azad və sərbəst şəraitdə keçirildiyini, xarici müşahidəçilərin seçkilərin nəticələrindən razı qaldığını, dünyanın aparıcı dövlətlərinin seçkiləri legitim saydıqlarını vurğulamış, İlham Əliyevin möhtərəm Heydər Əliyev siyasətinin layiqli davamçısı kimi Azərbaycan xalqının etimadını qazanaraq, böyük səs üstünlüyü ilə ölkəmizin Prezidenti seçildiyini diqqətə çatdırmışdır.

Sonra səfir konfrans iştirakçılarını son on ildə Heydər Əliyevin rəhbərliyi ilə Azərbaycanın əldə etdiyi nailiyyətlərlə, həyata keçirilmiş islahatların, müstəqilliyimizin əbədiliyi naminə atılan addımların nəticələri,

ölkəmizin ali rəhbərliyinin Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli ilə bağlı gördüyü işlər, respublikamızın siyasi və iqtisadi inkişafı ilə yaxından tanış etmişdir.
Mətbuat konfransının sonunda səfir iştirakçıların respublikamızın müasir həyatına, ictimai-siyasi vəziyyətinə, Səudiyyə Ərəbistanı ilə Azərbaycan arasındakı əlaqələrin inkişafına dair çoxsaylı suallarını cavablandırdı.
İştirakçılara möhtərəm Prezident cənab İlham Əliyevin İnaqurasiya zamanı söylədiyi nitqin və səfirliyin seçkilərə dair mətbuat bəyanatının mətnləri təqdim olunmuşdur.

**«AZƏRTAC». 18.11.03**

### Azərbaycanın Ukraynadakı səfiri Tələt Əliyevin Donetsk vilayətinə səfəri

Azərbaycanın Ukraynadakı səfiri Tələt Əliyev noyabrın 14-16-da Donetsk vilayətində səfərdə olmuşdur.
Azərbaycan diplomatı Donetsk Vilayət Dövlət İcra Hakimiyyətinin başçısı Mixail Bliznyukla görüşmüşdür. Görüşdə regionlararası əməkdaşlıq və onun perspektivləri ilə bağlı məsələlər nəzərdən keçirilmişdir. Səfir qeyd etmişdir ki, 2002-ci ildə Azərbaycanla Donetsk vilayəti arasında əmtəə dövriyyəsinin ümumi həcmi 27 milyon dollar idisə, cari ildə ondan 40 faiz çox olacaqdır.
Məlum olduğu kimi, Ukraynanın bu iri sənaye mərkəzində Avropa tipli nadir müəssisələr var və onların məhsulları dünya bazarında yüksək qiymətləndirilir. Onlardan biri – boru zavodu Bakı-Tbilisi-Ceyhan əsas ixrac neft kəməri, qaz kəmərlərimiz üçün ölkəmizin sifarişlərini yerinə yetirir.
Görüşdə Ukrayna Azərbaycanlıları Konqresinin (UAK) regional təşkilatında birləşən Donetsk vilayətindəki Azərbaycan diasporunun fəaliyyəti də müzakirə edildi. Bu gün Donetsk vilayətində, rəsmi məlumata görə, 8 min, qeyri-rəsmi məlumata görə isə, 60 min həmvətənimiz yaşayır. Qubernator Donetsk azərbaycanlılarının sıx birliyini, vilayətin ictimai-siyasi həyatında rolunu, iş yerləri yaradılmasında, regionun inkişafında xidmətlərini yüksək qiymətləndirdi.
Səfir, öz növbəsində, dedi ki, biz xalqımızın lideri Heydər Əliyevin dövlət siyasəti səviyyəsinə qaldırdığı millətin sıx birliyi ideyasının real təcəssüm tapdığını Donetsk və ümumən, Ukrayna azərbaycanlılarının timsalında da əyani surətdə görürük. O, vilayət və şəhər rəhbərliyindən UAK-ın regional təşkilatı üçün bina ayrılmasını xahiş etdi. Ukrayna tərəfi xahişi müsbət qarşıladı.
Səfər zamanı səfir T.Əliyev şəhər meriyasında da qəbul edildi. Görüşdə tərəflər Donetsklə Azərbaycanın şəhər və ya rayonlarından biri arasında qardaşlıq əlaqələri yaradılması qərara alındı.
T.Əliyev Donetsk vilayəti Baş Daxili İşlər İdarəsinin rəisi Vladimir Malışevlə, vilayətin Ticarət-Sənaye Palatasının prezidenti İqor Çijikovla da görüşdü, iri sənaye obyektlərində oldu.
Görüşlərdə UAK-ın Donetsk regional təşkilatının sədri Etibar Orucov da iştirak edirdi.

**«AZƏRTAC». 18.11.03**

**Azərbaycanın Özbəkistandakı səfiri Aydın Əzimbəyov Daşkənddəki Azərbaycan Mədəniyyət Mərkəzləri Assosiasiyası nəzdində fəaliyyət göstərən "Bülbüllər" uşaq mahnı və rəqs ansamblının üzvləri və idmançı soydaşlarımızla görüşü**

Milli Dirçəliş günü münasibətilə ölkəmizin Özbəkistandakı səfiri Aydın Əzimbəyov Daşkənddəki Azərbaycan Mədəniyyət Mərkəzləri Assosiasiyası nəzdində fəaliyyət göstərən "Bülbüllər" uşaq mahnı və rəqs ansamblının üzvləri və idmançı soydaşlarımızla görüşmüşdür. Səfir onları bayram münasibətilə təbrik etmiş, Azərbaycanda prezident seçkiləri, ölkədə aparılan iqtisadi islahatlar haqqında məlumat vermişdir.

Son vaxtlar Daşkənddə keçirilən tədbirlərdə "Bülbüllər" ansamblının fəal iştirakını da qeyd edən səfir Özbəkistanda akkreditə olunmuş diplomatik nümayəndəliklərin futbol üzrə 5-ci çempionatında diplomatlardan və soydaşlarımızdan təşkil olunmuş komandamızın üzvlərini də təbrik etmişdir.

Sonra ansamblın bədii rəhbəri, Özbəkistanın əməkdar artisti Kövkəb Əliyevaya və üzvlərinə, habelə idmançılara səfirliyin fəxri fərmanları və qiymətli hədiyyələr təqdim olunmuşdur.

Kövkəb Əliyeva, idmançılardan Novruz İsmayılov, Natiq Qasımov və Ceyhun Hacıyev çıxış etmiş, qayğı və diqqətə görə səfirliyə öz minnətdarlıqlarını bildirmişlər.

**«AZƏRTAC». 18.11.03**

**Eë ì àí Aðàñëû O ì àí Sóëòàíëûğûí ää ñəôèð òəéèí åäèë ì èøäèð**

Àçÿðáàéæàíûí Ñÿóäèééÿ Əðÿáèñòàíû Êðàëëûğûíäàêû ôöâãÿëàäÿ âÿ ñÿëàùèééÿòëè ñÿôèðè Åë ì àí Àðàñëû ùÿì äÿ Î ì àí Ñóëòàíëûğûíäà ñÿôèð òÿéèí îëóí ì óøäóð.

Ñÿóäèééÿ Əðÿáèñòàíûíäàêû ñÿôèðëèéè ì èçäÿí áèëäèð ì èøëÿð êè, íîéàáðûí 22-äÿ Åë ì àí Àðàñëû Ñóëòàíëûğûí õàðèæè èøëÿð íàçèðè Éóñèô Əë-Əëÿâè èëÿ ýöðüø ì üø âÿ ñÿôèð ãèñ ì èíäÿ àêêðåäèòÿ îëóí ì àñû ùàããûíäà åòè ì ààíà ì ÿñèíèí ñóðÿòèíè îíà òÿãäè ì åò ì èøäèð.

Ýöðüøäÿ Àçÿðáàéæàíëà Î ì àí àðàñûíäà äîñòëóã ÿëàãÿëÿðèíèí èíêèøàô ïåðñïåêòèâëÿðè ì üçàêèðÿ îëóí ì óøäóð.

**«AZƏRTAC». 24.11.03**

## Azərbaycan Respublikasının Türkmənistandakı səfirliyində matəm mərasimi

Türkmənistan Prezidenti Saparmurat Niyazov xalqımızın böyük oğlu Heydər Əliyevin vəfatı ilə əlaqədar başsağlığı vermək üçün dekabrın 15-də Azərbaycanın Aşqabatdakı səfirliyinə gəlmişdir. Səfirlikdən AzərTAC-a bildirmişlər ki, S.Niyazov Prezident Heydər Əliyevin xatirəsini bir dəqiqəlik sükutla yad etmiş, Matəm kitabına ürək sözlərini yazmışdır.

Türkmənbaşı səfir Elxan Hüseynova başsağlığı verərək, dahi şəxsiyyət Heydər Əliyevin vəfat etməsi xəbərini ürək ağrısı ilə qarşıladığını və mərhumun dünyamiqyaslı siyasətçi və əvəzedilməz insan kimi xatirəsində həkk olunduğunu vurğulamışdır. O, Allahdan Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə və xalqımıza səbr diləmiş və bu kədərli günlərdə onların yanında olduğunu bildirmişdir.

Səfir E.Hüseynov Prezident Heydər Əliyev haqqında xoş sözlər söylədiyinə, xalqımızın kədərinə şərik olduğuna görə Türkmənistan rəhbərinə minnətdarlıq etmişdir.

Türkmənistan Məclisinin Sədri Övəzgəldi Atayev, xarici işlər naziri Rəşid Meredov, mədəniyyət və informasiya naziri Gözəl Nurəliyeva, Nazirlər Kabineti sədrinin müavini Yelli Qurbanmuradov, Aşqabat şəhərinin meri Amangəldi Rəcəbov və digər rəsmi şəxslər də Prezident Heydər Əliyevin vəfatı ilə əlaqədar başsağlığı vermişlər.

Aşqabatdakı səfirliklərin və beynəlxalq nümayəndəliklərin başçıları və əməkdaşları səfirliyə gələrək, Heydər Əliyevin portreti önünə əklil qoyaraq, mərhumun xatirəsini bir dəqiqəlik sükutla yad etmiş, Matəm kitabına ürək sözlərini yazmışlar.

**«AZƏRTAC». 16.12.03**

## Azərbaycan Respublikasının Türkiyədəki səfirliyində matəm mərasimi

Türkiyə Respublikası Böyük Millət Məclisinin sədri Bülənd Arınç Azərbaycanın Ankaradakı səfirliyinə gələrək, ümummilli liderimiz, türk dünyasının böyük oğlu Heydər Əliyevin vəfatı ilə əlaqədar bütün xalqımıza dərin hüznlə başsağlığı vermiş, Matəm kitabına ürək sözlərini yazmışdır.

Türkiyə parlamentinin sədri AzərTAC-ın xüsusi müxbirinə müsahibəsində dedi ki, böyük dövlət adamı, Prezident Heydər Əliyevin vəfatı bizi çox sarsıtmışdır. Türkiyə Böyük Millət Məclisi, bütün millət vəkilləri adından mərhuma Allahdan rəhmət diləyir, ailə üzvlərinə, Azərbaycan xalqına, bütün türk dünyasına başsağlığı verirəm. Həqiqətən də acımız, kədərimiz böyükdür. Heydər Əliyevin Azərbaycanda, bütün türk dünyasında və ümumiyyətlə, dünyada sülh və əmin-amanlığın möhkəmlənməsində misilsiz xidmətləri vardır. Bu böyük öndərə Allahdan rəhmət diləyirəm. Hamımızın başı sağ olsun!

«AZƏRTAC». 17.12.03

**Azərbaycan Respublikasının ABŞ-dakı səfirliyində matəm mərasimi**

Azərbaycan xalqının ümummilli lideri, Prezident Heydər Əliyevin vəfatı ilə bağlı başsağlığı vermək üçün ölkəmizin ABŞ-dakı səfirliyinə və BMT-dəki daimi nümayəndəliyinə gələnlərin ardı-arası kəsilmir.

Dünya miqyaslı siyasətçi və beynəlxalq aləmdə ən parlaq liderlərdən biri kimi tanınan Heydər Əliyevlə vidalaşmaq üçün müxtəlif dövlətlərin yüksək rütbəli təmsilçiləri, ABŞ–ın dövlət strukturlarının nümayəndələri və Azərbaycan diasporunun üzvləri Matəm kitabına kədərli ürək sözlərini yazırlar.

Nyu-Yorkda, BMT Baş Məclisinin geniş iclasına sədrlik edən Xulian Hante gündəlikdəki məsələlərin müzakirəsinə keçməzdən əvvəl Baş Məclisin bütün üzvləri adından Prezident Heydər Əlirza oğlu Əliyevin vəfatı ilə bağlı Azərbaycan hökumətinə və xalqına dərin hüznlə başsağlığı vermişdir.

Səmimi sözlərinə görə sədrə təşəkkürünü bildirən Azərbaycanın BMT-dəki daimi nümayəndəsi səfir Yaşar Əliyev demişdir ki, böyük dövlət xadimi, xalqının ümummilli lideri olan Prezident Heydər Əliyevin vəfatı millətimiz üçün ağır itkidir. Azərbaycan bütün həyatını xalqına və ölkəsinə xidmətə, dünyanın bütün millətləri arasında sülh və anlaşmanın möhkəmlənməsinə həsr edən görkəmli oğlunu itirmişdir.

ABŞ dövlət katibinin birinci müavini Riçard Armitac Azərbaycanın Vaşinqtondakı səfirliyinə gələrək, Prezident Heydər Əliyevin vəfatı ilə bağlı başsağlığı vermişdir. O, Matəm kitabına ürək sözlərini yazdıqdan sonra AzərTAC-ın müxbirinə demişdir.

- Dövlət katibi Kolin Pauell və ABŞ Dövlət Departamentindəki bütün həmkarlarım bu gün mənə qoşularaq, Heydər Əliyevin ailəsinə və Azərbaycan xalqına dərin hüznlə başsağlığı verirlər. Bizim üçün o, həyatın özündən böyük bir insan idi. Məncə, dünya onun yoxluğundan bir qədər balacalaşmışdır. Biz Tanrının rəhmli və xeyirxah olduğuna inanırıq. Əminik ki, o, sonsuzadək Heydər Əliyevə rəhmli olacaqdır. Bilirik ki, millətiniz Heydər Əliyevin oğlu İlham Əliyevin rəhbərliyi altında bu ağır itkiyə tab gətirə biləcəkdir. Mənim xalqım Sizi tamamilə dəstəkləyəcəkdir".

**«AZƏRTAC». 18.12.03**

**Azərbaycan Respublikasının Almaniyadakı səfirliyində matəm mərasimi**

Dünyanın məşhur siyasi xadimlərindən biri, xalqımızın dahi oğlu, müstəqil Azərbaycan dövlətinin qurucusu Heydər Əliyevin vəfatı ilə əlaqədar ölkəmizin Almaniyadakı səfirliyində matəm mərasimi davam edir.

Dekabrın 13-dən etibarən Almaniyada akkreditə olunmuş 30-dan artıq ölkənin səfirləri və diplomatik korpusun əməkdaşları, işgüzar dairələrin nümayəndələri, iş adamları səfirliyimizə gələrək, Matəm kitabında xalqımıza üz vermiş ağır itki ilə bağlı başsağlığı yazmışlar.

Azərbaycan milli mədəni və təbii irsinin qorunub saxlanması sahəsində həyata keçirdikləri layihələri Prezident Heydər Əliyevlə dəfələrlə Bakıda görüşüb müzakirə edən "Azərbaycan Milli Parklar Proqramına beynəlxalq dəstək fondu"nun təşəbbüsçüsü olan Zuqqov Fondunun üzvləri ömrünü respublikamızın inkişafına həsr etmiş müdrik Prezident, təbiət vurğunu Heydər Əliyevin vəfatını ürək ağrısı və dərin kədər hissi ilə qarşılamışlar. Onlar Matəm kitabında yazmışlar: "Azərbaycan Respublikasının dahi rəhbəri, müdrik dövlət başçısı Heydər Əliyevin vəfatı bizi sarsıtmışdır. O, Almaniya Təbiəti Mühafizə Fondunun Azərbaycanda həyata keçirdiyi Milli Parklar Proqramının, ölkəsinin nadir, füsünkar təbiətinin mühafizəsi sahəsində həyata keçirilən işlərin ilhamçısı və əzmkar siyasi dəstəkçisi idi. Onun ailəsinə, Azərbaycan xalqına dərin hüznlə başsağlığı veririk".

Vida mərasiminə gələnlərin axını səngimək, göndərilən başsağlığı teleqramlarının sayı azalmaq bilmir.

Polşa Respublikasının Almaniyadakı səfiri Andjey Birt səfirliyimizə ünvanladığı başsağlığı teleqramında yazır: "Heydər Əliyevin vəfatı xəbəri bizi sarsıtmışdır. Xalqınıza dərin hüznlə başsağlığı veririk".

Ağır itki ilə bağlı Azərbaycan xalqına və Prezident Heydər Əliyevin ailəsinə başsağlığı teleqramına məşhur İohann Volfqanq Hötenin "İnsan dünyasını dəyişsə də, onun xoş əməlləri fani dünyada əbədi yaşayır" kəlamını epiqraf seçən Zuqqov Fondunun əməkdaşı professor Yeva-Mariya Aux Heydər Əliyevin əbədiyyətə qovuşması ilə əlaqədar keçirdiyi sarsıntını belə ifadə etmişdir: "Nəcib insan, görkəmli dövlət xadimi Heydər Əliyevin vəfatı xəbəri məni sarsıtmışdır. Heydər Əliyevin Azərbaycanın dirçəlişi, müstəqilliyinin möhkəmlənməsi, beynəlxalq aləmdə nüfuzunun artmasında, o cümlədən ikitərəfli Almaniya-Azərbaycan münasibətlərinin inkişafı sahəsində tarixi rolu danılmazdır. Ağır itki ilə əlaqədar dost Azərbaycan xalqına və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verir, onların kədərinə şərik oluram".

Azərbaycan xalqının dahi oğlunun xatirəsinə ehtiram əlaməti olaraq göndərilən başsağlığı teleqramlarının ardı-arası kəsilmir.

**«AZƏRTAC». 19.12.03**

### Azərbaycan Respublikasının Rusiyadakı səfirliyində matəm mərasimi

Azərbaycan xalqının böyük oğlu Heydər Əliyevin xatirəsini anmaq arzusunda olan insanların ölkəmizin Rusiyadakı səfirliyinə axınının ardı-arası kəsilmir.

ABŞ-ın Rusiya Federasiyasındakı səfiri Aleksandr Verşbou da öz kədərini bildirmək üçün buraya gəlmişdir. Amerika səfiri Prezident Heydər Əliyevin portreti önünə əklil qoymuş, Matəm kitabına ürək sözlərini yazmışdır. O, Amerika xalqı adından Azərbaycana başsağlığı vermiş və dövlətimizin müstəqilliyinin möhkəmlənməsində, habelə ölkələrimiz arasında strateji tərəfdaşlıq münasibətlərinin yaradılmasında müdrik siyasətçi kimi Heydər Əliyevin müstəsna rolunu vurğulamışdır.

ABŞ səfiri burada toplaşan jurnalistlərə demişdir: ”Bu, hamımız üçün böyük itkidir, çünki Prezident Heydər Əliyev Azərbaycanda dövlətçiliyin çox möhkəm və davamlı bünövrəsini qoymuşdur. ABŞ ölkələrimiz arasında ikitərəfli əməkdaşlığın inkişaf etdirilməsinə bundan sonra da tərəfdar olacaqdır”.

Xatırladaq ki, müxtəlif ölkələrin və missiyaların Rusiyada akkreditə olunmuş 45 səfiri və başçısı bu matəm günlərində ölkəmizin Moskvadakı səfirliyinə gələrək başsağlığı vermişdir. Onların arasında MDB, Avropa Birliyi, Afrika və Latın Amerikası ölkələrinin, İsrailin diplomatik missiyalarının, NATO-nun regional təşkilatlarının və digər beynəlxalq qurumların nümayəndələri var idi.

**«AZƏRTAC». 19.12.03**

## Azərbaycan Respublikasının Ukraynadakı səfirliyində matəm mərasimi

Azərbaycanın Ukraynadakı səfirliyinə müxtəlif millətlərə, xalqlara, dinlərə və peşələrə mənsub insanlar gəlməkdə davam edir. Onlar Azərbaycanın ümummilli lideri Prezident Heydər Əliyevin nurlu xatirəsi qarşısında baş əyir, Matəm kitabında başsağlığı sözləri yazır, onun portreti önünə gül qoyurlar.

Ukraynanın ədliyyə naziri A.Lavrinoviç, əmək və sosial siyasət naziri M.Papiyev, təhsil və elm nazirinin müavinləri A.Qurji və S.Stoqni, mədəniyyət və incəsənət nazirinin müavini T.Koxan, SSRİ-nin təyyarəçi-kosmonavtı, Sovet İttifaqı Qəhrəmanı V.Jolobov, Kiyevin və bütün Rusiya-Ukraynanın patriarxı Filaret, ABŞ-ın Ukraynadakı səfiri Con Herbst, Qazaxıstanın müvəqqəti işlər vəkili E.Bulegenov, Ukrayna Milli Şurasının başçısı İ.Qolubeva, Ukraynanın xalq artisti M.Stefyuk diplomatik nümayəndəliyimizdə olmuşlar.

Xatırladaq ki, lap bu yaxınlarda Ukrayna operasının priması Mariya Stefyukun yubiley konsertində ona Prezident Heydər Əliyevin adından böyük gül dəstəsi təqdim edilmişdi. Bu, onun bağışladığı sonuncu gül dəstəsi idi.

**«AZƏRTAC». 19.12.03**

## Azərbaycan Respublikasının Fransadakı səfirliyində matəm mərasimi

Azərbaycan xalqının ümummilli lideri, müstəqil dövlətimizin qurucusu, dünyanın tanınmış siyasətçisi Prezident Heydər Əliyevin vəfatı ilə əlaqədar ölkəmizin Fransadakı səfirliyində vida mərasimi davam edir. AzərTAC-ın müxbiri xəbər verir ki, Fransa ictimaiyyətinin nümayəndələri, iş adamları, bu ölkədə akkreditə olunmuş Türkiyə, Rusiya, Hindistan, Avstriya, Polşa, Misir, Səudiyyə Ərəbistanı, Əfqanıstan, Vyetnam, Venesuela, Ukrayna, Pakistan, Birləşmiş Ərəb Əmirlikləri və onlarla digər ölkənin səfirləri və əməkdaşları, diasporun üzvləri və tələbələrimiz xalqımızın bu hüznlü günlərində səfirliyə gələrək, ağır itki ilə bağlı öz ürək sözlərini Matəm kitabına yazır, kədər hissi ilə başsağlığı verirlər.

Azərbaycanda Fransanın ilk səfiri olmuş Jan Perrən ömrünü ölkəmizin inkişafına həsr etmiş müdrik Prezident Heydər Əliyevin həyatda yoxluğunu ürək ağrısı və dərin kədər hissi ilə qeyd edir: “Bu gün Azərbaycan tarixinin bir səhifəsinin arxada qalmasına baxmayaraq, Heydər Əliyevin adı müstəqil və müasir Azərbaycanın əsasını qoymuş böyük dövlət xadimi kimi xatirimizdə daim yaşayacaqdır. Onun uzaqgörən və ağıllı siyasəti nəticəsində ölkədə hüquqi dövlət qurulmuş və demokratiya inkişaf etmişdir.

Ağır itki ilə əlaqədar dost Azərbaycan xalqına və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verir və onların ümumi kədərinə yaxından şərik oluram”.

Azərbaycan diasporunun ağsaqqalı, 86 yaşlı Qədir Süleyman isə Prezident Heydər Əliyevin əbədiyyətə qovuşması ilə əlaqədar keçirdiyi üzüntülü hisslərini belə bölüşür: “Xalqımızın böyük oğlu Heydər Əliyevin vəfatı xəbəri məni yamanca sarsıtdı. İndinin özündə belə bu müdhiş xəbərə, Azərbaycanın qüdrətli dövlətə çevrilməsində əvəzsiz xidmətləri olmuş Heydər Əliyevin yoxluğuna heç vəchlə inana bilmirəm.

İstər Fransada, istərsə də Azərbaycanda bir neçə dəfə görüşdüyüm bu fövqəlbəşər şəxsiyyət və müdrik dövlət başçısı məndə böyük təsir buraxmışdı. Mənə elə gəlirdi ki, çox güclü bu şəxsiyyət əbədiyaşardır, ölməzdir. Vətənin ağır anlarında ona dayaq olmuş, uçuruma yuvarlanmaqdan xilas etmiş Heydər Əliyev, həqiqətən də, özündən sonra qoyduğu amallarla ölməzlik zirvəsinə yüksəlibdir.

Bir rəhbər, bir başçı kimi xalqına göstərdiyi saysız-hesabsız xidmətlərindən birinə diqqəti çəkmək istəyirəm. Müxtəlif ölkələrdə vətən həsrəti ilə yaşayan bütün azərbaycanlıları Azərbaycan ətrafında sıx birləşdirdi və məhz onun şəxsi səyi, təşəbbüsü ilə 31 dekabr Dünya azərbaycanlılarının həmrəylik günü kimi tarixə düşdü. Ölməz rəhbərimizin ruhu daim şad olsun deyə, onun əməllərini əbədi yaşatmalı, doğma vətənimizin ətrafında daha da sıx birləşməli, onu göz bəbəyi tək qorumalıyıq.

Mən və Fransada yaşayan yüzlərlə soydaşımız xalqımıza üz vermiş ağır itki – sevimli rəhbərimizin dünyasını dəyişməsi ilə bağlı dərin kədər hissləri keçiririk. Allah ona qəni-qəni rəhmət eləsin, qəbri nurla dolsun”.

Səfirlikdə matəm mərasimi davam edir, xalqımızın böyük oğlunun xatirəsinə ehtiram əlaməti olaraq başsağlığı verməyə gələnlərin ardı-arası kəsilmir.

«AZƏRTAC». 18.12.03

**Azərbaycan diplomatı etimadnamələrini İtaliya Prezidentinə təqdim etmişdir**

Dekabrın 17-də İtaliya Respublikası Prezidentinin iqamətgahında Azərbaycanın bu ölkədəki səfiri Elmar Məmmədyarov etimadnamələrini Prezident Karlo Azelio Çiampiyə təqdim etmişdir.

Azərbaycanın Xarici İşlər Nazirliyindən AzərTAC-a bildirmişlər ki, Prezident Çiampi Azərbaycan diplomatını salamlayaraq, etimadnamələri qəbul etmiş və bu vəzifədə ona uğurlar arzulamışdır.

Sonra Prezident Çiampi Elmar Məmmədyarovla təkbətək söhbət etmişdir. Söhbətin əvvəlində Prezident Çiampi Prezident Heydər Əliyevin vəfatından kədərləndiyini bildirərək, Azərbaycanın ümummilli liderini dünyanın ən nüfuzlu siyasi xadimlərindən biri kimi tanıdığını və İtaliya ilə Azərbaycan arasında münasibətlərin qurulmasında və inkişaf etdirilməsində onun xüsusi rolunu diqqətə çatdırmışdır. Prezident Çiampi Prezident Heydər Əliyevin vəfatı ilə bağlı ölkəmizin başçısı İlham Əliyevə başsağlığını çatdırmağı xahiş edərək onun kədərinə şərik olduğunu bildirmişdir.

Prezident Çiampi əmin olduğunu bildirmişdir ki, Azərbaycanda iqtisadi inkişaf və firavanlıq üçün möhkəm təməl yaradılmışdır və Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin sülh yolu ilə həlli bu inkişafı daha da sürətləndirəcəkdir. Prezident Çiampi İtaliya-Azərbaycan münasibətlərinin dərinləşdirilməsi və yüksək səviyyəyə qaldırılmasında çox maraqlı olduğunu vurğulayaraq bu prosesdə İtaliya tərəfinin daha da fəal iştirak edəcəyini diqqətə çatdırmışdır.

Səfir Elmar Məmmədyarov Prezident Heydər Əliyevin vəfatı ilə bağlı verdiyi başsağlığına görə, Prezident Çiampiyə təşəkkürünü bildirmişdir. Azərbaycan diplomatı bildirmişdir ki, Prezident Heydər Əliyevin siyasəti sayəsində Azərbaycan Avropa institutlarına inteqrasiya istiqamətində uğurlu addımlar atmışdır və bu siyasətin nəticəsi olaraq Avropa evinin bir hissəsinə çevrilən Azərbaycanda təhlükəsizliyin təmin olunması və Ermənistan-Azərbaycan münaqişəsinin nizama salınması Avropanın ümumi təhlükəsizliyi üçün böyük əhəmiyyət kəsb edir. Bu səbəbdən də Azərbaycan diplomatı İtaliyanın Ermənistan-Azərbaycan münaqişəsinin sülh yolu ilə nizamlanması üçün fəaliyyətinə toxundu və bu istiqamətdə İtaliya tərəfinin təkliflərinin heç bir nəticə vermədiyini təəssüflə qeyd edərək, münaqişənin hələ də regional əməkdaşlıq və inkişafa ciddi əngəl olduğunu vurğulamışdır.

Azərbaycan diplomatı respublikamızla İtaliya arasında ikitərəfli iqtisadi əməkdaşlığa dair məsələlərə toxunaraq, İtaliya şirkətlərinin Azərbaycanın enerji sektorundakı fəaliyyətini qeyd etmiş və Prezident Çiampinin bu mövzuya dair sualına cavab olaraq Xəzər regionundakı enerji layihələri və bu layihələrdə Azərbaycanın əhəmiyyəti, xüsusilə də Bakı-Tbilisi-Ceyhan əsas ixrac boru kəməri layihəsi barədə məlumat

vermişdir. Həmçinin səfir bildirmişdir ki, Azərbaycanda son illər həyata keçirilmiş əsaslı islahatlar bütün sahələrə, xüsusilə də qeyri-neft sektoruna sərmayələrin qoyulması üçün əlverişli şərait yaratmışdır və ümid edirik ki, bu imkanlar İtaliya şirkətinin Azərbaycana marağının artmasına və nəticədə Azərbaycan və İtaliya arasında iqtisadi əlaqələrin daha da genişləndirilməsinə və dərinləşdirilməsinə böyük perspektivlər açacaqdır.
Fürsətdən istifadə edən səfir Prezident Çiampiyə Azərbaycan Prezidenti İlham Əliyevin məktubunu çatdırmışdır. Məktubla yaxından tanış olandan sonra Prezident Çiampi Prezident İlham Əliyevin onu Azərbaycana rəsmi səfərə dəvət etməsinə xüsusi toxunaraq, bu dəvətə görə ölkəmizin rəhbərinə təşəkkür etmiş və imkan daxilində bu səfərin həyata keçirilməsinə çalışacağını vurğulamışdır.

«AZƏRTAC». 23.12.03

# *MƏQALƏLƏR*



***FARIDA MAMMADOVA***
***Corresponding member of***
***National Academy of Science of the Republic of Azerbaijan. Doctor of History***

Fərİdə Məmmədova «Qafqaz Albaniyasında Xristianlıq», Bakı-2003

## *CHRISTIANITY IN CAUCASIAN ALBANIA*

Ancient Caucasus, cradle of civilizations created by autochthonous peoples, embodied rich classical and early medieval culture of antique Caucasian Albania, the state of historical Azerbaijan.
The period of the blossoming forth of Caucasian Albania (4 century B.C. 8 century A.D.) is a superlative chapter in the history of North Azerbaijan, successor of all state formations on its territory. Albanians were among ancestors of Azerbaijan people, as well as some peoples of Caucasus.
Azerbaijan is the country with all the religious systems available Zoroastrianism (fire-worship), Judaism, Christianity, Islam. It is no mere coincidence that the oldest Caucasian and the world's earliest Albanian apostolic independent church was located in Azerbaijan.

Albania was among countries with the first Christian communities arising long before the 4 century, prior to the formation of Christianity as state religion. As viewed by the Albanian tradition, the first Christian missionaries, apostles and their disciples from Jerusalem, Syria penetrated into Albania earlier first centuries A.D., when the first Christian communities sprang up.[1] Contributing to the formation of Christianity had been ancient Jewish settlements long before the 1 century A.D. spread in Albania together with Nazareans and Christians-Israelites, operating on the territory of Albania in the reviewed period. This was the name of the first Christians, while the term "Christian" proper came up much later in Antioch, Syria. Nazareans were Israelites who revered Christ as a fair man, i.e. ignoring him as the Son of God. All the Scripts emphasized the earliest tradition of Christians-Israelites (Nazareans) concerning Jesus Christ as a pious man which after he had been baptized (christened) adopted divine strength in the Holy Spirit. Later on, this ancient tradition was reinterpreted, and the divine destination of Jesus was accounted for not by baptism (christening), but by birth proper. It is thought that Nazareanism existed until the 4 century[2].

As far back as hi 1987,1 pointed out that Tats of Azerbaijan have been offspring of the lost Jewish tribe. My standpoint found its parallel in the reports of various sources on the resettlement of Jews Israelites, experts in lofty crafts, by Persian kings (Ahamanides, Parthians, Sasanides) in Persia, Caucasus, Albania and particularly Caucasian coast. An eloquent testimony to the fact is an anthropological type of mountain Jews, their ethnic purity which came as a result of following intra-ethnic marriages, the fact that radically distinguished them from European Jews and contributed to their biblical appearance. Persuading me to think so was the loyalty to Judaism among a part of mountain Jews. This fact is of no small importance, when adjusted for reserved disposition and caste nature of Judaic religion. Sharing my view were Acad. Z.M.Buniyatov and Correspondent de L'Academie of France M. Mark Philonenko. Then I discovered in Absheron, together with Tats mountain Jews, Nazareans as well. Note that Jewish names in Buzovna epigraphic, accompanied by a word "Nazarean" and the "settlement of Nazareans" in Buzovna[3], as well as permanent residence of mountain Jews in Absheron are indicative that in the past the earliest Jewish Christian community of Nazareans did exist in the region. Scores of them had subsequently been conversed into Islam. And finally, the Albanian author reports on "Christians, Israelites and Pagans" (Kalankatuiskiy, II, 10), who lived in the capital of Albania town of Barda in the 7 century. Analyzing the history of the settlement of

[1] Mamedova F. Political history and historical geography of Caucasian Albania. Baku, 1986, p.217-237

[2] Talberg N. History of Christian church. Moscow-New-York, 1991, p. 55; Guran. Transtation of meaning and commentaries of Valeria Prokhorova. Third edition, notes Nazorei (33), p. 636

[3] Neymatova M. Collection of epigraphic monuments of Azerbaijan. Baku, 1991, p.49, 50; Mamedova R On the history of Christianity in Caucasian Albania/See: The history of Caucasus. Scientific public Almanac. Baku, '2, June, 2002, p.11-12.

mountain Jews in Azerbaijan, the latest numerous studies focus on the fact that modem Tats Israelites are descendants of ancient Jews who moved to Caucasus as far back as under Ahemenides[4].

The Albanian tradition singles out two periods in the Christianity dissemination in the region. The first, so called apostolic period is associated with the names of Apostles Thaddeus, Bartholomew and disciples of Apostle Thaddeus Mar and Elise (Dadi). This period is conventionally titled as Syrophile period which dates back by the period prior to the 4 century when Christianity was preached in the Syrian Aramaic language both by Apostles, their disciples and Syrian missionaries and Nazareans. Syrians traveled far away from Mesopotamia, Iran, visited Caucasian countries Georgia and Albania. Engaged in trade activities, Syrians thus championed new trends, contributed to the spreading of Christian teaching.

The second period (Greekophile) in the Christianity preaching goes back to Gregory the Enlightener (Parthian) and Albanian king Urnair (4 century), when Christianity had turned into the state religion[5]. It should be noted that the Greekophile period was brief, the Albanian

church embarked on the path of ethnic Albanian development, including the formation of Albanian literature. The two periods Syrophile and Greekophile are mirrored in the work by Moses Kalankatuiskiy, Albanian author of the 8 century, who reported on inscriptions in Syrian and Greek in Albania.

Unlike the Armenian church, the Albanian one was, by its origin, related primarily to Jerusalem and Jerusalem church and patriarchy. In this respect, the Albanian church is identical to the Georgian one, whose sources go back to the Jerusalem church as well[6].

It has to be kept in mind that the formation of the Albanian church is closely attributed to the history of eastern Christianity with its own distinctive features available. Worthy of notice is the fact that two periods are typical for church hierarchy: first - apostolic and second - the one that followed the declaration of Christianity as the state religion hi the 4 century. The early apostolic period in the formation of Christian structure is clearly traced back in Caucasian Albania where Apostle Thaddeus' disciple Elise and Apostle Bartholomew were engaged in championing Christianity. Moses Kalankatuiskiy points out: "We, residents of the East, welcomed saint apostle Taddeus who had first arrived in Armenia and was martyred there from king of Armenia Sanatruk" (Kalankatuiskiy, I, 6). Further, the Albanian historian adds that apostle Thaddeus' disciple Elise (Mar) came back to Jerusalem, was ordained by Saint Jacob, Lord's brother, first patriarch of Jerusalem. Elise was granted the East (Kalankatuiskiy, I, 6). Under the East is meant, like many other cases, Albania. Research into Kalankatuiskiy's notions "East", "eastern country", "north-east" make us believe that Albania, Albanian country

---

[4] Bekker M. Jews of Azerbaijan: history and contemporaneity. Baku, 2000, p. 16

[5] Marnedova F. Albanian Catholicosate and Albanian Arshakides. In: Clergy and political life in the Near and Middle East in the period of feudalism. Moscow, 1985

[6] Kekelidze K.S. On Jerusalem origin of the Georgian church Peterburg, 1914

is meant under these notions in the meaning of "eastern extremity", "eastern limit" of Christian world with respect to Jerusalem.[7]

According to the Albanian tradition, Elise, disciple of Apostle Thaddeus, came out of Jerusalem, made his way for Persia, passing by Armenia (located in Asia minor P.M.), enlightened three countries Chola, Lpinia and Albania (Kalankatuiskiy, III, 23). "Saint patriarch Elise arrived in Gish, founded a church there, made a bloodless sacrifice. This place is an initial source of our churches, residents of the East, source of pioneer towns and the beginning of enlightenment" (Kalankatuiskiy, I, 6). The same idea is found in another chapter (Kalankatuiskiy, II, 43): "Saint Elise preached in Albania, built a church there, earlier than in Armenia, in the village of Gish, and this church was mother of eastern churches", i.e. metropoly. A conventional date of sermonizing activity of Elise in Albania falls on 51-62.[8]

According to another Albanian historian of the 13 century Stepannos Orbeli, Apostle Bartholomew laid the foundations of Christianity in Albania. He crossed river Arax, entered Syunik (region of Albania), began preaching, then built a church in Gokhtna (Ordubad). The same source reports: "it is essential to note that residents of Syunik, earlier than the population of Armenia, proved to be the first believers and through Saint Apostle Bartholomew adopted the teaching of Holy Gospel... Saint Apostle Bartholomew returned from Persia, and came with his disciples via Atrpatakan (Atropatena) and crossing river Arax, arrived in the boundaries of Sisakan (Syunik F.M.), started preaching in the village of Ordubad, region Arevik... and in Gohtna, ""here everybody adopted evangelical sermon and was baptized (christened) with the help of Saint Apostle Bartholomew" (Steppannos Orbeli. The history of Sisakan, V).

It should be noted that Saint Apostle Bartolomew was one of 12 Apostles of Christ. After India, Bartholomew wended his way to Caucasian Albania where succeeded to converse the local king and his family and residents of many towns into Christianity. However, incited by priests, king's brother ordered to seize saint Apostle in the town of Alban (or Albanapol present Baku) and crucified him on the cross with his head down, he died Apostle Bartholomew in 71.[9]

Thus, the apostolic period in the history of Albania was notable for the developed episcopacy, metropoly and sermon of Christianity by Apostle Bartholomew and his successor Elise, the first bishop and arch bishop of Albania who founded the first bishop cathedral in Gish. Note that the church has survived hitherto.

---

[7] Mamedova F. Interpretation of new additional chapters of Paris list of "History of Albanians" by Moses Kalankatuiskiy in the light of epigraphic data of Gandzasar temple/ Theses of reports to the All-Union scientific session "Urgent problems of study and creation of written historical sources". Tbilisi, 1982, p.38-39.

[8] Kananchev Z. On the history of apostolic period of Christianity in Caucasian Albania/ See: The history of Caucasus. Scientific public Almanac. Baku, '2, p.61.

[9] Life and hardships of saint apostle Bartholomew. Edition of cathedral of Our Lady Christmas. Baku.

Today Azerbaijan researchers, jointly with Norwegian ones, are engaged in archaeological excavations, reconstruction of the world's unique apostolic church of the 1 century A.D., (a starting place for Christian cult of future church). It is tolerance of the Azerbaijan population, arising from polyethnicity, polytheism and related respect for any cults and confessions that helped preserve the church. It should be remembered that Albanians are one of the ancestors of Azerbaijan people and direct predecessors of Udins. Note that the foundation of Christianity in Georgia was laid by Apostle Andrew. The first apostolic period was notable for the establishment of the first Albanian church -so called "mother of churches" in Gish (left-bank Albania), the second period was characterized by the foundation of church in Amaras (right-bank Albania) by Gregory the Enlightener (Kalankatuiskiy, 1,14).

In the 4 century, development of Christianity in the Eastern Roman Empire, Caucasus, Georgia, Albania (Albanian King Umair recognized it as state religion of the country) had proceeded against the background of polytheism: paganism, tangrianism, Zoroastrianism, Judaism. Albania began transforming into Christian state. Worthy of notice is the fact that the ideology of Christianity was introduced both by Albanian kings of Arshakides and later, by their successors Grand Dukes Mihranides, who made efforts to unite and consolidate the ethnic diversity and thus get rid of polytheism on the basis of unified creed.

Regard must be paid to the fact that Albanian kings and Grand Dukes, despite their Persian origin and kinship with Persian kings, followed an independent policy when adjusted for strategic position of Albania (Caucasian Derbent passages, through which nomads, threatening Roman and Persian Empires, perpetually infiltrated). For this to happen, it was essential to profess unified ideology belief within the bounds of the whole country to thus oppose Zoroastrianism-Mazdeism of Persia. That was the only means to preserve both the statehood and originality of Albania.

In other words, by the 4 century, i.e. the period of Christianity formation as state, the church structure had already formed (except for the position of patriarch).[10]

